DURSUN

Kiçik və yoxsul daxmasının səkisi üzərində orta boylu, sağlam, yaşlı bir adam oturmuşdu. İri dəri papağını qaşlarının üstünə çəkərək düşünürdü. Ətrafı dərin cizgilərlə dolu kiçik, parlaq gözlərində, qarışıq boz bığları altındakı iri, qalın dodaqlarında, uzun ətli üzündə sevinc qığılcımları oynaşırdı; çünki bir az əvvəl bostandan ilk bəhrə olaraq iki araba qovun-qarpız dərib hazırlamışdı. Verdiyi vədəyə görə bu gün ortağı yaylaqdan gələcək, bu qovun-qarpızları şəhərə aparıb satdıqdan sonra o, yaylağa gedəcəkdi. Onu ən çox sevindirən yaylaq məsələsi idi. Orada Güllü ilə görüşəcək, dəli təbiətin şən qucağında onunla bərabər yaşayacaq idi. O birdən-birə başını qaldırdı. Alnının tərini arxalığının tərsi ilə silərək, məmnun olmadığını göstərən bir səslə öz-özünə söyləməyə başladı:

– Of, istidən bişdik; bu yaramaz oğlu yaramaz da gəlib çıxmır ki... Gəlsəydi, mən də bir beş-on günlüyə yaylağa gedib, Güllümə qovuşardım, – dedi.

Bu düşüncə onun əsəblərinə bir ildırım kimi toxundu. Bütün vücudu titrədi. O yenə ikiqat əyilərək, başı əlləri içində düşünməyə başladı.

İyul ayına məxsus boğanaqlı bir gün idi. Günəş səmanın ortalarına doğru yüksələrək, qızğın şüalarını yer üzünə səpməkdə davam edirdi. Sanki şəffaf bir duman üfüqləri və mavi fəzanı mis rənginə çevirmişdi. Ağacların, divarların qısa kölgələri ərimiş filiz kimi donub qalmışdı. Havanın ağırlığından adamlar boğulmaq dərəcəsinə gəlirdilər.

İki ay əvvəl bu kənddə həyat qaynaşırdı: yaylağa köçməkdə olan köçərilərin şən və kəskin səsləri, qoyunların mələşməsi, mal-qaranın böyürtüsü, atların kişnəməsi, itlərin hürüşməsi, arabaların cırıltısı, şən uşaqların bağırtısı indi səssizlikdən irəli gələn bir hüznlə əvəz edilmişdi.

Yalnız günəşin şəfəqlərindən gümüş kimi par-par parlayaraq axan dərədəki çayın qıjıltısı, istidən yarpaqlar arasına sığınmış quşların civiltisi sükutu pozurdu. Bu bürkü, bu səssizlik qocanın dalğınlığını bir qat da artırırdı.

Birdən-birə yol ağzındakı ağacın arxasından "Dursun, Dursun!" deyə gələn bağırtı onu ayıltdı. O, sürətlə yerindən sıçrayıb, iti addımlarla irəliləyərək, qalın bir səslə:

– Aslan, Aslan, gəl, burdayam, – dedi.

Yaxınlaşıb görüşdülər. Dursun mühüm bir xəbər eşitmək istəyənlərə məxsus bir halda:

– Nə var, nə yox? – deyə soruşdu.

Aslan başını oynadaraq:

– Salamatlıqdır, hamısının sənə salamı var, – dedi.

Aslanın verdiyi rəsmi məlumat onu kifayətləndirmədi. Onu hər şeydən çox bir məsələ maraqlandırırdı. Dursun bu haqda sual verməyə hazırlaşırkən, Aslan əlavə etdi:

– Ballı tapşırdı ki, "Səfərdən məktub gəlsə, tez göndərsin, saxlamasın!"

Bu sözdən hər ikisi bir saniyə susdu. Aslan yenidən sözə başladı:

– Yazıq arvad, Səfər, Səfər, – deyə gecə-gündüz ağlayır. O, sürgün ediləli üzü güldüyünü görməmişəm.

Bu xəbər Dursunun üzərinə qara bulud kimi çökdü. İri, qarışıq, boz qaşları ta kirpiklərinin ucuna qədər əyildi. Uzunca, ətli üzündəki cizgilər bir qat da çoxaldı. Əllərini hiddətlə bir-birinə çırparaq:

– Bu heyvan qızı onu yenə qaçıracaq! – dedi.

Aslan bu sözdən bir şey anlamadı:

– Kimi qaçıracaq?

– Onu...

– O kimdir ki?

– Güllünü deyirəm, Güllünü! Başa sal görüm bu zırıltılara Güllü nə deyir?

– Heç bir şey. Onun Araz aşığındandır, Kür topuğundan. Evdə tapılmır. Dəli keçi kimi vaxtını dayısı evində, qonum-qonşuda keçirir.

Bu söz Dursunu həyəcanlandırdı. O, başını köksünə dikərək, düşünməyə başladı. Birdən-birə başını qaldırıb:

– Mən ona tapşırdım ki, Güllünü gözdən qoymasın, ondan göz-qulaq olsun; indi sən deyirsən gecə-gündüz gəzir. Yenə mənim başıma bir iş gətirməsə yaxşıdır.

Aslan acı-acı gülümsəyərək:

– Ondan fayda yoxdur. Gec-tez bir iş çıxarmamış olmayacaq, – dedi.

Dursun acığından bığlarını gəmirirdi. Birdən-birə qəti və kəskin səslə:

– Sən get qovun-qarpızı arabalara yüklə, şəhərə göndər, – dedi, – mən də bilet alıb yola düşürəm.

Aslan cavab vermədən getdi. Dursun onun arxasınca bağırdı:

– Gədələrə tapşır ki, arabaları tez sürsünlər, yubanmasınlar. Onları karvansarada gözləyirəm...

* * *

Dursun Borçalı qəzasında Candarlı Pirverdinin ilk övladı idi. Pirverdi ağır təbiətli, çalışqan olmaqla bərabər son dərəcə pulpərəst və xəsis bir adam idi. Atasından qalma tarlanı bostana çevirib, hər il qovun-qarpız və başqa göyərti əkdirirdi. Arvadı Gülsənəm vəfat edəndə oğlu Dursunun on üç yaşı var idi. Pirverdi bir daha evlənmədi. Bütün ömrünü Dursunu böyütməyə, işə alışdırmağa və həyata qarşı olan görüşünü ona öyrətməyə sərf etdi. Atası hər gün onu özü ilə bərabər bostana gətirir, rəncbərlərlə birlikdə işlədirdi. Bir az tənbəllik gördükdə:

– İşlə, oğlum, işlə! İşləməyən dişləməz, – deyirdi.

Kiçik Dursun həvəslə atasının işlərinə qarışıb, ona kömək edirdi. Pirverdi yeni, çalışqan köməkçisi olduğuna çox şad idi. O, Dursundan özü kimi bir adam yetişdirmək istəyirdi. Uşağı doyunca yedirmir, istədiyi kimi geyindirmirdi. Daima bir qarnı ac, bir qarnı tox saxlayırdı. Dursun ayaqlarında yırtıq çarığı sürüyə-sürüyə bütün ili yamaqlı, qara arxalıq içində keçinirdi. O, Dursuna bayramdan-bayrama çust və arxalıq alırdı. Onu da balaca Dursunun gözünə soxaraq:

– Bax, bunlara bir ətək pul vermişəm. Pul ki var, can yonqarıdır. Onu qazanmaq, görürsən ki, nə qədər çətindir. Bir qəpiyi qazanınca adamın canı çıxır, – deyərdi.

Dursuna verdiyi bu tərbiyə ilə öz fikrincə, o, böyük bir siyasət işlədirdi. Bütün bu sözləri, bu hərəkətləri ilə Dursunu qənaətkarlığa və pulpərəstliyə alışdırmaq istəyirdi.

Pirverdi qənaətkarlıqla xəsisliyi bir-birindən ayırmırdı. Ona görə də verdiyi tərbiyə uşaq üzərində mənfi təsir buraxırdı. Kənddə, bostanda yaxından tanıyanlar Dursuna istehza ilə:

– A bala, atanın pulu az düşüb? Tək oğlansan, səni də istədiyi kimi yedirib geydirə bilmir? O nə çarıqdır geyirsən? Ayaqlarını daş-kəsək parçalayır. Səndən kasıb uşaqların üst-başlarına bax! Ondan sənə ata olmaz. Yazıq Gülsənəm acından, fikirdən vərəmlədi, – deyirdilər.

Hər zaman danışılan bu sözlərin də uşağa ayrıca təsiri olurdu. Böyüdükcə, mühakimə qüvvəsi inkişaf etdikcə atasının sözləri ilə həyatda gördüklərini qarşılaşdırır, Pirverdini haqsız görürdü.

Aylar, illər keçdi. Dursun böyüdü, cavan bir oğlan oldu. Gündüzlər bostanda çalışır, gecələri də kənddə yoldaşları ilə bərabər keçirirdi. İşsizlikdən sıxıldıqları zaman arabir yaxın kəndə qoyun oğurluğuna da gedərdilər. Dursun əvvəlləri bu kimi işlərə qarışmaq istəməmişdi, ancaq

yoldaşlarının təkidi və ağır tənələri ucundan sıradan qalmağı öz mənliyinə sığışdırmamışdı. Yaxşı ki, bu qorxulu səfərlər uzun sürmədi.

Bir gün yataqdan bir qoç aparmaq istədikləri zaman itlər xəbər tutmuş, çoban oyanmış və atəş açmışdı. Dursunla yoldaşları bu təhlükədən zor-güc qurtula bilmişdilər. Bu hadisədən sonra, o bir daha qorxulu işlərdə iştirak etmədi.

Dursun yaşa dolduqca əyyaş, ürəyiaçıq və xudpəsənd bir gənc olaraq yetişirdi. Ancaq çalışqanlığı da var idi. Öhdəsinə düşən işləri qeyrətlə icra edirdi. Pirverdi oğluna verdiyi dərslərin bir qisminin boşa çıxdığını görüncə dərindən içini çəkərək:

– Heyf zəhmətlərimə! Mənə oxşamadın, südünə çəkdin, – deyirdi.

Dursunun gəncliyinin ən azğın çağında atası Pirverdi bütün sərvətini ona buraxıb, həyata vida etdi. Dursun atasının vəfatından sonra əyyaşlığa daha çox meyl etdi. Qohum-qardaşın sözünü saymayaraq, atasının qəpik-qəpik toplamış olduğu pulu ovuc-ovuc, ətək-ətək dağıtmağa başladı. Lakin bu hal uzun sürmədi. Dayısı zor-güc onu bu yoldan çəkindirməyə müvəffəq oldu.

Dursunun azğın yollardan çəkilməsinin başlıca səbəblərindən biri də onun Ballı adlı bir qıza səmimi olaraq vurulması oldu. Dəfələrlə bulaq başında onunla görüşmüş, sevişmiş və ondan ilqar almışdı. Onun bütün fikri Ballıya evlənmək, onunla şən və bəxtiyar bir ailə həyatı qurmaqdan ibarət idi. Gecələrini, gündüzlərini bu dadlı xülyalarla keçirir, bu həsrət onun gənc qəlbini gəmirirdi. Artıq səbir və taqəti qalmamışdı. Nəhayət, bu sirri dayısı arvadı Reyhana açdı. Reyhan onun fikrini bəyənmiş və bu xüsusda bütün qüvvətini sərf edərək, yaxın zamanda işi düzəltməyə böyük ümidlər vermişdi.

Bir gün kənddə toy var idi. Gənc qızlar və oğlanlar o günə çoxdan hazırlanmış, böyük bir maraq və intizar içində toyu qarşılamışdılar. Qocalar otağa toplanaraq, iki aşığın deyişməsini dinləyir, gənclər də həyətdə rəqs havaları çalan zurna-qavala tamaşa edirdilər. Qızlar bir sıraya, oğlanlar da bir sıraya düzülmüşdü. Dursun bu sıradan heç qalardımı?

O da Ballı ilə üz-üzə, qarşı-qarşıya durmuş, oyunda iştirak edirdi. Oğlanlar istədikləri qızı dəvət edərək, bərabər oynayırdılar. Dursun artıq dayanmadı. Yeni rəqs havası başlar-başlamaz ortalığa atıldı; bir-iki qol atdıqdan sonra Ballının qarşısında durub, onu oyuna dəvət etdi. Ballı qalxdı. Bərabər iki dövrə vurduqdan sonra Dursun yerinə çəkilib, ona əl çalmağa başladı. Ballı bir dağ pərisi kimi qollarını oynadaraq

rəqs edirdi. Dursunun səbri kəsilmişdi. Sevgi və istək əlaməti olaraq, cibində saxlamış olduğu almanı çıxarıb Ballıya atdı.

Hər tərəfdən: "Mübarək, mübarək!" – deyə alqış səsləri ucaldı.

Ballı utanaraq, özünü qızların arasına atıb gizləndi.

Dursun bir həftə sonra dayısı arvadı Reyhanı elçi göndərdi. Ballının anası Reyhanı hörmətlə qəbul etdi, yuxarı başda oturtdu. Ballıya gözü ilə işarə etdi. Ballı otağın içində quş kimi süzərək, çay tədarükü görməyə başladı. İki quda məhəbbətlə danışdılar. Çay içərkən Reyhan məsələni açdı. Ballının anası özünün heç bir etirazı olmadığını, qızın atasının da razılığını aldıqdan sonra qəti cavab verəcəyini söylədi. Reyhan evə döndükdən sonra Dursunu sevindirmiş, "İşin düzəlibdir" – deyə ona böyük ümidlər vermişdi.

Qəti cavab almaq üçün qız evinə Reyhan yenə getmiş, ancaq bu dəfə lap peşman qayıtmışdı, çünki qıza ağır başlıq istəmişdilər. Reyhan: "Bu başlıq rədd etməkdir" – deyə razı olmayıb qayıtmışdı.

Bu xəbər Dursuna çox pis təsir etdi, acığından dil-dodağını gəmirməyə başladı. Həyəcanı azaldıqdan sonra istənilən başlığa razı olmaq istədi. Reyhan əlini yerə çırparaq: "Mən razı döyüləm" – deyə bağırdı. Dursun bir an düşündü, sonra başını qaldırıb Reyhana:

– Sən bir də get, başlığın yarıya endirilməsini təklif et! – dedi.

Reyhan əvvəlcə yarıya da razı olmadı. Dursun onu bir təhər razı saldı. İki gün sonra Reyhan yenə qız evinə getmiş, ancaq "sözümüz sözdür" deyə rədd cavabı almışdı.

Dursun bu xəbərdən büsbütün dəli olmuşdu. O, indi həm sevgilisi Ballıya qovuşmaq, həm də onun valideynini ağır bir zərbə endirmək çarəsini düşünürdü. Birdən-birə əlini-əlinə vuraraq:

– Götürüb qaçacağam, – dedi.

Reyhan qəhqəhə ilə güldü. Dursun bu qəhqəhədən çox pozularaq:

– Niyə gülürsən? – dedi.

Reyhan onun pozulduğunu hiss edərək:

– Bacara bilsən ən yaxşısı budur, – dedi.

– Bacararam, bu həmişə gördüyümüz işdir. Səlimə, İmana, Əsədə qız götürüb qaçanlardan biri də mənəm, – dedi.

Üç gün sonra Dursun yoldaşlarının köməyi ilə Ballını götürüb qaçmış və sevgilisinə qovuşmuşdu. Dursun evləndikdən sonra köhnə adətlərindən əl çəkib, ağlını başına toplayaraq, atasının sənətini işlətməklə keçinirdi. Ballını daha xoş, daha rahat yaşatmaq üçün ciddi çalışır və hər cür zəhmətə qatlaşırdı.

Çalışmamaq mümkünmü idi? O artıq ata olmuş, ətrafında bir yığın uşaq dolaşmağa başlamışdı...

Dursunun ailəsi böyüdükcə işi və zəhməti də çoxalırdı. Arabir dörd-beş yaşındakı oğlu Səfərə:

– A quzu, tez ol, böyü, atana kömək elə, – deyirdi. Dursun onun bostanda, bağda gecə-gündüz çalışdığını görür, gələcəyə böyük ümidlər bəsləyirdi. Buna onun haqqı da var idi. Axı o bu uzun müddətdə atalıq vəzifəsini bacardıqca yerinə yetirmiş, ailəsini sevmiş, ailə üzvlərinin həyat və rahatlığını təmin etməkdə heç bir şeydən çəkinməmişdi. O indi artıq qocaldığından saçı, saqqalı ağarmış, çalışmaq qabiliyyətini xeyli itirmiş olduğundan ağır işləri oğlu Səfərə buraxmış, özü bir az istirahətə başlamışdı.

Səfər orta boylu, sağlam və ciddi bir gənc idi. Geniş alnı, dik, açıq qaşları altında qürurla parlayan iti gözləri, qartal burnu, düşüncəli və ciddi siması onun təbiətinin birər aynası idi. O, haqsız, əxlaqsız işlərdən qaçar, hər kəslə quzu kimi mülayim keçinməyə çalışar, ancaq izzətinəfsinə toxunuldumu, artıq nə edəcəyini düşünməz, qızmış bir aslan kimi coşar, kəskin və heybətli səsi ilə ətrafı sarsıdardı. Çox düşünər, az gülər və ailə içərisində hər kəsdən artıq anası Ballını sevərdi. Ballı da ona baxdıqca: "Boyuna anan qurban" – deyə köksü qabarar və fərəhlənərdi.

Səfərin evlənmək zamanı yetişmiş olduğundan, ata-anası onu evləndirməyə qərar vermiş və Qaracalar kəndində Zəhra adlı bir qızı ona nişanlamışdılar. Səfər bir neçə dəfə qiymətli hədiyyələrlə nişanlısını görməyə getmiş, onunla görüşmüş və sevişmişdi. Hər iki gənc toyun tezliklə başa gəlməsini intizar içində gözləyirdi. Ballı gəlini Zəhranı tərif etməkdən yorulmurdu. Bu hadisə qoca Dursuna keçmişlərini xatırlatmışdı. O, bulaq başında ilk dəfə Ballı ilə görüşdüklərini, sevişdiklərini, daha sonra onu bacadan çıxarıb qaçırtdıqlarını, o bəxtiyar günləri xəyalında canlandırmış, "Ah cavanlıq, cavanlıq!" – deyə inləmişdi.

Dursun mühüm bir iş üçün Qaracalara getmişdi. İşini bitirib dönərkən, qapı ağzında yoldaşı ilə şux bir əda və hərəkətlərlə danışan oynaq bir qız gördü. Onun gərgin damarında sönük bir hərarət oynadı. Anlaşılmaz bir qüvvə onu ixtiyarsız olaraq dayandırdı. Qız laqeyd quş baxışı ilə Dursunu süzərək, yenə sözündə davam etdi. Onun kəskin və iti baxışları qocanın qəlbinə ox kimi keçdi. Yenə gəncliyini xatırlayıb, köksünü biixtiyar soyuq bir ah oynatdı. Oradan kəndə döndü. Bir həftə

acı düşüncə və xəyallar içində sərsəm kimi dolaşdı. Dərdini kimsəyə açmadı. Dursun qıza ürəkdən vurulmuşdu. O çox çalışdı, "lənət şeytana" – deyə qızı unutmaq istədi, mümkün olmadı. O, iki yolayrıcında, tərəddüdlər içində üzülüb çırpınırdı. Oğlu Səfərin evlənmək məsələsi onun qarşısında çıxılmaz bir dağ, keçilməz bir uçurum kimi dururdu. Səfəri ayaqlayıb keçməyi, xeyir iş əsnasında ona əngəl olmağı atalıq heysiyyətinə sığışdırmırdı. Dursunu yoran, zehnini məşğul edən ən çətin məsələ bu idi. O yaşda, o şərait daxilində gənc bir qıza evlənməyə gəldikdə bu məsələyə o çox adi bir şey kimi baxırdı; çünki o birinci və sonuncu deyildi, yaşadığı yaxın kəndlərdə yüzlərlə nümunələr göstərə bilərdi. Xüsusən kənd mollası Səməd ondan yaşlı və ağır ailə sahibi olduğu halda keçən il cavan bir qıza evlənməmişdimi? Buna kim söz deyə bilərdi? Onu bu məsələ əsla qorxutmurdu. O yalnız qızın atası yaşda qocaya getməyə razı olmayacağından və ya qızın atası qızını ona verməyəcəyindən qorxurdu. Qızın ailəsini öyrənmək fikri ilə iki-üç dəfə Qaracalara getdi və hər dəfəsində təsadüfən qızı gördü. Onun və atasının adını öyrəndi. Bu gün Dursun çox pərt idi. Bilirdi ki, Kəblə Rəsul ona qız verməz, onu pul və başlıqla aldatmaq da olmaz. O, saatlarla başını köksünə dikərək düşünür, sonra başını qaldıraraq: "Ah, Güllü, ömrümə bir gün də qalsa, sən mənim olacaqsan!" – deyirdi. Artıq səbri bitmiş, taqəti tükənmişdi. Gecə-gündüz mahnı, bayatı ağzından düşmürdü. Arabir Ballı onunla əylənərək:

– A kişi hansı bəxtəvərə aşiq olmusan, gecə-gündüz aşıqlar kimi şikəstə oxumaqdan yorulmursan? – deyərdi.

Dursun cavabında:

Sorma o qız haralıdır,
Qəlbim ondan yaralıdır.
Güllü, çiçəkli dağların,
Ceyranıdır, maralıdır.

– şikəstəsini oxuyurdu.

Ballı gülərək:

– Gəlsənə sənə də elçi gedim? – deyirdi.

– Səndə o fərasət hanı?

– Utan, utan, eli bizə güldürərsən.

– El mənə gülüncə, mən elə gülərəm. Ağ at arpa yeməz? Gözəl bir qız almaq, qocalığın əl əsasıdır.

Bir gün o, kəndə yaxın bir çinar altında oturub, yenə həlledilməz xəyal və düşüncələrə dalmışdı. Birdən-birə çiyninə yapışan ağır bir əldən oyandı. Dönüb baxarkən qarşısındakı adam:

– Dursun dayı, nə var, nə fikir eləyirsən? – dedi.

Dursun heyrətlə ona baxaraq:

– Ay, sənsən, Nəbi, – deyə özünü doğrultdu.

– Mənəm, mən, de görüm nə fikir edirsən? Yoxsa Səfər səni incidir?

– Yox, onun mənimlə nə işi var.

– Görünür, Ballı xala daha sözünə baxmır, hə?

– O deyil, dərdim ayrıdır.

– Nədir?

– Heç!..

Nəbi Dursunun yanında oturdu. Əlini çiyninə qoyaraq:

– Canın üçün, Dursun dayı, deməsən əl çəkən deyiləm. Atamın ən yaxın dostlarındansan, əlimdən gəldiyi qədər sənə kömək edərəm, – dedi.

Nəbinin bu sözündən Dursunun gözləri parıldadı. Qəlbində ümid şöləsi yandı; çünki Nəbi kəndin ən igid, sözündə möhkəm, fədakar və ətraf kəndlərdə böyük şöhrət qazanmış gənclərindən idi. Dursun onun əlini əllərinə alaraq:

– Qardaş oğlu, – dedi, – sən bütün cavan günlərimi mənim yadıma saldın. Allah rəhmət eləsin, atan İsgəndərlə gözəl günlər keçirmişik. Eh, gözəl adamlar var idi... İskəndər Xanımanaya elçi göndərdi, vermədilər. Bir gecə ikimiz atlanıb getdik. O gecə qızın atası şəhərə getmişdi. Qapılarında sərt köpəklər olduğunu bilirdik. Qızı elə qaçırtdıq ki, heç köpəklər də sayıq düşmədi. Ona zərər yetirməsinlər deyə bir həftə yanından ayrılmadım. İndi, bax, maşallah, sənin kimi oğlu var. Əlbəttə, mənim dar günümdə sən kömək etməsən kim edər?

Bu sözləri Dursun elə məharətlə söylədi ki, Nəbi onun əlini sıxaraq:

– Dayı, sən ancaq de, ölüm də olsa bu yoldan dönmərəm, – dedi.

Dursun gülərək:

– Bəlkə getmədin? – dedi.

– O necə işdir ki, məni qorxutsun, sən hələ məni tanımamısan!

– Yaxşı tanıyıram, ancaq səndən söz almaq istəyirəm.

– Məncə artıqdır.

– Yox, səndən kişi sözü almamış demərəm.

– Bu söz nədir, dayı?

– İsgəndərin qəbrinə, bir də öz namusuna and iç ki, hər dərdin olsa, çarə edəcəyəm, ondan sonra sənə deyim.

Nəbi maraq içində öz-özünə düşündü: bu nə işdir ki, mənə bu qədər ağır and verir. Sonra üzünü Dursuna çevirərək:

– And olsun atamın qəbrinə, and olsun namusuma nə dərdin olsa, çarə edərəm, – dedi.

Dursun gülümsəyərək mənalı-mənalı onun üzünə baxdıqdan sonra:

– Nəbi, bilirsən nə var? Dursun dayın bir qıza aşiq olub, onu ya xoş, ya zorla mənə almalısan! – dedi.

Nəbi qulaqlarına inanmadı. Bu sözü ondan bir də eşitmək istədi:

– Dursun dayı, necə, necə?

Dursun təkrar söylədi. Nəbi heyrətlə gözlərini ona dikib qaldı. Dursun o heyrətli baxışlara qarşı qızarıb:

– Niyə baxırsan, nə olub? – deyə soruşdu.

Nəbi:

– Dursun dayı, bu heç olan işdir? Səfər kimi evlənməli oğlun var, – dedi.

– Səfər kimi oğlu olanlar evlənmir?

– Evlənir, faydası nədir? Hər fəslin bir vaxtı, hər vaxtın bir meyvəsi, hər meyvənin bir dadı var.

– Bu fəslin də bir meyvəsi, bir dadı var; sən bilmirsən!

– Sənin üçün dadlı olsa da, ailən üçün çox dadsızdır. Bilsəydim ki, siz bu iş üçün məndən kömək istəyirsiniz, onda mən nə söz verərdim, nə də and içərdim.

– Heç eybi yoxdur, söz verməmiş ol, bu günün cavanları tüpürdüyünü tez yalayır.

– Mən tüpürdüyünü yalayan cavanlardan deyiləm. Səfər bilsə, məndən inciyər. Onu qardaş kimi sevirəm.

– Nə deyib inciyəcək. O öz işində, mən öz işimdə.

– Qız kimlərdəndir?

– Qaracalarlı Kəblə Rəsulun qızı.

– Güllümü?

– Özüdür.

Nəbi istehzalı bir qəhqəhə qopardıqdan sonra:

– Dursun dayı, o sənə tay deyil! – dedi.

– Nə üçün tay deyil?

– Tay deyil. O qızı yaxşı tanıyıram. Səndə oturmaz.

– Qoy Dursun dayının əlinə düşsün, oturmasın.

Nəbi nə qədər nəsihət etdisə, Dursun qəbul etmədi. O, söz vermiş, namusuna and içmiş olduğuna çox peşman idi. Sözündən dönməyi isə mənliyinə sığışdıra bilmirdi. Nəhayət, Səfərdən gizlin saxlamaq şərti ilə qızı bərabər götürüb qaçmağa razı oldu. Üç gün sonra Dursun Güllünü qaçırıb, kənd mollasının evinə gətirmiş, zorla özünə arvad etmişdi.

* * *

Gözlənilməyən qonağın gəlməsi ailədə böyük bir qarışıqlıq doğurmuş, onun şən və bəxtiyar həyatını büsbütün pozub dağıtmışdı.

Dursun birinci gündən Güllüsünü özünə isindirmək, onu özünə ram etməkdən başqa bir şey düşünmürdü. Gecə-gündüz kölgə kimi onun yanından ayrılmırdı. Onun bir çox soyuq və uşaq hərəkətləri ailə üzvlərinin nifrətinə səbəb olur, aralarında olan əlaqə get-gedə gərginləşməyə başlayırdı. Xüsusən, Səfərin toyunun bu qədər təxirə düşüb qalması oğulun və Ballının qəlbində sağalmaz yaralar açmışdı.

Güllü də babası yaşında qocaya getməsindən şad deyildi. Dursunun hər bir hərəkət və rəftarı ona iyrənc görünürdü. Hər gün "of, bu qıllı meymundan yaxamı nə zaman qurtaracağam" – deyirdi. Bu düşüncə, bu arzu birinci gündən onda doğmuş, get-gedə böyüyüb şiddətlənməyə başlamışdı. Onu bir tərəfdən də Səfərin və Ballının dalğın nəzərləri sıxırdı. Evdə hər gün baş verən dedi-qodu və çarpışmalar onu yormuşdu. Dursun hər zaman Güllüsünü himayə edərək, onun xoşuna getsin deyə Ballıya və onun övladlarına xor baxmağa başlamışdı. Tez-tez onları səbəbsiz sancır, cəzalandırır və əsla xoş üz göstərmirdi. Hətta Güllü ilə dava edərkən Ballını bir neçə dəfə vurmuş, evdən çıxarıb qovmaq belə istəmişdi. Bu hərəkətlər Səfəri qılınc kimi doğrayırdı. Anasının yaşlı gözləri, hər gün haqsız cəzalanması ona hər şeyi, hətta nişanlısı Zəhranı belə unutdurmuşdu. Ailə həyatında baş vermiş bu pozuqluğa qarşı onun sərbəst ruhunda etiraz qığılcımları gündən-günə çoxalıb, yanğın şəklini almış, hər necə olursa olsun, bu rəzalətə birdəfəlik son qoymağı qət etmişdi.

Bir gün Güllü ilə Ballı arasında baş verən davaya Dursun da qarışdı. Hər zaman etdiyi kimi Güllünü bu dəfə də himayə edərək, Ballının üzərinə atılıb qırmaclarkən, Səfər artıq dayana bilmədi. Anasının göz yaşından, Güllünün məğrur duruşundan Səfərin başı dumanlandı. Birdən-birə Güllünün üzərinə atılıb onu döyməyə başladı. Sonra Güllünün harayına gələn atasının əllərini əlləri içində sıxaraq:

– Ata, hörmətini saxla deyirəm. Daha cana doymuşam. Bir gün bu yaramazı doğrayıb, qaçaqlığı boynuma alaram, – dedi.

Səfərin bu hərəkətindən sonra həm Dursun, həm də Güllü Ballını sancmaqdan çəkinirdi. Ballı yalnız hərdən oğlu Səfərə sarılıb: "O boybuxununa anan qurban, nə yaxşı sən varmışsan, yoxsa mənim halım nə olardı?" – deyərdi.

Bu hadisə Güllüyə çox pis təsir etmişdi. Nifrət etdiyi Dursundan, ona dərd, kədər verən, gənc qəlbini gəmirib çeynəyən o əzici zindandan qurtulmağa qərar vermişdi. Dursun Güllüsünü kədərli gördükcə dünya başına fırlanır, səbir və taqəti kəsilirdi. Arabir Güllünü oxşayaraq:

– Nə fikirdəsən, quzum? Bu evin sahibi sənsən, nə desən, o olacaq. Sən qəmlənmə! – deyirdi.

Güllü bu sözlərə əhəmiyyət verməyib, əli ilə Dursunu itələyərək:

– Çəkil, çəkil get! – deyə qəlbən ondan uzaq olduğu kimi cismən də uzaqlaşmağa çalışırdı. Onun evdə olması və hər cür hərəkəti Güllüyə cəhənnəm əzabından daha ağır görünürdü.

Dursun kənddə bəzi tanışlarla ara-sıra görüşməyi bir vəzifə sayırdı. Tanışlar ona:

– Ay Dursun, Güllü ilə necə keçinirsən? Deyirlər uşaqlarını yola vermir, rəftarı pisdir. Ehtiyatlı ol, bir gün qoşulub qaçar, papağını yerə soxar, – deyərdilər.

Dursun qürurla gülümsəyərək cavab verərdi:

– Nə qədər bu Dursun ölməyib, elə iş olmaz. Onu qaçırsa Səfərlə Ballı qaçıracaq. Yoxsa Allahın məzlumudur. Nə dili var, nə ağzı, heç kəsə dolaşmaz. Xasiyyəti ipəkdir, ipək; ancaq bu nainsaflar, allahsızlar yazığı it kimi qapırlar, söyürlər, döyürlər. Balacalar da onu ayaqlayır. Yazıq heç dinmir. Gizli-gizli ağlayır. Hər şeyi məndən gizləyir. A başına dönüm, bir şeytan şəridir düşmüşəm. İşdir, olub keçib, axı Allah da var, insaf da var.

Dursun bu sözlərlə öz günahını gizləmək, həm də elin ağzını yummaq istəyirdisə də, ancaq xoruzun quyruğu görünürdü.

* * *

Günlərin bir günündə Güllü yox oldu. Dursun tələş və həyəcan içində ora-bura qaçır. "Güllü, Güllü!" – deyə onu axtarırdı. Çox axtardı, çox bağırdı, Güllüdən əsər tapmadı. O gün axşama qədər dəli kimi dolaşdı. Tanışdan, dostdan soruşdu, hara getdiyini xəbər verən olmadı.

Qara fikirlər, acı düşüncələr onun varlığını bir yumaq kimi bükmüş, ümidsiz və dərmansız bir hala salmışdı.

Güllünün Qaracalar kəndindən Vəli adlı bir gənclə qaçmış olduğu xəbəri kəndə yayıldı. Bunu Dursun da eşitdi. Artıq durmaq olardımı? Başı odlu halda qazının, kəndxudanın qapısına qaçdı.

– Aman, Güllümü Vəli qaçırıb, onu sizdən istəyirəm, – deyə yalvarır, yaxarır, ayaqlarına düşür, ağır hədiyyələr, rüşvətlər vəd edir, kənd içində dosta, tanışa yaxınlaşıb, onlardan kömək istəyirdi.

Səhərə qədər gözünə yuxu getmədi. Yatağında ilan vurmuş xəstə kimi gah sağ, gah sol böyrü üstə çönərək:

– Ah, Güllü, Güllü, məni yetim buraxıb getdin, – deyə onun arxasınca söylənirdi.

Bu hadisə Dursunun ailəsinə xoş bir təsir buraxmışdı. Ballı, qızı Günəş, Gülsənəm, kiçik oğlu Əkbər zahirdə qəmli görünürdülərsə də, ürəkdən sevinirdilər.

Səfər atasının tutmuş olduğu çirkin işə əvvəldən razı deyildi. Çünki Dursunun evlənməsi hamıdan çox onun həyatına ağır zərbə endirmişdi.

Bununla bərabər Səfər bu məsələyə başqa cür yanaşdı. Vəlinin Güllünü qaçırması onda intiqam hissi oyatdı. Atasının namusuna endirilən bu zərbəyə qarşı laqeyd qalmadı. Kənddə böyük, kiçik hamının ağzında söylənilən bu hadisə onu təbii halından çıxartdı, o kimsənin gözünə görünmək istəmədi. Qan beyninə vurdu. Güllünü qaytarmaq və Vəliyə cəza vermək qəsdi ilə Qaracalara getdi. Səfər kəndə yetişər-yetişməz təsadüfən Vəlini dükan qarşısında gördü. Ona yaxınlaşaraq: "Alçaq, namussuz" – deyə bir qırmanc endirdi. Vəli Səfərin zərbələrinə qarşı dura bilməyəcəyini hiss etmiş olduğundan xəncərini çıxartdı. Səfər də ondan əvvəl xəncərini çıxarıb, Vəliyə hücum etdi. Səfər başından, Vəli isə köksündən, tam ürəyinin başından yaralandı. Haman saat canını təslim etdi. Səfər kimsəni öldürmək qəsdi ilə gəlməmişdi. İşin böyüyüb ölümlə bitməsinə çox peşman oldu. Bu hadisəni görənlər:

– Vay, Vəlini öldürdülər, – deyə qopardıqları fəryaddan Səfər özünü ələ almaq istədi, nə edəcəyini bilmədi. Dərhal xəyalında nişanlısı Zəhra və onun qara taleyi canlandı. Əlində yalın xəncəri olduğu halda özünü Zəhragilin evinə atdı.

O gün Zəhranın anası toy hazırlığı görürdü. Həyətə iri palazlar döşəmiş, iməcilər çağırmışdı. Qadınlardan kimisi yun darayır, ip əyirir,

kimisi xana qurub kilim toxuyurdu. Səfər həyətə girərkən bir qadın:
– Heyva atdım nar gəldi,

Kətan köynək dar gəldi.
Qapıya kölgə düşdü,
Elə bildim yar gəldi.

– deyə mahnı oxuyur, o biriləri də ona səs verirdilər. Başları işə məşğul və arxaları qapıya olduğundan Səfəri kimsə görmədi. Səfər birinci yan qapıdan otağa girdi. Zəhra otaqda yalqız idi. Səfərin birdən-birə içəri girməsindən qız qorxdu, əlində yalın xəncər, üz-gözündə qan laxtasını görüb, qorxu və heyrət içində:

– Bu nədir? – deyə bağırdı.

Səfər xəncəri əlindən yerə atıb ona yaxınlaşdı. Zəhra əvvəlcə vəhşi bir ceyran kimi hürküb çəkildi, sonra birdən-birə özünü Səfərin qolları arasına ataraq, kəsik, boğunuq bir səslə:

– Səfər, Səfər, sənə nə oldu? – deyə soruşdu.

Səfər əhvalatı qısaca ona danışdı. Zəhra sapsarı saralaraq, durduğu yerdə mıxlandı. Uzun, qara kirpikləri lətif ağ yanaqlarına doğru uzanaraq, həzin bir kölgə buraxdı. Cansız bir cisim kimi donub durduğu halda boğazını qazıyan acı bir hıçqırığı udduqdan sonra:

– Ah, Səfər, Səfər, bədbəxt olduq, – deyə şiddətlə ağlamağa başladı. Səfər Zəhranı sinəsinə sıxaraq, qanlı üzünü onun üzünə bitişdirdikdən sonra:

– Zəhra, məni tutub zindanlara atsalar səndən ayrı, uzaq-uzaq yerlərə sürgün etsələr məni unudacaqsanmı? – dedi.

Zəhra bağrını yaran bu zəhərli sözlərdən acı bir fəryad qopardıqdan sonra:

– Ah, səndən... ayrımı? – deyə boğazını boğan hıçqırıqdan sözlərini bitirmədi. Səfərin qolları arasına yıxılıb qaldı.

Səfər qolları arasına sərilmiş o məsum qızcığaza baxdıqca qəlbində dərin-dərin yaralar açılır, varlığını acı hiss və düşüncələr sarsıdırdı. O, canlı çiçəkdən, bu torpağın yetişdirmiş olduğu həqiqi mələkdən ayrılmaq istəmirdi.

Polis gəlmədən buradan çıxıb qaçaq olmağa qərar verdi, birdənbirə qapı ağzından:

– Bax, buraya, buraya! – deyə qat-qarışıq səsdən özünü topladı. Tükləri biz-biz durdu. Vücudunu başdan aşağı acı bir hiss titrətdi.

Artıq Zəhrasından ayrılmaq zamanı yetişmiş olduğunu anladı. Kim bilir nə qədər, bəlkə də həyatının sonuna qədər sevimli Zəhrasını görməyəcək?.. Böyük bir eşqlə onun üçün açılan o isti qollar, hər zaman məhəbbətlə üzünə dikilən o sevdalı gözlər kimə açılacaq? O qızı, o ruhunun təbəssümünü kimlərə qoyub gedəcəkdi?

Bu acı düşüncələrlə qolları arasında ay kimi ağarmış və pərişan saçlı, məsum qızcığazın dodaqlarına qədər əyildi:

– Zəhra, son öpüşlərim! – deyə dodağını dodaqlarına bitişdirib qaldı. Kirpiklərini iki damla yaş islatdı...

– Ah, bu da son göz yaşlarım olsun, – deyə yaxınlaşmaqda olan qarışıq səslərdən doğruldu, qapıdan hücumla içəri girən polislərə təslim oldu.

* * *

Dursun əvvəlləri oğlu Səfərin sürgün edilməsindən çox mütəəssir olmuşdu; çünki Səfər onun həyatı, onun qolu və qanadı idi. O çox çalışdı, çox pul sərf etdi, mümkün olmadı. Səfər uzaq yerlərə, Sibirə on il müddətinə sürgün edildi. Səfər kimi oğlun fəlakəti Dursuna ağır zərbə idi. Lakin bir az sonra qazılara, koxalara ətək-ətək sərf etmiş olduğu pul nəticəsində yenə Güllüsünə qovuşmuş, Səfəri və başqalarını tamamilə unudub getmişdi. Yalnız Güllünün qəlbini ələ almaq, vəhşi qızı nə cür olursa-olsun özünə ram etməkdən başqa bir fikri yox idi. Bütün günlərini ancaq onun dizləri dibində keçirmək, onunla əylənmək istəyirdi. Ballı Səfərdən sonra büsbütün köməksiz qalmışdı. Onun acı göz yaşlarını qurudan, gecə-gündüz qəlbini bir qurd kimi çeynəyən dərdlərinə, kədərlərinə şərik olan kimsəsi yox idi. Keçirməkdə olduğu fəlakətli həyatı, qızı Gülsənəmin, kiçik oğlu Əkbərin dumanlı gələcəyi xəyalında canlandıqca düşünür, düşünür, saatlarla heykəl kimi donub qalırdı. May ayı girmiş, hava qızmışdı. Kənddə köç hazırlığı qurtarmışdı. Bir həftə sonra şən və gurultulu bir gündə el yaylağa köçmüş, kənddə əkinçilərdən başqa kimsə qalmamışdı. Dursun da ailəsini, mal-qarasını, hətta bir an gözündən ayırmaq istəmədiyi Güllüsünü yaylağa köçürməyə məcbur olmuş, o sönük və alçaq daxmasında tək qalmışdı. O, Güllüyə çox yalvarıb-yaxarıb onunla bərabər qalmasını xahiş etmiş, Güllü razı olmamışdı.

Son zamanlar, hamıya, hətta on yaşında uşağa belə qısqandığı Güllü, kim bilir, yaylaqda yenə kimə qoşulub gedəcəkdi. Bu qara düşüncələr

onu yorur, əzib candan salırdı. Nə etsin? Oğlu Səfər sürgün edilməsəydi, bütün işləri ona buraxıb, yaylağa köçəcək, gözəl Güllüsünün dizləri dibindən ayrılmayacaqdı. Səfərin sürgün edilməsi ona indi çox təsir edirdi.

Güllüdən ayrıldığı iki ay idi. Bu iki ay ona iki il qədər uzun görünürdü. Bu müddətdə Güllü ilə görüşməyə can atdısa da, müvəffəq olmadı: çünki bostan məhsul verməyə başlamış olduğundan şəriki Aslan gəlməyincə onu rəncbərlərə buraxıb gedə bilməzdi. Verdiyi vədəyə görə Aslan bu gün yaylaqdan dönəcək, bostanı ona tapşırıb rəncbərlərlə şəhərə bir neçə araba qovun-qarpız göndərəcək, özü də şəhərə gedəcək, Güllüyə gözəl hədiyyələr alıb, oradan yaylağa aparacaq və köçüncəyə qədər Güllüsünün yanından ayrılmayacaqdı.

Dursun bu şirin xəyallarda idi ki, Aslanın gur səsi onun qulaqlarında səsləndi. Dursun cəld yerindən sıçrayıb, Aslanı qarşıladı. Görüşdülər. Güllüsündən xəbər tutdu. İrəlidə söylədiyimiz kimi, Güllünün ipsiz, sapsız həyat keçirdiyini anlayıb sarsıldı.

Aslan getdi. Dursun daxmasına girdi. Paltarını dəyişdi. Divardan asılmış iri xəncərini belinə bağlayıb, evdən çıxdı. Durmadan sürətlə stansiyaya getdi. Bilet alıb, hərəkət etmək üzrə olan qatara mindi.

* * *

1905-ci ilin fırtınalı günləri idi. Bütün Rusiyanı bürümüş olan böyük ümumi tətil və inqilab hərəkatı hökuməti ağır bir təlaş və qorxunc bir həyəcan içində buraxmışdı. Rusiyanın geniş sahillərindən aşıb-daşaraq hər tərəfə yayılmaqda olan inqilab dalğalarına Qafqazın qocaman dağ silsilələri belə sədd ola bilməzdi. Onun ən qüvvətli bir dalğası da qoca Qafqazın ta göbəyində partladı. Böhran keçirməkdə olan hökumət hərbi vəziyyət elan etmişdi. Özü ilə tapança, xəncər, hətta kiçik bıçaq gəzdirənlər belə ağır cəzalara məhkum edilirdilər.

Belə fırtınalı günlərdə Dursun Tiflis şəhərinə gedirdi. O bir an əvvəl şəhərə çatıb qovun-qarpızı vaxtında satmaq və axşama kəndə qayıtmaq istəyirdi. Qatar stansiyaya yaxınlaşdıqca Dursun əsəbiləşir, hər dəqiqə ona bir saat görünürdü. Qatar artıq sürətini azaldaraq, stansiyaya yaxınlaşırdı. Durar-durmaz Dursun vaqondan sıçrayıb yerə atıldı, sürətli yürüşünə mane olan göbəyi üzərindən asılmış iri xəncərini əli ilə tutaraq, pillələrə doğru getməyə başladı. O kimsəni görmədən, kimsəyə baxmadan iri, əsəbi addımlarla yüyürürdü. Onu əli tüfəngli

iki kazak durdurdu. O, əvvəlcə əhəmiyyət verməyib, onların əlindən dartınıb çıxmaq istədi. Mümkün olmadı; çünki biri xəncərindən, biri də qolundan tutub, onu harasa aparmaq istəyirdilər. Dursun çox yalvardı, çox yaxardı, acıqlandı, bağırdı, əllərindən çıxıb qaçmaq istədi. Kazaklar aman vermədilər. Onlar tüfəngin qundağı ilə Dursunun çiyninə bir-iki ağır zərbə endirdikdə, qoca dəli kimi heyrətlə kazakların üzünə baxa-baxa qaldı. Bu aralıqda nələr olduğunu, onu haraya apardıqlarını əsla bilmədi. Ağlını başına topladıqda özünü məzar qoxusu verən dar, qaranlıq bir yerdə gördü. Gözlərinə inanmadı. Ətrafı çaşqın-çaşqın süzdü. Biixtiyar:

– Bura haradır? – deyə bağırdı.

Səsinə səs verən olmadı. Açıq saf havada, yaşıl dağlarda, yamaclarda, ucsuz-bucaqsız geniş obalarda sərbəst həyat keçirmiş olan qoca bu qaranlıq məzara sığmırdı. Gözləri dumanlandı, vücudu bir məngənə içində sıxılıb, üzərinə ildırımlar tökülən kimi oldu. Üzünə bağlanan kiçik dəmir qapını bütün qüvvəti ilə döydü. Kömək olmadı. Qızmış aslan kimi gurlayan səslə:

– Ay, qapını açın, açın! – deyə çığırmağa başladı. Çox bağırdı, nə səsinə səs verən oldu, nə də imdadına gələn. Ümidi büsbütün kəsildikdən sonra bir guşəyə sıxılıb, qalın dəri papağı üstündə oturdu.

O indi bu məzarcığa nə üçün düşdüyünü, arabaların karvansarada başsız qaldığını düşünür, xüsusən Güllüsünün ayrılığı onun ciyərlərini qılınc kimi doğrayırdı. Gecəsi gündüzündən seçilməyən o məzarcıqda gecəni səhər etdi. O gah sağ, gah sol böyrü üstə çevrilərək düşünürdü. Dəmir qapı birdən-birə açıldı. Günəşin al şəfəqləri zindanı aydınlatdı. Qapı açılar-açılmaz Dursun özünü vəhşi kimi bayıra ataraq heyrətlə ətrafındakılara baxdı. Qapıda gözləməkdə olan iki jandarm onun bu hərəkətinə güldü.

Dursun günəşin al şəfəqlərindən qamaşan gözlərini əli ilə örtərək, dərin bir nəfəs aldıqdan sonra:

– Ax, canım qurtardı, – dedi.

Lakin ayaqlarına qandal vurulduğu zaman:

– Məni hara aparırsınız? – deyə soruşdu.

Jandarmlardan biri kəskin və qəti bir səslə:

– Arş, yeri! – deyə əmr verdi. Dursun yeriməyə başladı. Ayaqlarındakı ağır zəncirlərin müdhiş səsi qulaqlarında səsləndikcə, varlığı sarsılır, həyəcan içində çarpan qəlbinə köksü dar gəlirdi.

On dəqiqə sonra o, məhbəsin iri dəmir qapısından içəri girdi. Zəncirlərə sarılmış məhbusların müdhiş mənzərəsi dəhşətini bir qat daha artırdı.

* * *

Zindan həyatı Dursunu bir məngənə kimi sıxır və heç cür o həyata alışa bilmirdi. Bu vaxta qədər nə üçün həbsə atıldığını, orada nə qədər qalacağını bilmirdi. Həbsxana məmurları onunla siyasi bir dustaq kimi rəftar edirdilər. Zindandakı dustaqlar səfil həyatlarını unutmaq üçün vaxtlarını laqeyd keçirməyə çalışır, gülür, söyləyir, mahnı oxuyur, əylənirdilər. Dursun onlara əsla qarışmırdı. Bir bucağa çəkilib düşünür, düşünür, dərdi aşıb-daşdığı zaman arabir uşaq kimi hönkürüb ağlayırdı. Dursunun fəryadından xoşlanmayan birisi:

– Orada bayquş kimi ulayan kimdir? – deyə bağırdı. Zeynal adlı qısa boylu bir cavan istehza ilə:

– Borçalı meşələrindən yeni tutulmuş ayıdır, – deyə cavab verdi, sonra, baş-gözünü oyunbazlara məxsus bir şəkildə oynadaraq, ortalığa atıldı və hələ də ağlamaqda davam edən Dursuna: "Yaxşı çalırsan, çal, sən zurnanı çal, mən oynayım", – deyə oyunbaz kimi onun qabağında qollarını atmağa başladı. Bu vaxt "Qocanı incitməyin!" – deyə bir neçə dustaq etiraz etdisə də, onların səsləri başqalarının qəhqəhələri içində itib getdi. Dursun Zeynalın bu hərəkətlərinə qarşı qaşlarını çataraq, yazıq bir hal aldı. Bir az sonra Zeynal onun yanında oturdu. O, kiçik şeytan gözlərini onun üzünə dikərək, ciddi bir adam kimi sözə qarışdı və yavaş-yavaş ondan sirr almağa başladı. Beş-on dəqiqə sonra əllərini bir-birinə çırparaq:

– Bura gəlin, bura gəlin, təzə xəbər var! – deyə bağırdı.

Zindandakılar bir anda üzük qaşı kimi Dursunun ətrafını aldılar. Zeynal əlini onun çiyninə vuraraq:

– Danış, danış hamı eşitsin, birlikdə səni bu zindandan xilas edək, – dedi.

Zeynal bu sözləri o qədər ciddi dedi ki, Dursunun gözlərində ümid şöləsi parladı. Zeynalın məharətlə verdiyi suallara cavab verməyə məcbur oldu. Zeynalın şit hərəkəti bitmirdi. Əyləncəsinə daha artıq lətafət vermək üçün ara-sıra əllərini onun üz-gözünə sürtərək:

– Vay, şeytan mələyə bənd olmuş, dev pəriyə vurulmuş! – kimi acı-acı sözlərlə Dursunu yaralayırdı. Sonra: "heç fikir eləmə, səni bu-

radan qurtaracağam, sağ-salamat Güllüyə qovuşacaqsan", – deyə böyük ümidlər verirdi.

Dursun yenidən ümidlə qanadlanarkən Zeynal onun saqqalını əli ilə qarışdıraraq:

– Qıllı meymun, Güllü səni neyləsin, bu kirli qıllardan örkən, yoxsa çatı toxuyacaq? Kim bilir yaşıl dağlarda yenə kimə qoşulub getdi. Sən istədiyin qədər bağır! – deyə qocanı acılayırdı. Zeynalın bu ədəbsizliyinə qarşı Dursun həmişə susmurdu. Arabir qızdığı zaman dişlərini kilidləyərək, acıqlı bir səslə:

– Ah, nə edim, Borçalının düzündə əlimə düşəsən, bu qoca Dursunun hünərini sənə göstərərəm, görərsən ki, analar necə oğul doğub, – deyirdi.

Dursun düz altı ay zindanda o meymun hərəkətli Zeynalla bir yerdə qaldı.

Axşam saat beş idi. Birdən-birə həbsxana rəisi iki nəfər xidmətçi ilə içəri girdi. Hamı yerinə çəkildi. Zindanı ağır bir sükut bürüdü. Dustaqlar onun əmrini böyük bir maraqla gözləyirdilər. Rəis, bir bucağa sıxılıb heyrətli gözlərini onun üzünə dikmiş olan Dursuna yaxınlaşdı. Kiçik məmura: "Zəncirləri aç!" əmrini verdi.

Dursun qorxu və həyəcanlı səslə:

– Məni yenə hara aparırsınız?

– Gözəl Güllünün yanına – deyə Zeynal sürəkli bir qəhqəhə qopardı.

Hətta işdən xəbəri olmayan rəis belə Dursuna gülümsəyərək:

– Qalx, azadsan! – dedi.

Dursunun azadlıq qoxusu duyduğu zaman etdiyi hərəkəti mütləq görməli idiniz. Bəxtiyar bir uşaq kimi sevincindən hoppanırdı.

Dursun ayaqları bir-birinə dolaşa-dolaşa zindanın qapısından sevinclə çıxdığı zaman Zeynal damağını şappıldatdı.

– Qaç, qaç, Güllü çoxdan səni qapıda gözləyir, – dedi.

Zeynalın bu istehzalı sözləri Dursuna bir milçək vızıltısı qədər təsir etmədi. O artıq azad və bəxtiyar idi. Bir daha arxasına baxmadan nifrət etdiyi qapıdan çıxdı. Bir saat sonra karvansarada idi. Gecikmiş olduğundan kəndə gedəcək araba tapmadı. Qatarla gedəcəyini düşündü.

Qatar gecə saat ikidə hərəkət edəcək idi. Nə edəcəyini bilmirdi; çünki kəndə bir an əvvəl gedib bu altı ay içərisində işlərinin, ailəsinin, xüsusən Güllüsünün necə olduğunu bilmək istəyirdi.

Dekabrın son günləri idi. Tiflisi dörd tərəfdən qucaqlamış dağlar, ağır qar altında qalmış, qış bütün şəhərə hökmran olaraq, hər tərəfi qalın, ağ bir örtüyə bürümüşdü. Şiddətli ruzigar yağmaqda olan qarların istiqamətini dəyişdirir, istədiyi tərəfə püskürərək, qardan təpələr təşkil edirdi. Dursunun zindandan qurtuluşu dəli Qafqazın belə hiddətli bir gününə təsadüf etmişdi.

Dursun soyuqdan donmuş əllərini ətəkləri altında gizlətmiş, əyilmiş qaməti bir qat da bükülmüş, ümidsiz bir halda düşünürdü; birdən-birə gözləri işıqlandı, qəlbində ümid və cəsarət duydu. Özünü toplayaraq:

– Bu yolların qurdu deyilmiyəm? Kəsmə cığırla gedərəm, – dedi və iri addımlarla kəndə doğru hərəkət etdi.

Bu altı ay içərisində çox şeylər olmuşdu. Xidmətçilər arabaları gətirib Dursunu çox gözləmiş, nəhayət, məyus olub qovun-qarpızı sataraq, kəndə qayıtmışdılar. Dursunun şəhərdən dönməməyi xəbəri on gün sonra yaylağa da yayılmış olduğundan Ballı da bu hadisəni eşitdi. O ağladı, sızladı. Bostan başsız qaldığı üçün kəndə köçməyə məcbur oldu. Güllü isə:

– Bu istidə kənddə nə işim var? O hisli, paslı daxmada can sıxıntısından başqa nə görəcəyəm? – deyə dayısı evində qaldı.

Ballı kəndə köçdüyü gündən Dursunun işlərinə qarışdı. Aslan ona təsəlli verdi, bir qardaş kimi hər işdə ona kömək etdi. Bir ay sonra el arana köçmüş, kəndi yenə də səs-küy bürümüşdü. Ballı Dursunun bu vaxtadək gəlib çıxmamasından onun qat-qarışıq günlərdə tələf olduğunu yəqin etdi. Qohum-qardaşın və yaxın qonşuların məsləhəti ilə Dursuna matəm saxladı, ehsan verdi.

Güllü isə bu hadisədən sonra özünü tamamilə sərbəst hiss etdi. Bir ay sonra başqa bir gəncə getdi və qazıya, kəndxudaya şikayət edib, Dursunun qoyduğu maldan öz haqqını tələb etdi. Ballının göz yaşları hələ qurumamışdı. Günlərin birində Ballının sönük daxmasında yenidən bir fəryad qopdu. Qazı, kəndxuda və koxalar ac quzğun kimi Dursunun malını bölüşməyə soxuldular. Ballı ağlayır, saçlarını yolurdu. Nəhayət, oturduğu daxmanı Ballıya qoyub, qalan malı öz aralarında bölüşdülər. Ballı bu fəlakətə də qatlaşdı, uşaqlarını başına yığıb inləyə-inləyə yaşadı.

Qaranlıq və dondurucu bir gecə idi. Evlərin çoxunda çıraqlar sönmüş, kənd yuxuya dalmışdı. Dursun soyuqdan donmuş halda kəndə yetişdi. O, artıq özünü evindəki kimi hiss edirdi. Qəlbi fərəhlə çarpır, gözləri məşəl kimi yanırdı. İtlərin kəsik-kəsik hürmələri, atdı-

ğı iti addımlarının sürət və ahəngini bir qat da artırır, yorğun vücudunda qüvvət hiss edirdi. O indi evlərinə doğru uzanan yoxuş bir cığırı dırmanırdı. Qışın ala-qaranlığında evlərini uzaqdan gördü. Pəncərədən ona doğru uzanmış sönük bir işıq da ona bu yolda yardım etdi: "Bizimkilər yatmayıb" – deyə yerişinə sürət verdi. Bu zaman yuxarıdan ona doğru gəlməkdə olan adam:

– Ey, kimsən? – deyə bağırdı.

Dursun əhəmiyyət vermədən irəlilədi.

O səs:

– Sənə, kimsən deyirəm? – deyə bir də gurladı.

Dursun yorğun və boğunuq səslə:

– Mənəm, mən... – deyə cavab verdi.

– Sən kimsən?

– Dursunam... Dursun...

– Hansı Dursun?

– Bu evin sahibi.

– Səfərin atasımı?

– Hə, hə!..

Kölgə yanaşdı. Ona yaxından diqqətlə baxaraq:

– Sən ölməmişdin?

– Yox dustaqda idim. Sən kimsən?

Kölgə istehza ilə ona gülərək:

– Mənmi? Mən Vəlinin qardaşı Əhmədəm! – deyə onu yaxasından tutub silkələdi. Dursun onun pəncəsi altında yarpaq kimi titrəyərək:

– Məndən nə istəyirsən? – dedi.

– Ay qan ocağı! Səndənmi? Səndən ölüm istəyirəm, ölüm!

Səsə bir it hürə-hürə bunların üzərinə atıldı. Dursun iti tanıdı. "Alabaş, Alabaş" – deyə onu səslədi. İt Dursuna yaxınlaşdı. Burnu ilə onu qoxladı. Tanıyınca üzərinə sıçrayaraq, əllərini yaladı, ətrafında atılıb düşməyə başladı. Əhməd ona acı bir qəhqəhə ilə gülərək:

– Atanı da köməyə çağırırsan? Kimi istəyirsən çağır, bu gecə əlimdən qurtarmayacaqsan! – dedi.

Köpək qapıya qaçıb şiddətlə hürür, sahibinin gəldiyini xəbər verirdi.

Əhməd Dursunu daha şiddətlə silkələyərək, gurlayan səslə:

– Qurtarmayacaqsan deyirəm, səni bu xəncərlə doğrayıb qarın altına soxacağam! – deyə belindən xəncərini çıxarmaq istərkən Dursun şiddətlə bağırdı və iki əli ilə onun xəncərindən tutub yalvarmağa başladı. Əhməd: "Burax" – deyə bağırdı. İt, ikinci dəfə qaçaraq Əhmədə

hücum etdi və bütün qüvvəti ilə Dursunu müdafiə etməyə çalışdı. Dursun fürsətdən istifadə edərək, evə doğru qaçmağa başladı. İt Əhmədin üzərinə atılır, o da xəncərlə onu qovur və yaralayırdı.

Köpək aldığı yaralardan yerə sərildikdən sonra Əhməd Dursunun arxasından:

– Qurtara bilməyəcəksən. Bu gecə nədənsə mahir bir ovçu kimi başdan-ayağa kimi silahlanmışam. Al, ancaq bir qurşun! – deyə atəş açdı. Dursun qar tozları arasında fırlanaraq yerə düşdü, yenidən qalxıb qapıya doğru qaçmağa başladı. Bu aralıq kiçik oğlu Əkbər bayırdakı gurultunun nə olduğunu bilmək üçün qapını açarkən Dursun qapıya yetişdi. Əli ilə sağ böyrünü tutmuş olduğu halda özünü içəri atdı.

Ballı yatağında oturub, əlində corab toxuyur, o gün Səfəri xatırlayıb kirpiklərini isladan göz yaşlarını önlüyünün ətəyi ilə qurudurdu. Böyük qızı Günəş də ocağa yaxın oturub, cəhrə əyirirdi. Bayırda qopan səs-küyü eşidib Əkbər yerindən qalxdı, tez qapıya qaçdı. Ballı arxasından bağırdı:

– Qapını açma, sonra qaçaq-quldur olar.

Əkbər əhəmiyyət verməyib qapıya getdi. Səslər ona tanış gəldi. Kim olduqlarını bilmək üçün qapını açdı. Təsadüfə bax ki, o, qapını açarkən Dursun qapıya yetişdi. Əhməd onu təhdid və təqib edirdi. Dursun özünü zor-güc sürüyüb qapıya atdı. Vaxtsız qonağın qorxunc vəziyyətdə birdən-birə içəri girməsi otaqda böyük qarışıqlığa səbəb oldu. Onu quldur, qaçaq zənn edib, qorxularından titrəməyə başladılar. Dursun məsələni duymuşdu, səsini çıxartdı, onları adları ilə çağırdı. Əkbər və Günəş Dursunu tanıdı. Hər ikisi qollarını açıb, dəli bir sevinclə "ata" – deyə ona sarılmaq istədi. Ballı diqqətlə baxdı. Doğrudan da o idi. Lakin o altı ay bundan əvvəl ölmüşdü, yası tutulmuş, ehsanı verilmişdi. Ballı yorğana sarılaraq bütün qüvvəti ilə:

– Yaxın getməyin, yaxın getməyin, atanız xortlayıbdır! – deyə bağırdı, uşaqlar durduqları yerdə donub qaldılar. Dursun bu altı ay müddətində onu ölmüş zənn etdiklərini başa düşdü. Ölmədiyini, altı ay dustaq olduğunu zor-güc Ballıya inandırdı. Hamısı başına yığıldı. Dursun əli ilə sağ qabırğasını tutaraq, otağı başdan-başa süzdükdən sonra:

– Bəs Güllü hanı? – deyə soruşdu.

Ballı başını yazıq bir halda aşağı əyərək:

– Güllü çoxdan getdi – deyə cavab verdi.

1911

ARAZ

BİRİNCİ FƏSİL

Əncir ağacı altında çalınan sazın ahəngdar səsi ətrafı bürümüşdü. Saz o qədər məharətlə çalınırdı ki, nəğmə coşqun, köpüklü sular kimi axıb yayılırdı. Xüsusən oxuyanın ürəyə yatımlı səsi, oxunan bayatıdakı məna gözəlliyi sazın uyğun səsinə qarışdığı zaman insan özünü büsbütün başqa bir aləmdə hiss edirdi:

Sel axar, mələr gələr,
Dağ-daşı dələr gələr,
Bir igid kasıb olsa,
Başına nələr gələr!
Kababı köz öldürür,
Sürməni göz öldürür,
İgidi qılınc kəsməz,
Tənəli söz öldürür.

O elə böyük bir eşqlə oxuyub-çalırdı ki, nə həyətə girən adamı görmüş, nə də onun: "Araz, yenə kimin tənəsindən şikayət edirsən?" – sözlərini eşitmişdi. O, sazın zil pərdəsini dilləndirir və o zamanın ən məşhur xanəndəsi olan Keçəçi oğlunun zəngulələrini düzgün vurmağa çalışırdı. Arazın səsi qonağı elə məst etmişdi ki, o, əncir ağacı yanında, ayaq üstə durub, dərin bir nəşə içində Arazı dinləyirdi.

Araz sazını yerə qoyduğu zaman qabağında dimdik duran qonağı görüb:

– A, Şeyda, sən hara, bura hara? Yol azmayıbsan ki? – deyə heyrətlə açılan gözlərini onun üzünə dikdi. Şeyda yuxudan oyanmış kimi, düşüncəli gözləri ilə Araza baxıb:

– Sağ ol, Araz, əcəb avazın var! – dedi, sonra diqqətlə bir alçaq daxmaya baxdı, bir də yamaqlı süfrədəki soğan-çörəyə. Bu vəziyyət əsil məsələyə keçmək üçün Şeydaya münasib bir şərait yaratdığından fürsəti qaçırmayıb dedi:

– Yoxsulluq sənə heç yaraşmır. Sənin indi gərək qəşəng bir evin olaydı, hər gün həyətdə uca bir çinarın kölgəsində sazını çalıb oxuyaydın... Qulluqçular kababı şişdəcə isti-isti gətirib süfrəyə, qabağına qoyaydı... Sən də onu qırmızı şərabla ötürəydin gedəydi. Bax, buna

deyərdim həyat. Yoxsa toyuq hininə oxşayan bu daxma, bu qotur əncir ağacı, bu kasıb süfrə doğrudan da sənə yaraşmır.

Şeyda bu sözləri dedikdən sonra əlini lovğa-lovğa döşünə vuraraq, əlavə etdi:

– Bir mənə bax, indi xan kimi dolanıram.

Araz istehza ilə gülərək, qalın bir səslə:

– Otur, otur, sən mənim dərdimi çəkmə, – dedi. – Əli əsə-əsə daş-tərəzi tutan adamın kababdan, şərabdan danışmasına inanmaram. Siz qəpiyi qəpik üstünə qoymasanız dünya dağılar.

– Yoxsa sən məni belə tanıyırsan? – deyən şeyda otura-otura soruşdu.

Araz cavab vermədi, sadəcə gülümsəyərək:

– Bir de görüm, sən nə əcəb bura gəldin?

– Tələsmə, bilərsən, ancaq sənin sözün məni çox tutdu. Mən baqqal dükanının daşını çoxdan atmışam.

– Bilirəm, bilirəm!

– İndi Aslan bəyin mədənini podrata götürmüşəm, ona iki buruq qazdırıram... İş də ki...

Araz onun sözünü kəsərək:

– Bilirəm, hətta qayışın, taxtaların oğurlandığını da bilirəm, – dedi.

Şeyda bu sözdən donub qaldı.

– Sən bunu kimdən eşitdin?

– Eşitdim, mənə danışdılar...

Şeyda fikrə getdi. O, Araza təklif etmək istədiyi məsələni açmağa artıq cəsarət etmirdi. Bu sadə və yoxsul adamın qəti və kəskin cavabları onu tamam çaşdırmışdı. Mövzunu dəyişmək fikri ilə süfrədən bir parça çörək və bir-iki göy soğan götürüb, yeyə-yeyə soruşdu:

– Araz, gərək ki, bu çörək öz ununuzdandır?

– Öz unumuzdandır, bir parça yerim var, hər il əkirəm.

– Bu mədən işləri ki, belə böyüyür, bir gün bu yerlər qiymətə minəcək!

Araz istehza ilə:

– O zaman biz də mədənçi olarıq! – dedi.

– Bir bax, Ramana, Balaxanı, Sabunçu, Bibi-Heybət, Suraxanı yerləri gündən-günə tərəqqi edir. Desyatininə iki yüz min manat deyənin ağzına vururlar.

– Yaxşı, bu bağlar dağılır, yerlər satılır, bəs camaat nə edəcək, ona ki, bu işlərdən bir xeyir gəlmir?

– Təki torpağımızdan nöyüt çıxsın. Bir də bilirsən ki, bizim torpaqlar susuz, ələfsiz, Ərəbistan qumsalıdır, orada bağ salmaq, əkin becərmək iynə ilə gor qazmaqdır. Nöyüt çıxsa, yeri olan yerini satar, varlanar, yeri olmayan fəhləliyə gedər, ustalıq öyrənər. Bircə mənə bax, sən demişkən, baqqallıqdan gəlib gör hara çıxmışam. Mədən podratçısıyam. Aslan bəy üçün buruq qazdırıram. İşim çox yaxşıdır. Ancaq mənə təmiz, qoçaq bir adam lazımdır. Onun üçün də yanına gəlmişəm.

– Xeyir ola, qoçaq adamı neyləyirsən?

– Qarovulçu qoymaq istəyirəm, – deyə Şeyda gözlərini Arazın gözlərinə dikdi, lakin Arazın cavab vermədiyini görüb, yenə sözünə davam etdi:

– Bilirəm, ayda on beş-on altı manatdan çax almırsan. Həm də o qədər işləyirsən ki, lap əldən düşürsən. Gəl bizə qarovulçu ol, ayda sənə əlli manat verim.

Araz tərs-tərs Şeydanın üzünə baxdı. Şeyda bu baxışdan pozulduğunu hiss etdirməyib, inandırıcı bir səslə:

– Canın üçün doğru deyirəm, düz əlli manat.

– Bilirəm, bilirəm, əlli də verərsən, hələ yüz əlli də, ancaq mənim itlərlə boğuşmağa vaxtım yoxdur!

– Necə itlərlə boğuşmağa? Bu nə sözdür?

– Bəli, sizin bu mədənlərdə düzlükdən başqa hər nə desən var!

– Məsələn...

– Məsələn... hansı buruqda oğurluq olmur? Ən böyük mədənlərdən başlamış, ta kiçiklərinə qədər hər gecə, hər gün oğurluqları sən ki, məndən yaxşı bilirsən?!

– Düzdür, oğurluq var... Mənim də taxtalarımı, qayışımı oğurladılar.

– Sən oğurlamışdın, onlar da oğurladılar.

– A kişi, sən baş-ayaq nə üçün danışırsan? Mən oğruyam?

– Tək sən yox, bütün mədən sahibləri və onların sənin kimi podratçıları, hətta, qarovulçuları da oğrudur, niyə danırsan? Bir-birinizdən oğurluq etmək ki, sizin peşənizdir.

Şeyda cavab tapmadığından bir an donub qaldı. Arazı istehzalı bir nəzərlə başdan-ayağa süzdükdən sonra səsini dəyişərək:

– Tutaq ki, peşəmizdir, məsəl var: “Palaza bürün, elnən sürün”.

– Mən eldən qaçmıram, onun xeyir-şərində həmişə olmuşam. Ancaq eli oğurluğa, adam öldürməyə çəkə bilmərəm. Bu mənim işim

deyil. Qoçuluq gündən-günə artır. Mədənçilərin hökumət adamları ilə birlikdə açdığı bu yol çox qorxulu yoldur. Belə getsə...

Şeyda onun sözünü kəsdi:

– Mən bura moizə eşitmək üçün gəlməmişəm. Sən qoçaq adamsan, camaat səni sayır, səndən qorxur, ona görə də mən deyirəm ki, sən gəl bu işə razı ol, həm sənin işin düzəlsin, həm də bizim.

– Camaat məndən nə üçün qorxsun? Mən kimi incitdim? Kimi öldürdüm? Kimin haqqını yedim? Məgər hər güclü olandan qorxarlar? Məndən əl çək, get adamını tap!

Arazın bu sözlərindən sonra Şeydanın ümidi büsbütün kəsildi. O qəzəblə:

– Sənin rəhmətlik atan Balakişi də belə tərs adam idi. Odur ki, acından öldü! – dedi.

Araz onun bu sözündən bərk tutuldu, ona ağır cavab vermək istədi, ancaq öz evi olduğu üçün acığını udaraq:

– Namərdlərə boyun əyməkdənsə, acından ölmək yaxşıdır! – dedi.

Şeyda ona cavab vermədi. Acıqlı ayağa qalxıb getdi.

II

19-cu əsrin sonuna doğru yavaş-yavaş neft buruqları ilə qucaqlanmağa başlayan Suraxanı kəndində hər kəsin nəzərini bir ev cəlb edə bilərdi. Adam boyundan alçaq, divarları palçıqla suvanmış bu ev hər kəsin xəyalını uzaqlara, dumanlı keçmişlərə aparır, zehnində bir-birini izləyən fikirlər onu köhnə bir aləmə atırdı. Bu alçaq evin şərq tərəfindən, hasara nisbətən uca qapısından girən adamı, hər şeydən əvvəl, həyətin ortasında balta zərbələri ilə yaralanmış qoca və çılpaq bir əncir ağacı qarşılayırdı. Bir qədər irəlidə hisli-paslı iki kiçik pəncərə arasında alçaq, rəngsiz bir qapı vardı. Bir pilləkən endikdən sonra bu qapı iki kiçik, alçaq və rütubətli otağa açılırdı.

Otaqların bütün əşyası – rəfdə üç-dörd saxsı və mis qab, bir neçə yorğan-döşək, yerə döşənmiş köhnə palaz, divardan asılmış saz, çaxmaqlı tüfəng və köhnə xəncərdən ibarət idi.

Araz bu köhnə evdə yoxsul bir ailədə dünyaya gəlmişdi. Bu ev keçmişin bir abidəsi olduğu kimi, babası Atabala da o dövrün bir nümayəndəsi idi. O, gənc yaşlarından yerli bəylərə, çar məmurlarına qarşı uzun müddət vuruşmuş, ömründə bir kəsə baş əyməmişdi. Hö-

kumət onu təqib etdiyindən üç il Quba meşələrində gizlin yaşamış, xalqa arxayın olduğundan sonra evə, kəndə qayıtmışdı. Onu yaxın, uzaq kəndlər tanıyırdı. Hamı hörmət üçün "Baba" – deyə çağırırdı. O, çox məzlumları zalımların pəncəsindən qurtarmış, çox zalımın ocağını söndürüb yelə sovurmuşdu.

Çar Rusiyası Azərbaycana yiyələndikdən sonra neft işləri əvvəlkinə nisbətən daha da genişləndi. Atabala yenə əvvəlki neft quyularında işləməyə başladı. Oğlu Balakişini 35 yaşında evləndirdi. Araz atasının üzünü görmədi. Dünyaya gəldiyi gündən iki ay əvvəl atası Balakişi neft quyusu qazarkən qaz partlayışından həlak oldu. Bu böyük itki, bu kədərli faciə bütün qohum-qardaşa, xüsusən Atabalaya çox ağır təsir etdi. O, "Mən Balakişi kimi oğuldan sonra yaşamaram" – deyirdi. Ancaq Araz dünyaya gəldikdən sonra onun alnının qırışları açılmış, dərdlərini unudaraq üz-gözü gülməyə başlamışdı. O, uşağın adını Araz qoydu.

Anaxanım kiçik balasını da öz qanadları altına alıb böyütməyə başladı. O, namuslu, çalışqan bir qadın idi. Hər il bir parça əkin yerini qayınatası Atabalanın köməyi ilə əkir, biçir, yığdığı məhsulla dolanırdı.

Atabalanın Araz üzərində böyük təsiri vardı. O, uşağın hər nazını çəkir, hər şıltağına dözür, onun üstündə bir yarpaq kimi əsirdi. Araz göz açıb Atabalanı gördüyündən, onu ata kimi sevirdi.

Anaxanımı istəyənlər oldu, ancaq o, Arazdan ayrılmayıb, gənc həyatını oğluna həsr etdi.

Ay keçdi, il dolandı. Araz böyüdü, ətli-canlı, yaşına görə iri gövdəli bir oğlan oldu. Babası arabir onu qucaqlayıb: "Mənim oğlum pəhləvan olacaq, pəhləvan" – deyərdi.

Araz o yoxsul, sağlam və təmiz ailədə quşlar kimi sərbəst yaşayır, gündən-günə boy atırdı. Ən çox sevdiyi əyləncələrdən biri keçmiş zamanlardan edilən söhbətlərə qulaq asmaq idi. O, arabir Atabalanı qucaqlayaraq: "Baba, ay baba, mənə keçmişlərdən danış!" – deyərdi. Atabala da onun könlünü qırmaz, sevə-sevə yanında oturdub şahidi olduğu bir çox əhvalatlardan uzun-uzadı danışardı.

Bir gün Araz ondan soruşdu:

– Baba, nə üçün bizim evimiz alçaqdır? Elə bil quyudur, başqa evlər kimi küçəyə pəncərələri yoxdur?

Atabala cavab verdi:

– Oğlum, bizim ev də keçmişdən qalma köhnə bir evdir. Əvvəllər tez-tez davalar olurdu. Qonşu tayfalar basqın zamanı bir-birinin var-

yoxunu talayırdı. Xalq özünü basqınlardan qorumaq üçün belə yeraltı damlar tikirdi. Bizim ev o zaman tikilmişdir.

Bu sözləri deyib Atabala alçaq divarlı damı yanları qırışıq gözləri ilə bir də süzdü.

Atabala mədənlərdə çoxdan çalışırdı. Sonralar yenə çarxlı arabalarla mədəndən şəhərə neft daşıyırdı. Atabala bir gün şəhərdən kəndə qayıdırdı. At ac və yorğun olduğundan, o, arabanı açdı, atı otlamağa buraxıb arabanın kölgəsində oturdu; həmişə özü ilə yola götürdüyü su qabını qarşısına qoyub torbasından bir parça çörək çıxararaq yeməyə başladı. Çörək quru olduğundan hər loxma çörəyi bir qurtum su ilə ağzında isladıb yeyirdi. Araz bu zaman kəndin yanından keçərkən babasını uzaqdan gördü. Bu acı lövhə onun uşaq ürəyini sarsıtdı. O bir daş üstündə oturub babasını uzaqdan seyr etdi. Qoca babasının bu qədər ağır zəhmətlə pul qazanıb onu saxlaması heysiyyətinə toxundu. Araz oradan evə gözü yaşlı qayıtdı. Bütün günü çox fikirli idi, ancaq ürəyini kimsəyə açmadı. Ertəsi gün səhər tezdən babası işə getdikdən sonra, ən yaxın bir mədənə getdi. Mədənin ətrafında çox gəzib dolaşdı. Buruqda fəhlələr çalışırdılar. Yaxınlaşıb dərdini açmağı, onlardan iş istəməyi qürurunu sığışdırmırdı. Bir daşın üstündə oturub düşünməyə başladı. Bu zaman, dünən görmüş olduğu acı səhnə, babasının ağır həyatı yenə onun gözü önündə canlandı. Artıq dayana bilmədi, yerindən dəli kimi sıçrayıb buruğa tərəf getdi. Fəhlələrə yaxınlaşıb ciddi bir səslə:

– İşləmək istəyirəm. mənə iş verin! – dedi.

Fəhlələr uşağın bu amiranə sözündən gülümsəyərək, bir-birlərinin üzünə baxdılar. Onlardan birisi:

– Oğlum, sən hələ uşaqsan. işə girmək sənin üçün tezdir, işi neyləyirsən? – deyə soruşdu.

Arazın üz-gözü dumanlandı:

– Mən uşaq deyiləm, on beş yaşım var. Siz mənə iş verin, sonra baxın! – deyə cavab verdi.

Onun belə kəsərli və ötkəm sözləri podratçının xoşuna gəldi. O yaxınlaşıb əlini Arazın çiyninə qoyaraq:

– Qoçaq, sən kimin oğlusan? – deyə soruşdu.

Araz başını sinəsinə dikib cavab vermədi.

Podratçı Əhməd:

– Sən kimsən? – deyə bir də soruşdu.

– Balakişinin oğluyam, – deyə Araz cavab verdi.

– Balakişinin oğlusan? – deyə Əhməd Araza bir də diqqətlə baxdı, sonra üzünü fəhlələrə çevirib:

– Siz öləsiz, danışığından tanımışdım. Lap atası Atabalanın özüdür, – dedi.

Araz başını qaldırıb Əhmədi yanakı süzərək:

– Atabala mənim atam deyil, babamdır! – dedi.

– Bilirəm, bilirəm, rəhmətlik atan Balakişini də, baban Atabalanı da, əmin Qəhrəmanı da yaxşı tanıyıram. Atabalanı fələk əyə bilməzdi. Balakişinin ölümü kişini yay kimi əydi. Ancaq Balakişi də bir Balakişi idi, – deyə Əhməd gözlərini yenə Arazın üzünə dikdi.

Tanışlıqdan sonra fəhlələrdə Araza qarşı böyük bir məhəbbət hissi yarandı. Yaşlı bir fəhlə üzünü podratçı Əhmədə tutaraq:

– Xozeyin, bu uşağı boş qaytarmaq yaxşı olmaz – dedi.

Əhməd uşağa yanaşıb soruşdu:

– Adın nədir?

Uşaq ağzı dolusu:

– Araz! – deyə cavab verdi.

Araz öz adını elə cəsarətlə dedi ki, fəhlələrin gözləri onun ulduz kimi yanan parlaq gözlərinə dikildi. Podratçı Əhməd gülə-gülə:

– Yaxşı, oğlum, bu gündən səni fəhlə şagirdi götürürəm, – dedi. – Gəl, işlə!

Anaxanım o gün oğlunu çox gözlədi. Araz gəlib çıxmadı. İntizar və həyəcan onun ana qəlbini dəlir, zehnindən keçən qara fikirlər vücudunu əzirdi. Hər gün müəyyən vaxtda evə gəldiyi halda bu gün nə üçün bu qədər yubandığını, harada olduğunu, nə etdiyini səbirsiz və aramsız bir halda düşünürdü. Ana, gözlərini yollara dikib oğlunu çox gözlədi; Araz gəlib çıxmadı. Anaxanımın səbri büsbütün tükəndi. O, Arazı axtarmaq üçün yola çıxdı, qohum-qardaşdan soruşdu, kəndi birbirinə vurdu, oğlundan bir xəbər verən olmadı. Anaxanımın dərdi və intizarı daha da artdı; qəlbini qorxu və sıxıntı aldı. O, indi qapı ağzında, əlləri qoltuğunda durub düşünürdü.

Günəş ətəklərini yavaş-yavaş qüruba doğru çəkməyə, kölgələr get-gedə uzanıb bir-birinə qarışmağa başlamışdı. Atabalanın gələn vaxtı idi. Anaxanım qəlbini sıxan dərdini, kədərini bölüşmək üçün Atabalanın yolunu səbirsizliklə gözləyirdi. Bir az sonra Atabala uzaqdan göründü. Anaxanım yeyin addımlarla onu qarşılayaraq, əhvalatı həyəcanla danışdı. Atabala onu soyuqqanlılıqla qarşıladı, sadəcə gülümsəyərək:

– Qorxma, – dedi, – harda olsa gəlib çıxar.

Onun cavabı Anaxanımın ana qəlbini sakit etmədi. O, qayınatasından ciddi kömək gözlədiyi halda, aldığı cavabdan ümidi büsbütün qırıldı. Artıq dayana bilmədi. Birdən uşaq kimi hönkürə-hönkürə:

– Necə qorxma, bu vaxta qədər harada qaldı? Yəqin uşağın başında bir iş var! – deyə ağlamağa başladı.

Anaxanımın bu hərəkəti Atabalaya çox təsir etdi. Araz sərsəri uşaqlardan deyildi. Anaxanım onu hər bir yaramazlıqdan göz bəbəyi kimi qoruyur, izin almadan, başlı-başına bir yerə getməyə buraxmırdı. O hara getsə müəyyən saatda evdə olmalı idi. Artıq Atabala da düşünməyə və rahatsız olmağa başladı. Yerindən qalxaraq:

– Sən darıxma, bu saat onu tapıb gətirərəm, – deyərək çıxıb getdi. Beş-on addım getməmişdi ki, Anaxanım arxadan:

– Qayıt, qayıt, odur gəlir, – deyə onu səslədi. Atabala geri döndü.

Anaxanım:

– Başına dönüm, ona bərk acıqlan ki, bir də belə iş görməsin, – dedi. – Həm də soruş görək bu vaxta qədər harda idi?

Arazın evə gec gəlməsi Atabalaya da təsir etmişdi. O, bu vaxtadək güldən ağır bir söz demədiyi nəvəsinə bu gün bərk acıqlanmağa qərar verdi.

Araz gülə-gülə yaxınlaşdı. Atabala:

– Bu vaxta qədər harda idin? – deyə soruşdu.

Araz cavab vermədi.

Atabala yerindən tərpənməyərək, daha kəskin bir səslə onun üstünə çığırdı:

– Sənə, harda idin, deyirəm, eşitmirsən?

Araz halını pozmayaraq:

– Sən harda idin, mən də orda! – deyə cavab verdi.

Bu cavab Atabalanı təmin etmədiyindən, o:

– Mən işdə, de görüm sən harda idin? – deyə daha acıqlı halda təkrar soruşdu.

– Mən də işdə.

– Necə işdə? Söz soruşuram, cavab ver!

– Doğru deyirəm, buruqda işləməyə getmişdim.

– Hansı buruqda?

– Podratçı Əhmədin buruğunda.

– Səni ora kim apardı?

– Heç kim, özüm getdim.

Gözlənilməyən bu cavab Atabalanı dərhal yumşaltdı, o, mehribanlıqla soruşdu:

– Səni işləməyə nə vadar etdi, oğlum? Yoxsa ac qalırsan?

Araz cavab vermədi. Atabala sözünə davam edərək:

– Bilirəm, mənim azacıq qazancım səni yaxşı yaşada bilmir, – dedi.

Araz gülümsədi:

– Yox, baba, mən cavanam, daşdan yumşaq hər şeyi yeyə bilirəm. Sən qocalmısan, indi gərək səni mən saxlayam.

Anaxanım Atabalanın üzünə baxdı. Atabala gözlərini heyrətlə iri-iri açaraq:

– Necə? Məni sən saxlayacaqsan? Hələ ona çox qalır, oğlum. Nə qədər mən sağam səni işləməyə qoymaram, – dedi.

Babası nə qədər çalışdısa Arazı fikrindən döndərə bilmədi. Araz:

– Yox, baba, sənin ağır zəhmətlə qazandığın çörəyi mən yeyə bilmərəm, – deyə qətiyyətlə bildirdi.

Araz həmin gündən fəhlə şagirdi kimi mədəndə işləməyə başladı. Axşamlar mədəndən evə döndüyü zaman arabir babası ilə həyətdəki əncir ağacının altında oturub, uzun-uzadı danışardı. Babası ona öz cavanlığından, fəhləlik həyatından söz açıb deyərdi:

– Oğlum, keçmişlərdə buruqlar su quyusutək əl ilə qazılardı. Bu gün şaxta quyularda olduğu kimi nöyütü quyudan mancanaq, ya da çarxla öküz gönündən qayrılmış tuluqlarla çəkib çıxarırdılar. Tacirlər nöyütü tuluqlara doldurub dəvələrlə, qatırlarla uzaq şəhərlərə aparır, orda satırdılar. Bakı nöyütünü yaxın, uzaq ölkələr çoxdan tanıyır. Mən özüm köhnə quyularda çox işləmişəm. Səhərdən axşama qədər atı bağaraya qoşub qara mazut çəkərdim. Yazıq atlar qan-tər içində əldən düşürdü. Ayda üç-dörd at çolaq olurdu. Bax, indi işlər dəyişib, quyunun üstündə buruq tikib, yeri iti balta ilə qazırlar. Nöyütü quyudan calonka deyilən iri dəmir qablarla çıxarırlar. İndi at yerinə maşın dəzgah qoymuşlar. Onun köməyi ilə quyunu həm qazırlar, həm də nöyütünü jalonka ilə quyudan çıxarırlar; indi işlər bir qədər asanlaşıb. Bizim vaxtımızda çox çətin idi. Ancaq, oğlum, həm köhnə quyular, həm də bu gün qazılan quyular bilirsən nə qədər fəhləni məhv etmişdi? Acgöz mədənçilər quyu qazıldıqca yanlarını möhkəm bərkitmədiklərindən, çox vaxt quyu uçur, qazmaçılar torpaq altında qalır, ya da aşağıda qaz partlayışından ölürlər. Bu motorlu buruqlar da az fəhlə tələf etmir. Qolunu qayış qıran, quyuya düşüb ölənlər az deyil. Bu işdə çox ehtiyatlı olmaq lazımdır.

Atabala o zaman üçün yeni olan “vurma üsulu” haqqında ancaq bu qədər məlumat verə bildi.

Araz bilirdi ki, ata-baba yurdu olan Abşeron yarımadasında təsərrüfatla məşğul olmaq, xəsis sarı qumdan çörək çıxarmaq iynə ilə gor qazmaqdır. Onun və gələcək ailəsinin həyatı yalnız neft mədənlərinə bağlıdır. Ona görə də qazmaçılığın bir çox sirlərini əsaslı surətdə öyrənməyə çalışırdı. O, çəkildikcə bitib-tükənmək bilməyən neftin yer altında nədən əmələ gəldiyini bilmək istəyirdi.

Araz babasının verdiyi bu qısa və səthi məlumatı dinlədikdən sonra soruşdu:

– Baba, bu neft yerin altında nədən olur?

– Oğlum, yerin altında, üstündə nələr yoxdur? Bizim qonşu kəndlərin yanında çıxan duz mədənləri, Suraxanıda gecə-gündüz şölə çəkib yanan alov, yerdən çıxan isti, qaynar su nədən olur? Hələ o ulduzlu, aylı göyləri görürsənmi? Orda da başqa bir aləm vardır! Biz görmürük. Bunların hamısı Allahın hikmətidir.

Arazı bu cavab qane etmədi; gözləri böyük həyat təcrübələrinin mənasını ifadə edən babasının gözlərinə dikilmiş halda fikrə getdi.

III

Aclıq və fəlakət gəncliyin zövq və nəşəsini dadmadan Vanyanı Rusiyanın uzaq və buzlu steplərini, qalın şam meşələrini tərk edib, Bakıya gəlməyə məcbur etmişdi. O, iş axtarmaq üçün mədənləri gəzə-gəzə Qasım bəyin mədəninə gəlib çıxmışdı. Vanya buruğun ağzında durub həzin bir səslə:

– Burada mənə münasib bir iş yoxdurmu? – deyə soruşdu.

Podratçı Əhməd onu başdan-ayağa diqqətlə süzdükdən sonra qəti bir səslə:

– Yoxdur! – deyə cavab verdi.

Vanya məyus bir halda donub qaldı. Sönük, lakin cəsarət və iradə ifadə edən bir nəzərlə fəhlələrə baxdı. Onun görkəmi, hər bir hərəkəti “acam, işə ehtiyacım var” – deyirdi. Vanyanın bu vəziyyəti Araza ilk dəfə mədənə gəlib iş istədiyi zamanı xatırlatdı. O bir Vanyaya baxdı, bir də podratçı Əhmədə, qaşlarını çataraq, özünə məxsus kəskin və amiranə bir səslə:

– Əhməd dayı, nə üçün buna iş vermirsən? – deyə soruşdu.

Podratçı Əhməd onu çəpəki süzərək, cavab vermədi.

Qazmaçı usta əli ilə Vanyanı göstərərək:

– Onun canına, cəmdəyinə baxmırsan? Gündə on iki saat bu istinin, soyuğun altında işləyə bilər? – deyə cavab verdi.

Vanya onun dediyi sözləri əl-qolunun hərəkətindən başa düşüb:

– Arıq olduğuma baxmayın, mən işdən qorxmuram! – dedi.

– Aca nə isti, nə soyuq? Daşdan çörək çıxarmaq üçün hər işə gedər! – deyə Araz ustaya etiraz etdi. Sonra üzünü Əhmədə tutaraq:

– Əhməd dayı, sən ona iş ver, yazıqdır, mən ona kömək edərəm, – dedi.

– Bacarmaz, onun işi deyil!

Araz inad etdi:

– Sən nə itirirsən? Bacarmaz, çıxardarsan.

Əhməd bir Araza, bir də Vanyaya baxdı, sonra üzünü Araza tutub:

– Kişi oğlu, bundan fəhlə olmaz, ancaq sənin sözünü yerə salmıram; yaxşı işləməsə daha məndən incimə.

Vanya o gündən Arazla bir buruqda çalışmağa başladı. O, Arazdan iki yaş böyük, xoş simalı, şirinsöhbət bir oğlan idi. Göy gözlərinin saf, təmiz şəfəqləri qəlbinin aynası idi. Xasiyyətləri tutduğundan hər iki gənc fəhlə birinci gündən dostlaşdılar. Amma nə Vanya azərbaycanca bilirdi, nə də Araz rusca. Əvvəlləri bir-biri ilə çox zaman işarə ilə danışırdılar.

Bu mədəndə azərbaycanlı fəhlələr çox olduğundan Vanya onları dinləyə-dinləyə az bir vaxtda Azərbaycan dilini ala-yarımçıq öyrənmişdi. Günorta yeməyi zamanı Araz öz yoxsul süfrəsini Vanyanın yanında yerə sərib gülə-gülə:

– Ay Vanya, nə var, nə yox? – deyə soruşduğu zaman Vanya:

– Vallah bir şey yox... yaxşı... yaxşı, – deyə cavab verdi. Araz yenə soruşdu:

– Çəpgöz Hüseynlə aran necədir?

– Hansı? O... dükançı Hüseyn? Ədə, o yaman julik, yaman adam. Mən ayda bir an altı manat alır, üç manat otaq verir. Üç manat naloq verir. Manda on manat qaldı. Gedir Hüseyn dükana: "Ay Hüseyn, mən nə apardı?" O çotka aldı, şaraq, şaraq: "çörək, pendir, papiros, spiçka, neft, şakar, çay, sud, yumurta, vodka... on dörd manat altı qəpik..." Mən ona dedi: "Ey Hüseyn, mən yumurta aparmadı, sud aparmadı, vodka sovsem aparmadı..." O dedi: "Yox, apardı... çox danışma!"

Araz qəhqəhə ilə güldü, sonra əlini onun çiyninə vurub:

– Qəm yemə, bizimki soyulmaqdan gəlibdir, – dedi.

– Hüseyndən acıq etdi, getdi o yoğun ermanı Ayrapetdən aldı. Paluçka alan gün getdi dükana: ay Ayrapet, mən nə apardı? O da çotka aldı: "çörək, pendir, sud, yumurta, vodka, papiros, spiçka, şakar, çay, neft...". Ay Ayrapet, mən sud aparmadı, yumurta aparmadı, vodka heç aparmadı... O dedi, "yox, apardı, danışma!".

– Heç aparmadı?

– Yox, vallah, heç aparmadı.

Araz ciddi bir tövr aldı, əlini Vanyanın çiyninə qoyub dedi:

– Vanya, bizi yaman soyurlar. Gündə on iki saat işləyirik, yenə acıq; aclıq hələ bir tərəfə qalsın, hər gün ölüm qorxusu var. Bir yandan quyular ağzını əjdaha kimi açıb, fəhlələri bir-bir udur, bir tərəfdən də bu mədənçilər, qoçular bir-birindən neft, taxta, boru, qayış oğurlayırlar. Oğrular, işin üstü açılmasın deyə bəzi vaxt fəhlələri də götürüb özləri ilə aparırlar. Bu xozeyinlər varlandıqca acgöz olur. Dünyanı da qazansalar gözləri doymur.

Doğrudan da mədənlərdə oğurluq, qoçuluq gündən-günə artırdı. Ona görə də mədən sahibləri qoçaq, bacarıqlı qarovulçular tutmağa məcbur olurdular. Günəşin qulağı batdımı, kimsə bir buruğun yanından keçə bilməzdi. Qarovulçular onu tutub döyər, səhərə qədər dustaq saxlardılar. Təslim olmayanda aralarında atışma başlardı.

Bir gün Arazın işlədiyi quyunun baltası qırılmışdı. Mədəndə buruq alətlərini təmir edən emalatxana olmadığından qırılan alətləri təmir üçün Bakı stansiyasının yanında olan emalatxanaya aparmaq lazım idi. Podratçı Əhməd o axşam Arazı evə getməyə qoymadı. Ona bir tüfəng verdi. Vanyanı da ona qoşub baltanı emalatxanada təmir etdirməyə göndərdi. Qaranlıq çökmüşdü. Araz Vanya ilə üç-dörd pud ağırlığında olan baltanı götürüb, emalatxanaya gedirdi. Kasparov qardaşları mədəninin yanından keçərkən qarovulçu Sarı Musa ona doğru gələn kölgələri görüncə:

– Ey kimsiniz? Durun! – deyə çığırdı.

Araz əhəmiyyət verməyib, gedə-gedə:

– Qorxma, bizik – deyə cavab verdi.

– Kimsən? Dur, tərpənmə, vurdum!

Araz vəziyyətin ciddi olduğunu yalnız indi anlayıb, yaxındakı buruğun arxasına keçərək baltanı yerə qoydu, baltanın arxasında daldalanıb tüfəngi əlində hazır tutdu. Vanya ona:

– Araz, atma, o bizim nəyimizi alacaq? Görür ki, qırıq baltanı qayıtdırmağa aparırıq, – dedi.

Araz qaranlıqları yaran acıqlı gözlərini ona dikdi:

– Necə nəyimizi alacaq, o bizim baltamızı əlimizdən almaq istəyir.

Qarovulçu yenidən bağırdı:

– Ey kimsən? Yoldan çıx, yoxsa vurdum!

Araz da eyni səslə:

– Sən çıx yoldan, qoy yolumuzla gedək!

– Ey oğlan, sən kimsən?

– Mən mənəm!

– Adın nədir?

– Adım? Araz!

– Hansı kənddənsən?

– Suraxanı kəndindən. Bir de görüm, sən kimsən?

– Mən Sarı Musayam!

– Tanıyıram, de görüm bizim yolumuzu nə üçün kəsirsən?

– Hara gedirsiz?

– Balta qırılıb, onu qayıtdırmağa aparırıq.

– Kimin buruğundan?

– Podratçı Əhmədin.

– Yaxşı, gəlin keçin.

Araz Vanya ilə bərabər baltanı götürüb, yola düşdü. Yaxınlaşınca Sarı Musa diqqətlə Araza baxdı, birdən onun tüfəngini dartıb əlindən almaq istədi. Araz onun bu hərəkətindən acıqlanıb, tüfəngi elə dartdı ki, Sarı Musa az qaldı ağzı üstə yerə dəysin. Sarı Musa özünü doğrulduncaya qədər Araz onun tüfəngindən tutdu:

– Tüfəngi elə almazlar, bax belə alarlar, – deyə gücü gəldikcə burub dartdı və Sarı Musanın əlindən aldı.

Sarı Musa mədənlərdə ən qoçaq qarovulçulardan biri sayılırdı. Bu vaxta qədər heç kəs cəsarət edib onun qabağına çıxmamış və onu belə təhqir etməmişdi. O bu gecə on səkkiz yaşında bir gəncin qüvvət və cəsarəti qarşısında yarpaq kimi titrəmişdi. Qürur və əzəməti qırıldığı halda yenə də bütün qüvvət və iradəsini toplayaraq, heyrətlə bağırdı:

– Ədə, mənim tüfəngimi alırsan?

– Canını da alaram! Sən kimdən artıqsan?!

Sarı Musa acığından titrəyirdi, çünki o bilirdi ki, sabah "Sarı Musanın tüfəngini gecə südəmər bir uşaq əlindən almışdır" sözləri dillərdə dastan olacaqdı. Bunu heç vəchlə öz lovğa mənliyinə sığışdıra

bilmirdi. O bir də Arazın üzərinə atılıb, tüfəngi onun əlindən almaq istədi. Araz tüfəngin qundağı ilə onu elə vurdu ki, o geriyə səndələyərək, yerə sərildi. Araz Vanya ilə baltanı qaldırıb gedərək:

– Boş yerə özünü incitmə, sən məndən tüfəng ala bilməzsən, sabah gəl, tüfəngini apar, – dedi.

Sarı Musa bu cavan fəhlədə olan hünərə heyrət etdi. Vücudundakı bütün ağrıları unudaraq, onu məğlub edən bu uşağın kim olduğunu öyrənmək üçün arxadan bağırdı:

– Ey, qardaş oğlu, de görüm sən kimlərdənsən?

– Neyləyirsən, sabah bilərsən!

– Yox getmə, tanışlıq ver, mənim kimi əjdahanın tüfəngini əlindən alan adamın kim olduğunu bilmək istəyirəm. Sən Allah, de görüm kimlərdənsən?

– Balakişinin oğluyam.

– Aha, Balakişinin oğlu, Atabalanın nəvəsi... Belə de... Yoxsa, bir qoşun gəlsə idi, mənim tüfəngimi əlimdən ala bilməzdi. Rəhmətlik atanla duz-çörək kəsmişəm. Əvvəlindən tanısaydım, nə mən sənin yolunu kəsərdim, nə də sən mənim adımı batırardın. İndi ki, belədir, gəl mənim tüfəngimi qaytar, qorxma, mən sizin nəslə tüfəng atmaram.

Sarı Musanın sözləri, xüsusən onun "əvvəlindən tanısaydım, nə mən sənin yolunu kəsərdim, nə də sən mənim adımı batırardın" – deməsi Arazı düşündürdü. O, tüfəngi yerə qoyub:

– Gəl tüfəngini al, ancaq bizə sataşma, – deyə çağırdı.

Sarı Musa tüfəngi aldıqdan sonra:

– Sənə sataşmaram, arxayın get, bu gecə vaxtında əlinə tüfəng verib, səni buradan vağzala göndərən o it oğlu Əhmədlə sabah yaxşıca danışaram, – dedi.

Araz cavab vermədi. Vanya ona:

– Sağ ol, Araz, mən səni belə bilmirdim, qoçaq oğlanmışsan, – dedi.

Araz:

– Mən hələ heç bir qoçaqlıq göstərməmişəm. Mənim ata-babam xalqı talayan bu quldurlarla ömrü uzunu qoç kimi döyüşmüşdür. Bizi talayan azdırmı? Mən isə onlara hələ heç bir şey etməmişəm.

Hər ikisi qaranlıq gecənin dilsiz sükutu və çiyinlərini əzən baltanın altında uzaqlaşıb gözdən itdilər.

IV

Araz çalışqan, zəhməti sevən, öz qüvvət və məharətinə inanan ciddi və iradəli bir cavan fəhlə idi. Onu heç bir iş qorxuda bilməzdi. Hər zaman iş üstünə bir atlı kimi çapar, işin bağrını yarardı. Mədən işlərinə olan böyük həvəsi sayəsində o artıq ən təcrübəli bir usta olmuşdu.

Araz hər zaman könlünü xoş tutar, kədər və sıxıntıya əsla yol verməzdi. Evdə daş oynadır, qarşısına çıxan olursa güləşir, arabir tay-tuşu ilə birlikdə dovşan, quş və balıq ovuna gedirdi. Onun boru kimi gurlayan səsini, pərdə-pərdə yüksələn şən qəhqəhələrini eşidənlər heyrətlə: "Kasıblıq sənin ürəyinə yol tapmayıb" – deyirdilər.

Araz sadəcə gülümsəyərək:

– Mənim ən böyük düşmənlərimdən biri elə kasıblıqdır. Kişi düşmənə öz ürəyində yer verməz. Ölüncəyə qədər nə kasıblığın, nə də onu mənə calayanların qabağında əyilməyəcəyəm, – deyə cavab verirdi.

Lakin babası Atabalanın faciəli ölümü və anası Anaxanımın vəba xəstəliyindən vəfat etməsi Arazın şən simasına dərin bir kədər pərdəsi çəkmiş, onun daxili aləmində bir fırtına doğurmuşdu. İndi o, mehriban ana nəvazişindən, ana qayğısından məhrum olmuşdu. Ona atalıq edən adam yanında deyildi.

Atabalanın ölümü lap qəflətən oldu. Bir axşam o, evə arabasız qayıtmışdı. Araz təəccüblə:

– Baba, araban hanı? – deyə ondan soruşdu. Atabala gülə-gülə:

– Oğlum, arabaçılığı atdım, – deyə cavab verdi. Bu hadisə Arazı çox sevindirdi; çünki babası yüz yaşını çoxdan keçmiş, sağlam və çalışqan olduğuna baxmayaraq, ömrünün xəzan yeli onun vücudunu qurutmağa, qocalıq nişanələri özünü göstərməyə başlamışdı. Araz dəfələrlə babasına: "Baba, sən qocalmısan, daha sənin işləməyinə razı deyiləm, otur evdə, bir az rahatlan" – deyə yalvarmışdısa da, babası razı olmamışdı. İndi onun öz razılığı ilə işdən çıxması Arazı çox sevindirdi.

Arazın bu qədər sevindiyini görən Atabala əsil həqiqəti ona nağıl etdi:

– Oğlum, mənim canım işlə bərkiyib, mən işsiz qala bilmərəm. Yay, qış bu mədənlərdən şəhərə arabayla nöyüt daşımaq zəhmətli işdir. Gəlirim ancaq heç özümü də görmür. Dünən ramanalı Süleyman yanıma gəlmişdi. Ramanada şaxta quyu qazdırır. Yaxşı da haqq verir. bu gündən onun quyusunda işləyirəm.

Araz atası Balakişinin neft quyusunda qaz partlayışından öldüyünü eşitmişdi. Babasının şaxta neft quyusunda işləməsi ona atasının qaz partlayışından öldüyünü xatırlatdı. Onun üz-gözü dumanlandı, qaşları çatıldı. Kəskin bir səslə:

– Baba, mən səni şaxta quyularda işləməyə qoymaram, – dedi. Bu qoca vaxtında sənin başına bir iş gəlsə, mənim ürəyimə sağalmaz bir yara açar, mən buna razı deyiləm.

Atabala bir an düşündü, sonra başını qaldırıb:

– Oğlum, – dedi, – suqabı suda sınar. Mənim canım Balakişinin canından artıq deyil ki! Sən heç dərd çəkmə.

Araz babasının əlini əlləri içinə alıb, çox yalvardı, fayda vermədi. Uzun sürən danışığın nəticəsi bu oldu ki, Atabala bu quyunu qazıyıb işə saldıqdan sonra əl quyularında işləməyəcəyinə söz verdi. Araz istər-istəməz razı oldu.

Atabala quyunu iyirmi metrə qədər qazmışdı. O gün quyunun orta tərəfi əyilib qarın salladığını gördü. Quyu sahibi Süleymana: "Quyunun yanlarını taxta ilə bərkitmək lazımdır" – deyə, xəbər verdi. Süleyman əyilib quyuya diqqətlə baxdıqdan sonra:

– O qədər də əyilməyib, qorxusu yoxdur, ehtiyat edirsənsə, bərkidərik, – dedi.

Süleyman öz sözündə durmayıb, günü-günə satırdı.

Atabala bu gün yenə Süleymanla sözə gəlib, quyunun bərkidilməsini ondan ciddi surətdə tələb etdi. Onların səsinə, yaxındakı qonşu fəhlələr və qazmaçılar da toplandı. Atabala üzünü onlara tutub:

– Ay adamlar, insafla deyin, indi bu quyuya düşüb işləmək olar? – deyə soruşdu.

Qazmaçılar əyilib quyuya baxdıqdan sonra:

– Bu quyu qarın sallayıb, indicə uçacağam, deyir. Ancaq canından keçən adam girib burda işlər, – deyə bir ağızdan cavab verdilər.

Atabala:

– Mən canımdan keçməmişəm! – deyə qəti etiraz edib, işləmək istəmirdi.

Süleyman dil-dodağını çeynəyərək:

– Müftə işləmirsən ki, şərtimiz var, pul alacaqsan, – deyirdi. Çarəsi kəsildikdən sonra Süleyman arabaçıya üç-dörd araba gil gətirmək üçün pul verdi. Sonra üzünü Atabalaya tutub:

– İndi arxayın oldunmu? – dedi. – Sabahdan quyunun yanları bərkidiləcək, bir günümüz itməsin, əgər kişisən, sözümü yerə salma, bu gün də işlə!

Süleyman ona çox minnət etdi. Atabala istər-istəməz quyuya düşüb, qazmağa başladı. O, acıqlı olduğu zaman çox sürətlə işləyirdi. Hətta o qədər sürətlə işləyirdi ki, torpağı quyudan çarxla çıxaran fəhlə onunla ayaqlaşa bilmirdi, alnından axan təri silə-silə:

– Atabala, yaman acıqlanmısan, acığını qara torpaqdan alırsan, – deyirdi.

İş qızğın surətdə davam edirdi. Fəhlə ağzına qədər basa-basa doldurulmuş bağaranı quyudan çıxarırkən, şiddətli bir gurultu qopdu. Gurultunun şiddətindən o, qorxu içərisində sürətlə geriyə çəkildi.

Bağara, üstünə enən torpağın təzyiqi ilə sürətlə quyuya tərəf gedir və bağaranı çəkən atı geriyə çəkə-çəkə çarxın altına tərəf sürükləyirdi. Özünü itirmiş fəhlə qabaqca arxası çarxın altına girmiş, əlləri havada oynayan atı çarxın altından çəkib çıxardı. Sonra tez quyuya tərəf qaçdı. Quyu uçmuş, heç qazılmamış kimi ağzına qədər torpaqla dolmuşdu. Fəhlə gözləri yaşarmış halda boğuq bir səslə:

– Yazıq Atabala!.. O da oğlu kimi torpağın altında qaldı. Elə bil ürəyinə dammışdı... – deyə başını aşağı saldı.

...Atabalanın faciəli ölümündən bir neçə həftə sonra Bakı kəndlərində vəba xəstəliyi başlandı. Həkim üzü görməyən bu yerlərdə yoluxucu xəstəlik sürətlə yayılıb, çoxlu qurbanlar aldı. Anaxanım da bu qurbanlardan biri oldu.

V

Araz 25 yaşına çatmışdısa da, həyatda çox mühüm məsələ olan evlənmək haqqında hələ düşünməyə tələsmirdi. Yaxın tanışları, qohumları, onunla qapı bir qonşu olan köhnə dostu Əlisəfa dəfələrlə ona evlənməyi məsləhət gördükləri halda, Araz heç birinə qəti cavab verməyib: "Hələ tezdir" – deyirdi. Kiçiklikdən öz əməyi ilə yaşaması, yoxsulluq, ehtiyac ona həyat hadisələrini ölçüb-biçmək, onun müsbət və mənfi cəhətlərini duymaq vərdişini öyrətmiş, onda həyata qarşı tənqidi münasibət oyatmışdı.

O, evlənmək əleyhinə deyildi. Ailə həyatını o hər kəsdən çox sevir, onun bütün insanlar üçün mühüm bir vəzifə və təbii bir qanun olduğunu bilirdi. Ancaq, o öz təbiətinə, vəziyyətinə uyğun bir həyat yoldaşı axtarırdı.

Kənddə Günəş adlı bir qız vardı. Onu yaxın, uzaq kəndlər də tanıyırdı. Ata-anası Günəşi ərköyün böyütmüşdü. O, kişi təbiətli, dəlisov, ətli-canlı bir qız idi. Hər gün iri darvazalarının üstünə çıxıb ayaqlarını sallar, əlindəki iri dəyənəyi darvazanın çərçivəsinə çırpar, yoldan keçənləri seyr edərdi. Dəvəçilərin, arabaçıların haradan gəldiyini, şəhərə nə apardıqlarını soruşar, sonra amiranə bir səslə: "Atam, atam, Allah xeyir versin! – deyərdi. Tanıyan cavanlar onu söylətmədən keçməzdilər. O da lovğa cavanları acı-acı iynələr, hər birinin ayıbını üzünə deyərdi. Onu təhqir edən olursa, ildırım kimi yerə atılaraq əlindəki dəyənəklə hücum edirdi. Ona görə də hər kəs onu acıqlandırmadan sivişib getməyə çalışırdı. Günəşin bu xasiyyətləri hamıya qəribə görünsə də, təmiz əxlaqı, mərdliyi ilə çoxlarında rəğbət oyadırdı. Odur ki, hərdənbir ona elçi gələn də olurdu. Ancaq yaşı iyirmini keçməsinə baxmayaraq, qapısına gələn elçilərin hamısına rədd cavabı vermişdi. Evdə onun bu hərəkətlərindən əsəbiləşir, cəza verir, ancaq heç bir şey ona təsir etmirdi. Anası arabir ona:

– Başın batsın, dəli olduğun üçündür ki, qapımızı elçi tanımır, gələnləri də üzü qara qaytarırsan. Sən bu evdə qurdnan qiyamətə qalacaqsan, – deyərdi.

Günəş isə bu sözləri cavabsız buraxmazdı:

– Elçini neyləyirəm. mən özüm də bir kişiyəm.

Yoldan keçən cavanlar onu qızışdırmaq üçün:

– Günəş, Günəş, bax, hansımızı bəyənirsən, de, sabah sənə elçi göndərək! – deyəndə, onları yuxarıdan acıqlı baxışlarla süzərək: "Atam, atam, tayınızı tapın, mən it-qurd yoldaşı deyiləm" – deyə acıqlanar və əlindəki ağacı qapıya çırpa-çırpa etinasız bir halda fit çalmağa başlardı.

Bir gün kəndin adlı cavanlarından olan Teymur, qapılarının ağzından keçərkən onu görüb:

– Ay qız, sən ata evində qalmaqdan bezikib yorulmadınmı? – deyə soruşdu.

Günəş üzünü yana çevirib, cavab vermədi. Teymur sözünə davam edərək:

– Boş-boş oturub fit çalmaqdansa, toy tədarükündə ol, könlümüz aş istəyir, – dedi.

Günəş:

– Atam, atam, get tayını tap! – deyə cavab verdi.

Teymur gülərək:

– Tayımsan, məndən artıq oğlana gedəcəksən? – deyə kəkələndi.

Günəş əlindəki dəyənəyi havada oynadaraq bağırdı:

– Ey, gözlərini yaxşı aç, itə gedərəm, sənin kimi başı-papaqlıya getmərəm! Yolunu düz get, yoxsa...

Teymur yerə mıxlanmış kimi donub qaldı. Qız onu həm təhqir, həm də təhdid edirdi. Teymur acığını yemək istəməyib, ona ağır bir cavab verməyə hazırlaşarkən arxadan yaxınlaşan Araz gülə-gülə əlini onun çiyninə vurub:

– Doğru deyir, yolunu düz get! – dedi.

Teymur şikayətçi bir səslə:

– Sözlərini eşitmədin? Bu həyasıza nə cavab versəm yaxşıdır? – deyə soruşdu.

Araz başını mənalı-mənalı tərpədərək:

– Eşitdim, eşitdim. çox yerində deyir, – dedi. – Payın idi, aldın! Paltarı yırtılmaq istəməyən meşəyə girməz, mənə nə üçün demir?

Araz kənd qızlarından yalnız Günəşi bəyənmiş, onu sevmişdi. Arabir qapılarından keçərkən müştəri gözü ilə ona baxar, qız da onu görüncə başını aşağı dikərək, gözaltı onu süzərdi. Hər ikisinin arasında başlanan bu gizli məhəbbət gündən-günə artmaqda, alovlanmaqda davam edirdi.

Günəş gələn elçilərə rədd cavabı verdiyindən, Araz ona elçi göndərməyə cəsarət etmirdi.

Gedərkən yolda Araz Teymura:

– Bu qızdan çox xoşum gəlir, – dedi.

– Nəyindən?

– Xasiyyətindən.

Teymur istehza ilə gülərək dedi:

– Onda yaxşı heç nə yoxdur, onunku dəlilikdir!

– Dəlilikləri var, onu əvvəlindən əysəydilər, belə olmazdı.

– O elə tərs kötükdür ki, onu heç fələk də əyə bilməz.

– İnsan əyə bilər.

– Yoxsa öz gücünə güvənirsən? Çətin bir iş deyil, istəyirsən bir təcrübə elə.

– Əymək mümkün olsa, bu kənddə onun kimi qız yoxdur.

Teymur qəhqəhə çəkib güldü, sonra əlini Arazın çiyninə qoyub:

– Zövqünə maşallah, – dedi, – yoxsa bu dəliyə bənd olmusan?

– Yox, doğrudan belədir.

– Səhv edirsən, bu dəlidən heç bir şey çıxmaz, quru odun parçasıdır.

Araz cavab vermədi. Adilikdən xoşlanmayan bu gənc fəhlə, o qızda bəyəndiyi, təqdir etdiyi bir çox gözəlliklər duyurdu. Onun Teymura: "İtə gedərəm, sənin kimi başı papaqlılara getmərəm" – dediyi sözlərdə bir həqiqət görür, silinməmiş, işlənməmiş o paslı gövhərə haqq verirdi. Bir tərəfdən Teymurun: "Yoxsa öz gücünə güvənirsən? Çətin bir iş deyil, istəyirsən təcrübə elə", "Bu dəlidən heç bir şey çıxmaz!" – deyə istehza ilə söylədiyi sözlər onu iynələyir, fikirlərində yanılmadığını isbat etmək istəyirdi. O bilirdi ki, onu istədiyi kimi dəyişdirə bilsə, gözəl bir həyat yoldaşı qazanmış olacaqdı.

Bu fikirlər üç-dörd gün Arazı rahat buraxmadı. Ancaq o, bu məsələnin başqa tərəfini də düşünürdü: əgər Günəşi istədiyi kimi islah edə bilməsə, yaxud göndərdiyi elçilərə rədd cavabı verilsə, o zaman gülünc bir vəziyyətdə qalacaq, hər kəsin ağzında dastan olacaqdır. Bu acı düşüncə, bir qurd kimi onun qəlbini gəmirir, tutmaq istədiyi işdən onu uzaqlaşdırırdı. Ancaq, Günəşdə təqdir etdiyi xüsusiyyətləri, ona qarşı hiss etdiyi hörmət və məhəbbəti ölçüb-biçdikcə bu tərəddüd və şübhə bir anda silinir, qəlbində doğan işıqdan gözləri məşəl kimi yanırdı.

Bu iki fikir arasında davam edən çarpışma uzun sürmədi. Araz yumruğunu havada oynadaraq: "Kişinin sözü bir olar" – deyib, ürəyini açmaq üçün Əlisəfanın yanına getdi.

Əlisəfa Arazın ata-baba qonşusu və uşaqlıq yoldaşı idi. Onun kiçik bir evi, bağı və kəndin yanında bir parça əkin yeri vardı. Öz sənətini sevən, son dərəcə də qənaətkar, ağır təbiətli bir kəndli idi. Az danışmağı, çox qulaq asmağı sevərdi. Bəzən söz arasında qəhqəhə çəkib gülmək lazım gələrkən, o sadəcə gülümsərdi. Hətta öz evində də onun bərkdən güldüyünü, ya uzun-uzadı danışdığını kimsə görməmiş və eşitməmişdi. Kənd içində az-çox hörməti olduğundan, kəndlilərin ümumi işlərinə də qarışırdı. Arazla uşaqlıqdan başladığı dostluğu davam edirdi.

Əlisəfa Arazı səmimi bir dost kimi qəbul etdi. Bir qədər söhbətdən sonra Araz məsələni açdı. Günəşə elçi getməyi ona təklif etdi. Əlisəfa bu sözü eşidən kimi yerindən dik atılıb təəccüblə:

– Bu nədir? – dedi, – Atanın ocağını söndürmək istəyirsən?

– Söndürmək yox, yandırmaq, işıqlandırmaq istəyirəm.

– Atam, ondan ocaq yandıran olmaz. O elə bir bəladır ki, beş gündə ocağını kor qoyar. Bu fikirdən əl çək!

Araz başını sallayaraq, bir an düşündükdən sonra birdən-birə qətiyyətlə:

– Yox, sözüm sözdür! – dedi. – Bu fikrimdən dönən deyiləm!

Araz bu sözləri o qədər qəti dedi ki, Əlisəfa susmağa məcbur olub, artıq bir söz demədi. Arazı bu qərarından döndərməyin mümkün olmadığını gördükdən sonra:

– Yaxşı, gedərəm! – dedi.

Səhəri Əlisəfa elçi getmiş və Günəşin fikrini soruşdurmuşdu. Günəş razılıqla başını yerə dikib: "Araza gedərəm" – demişdi. Qızın ata-anası Əlisəfanı məmnun yola salmışdılar.

Bu söhbətdən on gün sonra kiçik bir toy məclisi Arazı Günəşə qovuşdurdu.

Araz indi yalnız bir şey haqqında düşünürdü: Günəşi islah etmək. Bu xüsusda o bir çox tədbir tökmüş, çarələr düşünmüş və tədricən onları həyata keçirməyi qərara almışdı.

Günlər, həftələr, aylar keçdi. Araz Günəşində nə cüzi bir qüsur, nə də qaba bir hərəkət gördü. Günəş büsbütün dəyişmiş, qılıqlı, nəzakətli və idarəçi bir qadın olmuşdu. Bu ani dəyişiklik hamıda heyrət doğururdu.

Günəşi yaxından tanıyanlar:

– Ay qız, o tutduğun işlər nə oldu, yazıq İsgəndərin evində daşa-divara dırmanırdın, – deyə soruşurkən, Günəş cavabında:

– Ata evi başqa, ər evi başqadır, – deyirdi.

Günəş evin bütün işlərini öz əlinə almış, Arazı hər zəhmətdən azad etmişdi. İşdən dönərkən Günəş onu gülərüzlə qarşılayar, paltarını dəyişdirər, başını, ayaqlarını təmiz yudurdur, yeməyini verir, xörək olmayan günlər şən görünməyə çalışırdı. Sonra bir az rahatlanmaq üçün yatağını hazırlayır, onun üstündə bir uşaq kimi əsirdi. Araz yorğunluğunu aldıqdan sonra Günəş sazı ona uzadıb: "Al bir az çal, oxu ürəyimiz açılsın!" – deyirdi. Sazın, Arazın səsini eşidincə qonşusu Əlisəfa arvadı Pakizə ilə o yoxsul ailənin keçirdiyi bu sadə həyata heyrət edirdilər.

Hər gün Arazı işə yola salandan sonra Günəş öz yoxsul daxmasında səhərdən-axşama kimi çalışırdı. Onun yaradan əlləri kiçik, alçaq otaqların quruluşunda, çılpaq və tənha əncir ağacından ibarət olan bağçada böyük bir dəyişiklik əmələ gətirmişdi. Otaqların üst tərəfini götürüb, divarları bir arşın qədər ucaltmış, küçəyə iki pəncərə açdırmışdı. Bağçaya tut, əncir, püstə ağacları, qızılgül, yasəmən fidanları

əkmiş, evi, həyəti intizama salmışdı. Araz bunları gördükcə fərəhlənir, "doşab almışam bal çıxıb" – deyirdi.

İKİNCİ FƏSİL

Üfüqü narıncı rəngə boyayan günəşin işıq və hərarəti azalmağa başlamış, axşam sərinliyi çökmüşdü. Qonşular Əlisəfanın qapısı yanındakı narın qum təpəsinin üstünə yığışıb söhbət edirdilər. İki qardaş – Qulu ilə Həsən arasında çəkişmə davam edirdi. Böyük qardaş Həsən deyirdi:

– Ay qardaş, bu bizim ata-baba əkin yerimizdir, Allah verib neft xəzinəsi çıxır. Gəl bu yeri satıb kasıblığın daşın ataq!

Qulu Həştərxan xoruzu kimi boynunu dik tutaraq, qardaşının fikri ilə razılaşmırdı.

– Yox, fələk də ayağını yerə dirəsə, mən bu yeri satmayacağam!

– Sən bu adamlardan ağıllısan? Hamı satır, sən niyə satmırsan? Nəyi gözləyirsən? Hay, hay, özün qazdırıb milyonçu olacaqsan? De görüm, hansı pulla?

– Mən bu yeri satmağa qoymaram, şərikli qazmağa müştəri çıxsa, razıyam.

– Ay bədbəxt oğlu bədbəxt, sən müştəri tapınca qırğı Bağdadı aşar. Gecə-gündüz işləməkdən ilan kimi qabıq qoyuram. Sən özün məndən də pis gündəsən. Hələ müştəri tapıla, quyu qazıla, nöyüt çıxa... hay, hay! Ölmə eşşəyim, yaz gələr, yonca bitər.

– Bu qədər dayanmısan, bir az da dayan!

– Mən dayana bilmirəm, ay adamlar, siz də əhvalatı bilirsiz. Bizim bir parça yerin dörd yanım qonşular qazmırlar?

– Qazırlar, hamısı da ürəyin istəyən qədər neft verir.

Araz sözə başlayaraq dedi:

– Doğrudur, o yer neft xəzinəsidir. Bilirsənmi, sənin yerinin dörd tərəfi qonşu buruqlarıdır. Hamısı da sənin yerinin neftini çəkib aparır. Bir-iki il belə keçsə, o yerə bir nəfər də müştəri çıxmaz!

Həsənin kiçik, qara gözləri qalın qapaqları içində birdən-birə parıldadı. Gövdəsini irəli verib:

– Bəs mən nəyi deyirəm? Vaxt ikən satıb başdan eləmək lazımdır! müştərisi də başı üstündə, sizin qonşu Dadaşovdur, – dedi.

Bu vaxta qədər sükutla iki qardaşın çəkişmə və deyişməsini dinləyən Əlisəfa nəhayət dilə gəldi:

– Gec-tez o yeri satıb, ya qazdırıb siz də varlanacaqsınız. Hambal-lıq Arazla mənə qalacaq.

Araz əli ilə Əlisəfanın dizlərinə vurub dedi:

– Düz demirsən, keçən ildən sən də qazanc yolunu tapmısan. Bi-zim alın təri ilə qazandığımız qəpik-quruş hara gedir? Hamısı sənin dükanında ərimir? Qoyun kimi hər yerdə soyulan ancaq bizik.

Əlisəfa qaşlarını çataraq, boğuq bir səslə:

– Nə üçün soyulursuz? – deyə soruşdu. Ət verirəm, qənd verirəm, çay, çörək verirəm, qiymətini alıram.

– Bilirəm, bilirəm, o elə bir tələdir ki, ehtiyac bizi öz ayağımızla o tələyə salır.

Qulu mənalı baxışlarla Arazı süzərək, söhbətə qarışdı:

– Siz kimsiniz?

Araz əli ilə ətrafı göstərərək:

– Bax, bu ətraf kəndlərdə yaşayan, yaxın, uzaq ölkələrdən öz zəh-mətini satmaq üçün bura gələn minlərlə mənim kimi kasıb, ac fəhlə...

Qulu Araza etiraz etdi:

– Elə demə, Araz, Allaha xoş getməz. Diş verən çörəyini də verə-cək. Hər kəsin alnına nə yazılıb o olacaq. Hamı varlı olmaz ki... Elə olsa bəs bu qara işləri kim görər? Bunların hamısı Allahın hökmüdür.

Araz Qulunun bu sözlərinə qəhqəhə ilə güldü. Qulu qəhqəhədən pozuldu.

– Yalan deyirəm? Nə üçün gülürsən?

– Hələ mədən sahibi olmamış, ac fəhlə olduğun halda bir sahibkar kimi danışdığın üçün!

– Bu gün ac olsam da, gec-tez mədənçi də olacam, milyonçu da. Bilirəm ki, torpağımda xəzinə yatır.

– Mən də bilirəm ki, hər xəzinə üstündə bir ilan yatır. Mən o ilan-lardan özümü qorumağı bacarıram.

Bu söz Quluya pis təsir etdisə də, Arazın təbiətini bildiyi üçün ağır cavab verməkdən qorxaraq:

– Allah o ilanlara bərəkət versin, onlar olmasa biz acından ölərik! – dedi.

Araz istehza ilə güldükdən sonra başını tərpədərək:

– Doğrudur, sənin kimi öz gücünə, zəhmətinə inanmayanlar ölər! – dedi.

Əlisəfa məsələnin başqa şəkil alacağını görüb, söhbətin mövzusu-nu dəyişdirmək fikri ilə Arazın sözünü kəsdi:

– Qulu, sən bu işi gəl uzatma! – dedi. – Həsən yaxşı deyir, ya bu neft yerini sat, vaxt ikən başdan elə, ya da şərikli qazmağa tez bir müştəri tap. Yoxsa dörd tərəfdən qazılan qonşu buruqları o yerin neftini elə əmər ki, südü sağılmış inəyə dönər. O vaxt nə alan olar, nə də şərikli qazdıran.

Bu sözdən Həsənin yarasının üstünə köz basıldı:

– Ay camaat, siz də şahid olun, neçə ildir bu sözü ona deyirəm, amma sözümü heç saymır. Daha bəsdir, mənim torpağımda xəzinə yata-yata uşaqlarım acından ölür, özüm də it günü keçirirəm. Xalq mənə töhmət etsə də, mən öz hissəmi ayırıb satıram. Qulu öz hissəsini neylirsə özü bilsin. Buna nə deyirsiniz?

Əlisəfa barışdırıcı bir əda ilə Həsəndən soruşdu:

– İşdir, torpağı bölüşməli olsaz hansı tərəfi Quluya verərsən?

– Gün çıxan tərəfi...

Qulu yerindən kükrədi:

– Xeyr, o yeri özünçün saxla, sonra deməzsən ki aldatdım?

– Yaxşı, qoçaq, sən hansı tərəfi istəyirsən?

– Sən böyük qardaşsan, həm də mömin, Allah bəndəsi bir adamsan. Mən o tərəfi sənə verirəm...

Həsən bu sözdən hiddətləndi:

– Ədə, səni böyüdən mən, bu yerə çatdıran mən, indi isti aşıma soyuq su qatırsan?

– Soyuq su nə üçün qatıram, o bir parça torpağın, o da sən, kimə istəyirsən sat!

– Ay nadürüst, sən bilmirsən ki, bu torpağın yaxşı müştərisi Dadaşovdur, o öz mədəninə səmt olan tərəfi istəyir?

– Onu da bilirəm, bizim torpağın dörd bir tərəfində qazılan hər buruğun nə qədər neft verdiyini də bilirəm. Məni aldada bilməzsən. Arazdan soruş, o sənə hamısını desin.

İki dizi üstündə oturub onların çəkişmələrini dinləməkdə olan Araz varlanmaq həvəsində olan bu qardaşların aqibətini görürmüş kimi başını mənalı-mənalı tərpədərək cavab vermədi. İki qardaş arasında torpaq üstündə olan mübahisə getdikcə qızışıb, axırda bir dava şəklini aldı. Əlisəfa onları güc-bəla sakit etdi.

Bu əhvalatdan üç gün sonra Qulunun əkin yerinə taxta-şalban tökülüb, sürətlə buruq qurulurdu. Qulu bunu eşidib-bilincə başı alovlu mədənə gəldi. Podratçı Şeydanı görüncə üstünə kükrədi:

– Mənim torpağımda nə deyib buruq salırsan? Bu ixtiyarı sənə kim verib?

Onun ağzı köpüklənə-köpüklənə söylədiyi sözlərə Şeyda əsla əhəmiyyət verməyib, fəhlələrə əmr verməkdə davam edirdi. Qulu bundan daha da hiddətlənərək, səsi çıxdığı qədər bağıra-bağıra:

– Bu saat bu taxta-şalbanları buradan götürün! – dedi. – Od vurub yandıracam! Yoxsa elə bilirsən dünya dərəbəylikdir?

Qulu atılır, düşür, çığırır, Şeyda isə ona əhəmiyyət də verməyib, öz işinə davam edirdi. Acığından Qulunun bütün vücudu titrəyir, daralmış köksünə sığmayan qəlbi az qala partlayırdı. O nə edəcəyini bilmirdi. Birdən çəkici götürüb, yeni vurulmaqda olan taxtaları söküb dağıtmağa başladı. Şeyda artıq susa bilmədi. Onun qolundan tutub hiddətlə:

– Çıx buradan! Çıx deyirəm! – deyə bağırdı.

– Çıxmayacağam! Sən çıx mənim yerimdən! Atalar yaxşı deyib: Yersiz gəldi, yerli qaç!

– A kişi, bu yer sənindir, kimindir, mən ona qarışmıram. Aslan bəyin əlində notariusdan verilmiş kağız var, sən ha de mənimdir, sənin ağzına baxan kimdir?

Bu sözlərdən Qulu donub qaldı, sonra əvvəlkindən daha şiddətli bir səslə qışqırdı:

– Bu bəylərin evi yıxılsın! Yoxsa mənim yerimi öz adına saldırıb?

– Mən bilmirəm, get özüylə danış!

Qulu qızardı, bozardı, daş kimi donub hərəkətsiz qaldı. Başını aşağı dikib düşünərkən həyatın ağırlığını bütün vücudu ilə hiss etdi. O çox gözəl bilirdi ki, çar hökuməti ancaq bəylərin torpağına dəyməmişdir. Hökumət özü isə əkin yerlərinin bir hissəsini götürüb buruq qazdırmaq üçün icarəyə verir. Kəndli torpaqlarını da bəylər yavaş-yavaş öz adlarına keçirib mənimsəyirlər. O, ancaq indi əli əkin yerindən çıxmış kəndlilərin halını düşündü. Arazın "Qoyun kimi hər yerdə soyulan ancaq bizik" sözlərinin mənasını ancaq indi anladı. Quluda alverçilik damarı vardı. O, xəsis, tamahkar, heç bir şeyə güzəştə getməyən tərs bir adam idi. Yumruğunu havada oynadaraq:

– Şeyda, bu hayıfı mən yerdə qoymayacam, Allah ya sizə verər, ya mənə, – deyərək çıxıb getdi.

Qulu əl çəkmədi. Aslan bəylə görüşmək üçün dəfələrlə şəhərə getdi. Aslan bəy onu qəbul etmədi. Qulu qapıdan əl çəkmədi. Aslan bəy evdən çıxarkən onu küçədə yaxaladı. Əvvəlcə yumşaqlıqla əhvalatı ona anlatdı. Aslan bəy gülümsəyərək:

– O torpağı hökumət mənə veribdir, – dedi.

Qulu şəriətə əl ataraq:

– Bəy, sən özün də bilirsən ki, o yer ata-babadan bizim yerimizdir, – dedi, – sən ona necə sahib dura bilərsən? Buna şəriət yol verməz axı!

Aslan bəy vəziyyətini pozmayıb:

– Şəriətin bura dəxli yoxdur, – dedi, – hökumət mənə torpaq verir, mən necə qəbul eləməyim?

– Yox, belə deyil. Hökumət çağırıb sizə torpaq paylamır. Siz özünüz əlləşib min yolla özgə adamların əkin yerlərinə yiyələnirsiniz.

– Hər yolla olur-olsun, torpaqdan kim əl çəkər? Rusların bir məsəli var; verirlər al, döyürlər qaç!

Qulunun bütün ümidi qırılıb qolları yanına düşdü. Nə edəcəyini, nə deyəcəyini bilmədi. O özünü toplayaraq:

– Bəy, bu işin axırı yaxşı olmayacaq, ölsəm də ata-baba torpağından əl çəkməyəcəyəm! – deyərək ondan uzaqlaşdı.

II

Çar üsuli-idarəsi bütün xalqlar kimi Azərbaycan xalqını da iqtisadi, mədəni cəhətdən öldürmək, ona canlanmaq, dirçəlmək imkanı verməmək üçün min bir şərait hazırlayırdı; kəndlərdə, şəhərlərdə təsərrüfat, sənaye və mədəniyyət işlərini tərəqqi və inkişaf etdirmək yerinə zülm və istibdad qurdları olan pristav, naçalnik, qubernator və qradonaçalniklər təyin edir, rüşvət düşkünü olan bu çar quyruqları yerli bəylərlə, burjuaziya ilə əlbir olub, xalqın başına bəla kəsilirdi. Buna görə də hər tərəfdən əzilməkdə. boğulmaqda olan və heç bir yandan ümid və qurtuluş yolu görməyən kütlə cana doyub bəzən əsaslı, mütəşəkkil mübarizə əvəzinə yanlış yollara sapırdı. Bu surətlə cinayət, oğurluq və qoçubazlıq gündən-günə artır və güclənirdi. Xalqı iqtisadi və siyasi cəhətdən öldürmək və mədəniyyətdən uzaqlaşdırmaq işində rüşvət və cinayət yuvası olan kənd və şəhər məhkəmələri də az rol oynamırdı. Bunların hamısı müəyyən bir plan daxilində görülürdü.

Dövrün zəhərli meyvələrindən biri də qoçubazlıqdı. Çar siyasətinin müdafiə etdiyi bu qara qüvvə özlərini qorumaq üçün bəylərə və sərvətdarlara da lazım idi. Belə ki, ticarət və sənaye işlərində onlara əngəl olan şəxsləri ortadan qaldırmaq, yaxud özlərini düşməndən qorumaq üçün hər biri mədəndə və evində qoçu saxlayır, bu surətlə

qoçuluq get-gedə yeni bir qazanc mənbəyinə çevrilirdi. Hökumət və məhkəmə məmurlarının verdikləri haqsız qərarlar, rüşvət alıb qatilləri buraxmaları, iki qanlı arasında kin və ədavəti daha da kəskinləşdirir, hər iki tərəfin qohum-əqrəbasını başına toplayıb bir-birini məhv etməsinə səbəb olurdu.

Çar hökumətinə yalnız Azərbaycan nefti lazım idi. Yavaş-yavaş ayılmağa, öz hüququnu düşünüb anlamağa başlayan xalqın, fəhlə sinfinin gələcəyi onu qorxudurdu. Üzdə özünü dost kimi göstərən çar hökuməti gizlində xalqın kökünü qazıyırdı. "Mən səni çox istərəm, bir yanını boş istərəm" atalar sözünü o yüz qat artıqlaması ilə həyata keçirir, xalqın bir yanını deyil, iki yanını da boş görmək üçün üsullar, tədbirlər axtarırdı. Çar hökuməti bir zaman bütün Azərbaycan xalqını Sibirə köçürüb yerinə rus mühacirləri gətirmək istəyirdi. Bu iş baş tutmadığı üçün o indi Azərbaycan xalqını göstərdiyimiz yollarla məhv etməyə çalışırdı. Siyasət və mədəniyyətdən məhrum olan yerli bəy və sərvətdarlar da öz şəxsi mənafeləri üçün bu azğın siyasəti həyata keçirməkdə, düşmənin yandırmış olduğu bu yanğını yelpikləyərək alovlandırmaqda ona kömək edirdilər.

Belə bir mühitdə yaşayan Qulu Aslan bəydən ayrıldıqdan sonra çox düşünüb daşındı, lakin bir ümid və qurtuluş yolu tapmadı. O, bilirdi ki, haqsızlıq və rüşvət yuvası olan məhkəmələr də ona kömək etməyəcəkdir. Ümidi hər tərəfdən qırıldıqdan sonra qəlbində kin odu alovlandı, intiqam almağa qərar verdi. Ancaq bu intiqamı necə almalı idi? Ailə, çoluq-çocuq var. Həm də məhkəmə qurdları ağzını iri-iri açıb rüşvət istəyəcək. Bütün bunları düşündükdən sonra: "ah, yoxsulluq" – deyə inlədi. İntiqam almaq üçün başqa bir yol düşündü. Axtardığını tapan adamlara məxsus bir sevinclə üz-gözü işıqlandı. Artıq ona ümid və qurtuluş hissi verən bir yol tapmışdı. Bu ümidlə üç-dörd arşın ağ bez alıb, onu kəfən kimi biçdi. Axşamüstü birbaşa qəssab Daşdəmirin evinə getdi.

Daşdəmir qoçuluqda şöhrət qazanmış varlı bir qəssab idi. Son zamanlar qardaşını dükanda qoyub özü sallaqxananı icarəyə götürmüşdü. Üç qardaşından başqa bir çox əlaltı qoçuları da vardı.

Qulu qapını döydü. Qapını təxminən qırx yaşlarında olan xidmətçi bir qadın açdı. Onun önlüyündən xidmətçi olduğunu bilib:

– Ağan Daşdəmir evdədirmi? Onu görəcəyəm! – dedi.

Xidmətçi qadın qapını örtüb xəbər üçün getdi. Qulu tez çuxasını çıxartdı. Biçdiyi kəfəni əyninə geydi. Bu zaman qadın cavab üçün qa-

yıtdı. Qulunu kəfən içində görüncə qorxub geri-geri çəkildi və şübhəli baxışlarla onu süzərək:

– Ağa buyurur içəri gəlsin, – dedi. Qulu pillələri basa-basa dəhlizə və oradan zala girdi. Daşdəmir stol yanında ayaq üstə, əlini mauzerinin üstə qoyub qonağı gözləyirdi. Qulu içəri girər-girməz iki əlini yuxarı qaldırdı, titrək və yalvarıcı bir səslə:

– Qapına gəlmişəm, Daşdəmir, ölümü yerdən götür! – deyə başını sinəsinə dikib durdu.

Daşdəmir ona heyrətlə baxaraq:

– Nə var? Nə olub? – deyə soruşdu.

Qulu başını qaldırıb, yenə yalvarıcı bir səslə:

– Daşdəmir, ya məni öz evində öldür, ya mənim dərdimə bir çarə elə! Ürəyim partlayır, ciyərim parçalanır! – dedi.

– Axı bir de görüm, nə var!

– Mənim ata-babadan qalma bir parça əkin yerim var. Aslan bəy rüşvətlə o yeri notariusda öz adına saldırıbdır. İndi gözüm baxa-baxa mənim yerimi qazdırır. Başına dönüm, Daşdəmir, mənə çarə! Ya öldür, ya qurtar! Mən bu dərdə dözə bilmərəm.

Daşdəmir gözlənilməz bir vəziyyətdə qaldı. Onun evinə kəfən geyib gələn bu qonağın xahişini yerə salmaq olmazdı. Daşdəmir ayaq üstə, əli mauzerdə olduğu halda, üç-dörd dəqiqə dayanıb düşündü. Sonra üzünü Quluya tutub:

– Yaxşı, get üç gün sonra sənə cavab verərəm, – dedi.

Qulu qapıdan çıxarkən:

– Başına dönüm, Daşdəmir, bu yaxşılığı eləsən, sənə satınalma qul olaram, – dedi.

III

Qulu Aslan bəyi, onun atası Rəhim bəyi çox yaxşı tanıyırdı. Rəhim bəy kəndin adlı-sanlı bəylərindən sayılırdı.

Çar hökuməti Qafqazı istila etdikdən sonra Azərbaycan bəyləri ruhanilərin kafir adlandırdıqları yeni dövlətə bir müddət isinə bilmədilər. Vəziyyəti belə görən Rusiya dövləti bəyləri öz tərəfinə çəkmək məqsədi ilə bir sıra tədbirlər gördü. Azərbaycan bəyləri öz sədaqətlərini bildirmək üçün o zaman çara bir teleqraf vurdu və öz aralarında seçmiş olduqları dörd-beş bəyi, o cümlədən Rəhim bəyin atası Mah-

mud bəyi Peterburqa göndərdilər. Mahmud bəy hökumətə sədaqət göstərdikdən sonra onun qapısında dar ağacı asıldı. O, hökumətə asi olan, böyük cinayət yapan adamları asdırır, bundan böyük zövq alırdı. Mahmud bəyin vəfatından sonra oğlu Rəhim bəy sərvət və əmlakı öz əlinə aldı.

1861-ci ildə təhkimçilik üsulu dəyişdikdən sonra başqa yerlərdə olduğu kimi Azərbaycanda da hökumət öz siyasətini dəyişdirdi; bəylərin nüfuzunu qırmaq, öz üsuli-idarəsini möhkəmləndirmək fikri ilə bəylərin ixtiyarını aldı, kəndlərə, qəzalara koxa, kəndxuda, pristav və naçalniklər təyin etdi, xalq çar məmurlarını tanımağa başladıqdan sonra, bəylərin keçmiş nüfuz və hörməti gündən-günə azalmağa, ticarət işləri canlandıqca əmlak və sərvəti əlindən çıxmağa, gəlir mənbələri getdikcə qurumağa başladı.

Bu vəziyyət xalqın əməyi ilə yaşamağa alışmış olan bəyləri istər-istəməz yaşadığı mühitə uyğun bir ticarətə girişməyə məcbur etdi. Abşeron yarımadasında neft yerləri meydana çıxdıqdan sonra başqa bəylər kimi Rəhim bəy də fürsətdən istifadə edərək, ümid verən sahələri mənimsəməyə başladı. Lakin buruq qoymağa əcəl ona aman vermədi. Rəhim bəy öldükdən sonra oğlu Aslan atasının mülkünə sahib oldu. Özünün buruq qoymağa gücü olmadığından bir-iki parça neft yerini satdı. Sonra ən etibarlı yerdə buruq qazdırdı. Sel kimi axmaqda olan qara qızıl sayəsində Aslan bəy böyük dövlət və saman[1] sahibi oldu. Kənd həyatı onun zövqünü təmin etmədiyindən, kənddəki evini bacısı Humaya verib, özü şəhərdə yeni aldığı mülkə köçdü.

Başqa mədənçilər kimi şəhərdə kontor açdı, yavaş-yavaş şəhər həyatını, burjuaziyanın adət və təbiətini mənimsəməyə başladı. Kluba və bələdiyyəyə üzv olmaq sərvətdarlar arasında böyük bir şərəf sayılırdı. Qumar, əyyaşlıq və sairə ən çox məşğul edən əyləncələr idi. Aslan bəy şəhər varlıları ilə sıx əlaqə yaradıb, yaxşı münasibətə girdikdən sonra bunların hamısını əldə etməyə müvəffəq olmuşdu.

Daşdəmir Quluya kömək etməkdə bir şey itirmirdi. Hər iki tərəfdən əldə edəcəyi qazancı zehnində ölçüb biçirdi. Əlavə olaraq, bir tərəfdən onun evinə kəfən geyib gəlmiş Qulu hər yerdə bu işi açıb söyləyəcək, digər tərəfdən Aslan bəy kimi əjdaha ilə pəncə-pəncəyə çarpışaraq, nəhayət, onu məğlub etməklə şəhərdə və kəndlərdə şöhrəti bir qat daha artacaqdı.

[1] Sərvət, dövlət

Daşdəmir işi əvvəlcə sülh yolu ilə həll etmək istədi. Öz kiçik qardaşı Zamanı Aslan bəyin yanına göndərdi. Aslan bəy: "Bir parça əkin yerini hökumət mənə veribdir, geri qaytarsam yaxşı düşməz. Hökumət məndən narazı qalar" demişdi.

Zaman qayıdıb Aslan bəyin cavabını söylədikdə Daşdəmir körük kimi qızarıb:

– Sən bir buna bax, mənə də yalan satır, heyvan özünsən! – deyə bağırdı.

Daşdəmir qardaşını bir də göndərdi. Bu dəfə Aslan bəy demişdi: "Kəndliyə neft yeri nə gərək. Daşdəmir nə üçün belə işlərə qarışır?"

Daşdəmir bu işin sülh yolu ilə həll olmadığını görüncə, başqa bir yol seçdi. Əlaltı qoçulardan üç nəfər çağırıb əmr etdi:

– Bu gecə Aslan bəyin mədənə tökdürdüyü taxtalar oğurlanacaq!

Səhər mədəndə hamı bir-birinə dəymişdi. Podratçı Şeyda qarovulçunun üstünə bağırıb deyirdi:

– De görüm, gecə sümsük it kimi harda sülənirdin? Taxtalar hanı?

Qarovulçu and içib deyirdi:

– Ay Şeyda, bu gecə səhərə qədər əlimdə tüfəng mədənin dörd bir tərəfini gəzib qarovul çəkmişəm. Bir dəqiqə də gözümə yuxu girməyib.

– Necə qarovul çəkmisən ki, bu qədər taxtanı daşıyıb aparıblar, xəbər tutmamısan?

– Mən də ona təəccüb eləyirəm. Bu zalım oğlu cindir, şeytandır, nədir?

Aslan bəyə xəbər getdi. Aslan bəy bu daşın kimin tərəfindən atıldığını bildiyi üçün səsini çıxarmadı.

Sabahı gün Aslan bəyin quyularından birinin motoru yox oldu. Şeyda acığından dil-dodağını çeynəyir, qarovulçuya ağzından gələni deyir, "motorun qiymətini sənin maaşından çıxacağam" – deyə onu hədələyirdi.

Şeyda oğrunu axtarmağa başladı. Bu xüsusda Aslan bəylə görüşərkən, şeyləri Qulunun oğurladığına hökm verdi. Aslan bəy qaşlarını çataraq:

– Yox, mən oğrularımı tanıyıram. Sən ehtiyatlı ol, mən özüm bu işə əncam çəkərəm, – dedi.

O gecə Aslan bəy Daşdəmirin dayısı Kərimi onun yanına minnətə göndərdi. Daşdəmir dayısının nə üçün gəldiyini dərhal duydu. Onu çox hörmətlə qəbul etdi, Kərim öz fikrini ona açmamış Qulunun qapısına kəfənlə gəldiyini təfsilatı ilə söylədi, sonra əlavə edərək dedi:

– Mən o gecə özümə söz verdim ki, atam da minnətə gəlsə sözünə baxmayacam. O kişinin torpağı özünə çatmalıdır.

Kərim Daşdəmirin təbiətini bildiyi üçün Aslan bəy haqqında bir kəlmə də söz açmadı. Dayı ilə bacı oğlu bir qədər danışdıqdan sonra Kərim qalxıb getdi.

Üçüncü gün mədəndə Şeydanın səsi yenə ətrafı bürümüşdü. Qarovulçunun kölgəsinə bağıra-bağıra söyüb deyirdi:

– Bu zalım oğlu hardadır? Gəlsin mənim itiyimə cavab versin. Fil boyda dəzgah oğurlanır, onun xəbəri olmur. Yəqin bu oğurluqda özünün də əli var.

O çox çığırdı, bağırdı, qarovulçu tapılmadı. Axırda acığa düşüb:

– Bu saat onu tapıb gətirin, bu dəfə mən onunla başqa cür danışacağam! – dedi.

Qarovulçunu çox axtardılar, tapılmadı. Oğrular gecə onu da dəzgahla bərabər götürüb getmişdilər. Onu ancaq üç gün sonra buraxdılar.

Şeyda yeni qarovulçu tutmaq məqsədi ilə Arazın yanına getmiş, onun bu xam xəyalı da baş tutmamışdı.

Aslan bəy bu qədər təhqir və təhdidə dayana bilmədi. Məhkəməyə şikayət etdi. Daşdəmir ona: "Məni məhkəmə ilə qorxutmasın, məhkəmələrdə o bildiyi yolları mən ondan da yaxşı bilirəm. Hələ bunlar nədir? Onu evində yatdığı yerdə döşəyi ilə oğurlayacam!" – deyə xəbər göndərdi.

Aslan bəyin hər yandan çarəsi kəsildi. O, məhkəmələrin qoçularla da əlbir olduğunu gözəl bilirdi. Daşdəmirlə bacara bilməyəcəyini, nəhayət, başına bəla açacağını düşünərək, Qulu ilə barışmağa qərar verdi. Ertəsi gün səhər tezdən mədənə getdi. Qulunu kənd mollası axund Mirzə Mehdinin evinə çağırmağı Şeydaya tapşırdı.

Qulu Aslan bəyin mədənində baş verən əhvalatlardan hər gün böyük bir sevinclə xəbər tuturdu. Odur ki, onu axund Mirzə Mehdinin evinə nə üçün çağırdıqlarını o saat başa düşdü. Ona görə yolda gedərkən hansı şərtlərə razı olacağını əvvəlcədən qərarlaşdırırdı. Aslan bəy və Mirzə Mehdi Qulunu çox hörmətlə qarşıladılar. Mirzə Mehdi riyakar bir əda ilə sözə başladı:

– Qulu, Aslan bəy əhvalatı mənə müfəssəl bəyan etdi. Atası mərhum Rəhim bəy kimi o da bu məsələni şəriətlə həll etmək fikrindədir. Mən sizi barışdırmaq istəyirəm, sən buna nə deyirsən?

– Axund, mən Aslan bəyi birinci gün şəriətə çağırdım, o qaçdı.

– Əlbəttə, əlbəttə. biz müsəlmanıq, müsəlman kişi rus məhkəməsinə qaçmaz, şəriət qapısına gedər. İndi sən məni öz tərəfindən vəkil edirsənmi?

– Nə üçün?

– Sizi şəriət yolu ilə barışdırmaq üçün.

– Nə şərt ilə?

– Mən hər ikinizə əlverişli şərt qoyaram.

Aslan bəy qətiyyətlə:

– Axund, mən səni öz tərəfimdən vəkil edirəm, – dedi.

Qulu şübhəli baxışlarla hər ikisini süzərək:

– Burda nə şərt ola bilər? Torpağımı özümə qaytarsın, barışım.

Aslan bəy bu sözdən qaşlarını çataraq cavab vermədi. Axund Mirzə Mehdi bəyin bu sözdən pozulduğunu görüncə:

– Qulu, bu barışmaq qaydası deyil, sən haqsızlıq edirsən, – dedi.

– Nə üçün haqsızlıq eləyirəm? Öz torpağımı istəyirəm!

Aslan bəy dayana bilməyib bağırdı:

– A kişi, sənin torpağın yoxdur, bunu bir kərə qan, torpaq mənimdir!

– Yox mənimdir! Heç bir şərtə razı deyiləm, torpağımı qaytaracaqsan!

– Bilirəm səni danışdıran nədir. Mənə də Aslan bəy deyərlər, get, gücün varsa al!

Qulu ayağa qalxdı. Ağzı köpüklənə-köpüklənə:

– Mənə də Qulu deyərlər, ya öləcəyəm, ya bu torpağı səndən alacağam, – deyərək getmək istədi.

Mirzə Mehdi iki dizi üstə qalxıb qışqırdı:

– Qulu, Qulu, sən şərti bilməmiş işi pozursan, bu yaxşı iş deyil, kişi beş min manat pul verir.

Qulu acı-acı gülərək:

– Çox sağ ol, altında xəzinə yatan torpağı beş min manata versəm el mənim üzümə tüpürər. Mənim torpağımı qaytarsın, başqa heç bir şərtə razı deyiləm, – deyib qapıdan çıxdı.

Axund Mirzə Mehdi onu çox çağırdı. Qulu dönmədi.

Aslan bəyin ümidi burada qırıldıqdan sonra, hansı şərtlə olursa-olsun Qulu ilə barışmağa qərar verdi. Daşdəmirin: "Onu yatdığı yerdə döşəyi ilə oğurladacağam" sözünün ona çox baha oturacağını bilirdi. Oradan mədənə gəlib, Şeydanı bir də Qulunun dalınca göndərdi. Qulu bu dəfə ümidsiz və könülsüz gəldi. Öz-özünə deyirdi ki, "Naşükürlük

edib beş min manatı almaram, ip də gedər, it də". Aslan bəy onunla görüşən kimi sözü mətləbdən başlayıb:

– Qulu, gəl tərsliyi burax, – dedi, – mən doğrudan sənինlə barışmaq istəyirəm. De görüm bu torpağı nə şərtlə mənə verərsən?

– Bəy, mənim şərtim budur, ya torpağımı qaytar özümə, ya da şərikli qazdıraq!

– Şərikli nə şərtlə qazdıraq?

– Necə ki, başqaları qazdırır. Quyunu sən qazdır, nə qədər neft çıxsa yarısı sənin, yarısı mənim.

Aslan bəy istehza ilə gülərək dedi:

– A kişi, mən ölü eşşək axtarıram ki. ayağından nalını çıxardım, sən mənim dərimi də soymaq istəyirsən? "Yarısı mənim, yarısı sənin" nədir? Ağzın isti yerdədir. Notariusdan əlimdə sənəd ola-ola mən öz torpağımı sənինlə əlli faizə qazdırsam, mənə nə deyərlər. Belə görürəm ki, bizim sövdamız baş tutmayacaq. İndi ki, belə oldu, mən o yeri qazdırmıram. Hələlik qoy qalsın. Bir zaman kefim gələndə qazdıraram. Öz torpağımdır, get, əlindən nə gəlir, elə!

Qulunun beynində şimşəklər oynadı. Bir an düşündükdən sonra:

– Bəy, sənin şərtin nədir? – deyə soruşdu.

Aslan bəy etinasız:

– O şərtdən sonra sənin qabağına nə şərt qoyum?

– Yenə, sən də öz şərtini de!

– Mənim şərtim budur: sənə ancaq iyirmi faiz verəcəyəm. Mədənin podratçılığını sən öz üstünə götürmək şərti ilə.

– Podratçılığı mənə nə üçün verirsən?

Aslan bəy ciddi bir tövr alaraq, inandırıcı bir tərzdə:

– Mal sahibi öz işinin üstündə olsa yaxşıdır, – dedi.

– Mənim mədən podrata götürüb qazdırmağa pulum hanı? Köpüyə güllə atıram.

– Sənin ancaq adın podratçı olacaq. Pulu mən verəcəyəm, işi sən aparacaqsan. Həm də altı aya quyunu qazdırıb qurtarmalısan.

Uzun çəkişmədən sonra Aslan bəy çıxarılacaq neftin otuz faizini Quluya verməyə razı oldu. Müqavilənamədə Qulunun quyunu altı aya qazdıracağı, bütün işləri öz üzərinə götürəcəyi və Aslan bəyin Quluya on səkkiz min manat pul buraxacağı qeyd edildi.

Qulu işə başladı. Aslan bəy ona çeklə bankdan hələlik səkkiz min manat pul buraxdırdı. Qulu taxta-şalban aldı, usta qazmaçılar, fəhlələr çağırdı, qarovulçu tutdu. Lakin iş əvvəlindən düz gətirmədi. Elə birin-

ci gün taxta-şalbanın hamısı oğurlandı. Qulu başı odlu hər yana qaçdısa, bir şey çıxmadı. Taxta-şalban tapılmadı ki tapılmadı. Qulu qarovulçunu qovub yerinə başqa qarovulçu tutdu.

Oğurluq yenə əvvəlki kimi davam edirdi. Podratçılıq və mədən işlərinə bələd olmayan Qulu başını tamam itirmişdi. Bu xüsusda Aslan bəylə görüşərkən Aslan bəy: "quyu qazdırmaq, buruq qoymaq sənə asan gəlir? – deyə soruşmuşdu. – Mən qorxuram ki, sən bu işi başa vura bilməyəsən. Zərərləri isə üstümə götürən deyiləm!"

Qulu işdən daha möhkəm yapışdı. Gecə-gündüz mədəndən ayrılmadı. Motor, şlanq, balta, boru, dəzgah və başqa şeylər üçün Aslan bəy bankda yenidən beş min manat kredit açdı, Qulu həmin şeyləri aldı. Fəhlələr onları quraşdırıb, quyunu qazmağa başladılar. Oğurluq yenidən şiddətləndi. Bir gecə bütün borular, üç gün sonra qayışla motor yox oldu. Qulu oğrunu tapmaq üçün çox çalışdı, bir çox mədənləri gəzdi, lakin faydası olmadı. Təzə qarovulçunu da işdən qovdu. Şeylərin bir hissəsi gündüz oğurlandığından şübhələnib qarovulçunun sayını artırdı. Şeylər isə yenə də yoxa çıxırdı. Oğurlanan şeylərin əvəzinə yenilərini almaq lazım gəlirdi. Amma onun adına açılan kredit ərimiş olduğundan bu şeyləri almağa kifayət etmədi. Qulu ikinci dəfə Aslan bəyə müraciət etməyə məcbur oldu. Aslan bəy bu dəfə qaşlarını çataraq acıqla:

– A kişi, məgər mən xəzinə üstündə oturmuşam? – dedi. – Bankda mənim nəqd pulum yoxdur. Tacir babayıq, pulumuzu bir yerdə saxlamaq bizə əl verməz. Mən pullarımı neft birjasında aksiya almağa buraxmışam. Qorxuram bu quyunu verəcəyi qazancdan da baha başa gətirəsən?

Qulu düz bir həftə Aslan bəyin yanına ayaq döydü, getdi, gəldi, axırda birjada satmaq üçün Aslan bəy ona beş min manat aksiya buraxdı. Oğurlanan şeyləri almağa hazırlaşırkən, Daşdəmirin qardaşı Zaman Qulunun yanına gəlib:

– Daşdəmir deyir mənə on iki min manat pul göndərsin, çox lazımdır, – dedi.

Qulu ona:

– İndi pulum yoxdur. Buruq hələ qazılıb qurtarmayıb. Neftimiz çıxanda mən özüm Daşdəmirin xəcalətindən çıxacağam, – dedi.

– Daşdəmir deyir ki, Aslan bəyin bankda onun adına açdırdığı kreditdən versin. Sonra özü Aslan bəylə hesablaşar.

Qulu ağır vəziyyətdə idi. Bir tərəfdən böyük qardaşı Həsən məhkəməyə şikayət edib, ondan öz haqqını tələb edirdi, o biri tərəfdən də

Aslan bəy itən şeylərin pulunu Qulunun ayağına yazdırdığından onun adına açdırdığı kredit borc olaraq boynunda qalmışdı. Pul xərclənib gedir, ortada isə heç bir şey yoxdur. Oğurlanmış şeylərin əvəzinə yenisini almaq, quyunu yoluna qoymaq mümkün deyildi. Aslan bəy də ona daha borc pul buraxmayacaqdı. Bunlardan başqa qazmaçı Rəşidə işlədiyi gündən bəri pul verilməmişdi. Qulu onu bu günə qədər "bu gün-sabaha" salıb, başını bir tövr aldatmışdı. İndi Rəşid də öz haqqını tələb edir, quyuda işi dayandıracağını bildirirdi. Qulu bunların hamısını düşündükdən sonra yumşaq bir səslə:

– Zaman, sənin başın üçün mənim adıma bankda pul qalmayıb. Doğrudur, Aslan bəy mənim adıma kredit açdırmışdı, mən o pullara mədən üçün lazım olan şeylər aldım. Bu saat özüm məəttələm, – deyə cavab verdi.

Zaman qaşlarını çataraq getdi. Onun acıqlı getməsi Qulunu çox qorxudurdu. Qulu öz-özünə: "Zalım oğlu yaxşılıq elədi, ancaq qılıncını yaman yerdə siyirdi" – deyə düşünməyə başladı.

Qulu çox yaxşı başa düşürdü ki, onun başına gələn bütün bu oyunların hamısı Aslan bəyin kələkləridir. İşi yarımçıq qoymaq, yeni podratçı tutmaq isə mümkün deyildi. Aslan bəy buna heç vəchlə razı olmayacaqdı.

Birja, neft kralı Nobelin əlində bir oyuncaq idi. O istədiyi vaxt neftin qiymətini ucuzlaşdırır, istədiyi vaxt da bahalaşdırırdı. Bir neçə xarici ölkə ilə ticarətə girişdiyindən, ona çox neft lazım idi. Kiçik mədən sahiblərini iflasa uğratmaq və onlardan ucuz qiymətə neft almaq üçün istədiyi vaxt birjada aksiyaları qiymətdən salırdı.

Aksiyaların birjada ucuzlaşdığını Aslan bəy öyrənmişdi. Ona görə də Quluya nəqd pul əvəzinə beş min manatlıq aksiya buraxmışdı.

Qulu birjaya gəldi. Aksiyalar otuz faiz ucuzlaşmış olduğundan Aslan bəyin ona beş min manat əvəzinə verdiyi aksiyaları ancaq otuz beş faiz aşağı satmaq olurdu. Neyləsin? Quyunu tez qazdırmaq lazım idi. Fəhlələr işsiz qalmışdı. Qulu məcbur olub aksiyaları satdı. Mədənə lazım olan şeyləri aldı.

Quyu yenidən qazılmağa başladı.

Pul yenə qurtarırdı. Ustalar, fəhlələr, qarovulçular pul istəyirdi, həm də mühəndis çağırıb quyunun daha neçə sajen qazılacağını aydınlaşdırmaq lazım idi. Bütün bunlar üçün xeyli pul lazım idi. Müqavilənaməyə görə Aslan bəy 18 min manatı verib qurtarmışdı. Hətta sonuncu beş min manatı Qulu güc-bəla ilə ondan qopardığı zaman As-

lan bəy ona: “Borcumu verib qurtardım, bundan sonra pul üçün mənim yanıma gəlmə!” – demişdi. Lakin pulsuzluq və ehtiyac Qulunu yenə Aslan bəyə müraciət etməyə məcbur etdi.

Qulu Aslan bəyin yanına getdi. Aslan bəy ona:

– Mənim daha pulum yoxdur. Aksiyalar birjada otuz beş faiz aşağı düşüb. Mən aksiyalarımı su qiymətinə satıb sənə pul verə bilmərəm! – dedi.

Qulu oradan evə başı alovlu gəldi. Arvadı Dilarə ona bir parça kağız uzadıb:

– Al, bunu sənə gətirdilər, – dedi, – məhkəməyə çağırırlar. Sənin məhkəmələlik nə işin var?

Qulu kağızı alıb, o tərəf-bu tərəfinə baxdıqdan sonra, bir kəlmə danışmadan evdən çıxdı. Onu üç gün sonra qardaşı Həsənlə aralarında olan torpaq davası üstündə məhkəməyə çağırırdılar.

Qulu məsləhət üçün Aslan bəyin yanına gəldi, məsələni açıb ona söylədi. Aslan bəy bu əhvalatı çoxdan bilirdi. Həsən isə onu qorxutmurdu. Qulunun acgözlüyünü bildiyindən onu qorxutmaq üçün:

– Qulu, bizim işimiz heç gətirmir, – dedi, – bu quyu lap başımıza bəla oldu. Bir ətək pul tökmüşük, amma hələ heç yüz sajen də qazılmayıb. Bu tərəfdən də qardaşın Həsən dava başlasa quyunun işi, demək Allaha qalır.

– Mən neyləyim, mənə bir tədbir tök, çarə elə.

– Məhkəməyə pul basıb Həsənin əlini torpaqdan tamam çıxarmalısan! Bunun üçün saxta sənədlər, vəsiqələr lazımdır. İndi hər şey pulla aşır, dava vəkili Yunus bəyin yanına get, o sənə hər yolu öyrədər.

Qulu dodağını çeynəyə-çeynəyə dedi:

– Dərd pul dərdidir, var ki, verəm?

Aslan bəy istehzalı bir əda ilə:

– Beş yüz məhkəməyə, üç yüz də vəkilə bassan, iş qurtarıb gedər, – dedi. Qulunun dinmədiyini görən Aslan bəy:

– Yəni bir səkkiz yüz manatın da yoxdur? – deyə soruşdu. – Daha nə kişisən? Pul basmasan Həsən işi aparar. Get min manata veksel ver, pulunu al, qardaşınla işini qurtarıb gəl mədən haqqında danışaq.

Qulu o gün veksellə min manat alıb, Yunus bəyin yanına getdi. Onun vasitəsilə məhkəmə işini də gördü. Saxta sənədlər, vəsiqələr hazırlandı. Üç gün sonra hər iki qardaş məhkəmə qarşısında durmuşdu.

Məhkəmə hər ikisini danışdırdıqdan sonra Həsənin şikayətini rədd etdi.

Həsən məhkəmə idarəsinin qapısından çıxarkən Quluya dedi:

– Sən bu ata-baba torpağımızı əlimdən çıxartdığın kimi öz əlindən də çıxartdın. Aslan bəy səni iti qovan kimi qovacaq.

Qulu istehza ilə:

– Mən o yolları bilirəm, sən get öz dərdini çək! – dedi.

İş məhkəmədə qurtardıqdan sonra Aslan bəy Qulunu tanımaq da istəmədi. Onunla heç bir əlaqəsi olmayan yad bir adam kimi görüşürdü. Bir gün Qulu yenə mədən məsələsi üçün onun yanına gəldikdə Aslan bəy dedi:

– Nobelin evi yıxılsın, aksiyaları ucuzlaşdırıb bir tərəfdən aksiyaları, bir tərəfdən də nefti ucuz qiymətə yığır. Bax, çənlərim dolub daşır, pullarım da aksiyalarda yatır. Öz fəhlələrimə verməyə pul tapmıram. Sən də bir ətək pulu bu quyuya tökdün, bir şey çıxmadı.

– Bəs quyunun işi nə olacaq? – deyə Qulu Aslan bəyin düz gözünün içinə baxdı. Aslan bəy əllərini havada oynadaraq:

– Onu heç mən də bilmirəm, – dedi. – O gün fəhlələr hücum çəkib evə gəlmişdi. Onları bir təhər sakit edib yola saldım. Çox həyasızlıq etsən aksiyalar qiymətə minənə qədər quyuda işi dayandırmalı olacağam.

– Nobel belə gəldi, aksiya belə getdi... Bu sözlərlə mənim qarnım doymaz, Aslan bəy, mən acam, de görüm mən neyləyim?

– Sənin qarnını da mən boynuma götürməmişəm ki. Acsan, get başqa bir iş tap, mən sənə pul verə bilməyəcəyəm!

– Mədəni qazdırmaq üçün borc buraxdığın veksellərin də vaxtı yaxınlaşır. Mən onları hardan verəcəyəm?

– Qulu, kəndlidən tacir olmaz! Sən get yerini ək, inəyivi sağ!

– Allah sizin evinizi yıxsın, bizdə yer, inək qoydunuz ki, yer əkib inək sağa biləк? Yox, görürəm sən mənimlə başqa cür başlamısan.

– Necə başlamışam? Sənə iki buruğun pulunu buraxdım, de görüm, neylədin? Oğurlanan şeylərin qiymətini sənin ayağına çıxacağam. Quyunun içindəki şlanqları, baltanı, mədəndəki dəzgahı və alətləri də oğurlatsan atamızın evi yıxılar. De görüm, üstündə qarovulçu varmı?

– Var, o da pul üçün gəlib getməkdən məni təngə gətirib, həyasızın biridir. “Acam, mənim pulumu ver!” deyə yaxamdan əl çəkmir.

Aslan bəy bir az düşündükdən sonra:

– Sən sabah mədəndə ol, mən də gələcəyəm, orda danışarıq – dedi.

Qulu səhər tezdən mədənin yanını kəsdirmişdi. Qarovulçu Vəli onun başı üstündə durub:

– Bu saat mənim pulumu ver, burax gedim! – deyirdi. – Uşaqlarımı acından öldürməyəcəksən ki? Belə də zülm olar?! Sən quyu qazdıracaqsan, mədən sahibi olacaqsan, mənə nə? Gücün yoxdur, qazdırma.

Qulu canını dişinə tutub ona cavab vermirdi.

Aslan bəy gəldi. Vəli onu görüncə fürsəti fövtə verməyib, Quludan şikayətə başladı. Aslan bəy üzünü Quluya tutub:

– Nə üçün bu kişinin pulunu vermirsən? – deyə soruşdu. – Acqarına bu sənə necə qarovul çəksin?

Vəli ürəklənərək diliuzunluğa başladı:

– Sağ ol, bəy, inan ki, üç gündür acıq. Gəlib Quludan pul istəyirəm, mənə yaman deyir. Deyirəm pul vermədiyin bəs deyil, hələ bir mənə yaman da deyirsən? O daha da acıqlanıb: "Sus, köpək oğlu, səni öldürrəm!" – deyir.

Aslan bəy simasını ciddiləşdirərək:

– Yox, belə olmaz! Bu kişinin pulunu ver! Yoxsa bu mədəndən sənə mədən olmaz, – deyib getdi.

Qulu Aslan bəyin "sabah mədəndə ol, orada danışarıq" sözünü tamamilə başqa mənada anlamışdı. O elə bilirdi ki, Aslan bəy mədənə baş çəkib, quyunun qazılmasına yenidən pul buraxmaq istəyir. Onun bu günkü hərəkəti Qulunu lap acıqlandırdı. Aslan bəy getdikdən sonra Qulu da qalxıb getmək istədi. Vəli onun başının üstünü alıb:

– Acam, tez ol, mənim pulumu ver! – deyə haqqını tələb etdi. Qulu nə qədər dil tökdüsə mümkün olmadı. Axırda acığa düşüb:

– Çəkil deyirəm, yoxsa bu saat meyitini sərərəm! – deyərək çıxıb getdi.

Vəli onun arxasınca:

– Getmə, gəl şeylərini təhvil al, mən qarovulçuluqdan çıxıram, – deyə bağırdı.

Qulu gedə-gedə:

– Ayağını oradan bir yana atsan od vuraram! Nə itsə səndən alacağam, – deyə qışqırdı.

Səhər qonşu mədənlərin fəhlələri bir-birinə dəymişdi. Şeyda o yan-bu yana qaça-qaça:

– Zalım oğlu, öldürrəm deyə-deyə, axırda yazıq qarovulçunu öldürdü, – deyə qışqırırdı. – Onun qanı halaldır.

Vəlinin öldürülməsi fəhlələr arasında böyük həyəcana səbəb olmuşdu.

Polis idarəsinə xəbər verildi. Akt yazıldıqdan sonra polis nəfərləri Vəlinin meyitini götürüb apardılar.

Qulu bu işdən xəbər tutunca, özünü başı alovlu mədənə saldı. Fəhlələr ona hücum edib:

– Zalım oğlu zalım, kişinin pulunu vermədiyin bəs deyil, hələ özünü də vurub öldürürsən? Bu sənə baha başa gələcək! – deyə qışqırdılar.

Qulu nə qədər "onu mən öldürməmişəm, xəbərim yoxdur" – deyə and içdi, aman etdisə inanmadılar. İş böyüdü. Qulunu həbs etdilər. Bir ay sonra məhkəmə işə baxıb, onu on il müddətinə sürgün etdi. Qulunun veksellərinin vaxtı çatdıqda mədən torqa qoyuldu. Aslan bəy mədəni torqdan götürüb, yenidən işə başladı.

IV

Bir gün Araz Aslan bəyin mədəni yanında qazmaçı Rəşidlə danışırdı. Aslan bəy onların yanından keçərkən acıqlı-acıqlı Araza baxdı, birdən nəyi isə xatırlamış kimi ayağını saxlayıb, əmredici bir səslə:

– A gədə, bura bax, bir də sən mənim fəhlələrimlə danışma! – dedi.

– Bu əmri heç sənin dədən Rəhim bəy də verə bilməz! Mən istədiyim zaman, istədiyim adamla danışmışam, danışacağam da, – deyə Araz təmkinlə cavab verib, söhbətinə davam etdi.

– Mən əmr eləyirəm! Sən mənim fəhlələrimlə danışmayacaqsan! Yoxsa onları da yoldan, dindən çıxarmaq istəyirsən?

– Mən onları yoldan çıxarmıram, düz yola salıram. Sən iki qardaşı şeytan kimi bir-biri ilə vuruşdurdun, torpaqlarını əllərindən çıxartdın, axırda da qarovulçunu öldürüb Qulunun boynuna atdın. Kişini yurdundan didərgin saldın... Mən sənin bu işlərindən danışıram.

Aslan bəyin gözləri acığından az qala yerindən çıxacaqdı, o, ayaqlarını yerə çırpıb:

– Çəkil mənim gözümün qabağından! Çəkil deyirəm sənə! – deyə var gücü ilə qışqırdı. – Böhtan demək sənin köhnə adətindir.

– Sən çox ayaqlarını mənim üçün yerə döymə! Bil ki, mən də sənin üçün yerə döysəm, qabağımda dura bilməzsən, bunu bilirsənmi? Özü də mən yalan demirəm, sən adam öldürən deyilsən, adam öldürdənsən. Pul verib qarovulçunu öldürtdüyün adamı da tanıyıram.

Aslan bəy Arazın fəhlələr arasında böyük hörməti olduğunu bilirdi. Odur ki, məsələni dərinləşdirməmək üçün Araza cavab vermədən uzaqlaşdı. Araz onun arxasınca hədə ilə:

– Dayan bir, gör sənin başına nə gətirəcəyəm – dedi.

Aslan bəy Qulunun başına gətirdiyi işləri, qarovulçunu öldürtməsini Arazın haradan bildiyinə heyrət etdi, Arazı yaxşı tanıdığı üçün onun "dayan bir" – deyə hədələməsi Aslan bəyi yaman qorxutdu. Ona görə də Arazı yox etmək üçün tədbirlər düşündü.

Ertəsi günü Araz əlli-altmış nəfər fəhlənin arasında Aslan bəyin iki qardaş arasında düzəltdiyi düşmənçiliyi, Qulunun əlini mədəndən çıxarmaq üçün qarovulçunu öldürtməsini açıq-açığına danışdı. Onun sözləri fəhlələri bərk həyəcana gətirdi.

Bu əhvalatı Aslan bəyə xəbər verdiklərindən o, başlamaq istədiyi işdən qorxub çəkindi. Fəhlələrin həyəcanını yatırmaq, özünü təmizə çıxarmaq məqsədi ilə yerli polis müdirinə pul basdı: "Hökumət və mədənçilər əleyhinə təbliğat aparıb, fəhlələri yoldan çıxarır" – deyə şeytanlayıb Arazı tutdurdu. Bu hadisə fəhlələr arasında böyük həyəcana səbəb oldu. Onlar öz aralarından üç nümayəndə seçib, Arazı buraxdırmaq, onun haqsız tutulduğunu sübut etmək üçün polis müdirinin yanına göndərdilər. Bu xüsusda Aslan bəy ilə də ciddi və kəskin bir dillə danışdılar. Lakin bunların heç bir nəticəsi olmadı. Nümayəndələr Arazın işlədiyi mədənin sahibi Qasım bəyin yanına getdilər. Aslan bəyin fitnəsinə qarşı etiraz edib, Arazın azad edilməsini tələb etdilər. Qasım bəy Arazı azad etdirməyə söz verdi. Aslan bəyin ona xəbər vermədən Arazı tutdurması Qasım bəyə bərk toxunmuşdu, amma o hələlik səsini çıxartmırdı. Fəhlə nümayəndələrinin Aslan bəy haqqındakı fikirlərini bildikdən sonra, Arazı azad etməyə qərar verdi. O bununla həm fəhlələr arasında hörmət qazanmaq, həm də onun fəhləsi olan Arazı ona xəbər vermədən tutduran Aslan bəyə öz qüvvət və nüfuzunu göstərmək istəyirdi. Qasım bəy həmin gün polis rəisinin yanına gedib, Arazı nə üçün tutduğunun səbəbini soruşdu. Rəis nə qədər səbəb göstərdisə, Qasım bəy qəbul etməyib, o səbəblərin tamamilə puç olduğunu sübut etdi. Sonra əlini stola çırparaq:

– Bu saat mənim fəhləmi azad elə! – deyə qışqırdı. – Yoxsa buradan birbaş şəhər hakiminin yanına gedib, səndən şikayət edəcəyəm!

Qasım bəydə tacirlik damarı daha qüvvətli idi. Var-dövlətini artırmaq üçün gecə-gündüz müxtəlif yollar düşünüb, yeni qazanc mənbəyi tapırdı. O, banklarda çox az pul saxlayırdı. Puluna ya neft aksiyası alır, ya buruq qazdırıb işi başa çatdıra bilməyən mədənçilərə ağır faizlə borc pul buraxırdı ki, bu vaxt mədən də onun yanında girov qoyulurdu. Mədənçilər veksellə aldıqları pulu vaxtında vermədikləri zaman

qanun üzrə o, mədənləri öz adına keçirib, onlara sahib olurdu. Onun Sabunçu və Ramanada beş-altı mədəni vardı.

Qasım bəyin var-dövlətinin çoxluğu ona hökumət məmurları yanında böyük hörmət qazandırmışdı. Odur ki, Qasım bəy əlini stola çırpdığı zaman polis idarəsinin rəisi işin böyüməsindən qorxuya düşüb, Arazı azad edəcəyini ona söz vermişdi.

Arazın tutulması Günəşi sarsıtmışdı. Dağ gövdəli, aslan ürəkli bu qadın on beş gün içərisində çox dəyişilmişdi. "Arazı uzaqlara, Sibir çöllərinə sürgün edərlərsə onsuz necə yaşayaram?" deyə ağlayır, Aslan bəyə qarğıyırdı. Şiddətlə əsən külək incə, kövrək bir ağacı burub büküdüyü kimi, bu acı düşüncələrdən o ikicanlı qadının qəlbində doğan fırtına da bütün vücudunu sarsıdır, qəlbini yarpaq kimi titrədirdi.

O gün Arazın ailəsində yeni bir üzv də artacaqdı. Hər dəqiqə, hər saniyə yeni uşağın dünyaya gələcəyini gözləyən mama Günəşi kürsüyə oturdub, ona ürək-dirək verirdi. Günəş ağrı çəkərkən belə Arazı unutmurdu. Bütün qohum-qardaş başına toplanmış olduğu halda onun qəlbi açılmır, üzü gülmürdü, sinəsində daş kimi bərkimiş bir ağrı qabırğalarını məngənə kimi sıxırdı.

Arazın azad olması belə bir günə və saata təsadüf etmişdi. O, qapıdan içəri girincə ilk əvvəl gözlərini dünyaya yeni açan uşağının səsini eşitdi. Mama uşağı əlində tutub ətrafındakılara:

– Gözünüz aydın olsun, oğlandır! – dedi. Maşallah buz baltasıdır, poladdır, polad!

Arazın gəlməyindən kimsənin xəbəri yox idi. Araz dayana bilməyib qapının ağzından:

– Gözün aydın olsun, Günəş, oğlumun adını Polad qoydum, – dedi.

İllər keçdikcə Bakıda neft sənayesi sürətlə inkişaf edirdi. Bakı Rusiyanın mühüm sənaye və inqilab mərkəzlərindən birinə çevrilirdi. Zəngin və tükənməz neft yataqlarını öz geniş sinəsində bəsləyən Abşeron yarımadası Azərbaycan kəndlərindən, Rusiyanın yaxın və uzaq guşələrindən, Qarabağdan, Zəngəzurdan, qonşu Dağıstan və Cənubi Azərbaycandan axın-axın fəhləliyə gələn ac və yoxsul adamlara öz qoynunda yer verir, onları gələcək mübarizələrə hazırlayırdı.

1897-ci ilin sakit gecələrindən biri idi. On dörd gecəlik ay, ətrafında şən və oynaq uşaqlar kimi dişlərini ağardan ulduzlar gah parçaparça uçuşan seyrək buludlar arxasında gizlənir, gah da öz parlaq simalarını yenidən göstərir, sanki yerdəki insanlarla gizlənpaç oynayırdı.

Araz işdən yenicə qayıtmışdı. Bərk yorğun idi. Bununla belə bu gün mədəndə fəhlələrlə mədən sahibi Qasım bəy arasında baş verən toqquşma bir an belə onun xatirindən çıxmırdı. Arazı sevindirən bu idi ki, fəhlələr artıq öz ehtiyaclarını cəsarətlə deməyə, hüquqlarını anlamağa başlamışdılar. Onlar artıq başa düşürdülər ki, əl-ələ vermədən, qasımbəylərə qarşı birgə vuruşmadan qalib gələ bilməyəcək, həyatlarını yaxşılaşdıra bilməyəcəklər. Araz bu məsələlər ətrafında çox düşünür, lakin heç bir nəticəyə gələ bilmir, aydın bir çıxış yolu tapmırdı.

O bu düşüncələr içərisində ikən küçə qapısı döyülməyə başladı. Araz qapının döyülməsindən, gələn adamın tanış adam olduğunu yəqin etdi, böyüyüb ərsəyə gəlmiş oğlu Poladı qapını açmağa göndərdi. Çox çəkmədən Polad geri qayıtdı və gələn adamın Vanya əmi olduğunu bildirdi. Araz yerindən sıçrayıb həyətə çıxdı. Nə qədər etdisə Vanya içəri girmədi. Onlar əncir ağacının altında oturdular.

Vanya çox şad görünürdü. Onun üz-gözü gülürdü. Yeni bir xəbərlə gəldiyi aydın hiss olunurdu. Lakin Araz öz təmkinini pozmur, dərin maraq içində Vanyanın gözlərinə baxır, ondan heç bir şey soruşmamağa çalışırdı. Əncir ağacının qalın yarpaqları arasından süzülən ayın parlaq şüaları onların üz-gözünü işıqlandırırdı.

Vanya Arazın sağ əlini iki əli ilə bərk-bərk sıxaraq:

– Dostum, sənə xoş bir xəbər gətirmişəm, – dedi, indi səni təbrik etmək olar. Bu gün Sabunçu "sosial-demokrat" dərnəyinə qəbul olunmaq üçün verdiyin ərizəyə baxdıq. Bütün dərnək üzvləri sənin haqqında çox yaxşı danışdılar. Sənin mərdliyin. düzlüyün və fəhlələr arasında qazandığın hörmət haqqında danışanlara dərnəyin rəhbəri Azad yoldaş böyük maraqla qulaq asırdı. Axırda o da sənin haqqında danışdı. Bir səslə səni bu gün öz sıralarımıza qəbul etdik.

Araz birdən-birə nə deyəcəyini bilmədi. Sevincindən gözləri parlayır, öz təşəkkürünü bildirməyə söz tapmırdı. Nəhayət, Araz həyəcan içərisində ayağa qalxdı, əlini Vanyanın ovucları içərisindən çıxartdı, onu qucaqlayıb, polad kimi möhkəm qolları arasında sıxaraq:

– Sağ olun, çalışaram ki, sizin başınızı həmişə uca edim, – sözlərini deyə bildi.

Vanya Arazın yanında çox qala bilmədi. Araz nə qədər dil-ağız edib, ondan evə keçməyi, heç olmasa bir stəkan çay içməyi xahiş etdisə də, Vanya razılıq vermədi. Dərnəkdən aldığı tapşırıqları yerinə yetirmək üçün getməli olduğunu bildirdi.

Vanya xudahafizləşib getdikdən sonra Araz çox şad bir halda otağa daxil oldu. Atasının kefini kök görən Polad sevinib, gülə-gülə:

– Çox şirin danışırdınız, Vanya əmi deyəsən təzə xəbərlə gəlmişdi? – deyə soruşdu.

– Yaxşı başa düşmüsən. Vanya əmi lap təzə və şad xəbərlə gəlmişdi., – deyə Araz gülümsəyən gözləri ilə oğluna baxdı, lakin bu təzə və şad xəbərin nə olduğunu demədi. O nə isə düşünürdü.

Arazın sosial-demokrat dərnəyində iştirak etməsi onun siyasi şüura malik bir fəhlə kimi inkişaf etməsinə kömək edirdi. O, çarizmi yıxmaq üçün tətil və üsyanlar haqqında dərnəkdə eşitdiklərinin nə qədər doğru olduğunu düşünür, fəhlə tətili və nümayişlərinin gücünü qiymətləndirirdi. Xüsusilə, bir neçə gün əvvəl Bir may münasibəti ilə Stepan Razin təpəsi yaxınlığında təşkil edilmiş nümayiş ona çox yaxşı təsir bağışlamışdı. Bakı sosial-demokratlarının rəhbərliyi ilə keçirilən bu nümayişdə fəhlələrin göstərdiyi həmrəylik Arazda bu əzəmətli qüvvəyə olan inamı bir qat daha artırmışdı. Odur ki, Araz getdikcə mədən sahibləri və çar məmurları ilə daha sərt rəftar edir, onlara qarşı olan nifrətini büruzə verməkdən çəkinmirdi.

Bir gün Araz, Vanya və onların dostu fəhlə Qriqor mədənin yaxınlığındakı kiçik bir qayanın ətəyində oturub dərnəyin tapşırıqlarını yerinə yetirmək üçün tədbir tökürdülər. Bu vaxt kiçik hesabdar Mixail Mixayloviç oradan keçirdi. Araz gülə-gülə:

– Ey, xozeyin, gəl görək, nə var, nə yox – deyə onu səslədi.

Yoldaşları gülüşdülər. Mixail Mixayloviç onların yanına gəlib:

– Xozeyin sizsiniz ki, padşahla padşahlıq edirsiniz, – dedi. – Bütün işçiləri onunla vuruşmağa çağırırsınız.

Vanya ona dik-dik baxaraq:

– Bəsdir, biz bu aclığa, bu haqsızlığa son verməliyik, – dedi. – Bizi gecə-gündüz acqarına bu insafsız xozeyinlərə işləməyə məcbur edən müstəbid hökuməti kökündən yıxmaq lazımdır.

Mixail Mixayloviç istehza ilə gülərək:

– Vanka, sən həmişə belə tərs-tərs danışırsan, – dedi. – Bu danışıqlardan isə siz çox şey itirir, bir şey qazanmırsınız, – dedi.

Araz bu söhbətə qarışmaya bilməzdi. O, həmişə fəhlələr arasında sazişçi, barışdırıcı bir əhvali-ruhiyyə yaymağa çalışan Mixail Mixayloviçə bu dəfə də cavab verməyi lazım bildi:

– Mixail Mixayloviç, sən səhv edirsən, o gün fəhlələrin yığıncağında gözəl nitq söyləyən bir inqilab rəhbəri məzlumların davasına çox yüksək qiymət verdi. O dedi ki, fəhlələrin dostu Marks demişdir ki, sinfi mübarizədə sizin itirdiyiniz ancaq zəncir, qazandığınız isə bütün dünya olacaq. O gündən bu sözlər yadımda qalıb. Ancaq Mişa, bu sözlər sənin başına girməz, çünki sən Qasım bəyin ayda 25 manatına qulluq edirsən.

Qriqor Arazın sözlərini təsdiq etdi:

– Xozeyinlər biz fəhlələrin qanını sorduqları kimi, sənin tək kiçik işçilərin də qanını sorurlar. Ancaq öz haqqınızı düşünməyə və onu müdafiə etməyə sizdə hələ o şüur yoxdur.

Mixail Mixayloviç dodaqaltı mırıldanaraq:

– Əlbəttə, Vanya kimi vətən xainlərinin sözü sizin üçün çox qiymətlidir, – dedi. – Sizləri bunlar yoldan çıxarır.

Araz bu sözləri eşitcək barıt kimi partladı:

– Ey, Mişa! Dodaqaltı mırıldanma, sözün var, kişi kimi açıq de. Bilirəm, sən Vanyanı çarı sevmədiyi, bizim kimi kiçik millətlərlə dost olduğu üçün təqsirkar hesab edirsən. Ancaq səhv düşünürsən. Rusiyada indi bütün fəhlələrin, məzlumların vəziyyəti bir cürdür. Səni, Vanyanı və bir çoxlarını öz doğma yerlərinizi buraxaraq, bu mədənlərə gəlib işləməyə nə vadar etmişdir? Aclıq!.. Sən bunu düşünürsənmi?

Vanya əlini Arazın çiyninə qoyub:

– Haqqın var, Araz, – dedi. – Bizim düşündüyümüz vətən məfhumu bu padşahpərəstlərin başına girməz! Onlar başqa xalqlarla qul kimi rəftar etməyə adət etmişlər.

Mişa bir az düşündükdən sonra:

– Padşahla padşahlıq eləmək olmaz, – dedi. – Axı dağ kimi bir hökumətə siz nə edəcəksiniz?

Vanya:

– O sənə elə görünür, – deyə cavab verdi, – onun bütün gücü, qüvvəti səndən asılıdır. Ona qüvvət verən sən özünsən.

– Vallah, siz özünüz də nə dediyinizi bilmirsiniz, – deyə Mişa başını bulayaraq, çıxıb getdi.

Araz onun arxasınca:

– Sən bir buna bax, – dedi, – acından sapsarı saralıb, bizim ac bəylər kimi ürəyindən ağalıq keçir. Xalq içində bir misal var: “Şahqulunun bağı var, heyvası yox, narı yox”.

Vanya bir qədər düşündükdən sonra:

– Hələ bizim içimizdə öz gücünə inanmayan fəhlələr az deyil, – dedi. – Bunlara öz hüququnu başa salmaq, dost-düşmənini tanıtdırmaq bizdən nə qədər səbir, iradə, mətanət istəyir.

Bu əhvalatdan üç gün sonra Vanya ilə Araz tənəffüs zamanı buruğun yanında oturub qəlyanaltı edirdilər. Bu zaman Mişa da gəlib çıxdı. Araz onu görən kimi:

– Ey, xozeyin, gəl görək – deyə yerindən qalxdı.

– Xozeyinlikdən istefa verdim, – deyə Mixail Mixayloviç Arazın göstərdiyi yerdə onunla yanaşı oturdu.

Araz:

– Deyəsən xeyirxəbərlə gəlmisən? deyə soruşdu.

– Elədir ki, var, – deyə Mişa cavab verdi. – O gün sizdən ayrıldıqdan sonra mübahisə etdiyimiz məsələ haqqında çox fikirləşdim. Bütün gecəni səhərə qədər yata bilmədim. Sizin fikirlərinizdə bir həqiqət olduğuna inanmağa başlamışam.

– Demək, ağıllanmağa başlamısan!

– Elədir, gec də olsa, axır ağlım başıma gəlib.

Mişa bir qədər onlarla danışıb, birlikdə qəlyanaltı etdikdən sonra getdi. Araz mənalı-mənalı Vanyanın üzünə baxaraq:

– Axır ki, onu da imana gətirdik, – dedi.

– Araz, sən çox sadədil adamsan, bunlara çox da inanmaq olmaz, – Vanya cavab verdi.

Mişa onların yanına tez-tez gəlib gedirdi. O, sosial-demokrat dərnəyinə girmək üçün verdiyi ərizənin cavabını gözləyirdi.

Bir gün tənəffüs zamanı Mişa yenə onların yanına gəlmişdi. Vanya ilə Araz bu dəfə onu böyük sevinclə qarşıladılar. Hər ikisi növbə ilə onun əlini sıxaraq, "sosial-demokrat" dərnəyinə qəbul olunması münasibəti ilə təbrik etdilər. Mişanın çoxdan bəri intizar çəkən gözləri işıqlandı. O, dostlarına öz minnətdarlığını bildirərək dedi:

– Mən qaranlıqda yolunu azmış bir yolçu idim, siz məni o qaranlıqdan işıqlı bir yola çıxartdınız, çox sağ olun, təşəkkür edirəm.

Bundan sonra Mişa dərnəyin qapalı iclaslarında, fəhlə tətili və nümayişlərində fəal iştirak etməyə başladı.

ÜÇÜNCÜ FƏSİL

I

1904-cü ilin əvvəlində başlamış rus-yapon müharibəsi bütün dəhşəti ilə davam etməkdə idi. Çar ordusunun Lyaodun və Mukden cəbhələrində məğlubiyyəti, Uzaq Şərqdə ən möhkəm qala sayılan Port-Arturun yaponlar tərəfindən alınması, xüsusən çarın böyük ümid bəslədiyi donanmanın Susima boğazında darmadağın edilməsi çar tərəfdarlarını böyük matəmə batırmışdı. Rus ordusunun göstərdiyi qəhrəmanlığa baxmayaraq, bu müharibə çar üsuli-idarəsinin nə qədər çürük və zəif olduğunu da ortaya çıxarmışdı.

Bu illər bütün Rusiyada olduğu kimi, Bakıda da bolşevik partiyasının sıraları sınanmış inqilabçı fəhlələr hesabına genişlənmiş, bir-birinin ardınca əzəmətli nümayişlər, tətillər keçirilməyə başlamışdı. 1904-cü ilin dekabrında keçirilən tətildə fəhlələrin böyük qələbə qazanması, onları gələcək mübarizəyə həvəsləndirmiş, qələbəyə inamı artırmışdı.

Bu dəfə də Bakı Komitəsi neft mədənlərinin tətil etməsini qərara almış və bu işə rəhbərlik etmək üçün Azad yoldaşa bir neçə mühüm tapşırıq verilmişdi. Ala-qaranlıqdan bir-bir, iki-iki gələn fəhlələr Şorgöl ətrafında birləşir, bir-birindən aralı topa-topa oturub, söhbət edirdilər. Saat 7-də mitinq başlandı. Mitinqdə azərbaycanlı fəhlələrin çoxluq təşkil etməsi tətil rəhbərlərini olduqca sevindirirdi. İnqilab rəhbərləri və fəhlələr odlu, həyəcanlı nitqlər söylədilər. Bakı partiya təşkilatının ümumi tətil haqqında çıxarmış olduğu qərar maddə-maddə oxunub, fəhlələr tərəfindən müzakirə və təsdiq edildi. Sabah Stepan Razin təpəsinə yığışıb, oradan mütəşəkkil surətdə nümayişə çıxmağa qərar verildi. Hökumət məmurlarını azdırmaq məqsədilə o gün fasilə ilə bütün mədənlərdə fit çalınması qərara alınmışdı. Fəhlə tətilindən xəbər tutan polis, atlı kazaklar hər tərəfə baş soxur, ancaq fəhlə yığıncağının yerini tapa bilmirdilər. Yığıncağın birinci fit çalınan yerdə olduğunu zənn edən atlı kazak və polislər mədəni dörd tərəfdən bürüdülər, lakin yığıncaqdan bir əsər görmədilər. Bu zaman başqa mədəndə fit həyəcanlı bir səslə çalmağa başladı. Bir anda kazaklar və polis nəfərləri həmin mədəni üzük qaşı kimi araya aldı. Bu dəfə də yığıncağın yeri müəyyən edilə bilmədi. Düşməni azdıran bu fitlər o gün kazakları və polisləri hey ora-bura qaçmağa məcbur etdi. Lakin yığın-

cağın harada keçirildiyi yalnız saat birdə fəhlələr Marselyoza oxuya-oxuya Şorgöl dərəsindən qayıtdıqları zaman məlum oldu.

Sabahı gün fəhlələr mütəşəkkil surətdə Stepan Razin təpəsinə toplaşdılar. Orada yenidən mitinq başlandı. Mitinq iştirakçıları nümayiş üçün oradan hərəkət etmək istərkən, kazak dəstəsi onları araya aldı. Kazak zabitləri fəhlələrə dağılışmağı əmr etdi, lakin onlara əhəmiyyət verən olmadı. Kazaklar hücuma keçərək, fəhlələri tüfəng qundağı və şallaqla vurub dağıtmağa başladılar. Fəhlələr inad edib müqavimət göstərir, arabir kazakları daşa basırdılar. Kazaklar fəhlələrin başları üzərindən yaylım atəşi açdılar, sonra da fəhlələri öz atlarının qabağına qatıb, nümayiş sıralarını dağıtmaq istədilər. Bir kazak zabiti Vanyanı yaxaladı. Vanya onun əlindən dartınıb qaçmaq istərkən, kazak tüfənginin qundağı ilə onun çiynindən elə vurdu ki, o üzüqoylu yerə sərildi. Bu zaman Mişa özünü onun yanına yetirib, qolundan tutaraq yerdən qaldırmaq istədi. Zabit atını Vanyaya tərəf sürüb, tüfənginin qundağı ilə onu yenə vurmaq istədi. Uzaqdan bunu görən Araz özünü saxlaya bilmədi. O, qaçıb gələrək zabitin tüfənginin qundağından yapışdı. Kazak tüfəngi özünə tərəf çəkərkən Araz tüfəngi onun əlindən özünə tərəf elə bərk çəkdi ki, zabit atdan yuvarlanıb yerə sərildi, başı qarpız kimi partladı. Araz tüfəngi yerə atıb, fəhlələrə qarışdı.

O gün nümayiş rəhbərlərindən bir neçəsi polis tərəfindən həbs edildi.

İki gün sonra Arazın qapısı ağzında bir araba dayandı. Üç nəfər polis arabadan düşüb, həyətə girdi. Araz həyətdə əncir ağacı altında yenicə uzanıb yatmışdı. Onu oyadıb, həbs edildiyini bildirdilər. Araz geyinib polislərlə getməyə hazırlaşırdı ki, Günəş onun qabağını kəsdi.

– Mən arvadlığımla bunların hər üçünü şil-kut edib yola salaram, sən bunların qabağına düşüb hara gedirsən? – deyə həsrət və heyrətlə Araza baxdı.

Araz cavab verməyib, polislərlə birlikdə qapıdan çıxdı.

Araba karvansara kimi geniş bir həyətə girdi. Onlar arabadan düşüb, həyətin sol tərəfində yerləşən kiçik qapını açaraq, böyük bir zala daxil oldular.

Otaqda yeddi-səkkiz yazı stolu qoyulmuşdu. Stolların arxasında müxtəlif rütbəli polis məmurları oturmuşdu. Arazı gətirən polislərdən biri stol başında oturan şişman bir məmura yaxınlaşıb, nə isə soruşdu, sonra üstündə "Naçalnik" yazılı lövhə olan bir qapını açıb içəri girdi.

Araz dərhal buranın cinayət polis idarəsi olduğunu bildi. O bir neçə polis nəfərinin bir gənc tələbəni necə sorğu-suala tutduğuna qulaq asır, aralarında gedən danışıqları eşitməyə çalışırdı. Tələbə çox təmkinlə cavab verir, üstünə yıxmaq istədikləri cinayəti boynuna almaq istəmirdi. Bu zaman qapı açıldı, Arazı bura gətirən ucaboy, arıq polis pörtmüş bir halda oradan çıxıb, əli ilə işarə edərək, Arazı içəriyə, naçalnikin yanına apardı. Naçalnik nəzakətlə:

– Buyurun, buyurun! – deyə, Araza yer göstərdi.

Araz oturdu. Naçalnik əvvəlki vəziyyətini pozmayaraq sözə başladı:

– Bağışlayın, zəhmət verdik, sizdən bir neçə şey soruşacağam. Ümidvaram ki, cavab verməkdən boyun qaçırmazsınız?

Araz dinmədi. Naçalnik:

– Siz hansı mədəndə işləyirsiniz? – deyə soruşdu.

– Sabunçuda, Qasım bəyin mədənində.

– Çox gözəl. Adınız nədir?

– Araz.

– Çoxdanmı mədəndə işləyirsiniz?

– On beş yaşından işləyirəm.

Naçalnik ayağa qalxıb, bir qədər ona yaxınlaşaraq:

– Elə siz bu işdə mənə kömək edə biləcəksiniz, – dedi. – Deyin görüm, o günkü tətilə rəhbərlik edənləri tanıyırsınızmı?

– Tanımıram.

– Nümayişdə nitq söyləyənləri necə?

– Orada hamı danışırdı. Bəzilərini sifətdən tanıyıramsa da, adlarını bilmirəm.

Yaxşı, heç olmazsa kazaklar hücum etdiyi zaman nitq söyləyən adamın kim olduğunu deyə bilərsinizmi?

– Yadımda deyil, bir də o zaman mitinq dağılmışdı.

– Bəs o zaman siz harada idiniz?

– Fəhlələrin arasında.

Naçalnik ciddi vəziyyət alaraq:

– Kazaklarla fəhlələr arasındakı toqquşmaya dair nə deyə bilərsiniz?

– Fəhlələr vuruşmaq fikrində deyildilər. Onların silahı yox idi.

– Kazaklardan, fəhlələrdən ölən və ya yaralanan oldumu? Onları tanıyırsınızmı?

– Mən ancaq dünən eşitdim ki, bir kazak atından yıxılıb ölmüşdür.

– Bunu sizə kim dedi?

– Kazakın ölüsünü aparanda görüblər. Adamlar danışırdılar.

– Kazak atdan yıxılanda siz onu gördünüzmü?

– Yox, mən görmədim.

– Bəs kim görmüşdür?

– Bilmirəm.

– Deyirlər siz görmüşsünüz.

– Yox, görməmişəm. Mən bu xəbəri ancaq dünən eşitdim.

Naçalnik qaşlarını çataraq zəngi basdı. Həmin ucaboy, arıq polis içəri girdi. Naçalnik əli ilə ona işarə edərək:

– Götürün bunu! – deyə əmr etdi.

Polis Arazı həyətə çıxararaq, oradakı iki nəfər başqa polisə tapşırıb, başı ilə nə isə işarə etdi. Onlar Arazı müstəntiqin yanına gətirdilər. Müstəntiq acıqlı baxışlarla Arazı süzdükdən sonra:

– Hə, de görüm, ey qatil, kazak zabitini sən nə üçün öldürdün? – deyə soruşdu.

Araz etinasız durub cavab vermədi. Müstəntiq onun bu etinasızlığından hiddətlənərək, ağzı köpüklənə-köpüklənə:

– Ey, cavab ver, sən müstəntiq qarşısında hər suala cavab verməyə məcbursan! – deyə bağırdı.

Araz laqeyd bir tövrlə:

– Heç kim məni məcbur edə bilməz – dedi.

Müstəntiq daha bərk acıqlandı, əlini stola çırparaq:

– Mən səni məcbur edərəm! – deyə yenidən bağırdı.

Araz yenə cavab vermədi. Müstəntiq bir də əlini stola çırparaq, Arazı söyməyə, təhdid etməyə başladı. Araz əlini onun stolu üstündəki mürəkkəbqabına uzadaraq:

– Ağzını dağıtma, – dedi, – yoxsa bu mürəkkəbqabı ilə başını yararam. Svoluç da sənsən, svinya da sənsən, sukkinsin də.

Müstəntiq onun bu hərəkətindən heyrət edib, bir qədər çaşıb qaldıqdan sonra:

– Bu dəlidir, axmaqdır, nədir? Bilmir ki, müstəntiq qarşısında cavab verməlidir? – deyə bir nəfərdən soruşur kimi söyləndi. Araz cəsarətlə:

– Boş yerə zəhmət çəkməyin, mən sizə cavab verməyəcəyəm! – dedi.

Müstəntiq zəngi basdı. Arazı gətirən polis nəfərlərindən biri içəri girdi. Müstəntiq ona:

– Bu vəhşini sakit etmək lazımdır! – deyə əmr etdi.

Araz onun üstünə kükrəyərək:

– Vəhşi sənsən! – deyə var gücü ilə qışqırdı.

Polis nəfəri müstəntiqə təzim edərək:

– Ağa, mən onu sakit edərəm, ancaq yaman həyasız adamdır! – dedi.

Arazı həbsxanaya apardılar. O, həbsxana qapısından içəri girdikdə cinayət axtaran polis idarəsində naçalnikin qapısı ağzında rast gəldiyi gənci gördü. Onun yanında əli tüfəngli iki soldat durmuşdu. Elə bu vaxt həbsxana rəisi əlində bir kağız öz otağından çıxaraq, həmin gəncə yaxınlaşıb:

– Gəl! – deyə bağırdı.

Gənc onun dalınca getdi. Araz dəhlizdəki ayağı qandallı dustaqlara baxırdı. Həbsxana rəisi qapı ağzında duran xidmətçiyə nə isə deyib, yenə içəri girdi. Xidmətçi yan otağa keçib yırtıq, kirli bir köynək və şalvar gətirərək, qapının ağzında yerə qoydu. Həbsxana rəisi yenə otağından çıxıb Araza:

– Paltarlarını soyun! – deyə əmr etdi.

Araz paltarlarını soyunub, yalnız bir alt paltarında qaldı. Rəis həmin kirli paltarları ayağı ilə ona tərəf itələyərək:

– Al, bunları geyin! – dedi.

Araz köynəyi və şalvarı iki barmağı ucunda yuxarı qaldırıb, diqqətlə baxdıqdan sonra tüpürüb yerə atdı. Sonra üzünü həbsxana rəisinə tutub qəzəblə:

– Mən bu it çulunu geymərəm! – dedi.

Həbsxana rəisi onu başdan-ayağa süzərək:

– Geyərsən, çox mırıldanma, dalımca gəl! – deyə qışqırdı.

Araz qürurunu pozmayaraq, onun arxasınca getdi. Rəis növbətçiyə bir kamera göstərib:

– Aç! – deyə əmr etdi.

Kameranın qapısı açıldı. O, Arazı kameraya salıb, xidmətçinin gətirdiyi həmin kirli paltarları ardınca içəri ataraq çığırdı:

– Bu buzlaqda donduğun zaman bu paltarlar sənə lazım olar!

İçəri girən Arazın ardınca qapı bərk bağlandı. Kameranın içi payızın son gecəsindən qaranlıq, qışın dondurucu səhərindən soyuq idi. Araz əli ilə kameranın içini yoxlamağa başladı. Kamera böyük bir anbar idi. Görünür bina tikildiyi zaman burada palçıq tutulduğundan döşəməsiz yerdə palçıq daş-kəsək kimi bərkimişdi. Araz əli ilə kameranın içini axtara-axtara getdiyi zaman əlinə odun parçaları toxundu. Bu bir adam boyu hündürlüyündə yığılmış odun parçaları idi. O yenə qapıya tərəf gəlib, divara söykənərək düşünməyə başladı. Birdən nə isə xatırladı, qapını şiddətlə vurmağa başladı, cavab verən olmadı.

Araz bu dəfə qapını təpikləməyə başladı. Növbətçi kameranın balaca deşiyini açıb:

– Ey, üsyançı, nə səs-küy salmısan? Bu həyasızlıqda davam etsən kötək yeyəcəksən! – deyə çığırdı.

Araz:

– Ey, aç qapını, sözüm var! – deyə səsi gəldiyi qədər bağırdı. Növbətçi bir cavab verməyib deşiyin ağzını örtdü. Üç-dörd saat sonra qapının deşiyi yenə açıldı. Növbətçi içəriyə heyva boyda yumru bir şey atıb:

– Ey, quldur, al, ye! – deyə çığırdı.

Araz acmışdı. İçəri atılan daş kimi bərk şeyin nə olduğunu bilmək üçün onu əli ilə axtarıb, nəhayət tapdı. Girdə, quru cad çörəyi idi. Araz onu əli ilə zor-güc parçalayıb dişinə saldı. Sonra bir az rahatlanmaq üçün quru yerə uzandı. Vücuduna yapışan buz kimi soyuq və kələ-kötür palçıq onun böyrünü, arxasını deşirdi. Çox uzana bilməyib qalxdı, ayağı ilə anbarda yumşaq bir yer axtardı. Bu zaman növbətçinin atmış olduğu köynəklə şalvar ayağına toxundu. Tez əyilib onları yerdən götürdü, şalvarı yumurlayıb başının altına qoydu, köynəyi də altına sərib üstünə uzandı. Həbsxana rəisinin "Bu buzlaqda donduğun zaman bu paltarlar sənə lazım olar" sözlərini xatırladı. Sonra bu havasız, qaranlıq və rütubət yerdə nə qədər mərd insanların çürüyüb məhv olduğunu düşündü. O gecə səhərə qədər gah bu, gah da digər böyrü üstə dönərək, bir təhər yuxuya getdi. Ayılarkən kameranın içərilərinə uzanan sarımtraq bir işıq zolağından səhər olduğunu bildi. Növbətçi qapının deşiyini açaraq, yenə bir parça quru cad çörəyi atıb:

– Ey, qatil, al ye! – deyə bağıraraq, yenə deşiyi örtdü.

Araz qalxdı. Daş-kəsək, qurumuş palçıq, buz kimi soyuq yer onun vücudunu sarsıtmışdı. Əli ilə axtarıb çörəyi tapdı. Bərk ac idi. Çörəyi dişinə salıb yeməyə başladı. Kəsək kimi quru cad çörəyi onu doyurmadı. Günortaya qədər gözlədi. Günorta deşik açıldı. Növbətçi adəti üzrə bir cad çörəyi atdı, sonra kiçik bir kasada kartof, kələm suyundan ibarət olan şorbanı uzadaraq:

– Sevdiyin donuz şorbasıdır, al ye! – dedi.

Araz donuz adı eşidər-eşitməz:

– Onu apar ver atan yesin, – deyə kasanı deşikdən əli ilə növbətçiyə sarı itələdi. Kasa dönüb növbətçinin üstünə töküldü. O, Arazı söyə-söyə üst-başını təmizlədi, sonra "Quldurun biri, elə zənn edir ki, burda ona plov verəcəyəm, ay sən öləsən" – deyə mırıldanıb deşiyi hiddətlə bağladı.

Pəhləvan gövdəli Araza hər şeydən çox aclıq təsir edirdi. Hər dəfə verilən iki yüz qram cad çörəyi onu doyurmurdu. Axşamüstü növbətçi ona bir şey uzadaraq:

– Ey, bunu sənə qonşun göndərdi, al, kefindir, – dedi.

Araz əlini uzadıb yeməyi aldı. Növbətçi pıçıltı ilə:

– Heç kəs bilməsin, bundan sonra hər gün sənə bu yeməkdən gətirəcəyəm, – deyərək deşiyi örtdü. Göndərilən pay bir parça çörək və iki böyük kotletdən ibarət idi. Bunu kim göndərmişdi? Bir an düşündükdən sonra ilk dəfə polis idarəsində və həbsxanaya girdiyi zaman rəisin otağının qapısı ağzında gördüyü gənc dustağı xatırladı. Onun simasındakı nəciblik, mərdlik və cəsarət əlamətləri dərhal bu işin həmin gənc tərəfindən görüldüyünü güman etməyə əsas verirdi. Bəs o bu çörəyi və kotleti haradan alır? Bunu ona kim gətirir? Bunlar Araza qaranlıq idi. O, çörək və kotletləri böyük bir iştahla yeyib yatdı. Həmin gündən etibarən hər gün səhər, günorta, axşam cad çörəyindən başqa hər dəfə növbətçi ona iki yüz qrama qədər çörək və iki kotlet uzadıb:

– Al, bu dadlı kotletləri ye! – deyirdi.

Bir gün Araz ondan soruşdu:

– Bu kotletləri mənə kim göndərir?

Növbətçi boğuq bir səslə cavab verdi:

– Sənin lə yan-yana yaşayan bir cavan oğlan. Bilirsən o necə oğlandır? Pulu da çoxdur. Hayıf bu oğlana.

– Onu nə üçün tutublar?

– Növbətçi ətrafına baxdıqdan sonra:

– Məhkəmə sədri Şmalinskini öldürübdür. İşi çox xarabdır. Onu yəqin ki, edam edəcəklər. – Sonra ətrafına bir də nəzər salıb, – bilirəm, sən də kazak zabitini öldürmüsən, – dedi, – oğlana demişəm.

– Yox, mən zabit öldürməmişəm.

Növbətçi şübhəli nəzərlə koridora baxdıqdan sonra:

– Pulun varsa ver, sənə nə istəyirsən alım, – dedi.

– Mənim pulum yoxdur, kasıb bir fəhləyəm.

Növbətçi üzünü turşudaraq, deşiyi bərk örtdü.

Araz on gün kamera adı verdikləri bu qaranlıq və soyuq anbarda qaldı.

Bir gün qapı şiddətlə açıldı. Növbətçi gülə-gülə:

– Ey, dustaq, çıx, – dedi, – dalımca gəl!

Araz dəli kimi özünü koridora atdı. On gün işıq görməyən gözlərini koridorun işığı qamaşdırdı. O, əlləri ilə gözlərini ovuşdurduqdan sonra növbətçinin arxasınca getdi. Onu Ali məhkəmənin üzvü Vasil-

yev danışdıracaq idi. Araz yalnız tuman-köynəkdə kabinetə girdi. Vasilyev onu heyrətlə süzərək:

– Bu nədir, nə üçün çılpaqsan? – deyə bağırdı. Hanı sənin dustaq paltarın?

Araz əli ilə həbsxana rəisi Koku göstərərək:

– Bundan soruşun! – dedi.

Kok qızardı, bozardı, dili dolaşa-dolaşa:

– Cənab Vasilyev, mən ona paltar vermişəm, – dedi.

Araz hər ikisini kinli nəzərlə süzdükdən sonra:

– Xahiş edirəm bir gedib bunun məni saldığı kameraya, verdiyi paltara baxasınız, – dedi.

Vasilyev yerindən qalxdı, hər üçü kameraya gəldi. Vasilyev kameranı və paltarı gözdən keçirdikdən sonra acıqlı bir səslə:

– Bu gün dustağı səyyar korpusa köçürəcəksən! Ona yeni paltar ver! – deyə əmr verdi.

Araz yeni paltar geyindikdən sonra Vasilyev onu kabinetə çağırıb ondan kazak zabitinin ölümü və nümayiş haqqında məlumat almaq istədi. Araz onun suallarına cavab vermədi. Vasilyev çox çalışdı, onu danışdıra bilmək üçün bir çox yağlı vədlər verdi. Araz yenə bir şey demədi.

Onu səyyar korpusa köçürdülər.

– Məni siyasi korpusa köçürməlisiniz! – deyə Araz etiraz etdisə, bir nəticə vermədi.

Korpusda yaşayan dustaqlar başına toplanıb onun kim olduğunu, nə üçün həbsə düşdüyünü öyrənməyə çalışırdılar. Bir az sonra başqa korpuslarda xəbər tutan dustaqlar: Qaçaq Məcid, Dəli Xalıq öz dəstəsi ilə, Qoçu Teymurbəy, Əliheydər və başqaları bir-bir Arazı görməyə gəldilər. Qaçaq Məcid ona deyirdi:

– Ayağımdakı qandala baxma, dörd dəfə sürgündən qaçmışam, yenə qaçacağam. Qorxma, sənə heç bir şey olmaz. Atalarını yandıraram!

Qoçular, qaçaqlar həbsxana içində hökmranlıq edirdi. Onların xariclə əlaqəsi olduğundan müdir və məmurlar onlardan qorxurdu. Araz həbsxana içindəki bu hökmranlığın əsas səbəblərini düşünür, çar hökuməti və çar məmurlarının yürütdüyü siyasətə qarşı qəlbində kin və intiqam hissi daha şiddətlə alovlanırdı. İqtisadi və siyasi vəziyyətin ağırlığı ölkənin ən igid və qoçu oğullarını qaçaqlığa, quldurluğa məcbur etmişdi. Bu vəziyyət özü elə mövcud üsuli-idarənin yerində fəhlə və kəndli hökuməti qurmağın ən doğru bir yol olduğunu təsdiq edirdi.

Bu zaman orta boylu xoşsimalı bir gənc içəri girdi. Araz onu görüncə tanıdı. Bu Arazın polis idarəsində rast gəldiyi tələbə idi. O, Arazı və onun oturduğu stolu şübhəli baxışlarla süzərək:

– Səni nə üçün buraya köçürmüşlər? – deyə soruşdu.

Araz ona tərəf gedə-gedə:

– Məni ümumi səyyar korpusa köçürmüşlər. Mən orada yaşayıram, – deyə cavab verdi.

– Yox, sən bizim korpusa keçməlisən. Kokla bu xüsusda danışmışam, gəl gedək! – deyə o cəld çıxdı.

Arazı siyasi korpusa köçürtdülər O, korpusun dəmir qapısından içəri girən kimi mədən partiya təşkilatının katibi Azad, Vanya, Qriqor və Mişa onu üzük qaşı kimi araya aldılar. Vanya onu qucaqlayıb öpdü:

– Araz, necəsən, biz hey səni düşünürdük, – dedi.

– Bir de görək, sənin başına nə oyun gətiriblər?

Araz başına gələnləri təfsilatı ilə danışdı. Azad əlini stola çırpıb:

– Alçaqlar, bu ağalıq çox sürməyəcək! – deyə bağırdı.

Bu zaman Azadın gur səsini eşidən qoca xidmətçi Andrey başını qapıdan içəri uzatdı. Bir qədər diqqətlə baxdıqdan sonra üzünü Azada tutdu. Arazı göstərərək:

– Görünür bu da sizdəndir, – dedi. – Bu yazığa çox əziyyət verdilər. O anbarda üç gündən artıq qalmaq olmaz, bu yazıq isə orda on gün qaldı. Eh, bu qanlı zindan nə qədər canlar yemiş, nə qədər insanlar çürütmüşdür! Sizin bu korpusa elə adamlar gəlib-gedibdir ki, insan kədərlənməyə bilmir. Nə üçün? Yoxsulları qaranlıq quyudan çıxarmaq istədikləri üçün.

Qoca Andrey sözünü qurtarmaq üçün yenə ətrafına baxdı, nə gördüsə, tez özünü toplayıb qapıdan uzaqlaşdı. O, məmurlardan kimi isə görmüşdü. Vanya cəld ayağa qalxıb, qapıya tərəf baxaraq:

– Sən bu qoca şeytana bax, bizdən söz almaq istəyir, – dedi. – Buranın rəisindən tutmuş qapıçısına qədər hamısı xəfiyyədir. Onlarla ehtiyatlı olmaq lazımdır!

Araz burada bir qədər rahat idi. Onlar hər gün gizli olaraq ümumi tətil və təşkilat haqqında məlumat alırdılar. Tətil və nümayişlər bütün qüvvəti ilə davam edir, həbsə alınan fəhlələrin və rəhbərlərin azad edilməsini tələb edirdi. Hətta bir-iki dəfə fəhlələr silaha da əl atmış, kazaklarla aralarında atışma da olmuşdu.

Tətilin müvəffəqiyyətlə davam etməsi siyasi korpusdakı dustaqları çox sevindirirdi. Tətil və silahlı çıxışlardan ruh almış siyasi dustaq-

lar başqa dustaqlar içində gizli təbliğat aparırdılar. Azad yoldaşın sözləri dustaqlara, bəzən qaçaqlara da çox təsir etdiyindən, ona qarşı böyük hörmət bəsləyirdilər. Hətta Dəli Xalıq, Qaçaq Məcid: "Buradan qaçdığımız gündən biz də sizinlə bərabər işləyəcəyik" – deyirdilər.

II

Həbsxana rəisi Kok arabir Mişanı çağırır, saatlarla kabinəsində danışdırırdı. Bu hadisə Azadı çox narahat edirdi. Bir gün yenə Kok Mişanı öz kabinəsinə çağırdı. Bir saat sonra korpusa döndüyü zaman Azad ondan soruşdu:

– Mişa, Kok səndən nə istəyir?

Mişa acı-acı gülümsəyərək:

– Quduz it adamdan nə istəyər, – deyə cavab verdi. – Bizim təşkilatda kimlərin olduğunu soruşur.

– Sən nə cavab verdin?

– Mən təşkilatda çalışmıram, ona görə də onun nə üzvlərini, nə də başçılarını tanımıram, – deyə cavab verdim.

Azad susdu.

İki gün sonra Kok Mişanı yenə çağırdı. Mişa getdi. O gün çox gözlədilər, ancaq qayıtmadı. Üç gün keçdi, yenə qayıtmadı. Mişa məsələsi bütün korpusu qəmgin etmişdi. Onu hara və nə üçün aparmışlar? Hamı bu barədə düşünürdü. Bu hadisə hər kəsdən çox Araza təsir etmişdi. O, acığından dil-dodağını çeynəyirdi.

Axşamüstü idi. Dustaqlar öz daş kimi bərk olan yataqlarında uzanmışdılar. Bu arada qapı yavaşca açıldı. Dustaqlardan bir neçəsi başını qaldırıb qapıya tərəf baxdı. Qoca Andrey qapı arasında dayanıb içərini dumanlı baxışlarla süzürdü. Gözləri Azada sataşınca əli ilə ona işarə edib yanına çağırdı. Azad dərhal yerindən qalxıb getdi. Qapı arxasında dörd-beş dəqiqə gizlin danışdılar. Oradan Dəli Xalıqın da səsi eşidilirdi. O da qoca Andreyin sözünü təsdiq edirdi.

Azad qayıtdı. Onun qaşları çatılmış, üz-gözü dumanlanmışdı. Hər kəs bir maraq içində böyük hadisə üz vermiş kimi gözlərini Azad yoldaşa dikmişdi.

– Nə var? Nə olub? – deyə dustaqlardan biri soruşdu. Azad sadəcə gülümsəyərək:

– Heç bir şey, özü haqqında danışırdı – deyə cavab verdi. Azadın bu cavabı hamını qane etdiyindən, yenə uzanıb rahatlanmağa başladılar. Azad da yerinə uzandı.

O çox narahat və əsəbi idi. İri qara gözlərini qapaqları içində gizləyərək gah sağ, gah sol böyrü üzərinə uzanır, gözlərinə yuxu getmirdi. Yatan yoldaşlarının xorultusu, fısıltısı otağı bürümüşdü. Tavandan asılmış kiçik elektrik lampasının sönük və sarımtraq işığı onların üzgözünə dağılmışdı. Əsəbi bir halda yerindən qalxdı. Otağın içində səssiz gəzə-gəzə yoldaşlarını bir-bir gözdən keçirdi. Onların belə sakit yatışı onun kədərlərini silib, qəlbinə bir az təsəlli verdi. Qəlbində "ey məzlum insanlar, yatın, heç olmasa gecələr bu vəhşi quruluşun acı qayğı və düşüncələrindən bir az dincəlin!" – dedi. O yenə yerinə uzandı, yenə qalxdı; müntəzir adamlar kimi gözlərini bir zaman qapıya dikib qaldı. Koridorda ayaq səsi eşidincə, tez qalxıb qapı tərəfə getdi, onun kim olduğunu bilmək üçün qulağını qapıya dayayıb durdu. Artıq dayana bilmədi, qapını əli ilə döyməyə başladı. Qapı arxasından keşikçi qaba və quru bir səslə:

– Kimsən, nə deyirsən? – deyə bağırdı.

– Mənəm, bayıra çıxmaq istəyirəm!

Qapıçı əvvəlki səslə:

– Yox, açа bilmərəm, gecə vaxtı eşiyə çıxmaq olmaz! – dedi.

Bu zaman qapı ağzında ayaq səsləri eşidildi. Kimsə:

– Növbətçi, aç qapını, burada bir nəfərlə görüşəcəyəm – dedi.

Keşikçi ona:

– Yox, gecə vaxtı qapı açılmaz, bilsələr mənim atamı yandırarlar, – deyə cavab verdi.

Azad diqqətlə dinləyib qapı ağzındakı adamı səsindən tanıdı. Əli ilə qapını yavaşca vurub:

– Xalıq, mən oyağam, – dedi.

Xalıq qandallı sağ ayağını qaldırıb keşikçiyə:

– Sənə aç, deyirəm, yoxsa bu qandalla başını partladaram! Sonra yumşaq səslə:

– Kok, Teymurbəyin dəstəsi ilə bağda kefə məşğuldur. Sən qorxma, beş dəqiqə görüşüb qayıdacağam, nədən qorxursan?

Keşikçi tərəddüd içində durub onun üzünə baxırdı. Dəli Xalıq birdən-birə iki əli ilə onun boğazından tutub:

– Sənə aç, deyirəm, köpək oğlu, yoxsa boğacağam! – dedi.

Keşikçi boğuq səslə:

– Yaxşı-yaxşı, Xalıq açıram, – deyə yalvarmağa başladı. Qapı açıldı. Azad özünü koridora atdı. Keşikçi onu şübhəli baxışlarla süzdükdən sonra:

– Sizi burada görsələr, axı mənim işim xarab olar. Bunu Xalıq anlamır, siz ki, bilirsiniz, – deyə gözlərini onun üzünə dikdi.

Azad buna cavab vermək istərkən, Xalıq ondan əvvəl sözə başlayıb:

– Ay axmaq, mən buna Kokun ailəsinin bağda, Teymurbəyin dəstəsi ilə kef elədiyini göstərəcəyəm. Üç dəqiqəyə qayıdırıq. Nədən qorxursan? Bilirsən ki, Kok bizim əlimizdədir, o sənə neyliyə bilər? – deyə Azadın əlindən tutub getdi. Onu bağın qapısına qədər gətirdi. Qoca Andrey tez yaxınlaşıb əli ilə işarə edərək:

– Bax, bu yaxındakı stolda Teymurbəyin ailəsi, Kokun arvadı və qızları oturur. İkinci işıq gələn stolda, Kok, sizin dostunuz Mişa və başqaları kef edir. Bu ağacların dalından get, qorxma, onlar səni görməyəcək. Amma sən onları görərsən, – dedi.

Azad yoldan getmək istərkən, Andrey onun qolundan tutub əlavə etdi:

– Dostunuz çulunu dəyişib, o dünən dustaqxana məmuru formasında idi. Bu gün isə adi bir məmur qiyafəsinə girmişdir. Diqqətlə bax, tanıyarsan, – dedi.

Xalıq onun qolundan çəkərək:

– Mənə də bu gün göstərdi, mən inana bilmədim. Get gör o olsa onu elə burada öl...

Azad bağçaya girdi. Gecənin qaranlığı, ağacların kölgələri onun görünməsinə mane olduğunu bildiyindən, çox sərbəst gedirdi. O birinci stolun qarşısına çatdığı zaman durub diqqətlə baxdı. Kokun ailəsi ilə Teymurbəyin ailəsi bir yerdə yeyib-içib əylənirdilər. Azad bir az da irəli getdi. Gəlib ikinci stolun qarşısında durdu. Lampanın sarımtraq işığında onları aydın görmürdü. Doğrudanmı Kokla bir stol başında oturub kef edən onların yoldaşı Mişa idi? Gözlərinə inanmırdı. Onların söhbətini dinləmək üçün bir az da yaxın gəldi. Kok ona deyirdi:

– Biz ordumuzun qalib süngüləri ilə bu dikbaş xalqların məğrur başlarını əyib, torpağına sahib olduq. Onlar bizim pəncəmizdən xilas olmaq üçün min çarə düşünürlər. Onlar bu gün qurtuluşlarını yalnız sosialist firqələrinin ortaya atdığı şüarlarda görürlər.

Arıq adam onun sözünü kəsərək gülə-gülə:

– Mənə artıq təbliğat lazım deyil, mən də bu gün hökumətimizin sadiq və rəsmi bir məmuruyam – deyə, qoltuğundan çıxardığı kitabça-

nı Kokun qarşısına atdı; sonra məğrur bir tövrlə iki barmağı arasında tutmuş olduğu papirosu yandırdı.

Azad kibrit işığında onun sarı bənizini, tutqun sarı gözlərini, hətta üzündəki çilləri bulaşıq şəkildə zor-güc seçə bildi. Onun hərəkəti, rəftarı, hətta danışığı tamamilə dəyişmişdi. Bu üç gündə adam belə dəyişə bilərmi? – deyə Azad düşünür, bunun Mişa olduğuna şübhə edirdi.

Kok kitabçaya baxdıqdan sonra gülə-gülə:

– Təbrik edirəm! – deyə onun əlini əlləri içində sıxdı. "Burada içmişdilər!" – deyə bakalları doldurdu. Öz bakalını arıq kişinin bakalına vuraraq:

– Sağ ol Semyon, hökumətimizə sədaqət göstərməklə daha böyük rütbələrə nail olmağını arzu edirəm – deyə bakalı başına çəkdi. O birilər də:

– Sağ ol Semyon! – deyə onun sağlığına içdilər. "Semyon" adı Azadı yenə şübhələndirdi.

– Yox, bu Mişa ola bilməz! – deyə oradan qayıtdı.

Xalıq qapı ağzında Andreylə danışırdı. Onu görüncə gülə-gülə:

– Dostunu tanıya bildinmi? – deyə soruşdu. Azad qəmgin bir səslə:

– Bir az tanıdım, ancaq aydın görə bilmədim, – deyə cavab verdi.

Qoca Andrey:

– Mən onu sənə də, Xalıqa da sabah aydın göstərərəm, – dedi.

Azad o gecə dan yeri ağarıncaya qədər yata bilmədi. "Bu satqın Mişa olsa onda kim bilir, bəlkə təşkilatımıza soxulub bizimlə yan-yana çalışan belə adamlardan yenə də var", – deyə düşünürdü.

Azad səhər bir qədər gec oyandı. Gözlərini açınca Mişanı kamerada gördü. Mişa başına gələn fəlakəti yan-yana uzanmış yoldaşlarına söyləyirdi.

– Mişa, səni nə əcəb buraxdılar? – deyə Azad soruşdu. Mişa ona əl verib salamlaşdıqdan sonra:

– Saxlamağı faydasız gördülər, – dedi, – ancaq başıma min oyun gətirdilər. Bir söz isə ala bilmədilər. Dünən Kok axırıncı dəfə məni danışdırdıqdan sonra ümidsiz bir halda dedi ki, "sabah bunlardan bir dəstəsini buraxın getsin, hökumətin çörəyini müftə yedirtmək olmaz!"

Azad diqqətlə ona baxırdı. Mişanın rəngi saralmış, gözlərinin altı çuxura düşmüşdü. O, üzünü Azada çevirib, iki əli ilə belini sıxaraq:

– Dünən gecə səhərə qədər yatmamışam, – dedi. – Soyuq bədənimi tamam qurudub... Hər yerim ağrıyır...

Mişa sözünü qurtarmamışdı ki, qapı açıldı. Kokun müavini içəri girdi. Siyahıya yazılmış 7 nəfər dustağın adını oxuduqdan sonra:

– Qalxın, şeylərinizi yığışdırın, sizi buraxırlar – dedi.

Həmin siyahıda Arazın adı yox idi. Dustaqlar qapıdan çıxarkən Arazla görüşüb vidalaşdılar. Araz köhnə dostu Vanya və Mişa ilə çox səmimi görüşüb, onlardan ürək ağrısı ilə ayrıldı. Azad onun əlini sıxarkən:

– Qorxma, Araz, möhkəm ol! – dedi. – Biz səni azad etmək üçün əlimizdən gələni edəcəyik. Çox çəkməz ki, səni buraxarlar.

Onların azad olması Arazı çox sevindirirdi. Araz indi özünün buradan nə zaman və necə qurtulacağını düşünürdü.

Bir ay sonra onu məhkəməyə çağırdılar. Vaxtı ilə göstərilən şahidlərdən bir nəfəri də məhkəməyə gəlməmişdi. Ona görə də məhkəmə Arazın işini başqa bir vaxta təxirə saldı. İkinci dəfə də şahidlər gəlmədi. Nəhayət, üçüncü dəfə kazak zabitini öldürmək ona sübut oluna bilmədiyindən Araz bəraət qazandı.

Araz azadlıq qoxusu duyunca yoldaşları ilə görüşdü, paltarını dəyişib, birbaş kəndə getdi.

Həmin günlər inqilab dalğaları çar məmurlarını bərk qorxuya salmışdı. Onlar vəziyyəti nəzərə alıb, müvəqqəti olaraq fəhlələrə güzəştə getmiş, həbsə alınmış fəhlələri azad etməyə məcbur olmuşdular.

Bu müvəffəqiyyət fəhlələri daha da ürəkləndirmişdi. Araz bunların çoxundan xəbər tutmuşdu. O indi bütün bunları gözü ilə görmək, qazanılan müvəffəqiyyət münasibəti ilə yoldaşlarını təbrik etmək istəyirdi.

III

Mişa indi mədən işlərinə əvvəlki kimi can yandırmırdı. İşə çox vaxt gec gəlir, bəzən də heç gəlmirdi. Ona görə də tez-tez danlanır və qazancının çoxu cəriməyə gedirdi. O buna əsla əhəmiyyət vermirdi.

İşə belə soyuq yapışması ucundan günlərin birində onu mədəndən qovdular. O indi işsiz qalmış, gününü mədənlərdə iş axtarmaqla keçirir, tez-tez təşkilat üzvləri ilə görüşür və arabir şəhərə gedib-gəlirdi.

Mişanın bəzi hərəkətləri, xüsusən həbsxanadakı hadisələr Azadda dərin bir şübhə oyatmışdı. Ona görə də bu məsələ onu çox düşündürürdü. Odur ki, son vaxtlar və Mişaya tamamilə inanır, nə də onun xain olduğuna birdəfəlik hökm verə bilirdi. O, şübhə və tərəddüd arasında

qalmışdı. Bunlara birdəfəlik nəhayət vermək üçün təşkilatın sınanmış və sadiq üzvlərindən biri olan Vanya ilə görüşüb, məsələni ona başa saldı, Mişanı təqib edərək, nə ilə məşğul olduğunu öyrənməyi tapşırdı. Vanya işə çox ciddi yanaşdı. Bir neçə gün məharətlə Mişanı uzaqdan-uzağa təqib etdi. Bir gün yenə onu Sabunçu stansiyasına qədər izlədi. Qatar hərəkət etmək üzrə idi. Adamlar stansiyada qaynaşırdılar. Mişa tez atılıb qabaq vaqona mindi. Vanya adamları yara-yara keçib özünü ikinci vaqona saldı. Onun şəhərə nə üçün getdiyi Vanyanı çox maraqlandırırdı.

Qatar şəhər stansiyasına yaxınlaşdığı zaman qəlbindəki acı duyğudan Vanyanın bütün vücudunu isti bir tər basmışdı. Vaqonun qabaq qapısı ağzında durub düşünürdü. Qatar dayanar-dayanmaz özünü qapıdan bayıra atdı. Bir-birini basa-basa vaqondan çıxan sərnişinlərə qarışıb, xəlvət bir guşədə Mişanın çıxmasını gözlədi. Qabaq vaqondan çıxan sərnişinlər mühüm işi olan adamlar kimi yeyin addımlarla uzaqlaşıb gedirdilər. Vanya vaqondan çıxanları bir-bir diqqətlə gözdən keçirir, lakin Mişanı görmürdü. Adamlar seyrəlməyə başlamışdı. Mişa bütün sərnişinlərdən sonra çıxdı. Ətrafını şübhəli baxışlarla süzdükdən sonra işsiz, avara adamlar kimi yavaş-yavaş oradan uzaqlaşmağa başladı. Onun bu hərəkəti Vanyanın şübhələrini daha da artırdı. O böyük bir məharət və maraqla uzaqdan-uzağa Mişanı izləməyə başladı. Onu izləyə-izləyə geniş bir küçədəki uca bir binanın qarşısına qədər gətirdi. Mişa arxaya baxmadan binanın dəmir darvazasından həyətə girdi. Vanya binaya yaxınlaşdı. Orada hansı idarə olduğunu bilmək üçün diqqətlə qapılara, divarlara baxdı, dəmir darvazanın ağzından boylandı. Heç bir şey anlaya bilmədi. O, divara söykənib bir az düşündü, sonra qarşıdakı kiçik saatsaz dükanına tərəf getdi. Qoca bir yəhudi saat təmir edirdi. Vanya içəri girib salam verdi. Qoca başını qaldırıb onun salamını alaraq, saymazyana yenə öz işinə məşğul oldu. Kiçik dükanın sol tərəfində iki stul qoyulmuşdu. Vanya:

– Ata, rahatlanmaq üçün bir az oturmaq olarmı? – deyə soruşdu.

Bu adamın kim olduğunu, nə üçün oturmaq istədiyini bilməyən qoca diqqətlə ona baxdı. Üzündə, gözündə qorxu və həyəcan duyulurdu. Vanya bunu hiss edib yumşaq, nəzakətli bir səslə:

– Qorxma, ata, mən adi bir fəhləyəm. Məndən sənə ziyan dəyməz, arxayın ol! – dedi və cavab almadan stula oturdu.

Qoca cavab vermədi. O, əsəbi bir halda işləyir, arabir şübhəli nəzərlə naməlum adama baxırdı. Vanya gözünü darvazadan çəkmirdi.

Qoca çox narahat idi. Vanyanın qarşıdakı binaya diqqətlə baxması onun qorxu və həyəcanını bir qat da artırırdı. Nəhayət, qoca özünü saxlaya bilməyərək, gözlüyünü çıxarıb, əsəbi bir səslə:

– Sən o binaya nə çox baxırsan? – deyə soruşdu.

– Dostum oraya girib, onu gözləyirəm, indi çıxacaq. Sən məndən qorxma, ata!

Qoca başını aşağı dikib işləyə-işləyə:

– Dostun kimdir?

– O da mənim kimi fəhlədir!

Qoca başını qaldırıb, istehza ilə gülümsəyərək:

– Fəhlənin bu binada nə işi? – deyə soruşdu.

Onun bu sözü Vanyada maraq doğurdu, sanki gözləri bir ümid qığılcımı ilə parıldadı. Vanya dərhal:

– Ata orada hansı idarə yerləşir? – deyə soruşdu. Qoca başını qaldırmadan yavaşca:

– Hansı idarə olduğunu bilmirsən? Bilmirsən dostun ora nə üçün gedir?

Vanya təəccüblə çiyinlərini çəkərək, cavab vermədi.

Qoca diqqətlə onu süzdükdən sonra yenə başını aşağı salıb, işinə məşğul oldu. Vanyanın təəccüb və marağı daha da artdı. İçəridəki lal və mübhəm sükutu müxtəlif saatların çıxardığı zəif və ahəngdar çıqqıltı pozurdu. Bu çıqqıltı ilə müşayiət olunan hər an Vanyaya bir il qədər uzun görünürdü. Çünki o tələsirdi. O bir dəqiqə belə yubanmadan hər şeyi öyrənmək, şübhə və tərəddüdlərdən birdəfəlik qurtulmaq istəyirdi. Bütün bunlarla birlikdə onun zehnində qocanı nə yolla və necə dilə tutub, ondan bir sirr öyrənmək fikri həll olunurdu. Nəhayət, o, stulunu qocaya bir qədər də yaxınlaşdıraraq, sözə başladı:

– Ata, məsləkimə, vicdanıma and içirəm ki, mən təmiz bir adamam. Məndən sənə heç bir xətər gəlməz. Mən səndən yalnız bir şeyi bilmək istəyirəm və bunun üçün sənə çox minnətdar olacağam. Mənim dostum buraya tez-tez gəlib gedir, görəsən onun burada nə işi var? Bura haradır? Bunu bilmək mənim üçün çox əhəmiyyətlidir. Sən qorxma, mənim ağzımdan söz çıxmaz. Bura haradır?

Qoca bayaqdan bəri başını qaldırıb, Vanyanı diqqətlə dinləyirdi. Vanya sözünü qurtardıqda aralığa yenə sükut çökdü. Nəhayət, qoca zəif bir səslə ona pıçıldadı:

– Hər halda onu bilməlisən ki, sənin dostun buraya yaxşı niyyətlə gəlib-getmir. Bura jandarm və gizli polis idarəsinə məxsusdur.

Vanya heyrət içində:

– Yox, ola bilməz! Jandarm idarəsini tanıyıram, o ki, O... küçəsindədir.

Qoca yavaşca:

– Sən dediyin baş idarədir, bura isə onun kiçik bir guşəsidir. Bu darvazadan içəri girənlər başqa qapıdan tamamilə başqa formada, başqa qiyafədə çıxırlar, sən boşuna darvazaya baxma, o içəridə üzünə qrim yapdırıb, formasını dəyişdirib baş qapıdan çıxacaq, birbaş gizli polis idarəsinə gedəcək. Qayıtdıqdan sonra baş qapıdan girib formasını soyunacaq, yenə öz adi paltarında darvazadan çıxacaq. İndi bildinmi bura haradır?

Vanya minnətdarlıqla:

– Bildim ata, bildim, bura bizim haqqımızı ayaqlamaq, dilimizi bağlamaq, kirli və xoş əllərini vicdanımıza qədər uzatmaq istəyənlərin yuvasıdır, – deyərək nəzərlərini baş qapıya dikdi.

Vanyanın bu sözləri qocanın ürəyindən idi. O, əlindəki maqqaşı yerə qoydu. Gözlüyü gözündən çıxarıb, yenə nə isə demək istəyirdi ki, Vanya cəld stuldan durub qapıya tərəf getdi və:

– Odur, çıxdı, gedir! – deyə qoca ilə xudahafiz etmədən özünü cəld küçəyə atdı.

Vanya başqa geyimdə olan Mişanı izləyərək, baş jandarm idarəsinin qapısından içəri girincəyədək onu təqib etdi. İndi öz vəzifəsini bitirmiş adamlar kimi vicdanı sakit, qəlbi rahat bir halda divara söykənib durdu; elə bu zaman ucaboylu, sağlam bədənli bir kişi ona yaxınlaşdı, diqqətlə üzünə baxdıqdan sonra:

– Bağışlayın, siz Vanya deyilsinizmi? – deyə soruşdu. Vanya tanımadığı bu adamın üzünə heyrətlə baxdıqdan sonra yavaşca:

– Vanyayam, – deyə cavab verdi.

O, Vanyanın əlindən tutaraq, gülə-gülə:

– Məni tanımırsanmı? Mavleyevka kəndində keçən gənclik günlərimizi nə tez unutdun? – dedi və onun dik gözlərinin içinə baxdı.

Vanya ona diqqətlə baxdıqdan sonra:

– Aha... Vasya, Vasya! Bu sənsən? – deyərək onu qucaqladı; onlar öpüşdülər. Vasya şəfqətlə parıldayan gözlərini bir də dostuna dikib:

– Vanya, səni bir də görmək olarmış! Bakıya nə zaman gəlmisən? – deyə soruşdu və cavab gözləmədən onun qolundan tutub, – gəl dostum, gəl, bu yaxın restoranda oturub doyunca danışaq, – deyə onu restorana çəkdi.

Onlar uşaqlıq və gənclik illərindən uzun-uzadı danışdılar. İçilən qədəhlərin, söylənən xatirələrin nəşəsi hər ikisini məst etmişdi. Söz uzandıqca uzanırdı. Vanya Mişanı tamamilə unutmuşdu. Vasya son badələri doldurdu:

– Bunu, dostum, gələcək səadətimizin şərəfinə içək! – deyə qədəhini Vanyanın qədəhinə vurdu. Vanya şərabı başına çəkdikdən sonra ağzını silərək:

– Vasya, hər şeydən danışdıq. Ancaq sənin harda qulluq etdiyini soruşmağı unutdum! – deyə ona baxdı.

Vasya mənalı-mənalı gülümsəyərək:

– Soruşmasan yaxşıdır, Vanya, – dedi. – Bəs sən harda işləyirsən?

– Mən, mədəndə, buruqda...

– Aha... zəhmətli işdir. bilirəm. Təzə gələndə mən də bir həftə orda işlədim. Günə bir manat da vermirlər. Sonra bir təsadüf məni jandarm idarəsində işləməyə məcbur etdi.

Gözləmədiyi bu cavab Vanyanı sarsıtdı. O, heyrətlə dostunun üzünə baxdı. Lakin birdən özünü toplayaraq:

– Nə vəzifədə? – deyə soruşdu.

Heç gözlənilmədən məsələ açılmışdı. Bir-birinin dalınca içilən qədəhlər, uşaqlıq xatirələri Vasyanı elə kövrəltmişdi ki, gizli saxlamalı olduğu sirri heç özü də bilmədən açıb demişdi. Lakin iş yerini deməsindən Vasya o qədər də peşman olmadı. Əvvəla, Vanya onun nəzərində adi fəhlə idi; bir fəhləni, özü də uşaqlıq dostunun onun harada işləməsini bilməsi ona o qədər də qorxulu görünmədi. İkinci tərəfdən jandarm idarəsində işləmək onsuz da Vasyanın ürəyindən deyildi və o, oradan çıxmaq üçün münasib bir fürsət axtarırdı. Odur ki, Vasya öz uşaqlıq dostu ilə çox səmimi danışır, bildiyi məsələləri gizlətməyə o qədər də səy göstərmirdi. Buna görə də o, Vanyanın "Nə vəzifədə?" sualına da çətinlik çəkmədən:

– Fotoqrafçıyam, adı bizim idarəyə düşən adamların şəkillərini çəkirəm, – deyə cavab verdi. Sonra ayağa qalxaraq Vanyanın qolundan tutub:

– Belə söhbətləri burda etmək o qədər də münasib deyil, – dedi, – qalx gedək bizə, həm şəklini çəkim, həm də Nina ilə görüş.

Vasya xörək paylayanla haqq-hesab çəkdikdən sonra Vanya ilə bərabər restorandan çıxdı. Yolda Vanya:

– Nina kimdir? – deyə soruşdu.

– Mənim arvadım. İndi onu da tanımazsan. Sizin yaxın qonşunuz Pavelin qızı...

– Nə deyirsən? Onu almısan? Pavelin bizimlə qohumluğu da var. Atamın doğma xalası oğludur. Gedək, gedək! – deyə Vanya addımlarını yeyinlətdi. Birlikdə Vasyanın evinə gəldilər. Yolda gedərkən Vanya öz-özünə "Bundan çox istifadə etmək olar" – deyə düşünürdü. Qapıdan içəri girən kimi Vasya ucadan:

– Nina, Nina! Gəl gör bir kimi qonaq gətirmişəm, – deyə arvadını səslədi.

Nina onları gülərüzlə qarşıladı. O, əvvəlcə Vanyanı tanımadı. İri, ala gözlərini ona dikib diqqətlə baxdı. Vasya dayana bilməyib, tez tanışlıq verdi. Nina gülə-gülə onun əlindən tutub içəri apardı. Mavleyevka kəndindən, onun öz ailəsindən, qohum-əqrəbasından xəbər tutdu. Sonra Vasyaya:

– Sən dostunu məşğul elə, mən bu saat gəlirəm, – deyib bayıra çıxdı.

Şəkil məsələsi Vanyanı çox maraqlandırırdı. O, üzünü dostuna tutub:

– Vasya, mənim bir yoldaşım da bu günlərdə sizin idarəyə işə girmişdir, – dedi.

– Kimdir? sən onun bizim idarəyə girdiyini haradan bildin?

– Özü mənə dedi.

Vasyanın qaşları çatıldı. O bir saniyə düşündükdən sonra təkrar soruşdu:

– Adı nədir?

– Mişa!

– Mişa! O sarıbəniz, çil-çil, arıq adamdır. Tanıyıram, – deyə dostunun üzünə güldü. Sonra təkrar sözə başlayıb, əlavə etdi:

– Bizim idarədə onun adı Semyondur. Bu gün də gəlmişdi. O nədənsə müxtəlif qiyafələrə girməyi çox sevir. Onu bir neçə qiyafədə çəkmişəm, – deyə Vasya yerindən qalxıb, o biri otağa keçdi. Bir az sonra əlində bir neçə fotoşəkil içəri girdi. Ona dörd-beş şəkil göstərərək:

– Bax, gör tanıyırsan?

Vanya şəkillərə diqqətlə baxdıqdan sonra daxilindəki həyəcan və nifrəti gizlədərək gülə-gülə:

– Özüdür, zalım oğlu qraf kimi geyinmişdir.

Vasya onun adi paltarda çəkdirdiyi şəkli uzadaraq:

– Aralarındakı fərqə diqqət et! – dedi.

Vanya bu şəkli alıb baxarkən Nina bayırdan:

– Vasya, Vasya, – deyə çağırdı.

Vasya tez koridora çıxdı. Vanya Mişaya ən çox bənzəyən bir şəkli götürüb, tez qoynuna qoydu. Vasya qayıdıb içəri girən kimi Vanyanın qolundan tutub:

– Qalx, Nina bizə yemək hazırlayıncaya qədər sənin şəklini çəkim, – deyə onu öz otağına aparmaq istədi. Vanya bəhanə gətirib razı olmadı. Vasya çox israr etdisə də o, iki-üç gündən sonra təmiz paltarda gəlib şəklini çəkdirəcəyinə söz verdi. Vasya Mişanın stolun üstündəki şəkillərini götürərkən:

– Mişa çox istedadlı xəfiyyədir, – dedi. – Deyilənlərə görə olduqca böyük işlər açacağına söz vermişdir.

Vasyanın bu sözləri Vanyanın qəlbinə bir xəncər kimi sancıldı. Həyəcanını gizlətmək üçün Vasyaya tez cavab verməyə məcbur oldu:

– Bilirəm, o çox istedadlı adamdır.

Vanya artıq axtardığını tapmış, vəzifəsini bitirmiş olduğundan getmək üçün bəhanə axtarırdı.

Nina içəri girdikdə Vanya ayağa qalxdı, əlini ona uzadaraq:

– Bağışlayın, mən getməliyəm, – deyərək, onun əlini öz əlləri içində sıxdı.

– Getmək olmaz. Mən sizə yemək hazırlayıram, qalın, günümüzü bir yerdə xoş keçirək, – deyə Nina qalmağı ondan xahiş etdi. Vanya vacib işi olduğunu bəhanə gətirib, onun xahişini qəbul etmədi. Onlarla çox mehribancasına və nəzakətlə görüşüb qapıdan çıxdı. Pillələri enərkən Vasya onun arxasınca:

– İki-üç gündən sonra gözləyirik, hökmən gəl, – deyə qışqırdı.

IV

Araz həbsdən azad olduğu günün sabahı işə getdi. Podratçı Əhməd onu çox soyuq qarşıladı, lakin Araz buna əhəmiyyət vermədi. İşdən sonra birbaş kontora gəldi. Üç manat on beş şahı keçmiş əmək haqqını tələb edib aldı.

O gün Aslan bəy mədənə baş çəkməyə gəlmişdi. Araz keçərkən Aslan bəy onu uzaqdan görüb istehza ilə:

– Kişilər yaxşı deyiblər ki, "nə yaraşır arığa, gedib girsin qoruğa", – deyə Araza söz atdı. – A kişi, xalq günahını təmizləmək üçün Kərbəlaya gedir, Xorasana gedir, sən də dustaqxanaya... Pəh, pəh, pəh!..

Araz qaşlarını çataraq:

– Buna bax, kəsək oturub daş üçün ağlayır, – dedi, – Bilirəm ki, mənim üçün canın yanmır, öz gününə ağlayırsan.

Aslan bəy Arazdan belə cavab gözləmirdi. O elə zənn edirdi ki, Arazın həbs edilməsi onu yumşaldacaq. Odur ki, bu cavab onun qürurla yoğrulmuş vücudunu titrətdi. Qarşısındakı adamın Araz olduğunu görüncə hirsini yeməyə çalışdı, dodaqlarını gəmirə-gəmirə:

– Bilirəm, başın hələ də havalıdır, səni yolundan bərk azdırıblar, – dedi. – Bu yolnan getsən həmişə ac olacaqsan.

Araz qəzəblə:

– Acından ölsəm də sənin kimi namərdlərdən iş istəmərəm, – deyə cavab verdi.

Aslan bəy cavab vermədi. Araz gözlərini yerə dikərək acıqlı halda çıxıb gedirkən, birdən Mişa ilə qarşı-qarşıya çıxdı. Mişa onu görüncə:

– Oy... Araz, Araz, hardasan? Səni axtarmaqdan yoruldum, – deyə ona yaxınlaşdı. Onlar bir-biri ilə çox səmimi görüşdülər, sonra yaxındakı bir təpədə oturdular. Mişa çoxdan görmədiyi Arazı şən və diqqətli baxışlarla süzdükdən sonra:

– Çoxdandır səni görmürəm, – dedi, – heç dəyişilməmisən, poladsan, polad. Dustaqxana sənə heç təsir etməmişdir, rəngin üstündədir.

Araz onun sualına cavab vermədən soruşdu:

– Sən indi harda işləyirsən?

Mişa gülümsəyərək:

– Heç bir yerdə, – deyə cavab verdi. – Məni qovdular. İndi neçə gündür ki, işsiz gəzirəm.

Araz heyrətlə:

– Nə üçün? Qovulmuş fəhlələrin hamısını işə qəbul etməyə məcburdurlar.

Mişa onun sözünü kəsərək:

– Əvvəlcə qəbul etdilər, sonra bir bəhanə ilə yenə çıxarıb qovdular.

– Bəs necə yaşayırsan?

– Bir təhər yaşayıram, neyləyim.

Mişa bu sözləri o qədər həzin və yanıqlı bir dillə söylədi ki, Arazın ürəyi yandı, cibindəki pullarını çıxarıb:

– Bu gün maaşımı almışam. Üç manat on beş şahıdır. Al bu bir manat sənin, iki manat on beş şahı mənim ailəmin. Qorxma,ürəkli ol, acından ölmərik! – deyərək manatı ona uzatdı.

Mişa manatı aldı, başını tərpədə-tərpədə:

– Mən heç şeydən qorxmuram, – dedi, – tətildən sonra təşkilatımız çox qüvvətlənmiş, Rusiyadan, Gürcüstandan təcrübəli rəhbərlər gəlmiş. Yaponların bizimlə müharibə başlaması çox yaxşı oldu. Çar ordusu hər yerdə məğlub olur. Müharibə nəticəsində hökumət zəiflədikcə bizim təşkilatımız güclənəcək. Bu saat yaman çalışırıq.

Araz onu məmnun baxışlarla süzərək dedi:

– Mən həbsə düşəni təşkilat işlərindən xəbərim yoxdur. Fəhlələr təşkilata çox yazılırmı?

– Çox yazılır, əvvəllər belə deyildi, indi dəstə-dəstə gəlirlər.

Bu söz Arazı çox sevindirdi. Mişa yerindən qalxaraq:

– Araz, mən bir az xəstəyəm, bir az da işim var. Sən təşkilat üzvləri ilə görüş, çıxarılan qərarları, bizim öhdəmizə düşən vəzifələri mənə də xəbər ver! – deyə xahiş etdi.

Onlar görüşüb ayrıldılar. Mişanın verdiyi məlumat onu çox sevindirdi. Çünki təşkilata üzv yazıldığına görə müsəlman fəhlələri və kənd əhli onu dinsiz, "millət xaini" adlandırıb hörmətdən salırdılar. İndi müsəlman fəhlələri və kəndlilər arasında aparılan təbliğat yavaş-yavaş öz bəhrəsini verirdi. Araz bu dadlı düşüncələr içində evə gedirdi. Qapıya yaxınlaşaraq qarşıdakı iri püstə ağacının altından bir nəfər ayağa qalxıb:

– Araz, Araz, bura gəl! – deyə onu yanına çağırdı.

Araz əvvəlcə tanımadığı bu adama uzaqdan diqqətlə baxdı. Yaxınlaşdıqda:

– Vanya, sənsən? – deyə əlini ona uzatdı. Vanya onun əlindən çəkib, ağacın altında oturtdu. Bir qədər dinməzcə oturduqdan sonra:

– Mişa ilə çox şirin söhbət edirdin. O sənə nə deyirdi? – deyə soruşdu.

Araz:

– Elə bir söz demirdi, – deyə cavab verdi, – ordan-burdan danışırdıq.

– Onun sənə dediklərini danışa bilərsənmi?

Araz Mişanın tapşırdıqlarını və aralarındakı söhbəti təfsilatı ilə nağıl etdi. Vanya acı-acı gülərək:

– Sən heç Mişanın kim olduğunu bilirsənmi? – deyə soruşdu.

– Sən ki, onu məndən yaxşı tanıyırsan – deyə Araz təəccüblə cavab verdi.

Vanya Arazın üzünə baxıb, gülərək başını oynatdı, sonra əlini onun çiyninə qoyub:

– O xaindir, jandarm idarəsinin xəfiyyəsidir – dedi. – Ehtiyatla dolan.

Araz qulaqlarına inanmadı, heyrət içində:

– Necə? Mişa jandarm idarəsinin xəfiyyəsi? Buna mən heç inana bilmərəm, – deyə bağırdı.

Vanya:

– Yavaş, çığırma, – dedi, – sən buna inana bilməsən də təşkilat üçün bu isbat edilmiş bir həqiqətdir. Mişa xəfiyyədir. Bunu bilmək səni çox maraqlandırırsa isbat edə bilərəm.

– Nə ilə isbat edərsən?

– İndi bunu isbat etmək o qədər də çətin deyil. O sənə deyib ki, bir az xəstəyəm, həm də işim var. Əvvəla o, xəstə deyil, səndən də, məndən də sağlamdır. İşi olduğuna isə inanıram, çünki sabah şəhərə jandarm idarəsinə gedəcəkdir. İstəsən, bərabər gedək, orada onu öz gözünlə gör, inan!

Araz başını aşağı salıb, əsəbi bir halda əli ilə qumu eşələyirdi:

Vanya:

– Nə deyirsən? Getmək istəyirsənmi? – deyə soruşdu.

Araz qara qaşlarını çataraq:

– Yox, isbat olunmuş bir məsələni təzədən yoxlamağa ehtiyac yoxdur, – dedi. – Ancaq, bu cındırından cin ürkən Mişa hara, xəfiyyə hara? Adam lap məəttəl qalır.

Vanya gülə-gülə:

– Nə, cındırından cin ürkən? Onu sən şəhərdə xəfiyyə paltarında görsən tanımazsan. İki gün əvvəl dəniz donanması zabiti forması geymişdi. Onun partiyaya qəbul edilməsinə səbəb biz olduq. İndi bütün məsuliyyət bizim üzərimizə düşür.

Vanya bu sözlərdən sonra Arazı tamamilə inandırmaq üçün gördüklərini və öyrəndiklərini eynilə nağıl etdi, sonra qoynundan bir fotoşəkil çıxarıb ona uzadaraq:

– Əgər şübhə edirsənsə al bax, onun jandarm idarəsində çəkilmiş şəklidir, – dedi.

Araz Mişanın şəklinə baxdıqdan sonra:

– Artıq hər şey aydındır, – dedi, – zalım oğlu çulunu yaman dəyişib.

Araz bu sözləri deyib bir an sükut etdi. Vanyanın danışdıqlarını xəyalında bir də canlandırınca o aslan qəlbinin içində acı bir ağrı duyub dərindən inlədi. O, ömrü boyu həyatın hər acısını dadmış, hər fəlakətini görmüş, onun ən ağır zərbələrini belə yemişdi. Ancaq onun polad qəlbi, bütün bunlara qarşı göstərdiyi mətanət sayəsində heç bir zaman belə inləməmişdi. Mişa, artıq tanıdığı, öz əməyi, öz alnının təri ilə yaşayan yoxsul Mişa deyildi. O indi öz sinfini, onun kimi minlər-

cə, milyonlarca öz kəndini, ailəsini atıb boz steplər, qalın meşələr aşıb bir parça çörək üçün buralara gələn yoxsul xalqların düşməni, çar xəfiyyəsi idi. Onun heç bir sıxıntı və kədərə yol tapa bilməyən qəlbini inlədən bu acı duyğu idi. O bütün nifrəti ilə:

– Tfu, satqın, alçaq! – deyə bağırdı.

Hər ikisi susdu. Sonra Vanya bir şeyi xatırlayırmış kimi, birdən-birə Arazın qolundan tutub:

– Araz, bura bax, – dedi, – yaxşı yadıma düşdü, bizə öz adamımız olan yaxşı bir qayıqçı lazımdır. Bu günlərdə dənizdə, coşqun ləpələr qoynunda mühüm bir iclasımız olacaqdır. İclasda bir çox mühüm məsələlərlə yanaşı xain Mişanın məsələsi də həll ediləcəkdir. Odur ki, növbəti iclas üçün dənizdən etibarlı yerimiz yoxdur.

Araz gülümsəyərək:

– Qayıqçı mən – deyə cavab verdi.

Vanya sevincək:

– Nə deyirsən? sən qayıq sürmək də bacarırsan?

Araz ciddiyyətlə:

– Bilirəm, özü də lap yaxşı.

Vanya fərəhlə:

– Bu çox yaxşı oldu, – dedi. – Biz bir dənizçi ilə danışmışıq. Nə zaman istəsək bizə bir-iki saatlığa bir qayıq verəcəkdir.

Onlar xeyli danışıb ayrıldılar.

Araz Vanyadan ayrıldıqdan sonra həyətə girdi. Mişa məsələsi onu bərk qəzəbləndirmişdi. Başı aşağı çox fikirli yeriyirdi. O ancaq otağa daxil olduğu vaxt başını qaldırdı, üz-gözü gülməyə başladı. Araz həmişə belə idi. Xaricdə nə dərdi, nə fikri olsa, evə gələn kimi hamısını unudur, hər kədəri qəlbindən silib təmizləyirdi. Bu dəfə də otağa girən kimi sevimli Günəşini, baxışlarında özünü gördüyü Poladını şən və gülərüzlə qarşıladı.

V

Sərin və ulduzlu bir gecə idi. Qaraşəhər körpüsündə qızğın iş gedir, yan-yana durmuş gəmilərə yük vurulurdu. Yalnız körpüdən bir qədər uzaqda durmuş bir qayıqçı qayığı təmir etməklə məşğul kimi görünürdü; arabir alıcı gözlərini sahilə dikib, bir şey axtarırmış kimi baxırdı. O birdən-birə doğruldu, tez kürəklərə hərəkət verib qayığı

sürətlə sahilə doğru sürdü. Sahildə gözləyən on bir adam dərhal qayığa atıldı. Qayıq sahildən ayrılıb sürətlə uzaqlaşmağa başladı. Miniklərdən biri şən və gurlayan səslə:

– Qoçağım Araz, sən qayıq sürmək də bacarırsanmış? – deyə heyrətlə ona baxdı.

Araz cavab vermədi. O, gözlərini dənizin sakit səthinə zilləyib düşünürdü. Vanya diqqətdə ona baxıb:

– Araz, nə düşünürsən? – deyə soruşdu.

Araz üzünü onlara çevirib, əli ilə uzaqları göstərərək:

– Bax; o yerlərdə su altında qalmış köhnə bir şəhər var, – deyə sözə başladı. – Dəniz durğun, hava saf olduğu zaman dənizçilər keçərkən onu su altında görürlər. Deyirlər ki, o şəhərin adı "Səba" imiş. Süleyman padşahın sevgilisi Səba bu şəhərdə yaşayırmış. Bu xüsusda eldə söylənən köhnə bir dastan var. Mən hələ kiçik ikən rəhmətlik babamdan eşitmişdim.

Qayıq göy suları yara-yara irəliləyirdi. Araz üzünü Bibiheybətə, İçərişəhərə tutub "Qırx damcı" qayasını, "Qız qalası"nı göstərərək, onların haqqında qısa izahat verdi və öz biliciliyinə məğrur olan adamlara məxsus bir tövrlə əlavə etdi:

– Bu yerlərin hər qayası, hər daşı bir dastandır.

Bu sözləri deyib Araz yenidən düşünməyə başladı. Qayıqdakılardan qarayanız, ortaboylu, xoşsima bir gənc:

– Araz, bu yerləri çoxmu sevirsən? – deyə soruşdu.

Araz dərhal cavab verdi:

– Bir gün söz arasında düşmənlərdən birisi mənə dedi ki, "siz fəhlələrdə, bütün yoxsullarda vətən məhəbbəti yoxdur. Siz bu ananın övladı deyilmisiniz? Onu nə üçün sevmirsiniz?" Mən isə cavabında: "Vətəni siz sevmirsiniz, – dedim, – sizin sevdiyiniz yalnız puldur. Vətəni sevən də bizik, onu azad edən də biz olacayıq!"

– Haqqın var Araz, qorxma, o gün yaxındır. O günü sənə firqəmizin açdığı geniş yol, izlədiyi milli siyasət verəcək. O zaman sosialist vətənini gənc bir aşiq qəlbi ilə sevəcəksən. İndi yelkəni aç, otur, işə başlayaq.

Qarayanız gənc:

– Bu günkü vəziyyət və gələcək fəaliyyətimiz haqqında danışmaq üçün söz Azad yoldaşa verilir, – deyə əlavə etdi.

Qumral gözlü, xoşsima gənc sözə başladı:

– İmperializmin əsas xarakterlərindən biri müstəmləkəçilikdir. O bütün yer üzünə sahib olsa, yenə də gözü doymaz. Göylərə əl atıb ora-

da müstəmləkə axtarmağa başlar. Çar imperiyası çoxdan bəri iki müstəmləkəyə göz dikmişdir: birinci Hindistan, ikinci Mancuriya. Bu müstəmləkələri ələ keçirmək üçün ciddi hazırlıq aparırdı. O, əvvəlcə ingilis müstəmləkəsi olan Hindistana sahib olmaq istəyirdi. Hətta müəyyən zabitlərə farsca öyrənmək haqqında ayrıca göstəriş verilmişdi. İngilis xəfiyyələri bundan xəbər tutmaya bilməzdi. Bütün dünyanı öz barmağı ucunda oynadan ingilis siyasətçiləri, çar ordusunun ağzını Hindistandan Mancuriyaya çevirdi. Bu gün Yaponiya ilə şiddətli müharibə gedir. Çar ordusunun hər yerdə məğlub olması, Rusiya flotunun yaponlar tərəfindən batırılması çar üsuli-idarəsinin və hökumət başçılarının nə qədər çürük olduğunu meydana çıxardı.

Rus-yapon müharibəsi məğlubiyyətlə qurtarmaq üzrədir. Çar hökuməti müharibə ilə ölkədə güclənən inqilabi hərəkatı zəiflətmək ümidində idi. Lakin onun ümidləri, xam xəyalları boşa çıxdı. Peterburq və başqa sənaye mərkəzlərində qüvvətlənən fəhlə tətilləri bunu sübut etməkdədir.

Hökumətin gündən-günə zəifləməsindən istifadə edən burjuaziya sərbəstlik və bəzi hüquq almaq məqsədi ilə qanuni-əsasi verilməsini hökumətdən tələb etməyə hazırlaşır. Onun bu tələbinə menşeviklər də səs verir, bu xüsusda fəhlə və kəndlilər arasında indidən ciddi təbliğat aparırlar. Lakin bizim yolumuz aydın, cəbhəmiz məlumdur: biz çar mütləqiyyətini yıxıb, fəhlə-kəndli dövləti qurmalıyıq. Bizim vəzifəmiz olduqca məsuliyyətli bir vəzifədir. Buna görə də biz nə etməliyik? Burjuaziyanın öz faydasına hökumətdən tələb etdiyi qanuni-əsasinin iç üzünü, menşeviklərin proletariata xain çıxdığını açıb göstərməliyik. Menşeviklər hər yerdə məğlub olur. Müsəlman fəhlələri dəstə-dəstə axıb təşkilata yazılır. Bilirsiniz ki, müsəlman fəhlələri bizim üçün böyük qüvvədir. Onları firqəmizə cəlb etməyincə mədənçilərə qalib gəlmək olmaz! Biz yaxın zamanda uzun, davamlı tətillərə və nümayişlərə başlamalıyıq!

Azad sonra qəti bir səslə sözünə davam etdi:

– Bakı komitəsindən aldığım məlumata görə hökumət də bizim tətillərin, nümayişlərin qabağını almaq üçün böyük hazırlıq görür. İnqilabı yatırmaq məqsədi ilə erməni-müsəlman qırğını salmaq üçün tədbirlər görür.

Araz əlini dizinə vurub:

– Vay, şeytan oğlu şeytan, öz başını qorumaq üçün gör nələr düşünür! – deyə heyrətlə Azadın üzünə baxdı. Yoldaşlardan bir neçəsi onun sözünə və hərəkətinə güldü. Qaraşın, xoşsima gənc:

– Buna müvəffəq olsalar, inqilaba böyük zərbə vuracaqlar. Hər halda bu bizim tətil və nümayişlərdən əvvəl ola bilməyəcək. Hər necə olsa bunun qarşısını almalıyıq! – deyə yumruğunu şiddətlə qayığın təknəsinə çırpdı.

Məsələnin ciddiliyi hamını düşündürürdü. Arazın qaşları çatılmış, siması bulud kimi tutulmuşdu. Azad düşüncəli halda başını qaldırıb davam etdi:

– Bu faciə kəndlərdən əvvəl şəhərlərdə oynanacaq. Faciənin baş rolları müsəlman qoçuları ilə erməni daşnaqlarına veriləcək. Yerli burjuaziya ilə erməni burjuaziyası arasında çoxdan bəri kəskin bir rəqabət davam edir. Erməni katolikosu Bakıya gəldiyi zaman erməni burjuaziyasına: "Ey Bakı ermənilər, Nikolay deyir ki, Tiflis mənimdir, yalan deyir, Tiflis ermənilərindir. Çünki ən böyük, möhtəşəm binalar, ticarət, qısası şəhərin iqtisadi həyatı bizim əlimizdədir. Mən zənn edirdim ki, Bakı ermənilər də Bakını Tiflisə çevirmisiniz. Mən yanılmışam, burada siz mühüm bir iş görə bilməmisiniz. Böyük binalar, torpaq, ticarət əksərən yerli varlıların əlindədir" – deyə söylədiyi nitq bu rəqabət və düşmənçiliyi bir qat daha artırmışdır. Bunu hökumət çox yaxşı bilir. Buna görə hər iki millətin burjuaziyasından da istifadə edəcək. Arada zərər çəkən yenə hər iki tərəfin zəhmətkeşləri olacaqlar.

Azadın qısa məruzəsindən sonra yığıncaqda iştirak edənlərdən bir neçəsi də çıxış etdi.

Mişanın xəyanəti haqqında isə Vanya özü danışdı. O, Mişanı izlərkən topladığı bütün məlumatı, gördüklərini olduğu kimi nağıl etdi. Qayıqdakılar heyrət və qəzəblə onu diqqətlə dinləyir, arabir Mişanın ünvanına nifrətli sözlər yağdırırdılar. Vanya çıxışını bitirdikdən sonra Mişanın xəfiyyə paltarındakı şəklini iclasdakılara göstərdi. Onun xain olması haqqında artıq heç kimdə şübhə qalmadı. Sonra yenə Azad söz aldı. O özünə məxsus təmkinlə sözə başladı:

– Yoldaşlar, Mişa hadisəsi göstərir ki, mütləqiyyət nökərləri firqəmizə zərər yetirmək, içərimizdə qarışıqlıq salmaq üçün bizim öz aramızdakı adamlardan da istifadə edir. Bu hadisə bizi bir daha ayıq olmağa, sıralarımızı möhkəmlətməyə çağırır. Mişanın özünə gəldikdə isə hələ bir müddət onu özümüzdən hürkütməməli, onun vasitəsi ilə hökumətin görmək istədiyi gizli tədbirləri qabaqcadan öyrənməli, jandarm idarəsində bizim təşkilatın işləri haqqında yanlış təsəvvür oyatmaq üçün ona səhv məlumatlar verməliyik. Başqa yerlərə soxula

bilməməsi üçün isə, Mişa haqqında qonşu mədən partiya təşkilatlarına xəbər verilmişdir. O hələlik bizim üçün qorxulu deyil. Onun ifşa olunacaq günü isə təşkilat özü müəyyənləşdirməlidir.

Azadın çıxışı yığıncaqdakıları tamamilə qane etdi. Bu məsələ ətrafında danışmaq üçün söz alan gənc bir fəhlə Azadın fikirləri ilə razı olduğunu bildirdikdən sonra bu işdə son dərəcə ehtiyatlı olmağı, Mişanın şübhələnməsinə yol verməmək üçün möhkəm iradə nümunəsi göstərmək lazım gəldiyini söylədi. Axırda yığıncaq müvafiq qərarlar qəbul etdi.

DÖRDÜNCÜ FƏSİL

I

Bazar günü idi. Araz yoldaşlarını görmək məqsədi ilə evdən çıxıb fəhlə qışlasına getmək istəyirdi. Əlisəfanın qapısı yanından keçərkən əncir ağacı yanında durmuş bir nəfər:

– Ay Araz, hara belə tələsirsən? – deyə onu səslədi.

Araz dönüb baxdıqda kəndlisi Əsədi tanıdı. Görüşdükdən sonra onu evinə dəvət etdi. Əsəd:

– Yox, evlik işim yoxdur, otur buradaca danışaq, – deyə Arazın təklifini rədd etdi. Hər ikisi oturdu. Araz soruşdu:

– Kənddə nə var, nə yox? Çoxdan xəbər tuta bilmirəm.

– Bilirəm başın çox qarışıqdır. Doğrusu, əvvəllər bütün kənd sənin dalınca danışırdı, biri də mən: "Buna bax, Balakişinin oğlu gedib nə olub, nə olub, bolşevik olubdur" – deyirdik. Ancaq sizin bu axırıncı çıxışınızdan sonra kəndlilərin fikri yaman dəyişilib. Onlar deyirlər ki, bu Nikolaya fəhlələrdən başqa heç kəs bata bilməz. Bir de görüm, işləriniz necədir?

– Pis deyil, yaxşıdır, – deyə Araz cavab verdi.

Əsəd mənalı-mənalı gülümsəyərək:

– Təzə xəbəri eşitmisənmi? – deyə soruşdu.

– Hansı xəbəri?

– Deyirlər ki, ermənilər bizi qırmaq üçün bərk hazırlaşırlar. Bundan xəbərin varmı? Bu necə işdir?

Araz suala sualla cavab verdi:

– Bunu sənə kim dedi?

– Bütün kənd danışır.

– Axı bu xəbəri kəndə yayan kimdir?

Əsəd bir az duruxdu. Sonra yavaşca:

– Əgər aramızda qalsa, deyərəm, çünki o adama mən söz vermişəm, – dedi.

– Qorxma, de!

– Sizinlə işləyən Semyon yayır.

Araz bir az düşündükdən sonra dedi:

– Əsəd, hər kəsin sözünə inanma, sən bilirsən o Semyon dediyin adam kimdir?

– Yox, yaxşı tanımıram. Ancaq bir həftədir mənimlə yaman dostluq edir.

– Dediyin adam xəfiyyədir, adı isə Semyon yox, Mişadır. Semyon adını ona sonradan veriblər. Görürsən, Nikolay cəbhədə basılır, fəhlələr, kəndlilər hər yerdə baş qaldırır, hökumət bunun qabağını almaq üçün ortaya fitnə salmaq istəyir. Sənə dediyi bu sözü ermənilərə də deyir: "Ay ermənilər, müsəlmanlar sizi qırmağa hazırlaşır, siz isə yatırsınız!" Ermənilərin də sənin kimi qoçuları bu fitnəkar sözlərə inanıb, bunu xalqın içinə yayır. Başa düşdün? Get, dediyim sözləri kəndlilərə başa sal. Onları arxayın elə. Semyon məsələsi isə öz aramızda qalacaq. Bunu heç kim bilməməlidir.

Əsəd:

– Qəribə söz danışırsan, mən gedib xalqın başı altına yastıq qoyum, yatsın? Bəlkə doğru oldu. Ermənilər bizim üstümüzə gələndə biz arvad kimi qaçıb deşiklərə təpilək?

– Erməni sənin üstünə gələndə deşiyə təpil deyən yoxdur; ancaq sən tüfəng götürüb erməni üstünə getmə.

Əsəd ayağa qalxdı. Arazın məsləhətindən razı qalmadığı onun üzündən, gözündən sezilirdi. Qaşlarını çataraq acıqlı bir səslə:

– Yox, sözlərin beynimə batmadı. Bu it oğlu Nikolay yəni o qədər ölü oldu ki, beş, on ac-lüt fəhləyə də gücü çatmadı. Zalımın qoşunu dünyanı basıb gedir. Burda bir iş var, belə deyil. Kişi bizə silah da boyun olur. Bu fürsəti qaçırmaq olmaz. Silahımızı alarıq. Erməni üstümüzə gələr cavab verərik, gəlməz nə itiririk. Hələ sağ ol!

– Bura bax, heç bilmirəm o Mişa sənə silahı hardan verir?

– Nəyimə gərək. Mən elə bilirdim sizin təşkilat tərəfindəndir; demək hökumət tərəfindən verilirmiş. Bizim üçün nə fərqi.

Əsəddən ayrıldıqdan sonra Araz bu hadisəni təşkilata tezliklə xəbər vermək üçün fəhlə qışlasına tərəf yönəldi. Mişanın ara qarışdırması onu yaman acıqlandırmışdı. Kim bilir əlinə düşsə ondan necə intiqam alardı. O bu acı düşüncələr altında əzilə-əzilə gedərkən arxadan çiyninə bir əl toxundu. Dönüb baxarkən Mişa gülə-gülə: "Hara gedirsən?" – deyə soruşdu. O, Mişanı görüncə başı dumanlandı, qəlbi şiddətlə vurmağa başladı. Nə edəcəyini bilməyən adamlar kimi, kinli gözlərini bir saniyə onun gözlərinə dikib qaldı. Onun bu halı Mişanı da şübhələndirdi. "Bu sadədil adam mənim kim olduğumu yəqin öyrənmiş" – deyə düşünməyə başladı. Çünki hər zaman ona qardaş kimi yanaşan, bütün dərdini, sevincini onunla bölüşən dostu, indi, ona bir düşmən kimi baxır, gözlərində kin və heyrət qığılcımları uçuşurdu. O birdən-birə:

– Nə var, Araz, sənə nə olub? – deyə soruşdu. Bu bir saniyə içində onun zehnindən çox şey keçdi. Yalnız bir xəyal onun bütün düşüncələrini alt-üst etdi. Bütün iradəsini toplayaraq gözlərini yerə dikdikdən sonra:

– Bu gün eşitdiyim qara xəbər məni çox narahat edir, – deyə cavab verdi.

Mişa heyrətlə:

– Nə xəbər?

– Mən eşitmişdim, inanmırdım. Bu gün dayım oğlu yanıma gəlmişdi. Deyir, ermənilər müsəlmanları qırmaq üçün hazırlaşır. Bu sözü şəhərdə hamı danışır. Təşkilat isə bizim başımızın altına yastıq qoyur. Yox, mən bu məsələdə təşkilatın fikrinə şərik ola bilmərəm. Ancaq söz öz aramızda qalsın, bu iş məni çox qorxudur, – deyə çox mütəəssir bir halda Araz cavab verdi.

Mişa, Arazı saf və sadədil bir adam kimi tanıyırdı. Bu söz onu bir neçə cəhətdən sevindirdi: əvvəla, kənddə əkdiyi zəhərli toxumlar göyərmişdi; ikinci, onun xəfiyyə olduğunu demək Araz bilmirdi; üçüncüsü, o erməni-müsəlman ədavətinə sadədil Arazı da çəkə biləcəkdi. Bu surətdə o, həm qırğını şiddətləndirəcək, həm də Arazı təşkilat yanında ləkələyəcəkdi. Bu dadlı xülyalarla məst olan Mişa, Arazın qolundan çəkib yerə oturtdu və dedi:

– Əziz dostum, bu əhvalatı mən çoxdan bilirəm. Buna bir məna verərlər deyə, sənə və başqa müsəlmanlara danışmağa qorxurdum. İndi sənə açıq deyirəm: ermənilər siz müsəlmanları qırmaq üçün böyük

hazırlıq aparır. Səndən nə gizlədim, mənim qardaşım adi çəkməçi deyil, o həm də monarxist oktyabristlər partiyasında mühüm vəzifə daşıyır. Məsləkcə o tamam başqa adamdır, biz başqa adamlarıq. Onu bu yanlış yoldan uzaqlaşdırmaq üçün nə qədər çalışıram, mümkün olmur. Əgər öz məsləkində qalmağa inad etsə, mən ondan uzaqlaşmağa məcburam. Hələlik yanına gedib gəlirəm. O, mənim kimi aciz deyil, dilli, bacarıqlı, cəsur bir adamdır. Onun yanına çəkmə, botin tikdirmək üçün çox daşnaq gəlir. Onlar qardaşıma bərk hazırlandıqlarını söyləyirlər. Bu qırğın şübhəsiz olacaq. Ancaq mənim müsəlmanlara yazığım gəlir. Onların əlsiz-ayaqsız, yoxsul təbəqəsi arada qırılıb məhv olacaq. Bu xüsusda təşkilat bizə heç bir kömək edə bilməz. Bunun qarşısını özünüz indidən almalısınız.

Araz onun bu riyakar sözlərini böyük bir səbir və mətanətlə dinlədi. Qəlbini tamamilə ovlamaq və son fikrini bilmək məqsədi ilə dedi:

– Ax, Mişa! Onu mən də başa düşürəm, ancaq lüt bir fəhləyəm. Silah olsa bizim rayondakı bu beş para kəndi əjdahaya döndərərdim, – dedi.

Mişa gülümsəyərək:

– Mən sənə silah tapsam nə verərsən?

– Get, lotunun biri, mənə silah tapana bax. Sən silahı hardan taparsan?

– Heç bilirsən monarxistlərin nə qədər silahı var? Qardaşım bu işi düzəldə bilər.

– O bu köməkliyi etsə, bizə böyük minnət qoymuş olar. Bir az arxayın olaram.

Mişa əlini onun əlinə vurub gülə-gülə:

– İki günə sənə iki yüz tüfəng, on min patron verərəm, – dedi.

– Sən bu yaxşılığı etsən, mən də sənin xəcalətindən çıxaram – deyə Araz öz razılığını bildirdi. Sonra ətrafa boylanıb yavaşca:

– Ancaq, Mişa mən ölüm bu işi bizdən başqa kimsə bilməsin. Çox ehtiyatlı olmaq lazımdır. Səsə düşsə, təşkilat yanında sən də, mən də biabır olarıq.

Mişa onun qolundan tutub qaldırdı, gedə-gedə:

– Sən dostunu o qədər də avam bilmə. Bu şeyləri az-maz mən də bilirəm, – dedi.

Hər ikisi danışa-danışa gedərkən, Vanyaya təsadüf etdilər. Vanya gülə-gülə:

– Dostlar hara gedirsiniz? – deyə soruşdu.

Araz məmnun bir tövrlə:

– Mən fəhlə qışlasına gedirkən Mişaya rast gəldim. Sən hara gedirsən?

Vanya Arazın sualını cavabsız buraxdı, qolunu hər ikisinin qoluna keçirdikdən sonra Mişadan soruşdu:

– Mişa, sən indi harda işləyirsən?

Mişa işdən çıxarıldığı, çəkməçi qardaşının köməyi ilə yaşadığı və heç yerdə iş tapa bilmədiyi haqqında Vanyaya məlumat verdi.

Vanya bir qədər düşündükdən sonra başını qaldırıb:

– Yaxşı, sabah tənəffüs zamanı gəl, mən sənə iş taparam, – dedi.

Vanyanın bu vədəsi Mişanı çiçək kimi açdı. O bir az da yaxınlaşıb:

– Yaxşı, sabah gələrəm – dedi, sonra təkrar sözə başladı:

– Vanya, vəziyyətin nə qədər ağır olduğunu bilirsən. Bizim təşkilat nə üçün susmuşdur, heç bir fəaliyyət göstərmir? O kimi, nəyi gözləyir?

Vanya ona bir şey sezdirməmək üçün təbii bir səslə:

– Bu məsələ bütün fəhlələri düşündürür. Əvvəllər arabir gizli yığıncaqlarımız olurdu. İndi tamamilə susmuş kimidir. Yəqin rəhbərlər fəhlələri qırğına verməkdən qorxur. Əlbəttə, çar qazağı, çar polisi ancaq çar məmurlarını tanıyır, onlar əmr quludur. Nə əmr etsələr ona itaət edirlər. Ona görə də hökumətə qarşı üsyan etmək zənn etdiyimiz qədər asan deyil, ehtiyatlı olmaq lazımdır. Biz bu gün ancaq vəziyyətimizin yaxşılaşmasını tələb edə bilərik, – dedi.

Bu sözlər Mişanı tamamilə qane etdi. Bir az söhbət etdikdən sonra ayrılıb getdi.

Vanya əli ilə Arazın qoluna vurub:

– Dostuna yaxşı azdırma verdimmi? – deyə soruşdu.

Araz gülümsəyərək:

– Azdırmanı yaxşı verdin. Ancaq sən ona harda iş tapacaqsan?

Vanya onun fikrini anlayıb:

– Bilirəm sən nə deyirsən. Ona Şəmsinin mədənində iş tapacağam. O mədən tamamilə bizim tərəfimizdədir. Qorxma, üstündə otuz göz qoyacağam. O hələlik bizə lazımdır, çünki belə azdırmalarla biz ondan çox istifadə edə bilərik.

– Mən sənin bu fikrinlə tamamilə şərikəm. Bu gün mən də ona belə azdırmalardan vermişəm – deyə Araz Vanyanın fikrini təsdiq etdi. Sonra Araz Mişa ilə aralarında olan söhbəti olduğu kimi Vanyaya danışdı. Axırda isə dedi:

– Montaşevin mədənində daşnaqlar arasında təbliğat apardıqdan sonra onlara da belə bir təklif etmişdir. Dünən mənə Qriqor dedi.

Vanyanın halı və rəngi dəyişdi. Birdən-birə dayanıb hiddətli səslə:

– Tfu, alçaq, – deyə bağırdı.

Sonra Arazdan soruşdu:

– Sən hansı dəstədə manqabaşısan?

– Üçüncü dəstədə.

– Mən dördüncü dəstədə. Demək hələlik beş dəstəmiz var.

– Beş nə üçün? Bibiheybət rayonunda da iki. Hamısı yeddi dəstədir. Hər dəstədə 50 nəfərdən 350 nəfərə kimi əli silahlı fəhlə var. Rus, erməni və müsəlman fəhlələrindən təşkil edilmiş bu dəstələr neft rayonlarında iki xalq arasında salınan ədavətin qarşısını ala biləcək. Ancaq şəhərə əlimiz çatmır. Ora da kömək edə bilsəydik.

Vanya:

– Təşkilat şəhərdə də ciddi tədbirlər görmüş və görməkdədir. Sən Mişanın vəd etdiyi silahları tezliklə əldə etməyə çalış. Donuzdan bir tük də qənimətdir. Bu silahların bizə böyük köməyi dəyəcəkdir. Mənsə indi Azad yoldaşla görüşməli, onu məsələdən xəbərdar etməli və göstərişlər almalıyam. Hələlik sağ ol, ayıq ol, Mişanı gözdən qoyma.

II

Fəhlələr qum üstündə toplanıb danışırdılar. Qriqor alnının tərini silə-silə onlara yaxınlaşdı. Yoldaşları onu yorğun-arğın görüb soruşdular:

– Hardan gəlirsən, Qriqor?

Qriqor başından furajkasını götürüb:

– Şəhərdən... Kaş getməyəydim, daşnaqlar qoçu Ağarzanı öldürdülər, bunun axırı yaxşı görünmür, – deyə əlinin tərsi ilə üzünün tərini sildi.

Araz onun ətəyindən çəkib:

– Otur, danış, səndə xəbər var, – dedi.

Qriqor oturub, gördüklərini nağıl etməyə başladı:

– Qoy sizə əhvalatı təfsilatı ilə söyləyim. Deyirlər ki, qoçu Ağarza bir erməni qadını ilə yaşayırmış. Qadın olduqca gözəlmiş. Öz ərini sevmədiyinə görə gecə yatdığı yerdə Ağarza ilə birlikdə onu öldürür. Bu hadisədən daşnaq nümayəndələri xəbər tutub Ağarzanı öldürtməyə qərar verirlər. Bu gün, bazar günü daşnaqlar kilsə ayinindən sonra

dəstə-dəstə küçəyə çıxarkən təsadüfən Ağarza da o küçədən keçirmiş. Ağarzanı görən kimi onlar hər tərəfdən hücum etmiş və onu öldürmüşlər.

– Onu öldürənləri sən özün də gördünmü? – deyə Araz maraq və həyəcanla soruşdu.

– Mən Parapetdə oturub, erməni tanışlarımdan biri ilə söhbət edirdim. Birdən atışma qopdu, həyəcan içində hərə bir tərəfə qaçmağa başladı. Atışma davam edirdi. Bunun nə olduğunu heç kəs bilmirdi. Gördüm adamlar erməni kilsəsi tərəfə axır, mən də getdim. Kilsədən çıxan daşnaqlar fayton yanında yerə yıxılmış bir meyitə yanaşıb tapançalarının güllələrini onun başına boşaldır, heç bir şey olmamış kimi uzaqlaşıb gedirdilər. Mən bir nəfərdən öldürülənin kim olduğunu soruşdum. O, mənə "Qoçu Ağarzadır" – deyə cavab verdi. Meyitə azından əlli güllə vurulmuşdu. Canında sağ yeri qalmamışdı. Bu hadisənin çox pis nəticə verəcəyini bildiyim üçün onu ətraflı öyrənmək istədim. Deyirlər Ağarzanın qardaşları meyiti soyundurub açıq bir arabada küçələri gəzdirə-gəzdirə: "Ay müsəlmanlar, bir görün ermənilər bizim qardaşımızı necə öldürüblər!" – deyə xalqı ermənilərə qarşı qaldırmağa çalışırlar.

– Bu işə polis qarışmırdımı?

– Polis nəfərləri sevindiklərindən küçələrdə bığlarını eşirdilər. Bu fitnəni törədən elə hökumətin özüdür! Bunun axırı yaman olacaq. Bir tərəfdən hökumət, bir tərəfdən də bizim burjuylar, qoçular bunu şişirib gör bir nə fitnə çıxaracaqlar. Arada hər iki tərəfdən yenə əlsiz-ayaqsız adamlar tələf olacaq.

Araz axşama qədər yoldaşları ilə dərdləşdi. Bu hadisə ona çox təsir etmişdi. O, Vanyanın yolunu çox gözlədi, lakin Vanya gəlib çıxmadı. Araz axşamüstü yorğun və pərişan halda evə qayıtdı.

Son günlər evə gec-gec gəldiyi, həmişə fikirli və pərişan olduğu üçün Günəş onu xeyli məzəmmət etdi:

– Yenə evdə-eşikdə tapılmırsan. Bu təşkilat sənin başına təzədən bir bəla açmasa yaxşıdır.

Araz:

– Sən mənim işlərimə qarışma, – dedi, – kişinin başı qalda gərək.

Araz o gün bərk yorğun idi. Yemək yedikdən sonra uzanıb yatdı. Gecəyarısı Günəş onu oyadıb:

– Qalx, qalx, səni qapıda çağırırlar – dedi. Araz yuxulu gözlərini ovuşdurub:

– Kimdir? – deyə soruşdu.

Günəş:

– Sənin dostun urusdur, gör nə deyir.

Araz yataqdan qalxıb tez qapıya yüyürdü. Mişanı görüncə:

– Ədə, Mişa, sənsən? Gecə vaxtı xeyir olsun, nə var? – deyə soruşdu.

Mişa yavaşca:

– Tüfəngləri gətirmişəm. İki yüz vədə vermişdim, yüz əlli tüfəng ala bildim, – deyə onun üzünə baxdı.

Araz başını qapıdan çıxarıb baxdı. Qapı ağzında yüklü bir araba durmuşdu. Mişa onun qolundan tutub çəkdi:

– Gəl, gəl, tez ol arabanı boşalt! Ancaq sən bunları hara qoyacaqsan?

Araz arabaya yaxınlaşıb:

– Sən qorxma, incir ağacının altına yığacağam. Səhərə qədər ona əncam çəkərəm. Arabanı içəri çək! – deyə böyük darvazanı açdı. Arabanı həyətə çəkdilər. Böyük brezenti üstündən götürüb tüfəngləri və patronları incil ağacının altına yığdılar. Mişanın rəngi qaçmış, qorxudan əl-ayağı titrəyirdi. Araba həyətdən çıxarkən Arazın əllərini əlləri içində tutub:

– Dostum, amandır, çox ehtiyatlı ol! Məni işə salsan, sonra özün bil! – dedi.

Araz əli ilə onun arxasına vuraraq:

– Qorxaq olma, arxayın ol! – dedi.

Mişa arabaya atılıb getdi. Araz tüfənglərin yanında oturub onları tez başdan etməyi düşünürdü. Günəş yatmamışdı. O hər şeyi görür, hər şeyi bilirdi. O indi qapı ağzında durub qaranlıqda zor-güc seçə bildiyi Araza baxırdı. Onun nə düşündüyünü anlamışdı. Yavaşca:

– Araz, Araz! – deyə çağırdı.

Araz qaranlıqda ona yaxınlaşınca:

– Bura bax, onları evin enli böyük taxçasının dal tərəfindən yığmaq olar. Mən də qabağından yorğan-döşəyi yığaram. Heç görünməz, – dedi. Araz, Günəşin məsləhətini çox bəyəndi.

– Ay qoçaq arvad, bu hardan sənin fikrinə gəldi? Bax, həmişə belə qoçaq və iradəli ol! – dedi.

Günəş taxçanı boşaltdı. Tüfəngləri qucaq-qucaq daşıyıb taxçanın arxa tərəfindən bir-birinin üstünə səliqə ilə yığdılar. Taxça doldu.

Qırx tüfəng yerdə qalmışdı. Onları harda gizlətməyi düşünərkən, zehnində bir fikir doğdu. Araz tez həyətə yüyürdü. Qapını açıb uzaqlara baxdıqdan sonra evə tərəf yüyürdü. Patron qutusunun üst taxtasını aslan pəncəsi ilə qoparıb açdı. Cibini güllə ilə doldurdu. Tüfənglərdən birini götürüb həyətdən çıxmaq istərkən onu diqqətlə təqib edən Günəş birdən-birə yaxasından tutub:

– Ey, bu gecəyarısı hara gedirsən? Səni təkbaşına qoymaram, – deyə geri çəkdi. Araz üç-dörd addım geri oturdu. Günəş hələ onun yaxasını əlindən buraxmamışdı. Sağ əli ilə möhkəm tutub:

– Tüfəngi yerə qoy, gülləni cibindən çıxar; gəl get, yat, səni təkbaşına bu gecəyarısı buraxmayacağam! – dedi.

Araz:

– Burax, Günəş, bu saat qayıdıram – deyə öz yaxasını Günəşin əlindən çıxartmaq istədikdə yaxında ayaq tappıltısı və danışıq səsi eşidildi. Araz səs gələn tərəfə qulaq asdı. Kimsə deyirdi:

– Bu zaman onu yuxudan oyatmaq çətin olacaq. O birisi deyirdi:

– Çarə yoxdur, hər necə olsa oyatmaq lazımdır.

Araz:

– Ey, kimsiniz? – deyə ucadan qışqırdı.

Vanya onu səsindən tanıyıb:

– Oyaqsan? Tez ol, gəl! – deyə ona yaxınlaşdılar.

Qriqor hamısından əvvəl:

– Tez ol Araz, daşnaqların əlindən tüfəngləri almaq lazımdır. Arabanı dayandırmışıq, – dedi.

Cavab olaraq Araz, həyətə girdi. İçəridən qucağında on tüfənglə çıxdı.

– Götürün gedək, tüfəngsiz yoldaşlara paylayarıq, – dedi.

Sonra patron qutusunu gətirdi. Yoldaşlar ciblərini doldurub yola düşdülər. Günəş durduğu yerdə donub qalmışdı. Onların işlərinə, sözlərinə diqqət edirdi. Ağzını açıb Araza bir kəlmə söz də demədi. Onlar getdikdən sonra qapı yanında atılmış patron qutusunu götürüb həyətə apardı. Bir çuxur qazıb onu orada basdırdıqdan sonra həyətdən çıxıb yaxındakı qum təpəsi üstündə oturdu.

Əhvalat belə idi: Mişa içi tüfənglə dolu araba ilə Keşlə kəndinə qədər gəlmiş, orada arabanı daşnaqların təyin etdiyi iki nəfərə təhvil verib onlardan ayrılmışdı. Daşnaqlar arabanı Sabunçu döngəsinə qədər gətirib mədənlərə dönmək istərkən pusquda duran qarovulçu fəhlələr səngərlərə girib arabanı dayandırmış, arabadakı iki nəfərlə aralarında atışma

başlanmışdı. Vəziyyətin ağır olduğunu görən iki nəfər arabanı buraxaraq, daşnaqlara xəbər vermək üçün qaçıb getmişdilər. Fəhlələr arabaçını Bülbülə yolu ilə sürməyə məcbur etmək istədikdə on nəfərə qədər əli silahlı daşnaq özlərini onlara çatdırmışdı. Fəhlələr tez yerə yatıb onları qorxutmaq üçün havaya güllə atmış, aralarında atışma başlamışdı.

Məsafə uzaq olduğundan hər iki tərəf bir-birini aydın görməyib, yalnız qarasına güllə atırdı. Atışma belə davam edirkən Araz arxa tərəfdən bir dəstə silahlı fəhlə ilə ora yetişmişdi. Bu zaman qarşı tərəfdən ermənicə:

– Paqos, sən qaç, köməyə adam çağır! – deyə bir səs eşidildi.

Qriqor onların daşnaq olduğunu Araza bildirdi. Fəhlələr bir-birindən aralı, kiçik, təbii səngərlərə girib hamısı birdən, onların başı üstündən atəş açdılar. Daşnaqlar arxa tərəfdən də atışma başlandığını görüb başlarını itirdilər. Araz səngər arxasından onlara xəbərdarlıq etdi:

– Qaçmasanız vuracağıq. Bax, bu üçüncü xəbərdarlıqdır, qaçmasanız, vuracağıq! Daşnaklar qaçmağa başladılar.

– Yoldaşlar, arabanı sürün gəlsin, düşmənlər qaçdı, – deyə Araz əlində tüfəng arabaya tərəf irəlilədi. Qarovulçu fəhlələr onu səsindən tanıdılar. Araz tez geri dönüb, dəstəsi ilə bərabər daşnaqları təqib edərək, Sabunçu qayalarından dərəyə qədər qovdu. Arabanı Bülbülə kəndinin yanında saxladılar. Orada tüfəngləri boşaldıb, arabanı buraxdılar. Arabaçı arxasına baxmadan yel kimi getdi. Kənddən araba gətirdilər. Sonra oturub kiçik bir iclas edərək, tüfəngləri Sabunçu qayalarına yaxın, etibarlı bir yerdə basdırmağa qərar verdilər.

Araz geri döndüyü zaman dan yeri ağarmaq üzrə idi. Günəş onu qapı yanında qum təpəsi üstündə qarşıladı. Araz onu burada görüb:

– Ay dəli, sən hələ yatmamısan? – deyə soruşdu.

Günəş deyinə-deyinə:

– Gəl, gəl tez ol, yat, bu gün səni işə getməyə qoymayacağam, dedi. – Gündüz on iki saat işlə, gecə də səhərə qədər atışma qabağında, ölüm ayağında ol, buna can davam eləməz.

Araz dinməz-söyləməz soyunub yatağa girdi. Gözünə yuxu getmirdi. Bir az sonra yataqdan qalxıb geyinməyə başladı. Günəş nə qədər təkid edib onu evdən bayıra buraxmaq istəmədisə, Araz:

– Günəşcan, mən mədənə getməsəm, məndən şübhələnərlər, – deyə cəld çıxıb getdi.

Saat onda fəhlələr buruğun yanında oturub qəlyanaltı edirdilər. Araz da onların arasında idi. Bu vaxt Azad hövlank onlara yanaşıb:

– Deyirlər şəhərdə vəziyyət yaxşı deyildir, – dedi. – Qatillər öz məqsədlərinə nail olmaq istəyirlər. Deyin görüm, siz nə iş görürsünüz? Manqalar hazırdırmı? Tüfəngləri gətirdinizmi?

– Yoldaş Azad, sizin tapşırığınıza görə yeddi manqa təşkil etmişik, – deyə Araz cavab verdi. – Hər manqada 50 atıcımız var. Tüfəngləri gətirməyə də adam göndərmişəm, bu saat gətirəcəklər.

Bu vaxt yoldan keçən bir kəndli:

– Şəhərdə yaman qarışıqlıqdır, atışmadan qulaq tutulur – deyə fəhlələrə baxdı.

Onun bu sözlərindən fəhlələr bir-birinə dəydi.

– Ay qardaş, bu sözü sən kimdən eşitdin? – deyə fəhlələrdən biri soruşdu.

Kəndli başını oynadaraq:

– Necə kimdən eşitdin? Şəhərə getmişdim. Atışmanı görüb vağzaldan qayıtdım. Vağzalda adam qarışqa kimi qaynaşır.

Kəndli sözünü bitirməmişdi ki, bir beşaçılan gülləsi havada vıyıldayıb keçdi. Kəndli özünü tez buruqların arasına verdi.

Fəhlələr ayağa qalxdılar. Azad qəzəblə:

– Bu, hökumət adamları tərəfindən atılan ara qarışdırma gülləsidir, – dedi, – diqqət edin, görün hardan atılır?

Bu zaman müxtəlif tərəflərdən daha dörd-beş güllə atıldı. Hamı həyəcan içində bir-birinin üzünə baxdı. Birdən Azadın lap ayaqları ucunda bir güllə partladı. Azad diksinib geri çəkildi. Sonra acı-acı gülümsəyərək, Arazla Vanyanın üzünə baxıb:

– Bu sizin dostunuz Mişanın atdığı güllələrdir, – dedi.

Güllələr yenidən vıyıldayıb keçdi. Bu dəfə milyonçu Montaşevin mədənini nişan almışdılar. Hamı işdən əl çəkmişdi. Bu zaman bir fəhlə gəlib, tüfəngləri gətirdiyini xəbər verdi.

Azad Araza müraciət edərək dedi:

– Mən gedirəm, sən silahlı dəstə başçılarını təyin elə və onlarla sıx əlaqə saxla. 20 tüfəng də mən göndərəcəyəm.

Azad getdi. Araz silahlı dəstə başçılarını təyin etdikdən sonra onlara müəyyən göstərişlər verib, tüfəngləri payladı. Mühafizə dəstələri neft rayonlarına dağılışıb mədənləri və əlsiz-ayaqsız adamları qorumağa başladılar.

Atışma get-gedə şiddətlənirdi. Çar fitnəsinə aldananları birdənbirə sakit etmək mümkün olmurdu. Fəhlələrdən təşkil edilmiş atıcı dəstələri birinci gün lazımi kömək göstərə bilmədilər, onlar ancaq

arada qalmış əlsiz-ayaqsızları salamat yerlərə gətirir, onları vaxtsız ölümdən xilas edirdilər. Gecəyarısı dəstələr mühüm səngərləri ələ keçirib, aranı bir qədər sakitləşdirə bildilər.

Erməni burjuaziyası ilə müsəlman burjuaziyası fürsətdən istifadə edib, rəqabətlərini daha da artırır, bu qanlı hadisələrin təşkilatçısı olan hökumət isə törədilən faciələrə kənardan tamaşa etməklə kifayətlənirdi. Ancaq yeddi-səkkiz gündən sonra hökumət işə qarışmağa, səngərlərə girmiş erməni, müsəlman dəstələrini atlı kazakların köməyi ilə dağıtmağa başladı. Sülh və asayişi bərpa etmək bəhanəsi ilə işə girişən kazaklar da bir tərəfdən əlsiz-ayaqsızları qırırdılar... Şəhərdə bir çox gözəl evlər yanmış, yüzlərlə adam cəllad hökumətin vəhşi siyasətinin qurbanı olmuşdu. Nə üçün? Kimin üçün? Azğın çarın yaşaması üçün, vəhşi daşnaq və müsəlman burjuylarının ciblərinin dolması üçün!

III

Hökumət Bakı bolşevik təşkilatının tətil və nümayişlər keçirməyə qızğın hazırlıq görməkdə olduğunu bilir, ona qarşı mühüm tədbirlər görürdü. Bu tədbirlərdən biri də millətlər arasında düşmənçilik toxumu səpmək, onları bir-birinə qırdırmaq və beləliklə tətillərin qabağını almaqdan ibarət idi. Bakı qubernatoru Nakaşidze bu fikri erməni və Azərbaycan burjuaziyasının başına yerləşdirmək üçün gecə-gündüz min bir vasitə ilə çalışıb tər tökürdü. Daşnaqların qoçu Ağarzanı öldürməsi onun əlində belə vasitələrdən biri oldu. Həmin gecə o, hər iki tərəfin başçıları ilə gizlicə görüşüb, hər iki tərəfə onların istədikləri qədər silah vermişdi.

Bolşeviklər xalq içində paylanan intibahnamələrdə hökumətin ikiüzlü siyasətini açıb göstərir, onun oynadığı iblis roluna qarşı tətil və nümayişlərlə cavab verirdilər. Bu nümayişlərdən biri də Arazın işlədiyi mədənin fəhlələri tərəfindən keçirildi. Səhər tezdən Araz yoldaşları ilə nümayişə çıxmaq üçün fəhlə qışlasına getdi. Vanya iki nəfər fəhlə dostu ilə oturub, yavaş-yavaş danışırdı. Araz onlara yaxınlaşdı. Onlar çox kədərli və həyəcanlı idilər.

Araz dayana bilməyib:

– Nə var? Nə olub? – deyə soruşdu.

Vanya ani sükutdan sonra yavaşca:

– Azadı bu gecə aparmışlar, – dedi. Sonra əhvalatı olduğu kimi Araza nağıl etdi:

– Dünən gecə Azad yoldaşın evində təşkilatın mühüm iclası olmuşdur. İclasda Bakı Komitəsindən də yoldaşlar iştirak edirlərmiş. İclas vaxtı agentlər evi əhatə etmiş, Komitə üzvləri dama açılan pəncərədən qaça bilmişlər. Yaxşı ki, onlardan heç biri ələ keçməmişdir. Azad yoldaş qapını açdığı zaman onlar otaqda heç kimi görməyib: "Hanı iclasa gələnlər?" – deyə soruşmuşlar. Azad yoldaş onlara heç bir cavab verməmişdir. Onlar evdə və həyətdə axtarış apardıqdan sonra Azad yoldaşı götürüb getmişlər.

– Bəs iclasın qərarları necə? Yoxsa...

– Yox, qaçarkən mühüm kağızları yoldaşlar aparmışlar, – deyə Vanya cavab verdi. – Mən ancaq buna sevinirəm. Lakin son hadisələr göstərir ki, aramızdakı xəfiyyələr çox yaxşı işləyir, sirrimizi öyrənir, sonra gedib lazım olan yerinə xəbər verirlər. Hələ o gecə dənizdə olan iclası da xəbər vermişlər. Agentlər qayığı Qaraşəhər körpüsündə gözləyirmişlər. Qayıq daş körpüyə getməsəymiş, hamı tutulacaqmış. Görünür mişalar aramızda tək deyildir. Bu xainləri tezliklə tapmaq və ifşa etmək lazımdır.

Vanya bir qədər düşündükdən sonra yenə əlavə etdi:

– Doğrudur, biz Mişaya həmişə səhv məlumatlar veririk. Ancaq bu işlərdə hər halda onun da əli vardır. Mişa adını eşidən kimi Arazın qəzəbindən gözləri parladı. O, acıqlı bir səslə:

– Mənə elə gəlir ki, bu xainin fəhlələr qabağında ifşa olunması vaxtı gəlib çatmışdır, – dedi. – Birdəfəlik onun kim olduğunu hamıya tanıtmaq lazımdır!

Vanya:

– Doğru deyirsən, Araz, – deyə cavab verdi, – onu bu gün nümayişdən əvvəl fəhlələrə tanıtmaq lazımdır!

Bu zaman onlara doğru gələn bir gənc:

– Vanya kimdir? – deyə soruşdu.

O, Vanyanı yanına çağırıb, ona bir məktub uzadaraq:

– Bunu həbsxanadan göndərmişlər, – dedi. – Sənə çatacaq, al oxu, tez cavab yaz!

– Məktubu sənə kim verdi?

– Oğlan gülümsəyərək:

– Həbsxanada işləyən qoca Andrey verib, özü də tapşırıb ki, tez cavab gətirim. Mən Dəli Xalıqın adamıyam.

Vanya bir az sakit oldu, məktubu oxuyub, yalnız iki kəlmədən ibarət bir cavab yazdı. Oğlan cavabı alıb getdi.

Vanya Azadın məktubunu oxudu. Məktubda ancaq "Səlamətlikdirmi? Nigaranam." sözləri yazılmışdı.

– Sən nə cavab verdin? – deyə Araz soruşdu.

– Yazdım ki, "Arxayın ol, səlamətlikdir".

Hamı dərin bir sükut içində başını yerə dikib düşünürdü.

Sükutu birinci olaraq Vanya pozdu:

– Mişa məsələsini həll etmək, onun kim olduğunu fəhlələrə bildirmək vaxtı çatmışdır. Yoxsa bundan sonra onun bizə çox ziyanı dəyəcək.

– Lazımdır, lazımdır! – deyə hamı bir səslə cavab verdi. Sonra onlar nümayişə çıxmaq üçün Şəmsi Əsədullayevin mədəni yanında toplanmış fəhlələrin yanına getdilər.

Mişanın verdiyi yanlış məlumatlardan jandarm idarəsi şübhələnməyə başlamışdı. Bu məlumatlar jandarm idarəsinin vaxtında lazımi tədbirlər görməsinə mane olurdu. Xüsusilə neft rayonlarında daşnaqlara və qoçulara paylanmaq üçün verilən silahın bolşeviklərin əlinə keçməsi Mişanı tamamilə etibardan salmışdı. Mişa indi öz mövqeyini bərkitmək üçün mühüm tədbirlər düşünürdü. O öz fəhlə dostlarının da ondan şübhələndiyini hiss edirdi. Buna baxmayaraq, mühüm və əsaslı məlumat toplamaq üçün hər dəfə bacardığı qədər nümayişlərdə və mitinqlərdə iştirak edirdi.

Nümayiş üçün fəhlələr Şəmsi Əsədullayevin mədəni yanında toplanmışdılar. Mişa da onların arasında idi. Bu zaman Vanya, Araz və başqa fəhlələr gəlib onlara qarışdılar.

Vanya hündür bir daşın üstünə çıxdı. Bütün nəzərlər ona dikildi. O, Mişanın ağac başına keçirmiş olduğu xəfiyyə paltarındakı fotoşəklini yuxarı qaldırıb hamıya göstərdi. Onun xəfiyyəlik fəaliyyəti haqqında fəhlələrə qısa məlumat verdi və çıxışını: "Rədd olsun çar xəfiyyələri, rədd olsun aramıza soxulmuş Mişa kimi xainlər!" sözləri ilə bitirdi.

Bütün fəhlələr bir ağızdan Vanyanın son sözlərini təkrar etdilər. Onlar Mişanı didib parçalamaq istəyirdilər.

Mişa sanki yuxu görürdü, gözlərinə inanmırdı. Ağac başında duran jandarm idarəsində aldırdığı rəsmi idi. Onu görüncə gözləri qaraldı, beyni dumanlandı, söz söyləməyə iqtidarı qalmadı.

Qriqorun qəzəbli səsi eşidildi:

– Bizə düşmən olan çar xəfiyyəsi içimizdən çıxsın, yoxsa biz başqa cür çıxardarıq!

Mişa yerində mıxlı kimi durub vəhşi, ürkək heyvan kimi dörd tərəfinə döyükürdü. Araz ona tərəf gəldi. Qəzəbdən od tutub yanan gözləri ilə onu başdan-ayağa acıqlı-acıqlı süzərək:

– Alçaq, çıx bizim aramızdan! – deyə bağırdı.

Mişa bir söz demədən sürətlə onlardan uzaqlaşırkən fəhlələrdən bir neçə nəfəri daldan ona fit çaldı.

Mişa öz şəklini hardan və necə ələ keçirdiklərini bilmək üçün oradan birbaş şəhərə, fotoqrafçı Vasyanın evinə gəldi. Vasya onu nəzakətlə qəbul etdi. Oturar-oturmaz Vasya ondan:

– Sənin dostun gəlib çıxmadı, bu necə oldu? – deyə soruşdu.

– Hansı dostum?

– Dostun Vanya. O gün bizə gəlmişdi. Şəklini çəkdirməyi söz vermişdi, amma bu vaxta qədər gəlib çıxmayıbdır.

– Sən onu hardan tanıyırsan?

– Necə hardan? O bizim kəndlidir. Gənclik günlərimizi bir yerdə keçirmişik. Hələ səndən nə əcəb bizə gəldin?

– Sənə bir az zəhmət verəcəyəm. Mənim müxtəlif qiyafələrdə çəkdirdiyim şəkilləri görmək istəyirəm. Mümkünsə onları göstər.

Vasya qalxıb getdi.

Bir az sonra əlində şəkillər içəri girdi. Gülə-gülə:

– Bağışla, – dedi, – səndən izinsiz bunları dostum Vanyaya göstərmişəm.

Mişa cavab vermədi. O artıq bu oxun ona haradan və nə cür atıldığını gözəlcə anlamışdı. Şəkilləri alıb, diqqətlə bir-bir nəzərdən keçirtdi. Sonra üzünü Vasyaya tutub:

– Mənim xəfiyyə paltarında çəkdirdiyim şəkil hanı? – deyə soruşdu.

Vasya:

– Buradadır, – deyə şəkilləri bir-bir yoxladı. Şəkil yox idi. O çox axtardı, şəkil tapılmadı.

– Yoxsa Vanyaya vermisən?

– Yox, ona şəkil vermədim. Bəlkə xoşuna gəldiyindən özü götürüb aparmışdır?

Mişa ayağa qalxıb:

– Sən yaxşı tanımadığın adama mənim şəkillərimi nə üçün göstərirsən? – deyə əsəbi bir halda soruşdu.

– Necə tanımadığın adam? O kimdir ki?

– O, bolşevikdir, bolşevik təşkilatının ən fəal üzvlərindən biridir.

Vasya yerində donub qaldı. Mişa ona nifrət və qəzəblə xeyli baxdıqdan sonra çıxıb getdi. Vasya dalısınca çıxıb, onu çox çağırdı. O qayıtmadı.

Mişa birbaş jandarm idarəsinə gəldi. Bütün əhvalatı və fəhlələr tərəfindən ifşa edildiyini naçalnikinə açıb söylədi. Naçalnik acı-acı gülümsəyərək:

– Sən bizə fəhlələr üçün lazım idin, – dedi, – madam ki, ifşa edildin, indi eyni məqsəd üçün səndən istifadə etməyimiz çətin olacaq.

Mişa qızardı, bozardı, bulaşıq gözlərini naçalnikin stoluna dikib qaldı. O öz üzərindəki şübhəni aradan qaldırmaq, jandarm idarəsində yenidən mövqe və etibar qazanmaq istədiyi bir vaxtda naçalnik onun artıq işə yaramadığını açıqcasına üzünə söyləyirdi. O çox düşündü, lakin cavab verməyə bir söz tapmadı. Naçalnik kargüzarı çağırdı. Mişanı ona göstərib:

– Buna axırıncı dəfə olmaq şərti ilə töhmət verib işə tik, – dedi.

BEŞİNCİ FƏSİL

I

Tətil və nümayişlər gündən-günə canlanırdı. Hər gün təşkilat rəhbərləri və fəal fəhlələr tutulub həbsə atılırdı. Buna baxmayaraq, tətil və nümayiş bütün qüvvəti ilə davam edirdi. Bir çox qurban verən bu davamlı tətil və nümayişlər yatdığı zaman Doqquz yanvar hadisəsi baş verdi. Proletariatın inqilab ruhu ilə coşub-daşdığı bir zamanda Putilov zavodundan bir neçə fəhlənin qovulması böyük bir həyəcan doğurdu. Peterburqda ümumi tətillər başlandı. Fəhlələr keşiş Qaponun məsləhəti ilə çarın yanına gedib özü ilə görüşməyə və dərdlərini açıb ona söyləməyə qərar verdilər. Yanvarın 9-da böyük bir izdihamla irəlidə xaç və çarın rəsmi Qış sarayına doğru hərəkət etdilər. Dəstə içindən bir neçə səs eşidildi:

– Saraydan fəhlələrə çarə olmaz!

– Azadlıq verilməz, alınar!

Keşiş Qaponun riyakar sözünə və çarın mərhəmətinə inanmış fəhlələr arasında tərəddüd və həyəcan doğdu. Bir neçə nəfər ucadan bağırdı:

– Qovun bu dinsizləri!..

– Qovun bu üsyançı şeytanları!

Kütlə irəliyə doğru dalğalandı. Bir az sonra sarayın yaxınlığında durub çardan cavab gözlədilər. Mərhəmət umduqları saray onlara yay-

lım atəşi ilə cavab verdi. Minlərcə günahsız fəhlə qanına qəltan oldu. Bu atəş səsi bütün Rusiyaya yayıldı. Hətta məğrur, dik başlarını göylərdəki buludlara dayamış Qafqaz dağlarını belə aşıb onun ən qüvvətli dalğası Azərbaycanın fəhlə mərkəzi olan Bakı neft rayonlarını bürüdü. Hər yerdə çarın və xaçın qanlı mərhəmətini görmüş və anlamış fəhlələr bütün qüvvəti ilə inqilaba sarıldı. Sürətlə coşub-daşmaqda olan inqilab kəndlilər üzərində də böyük təsir buraxdı. Hər yerdə kəndli hərəkatı genişləndi, bütün Rusiyanı bürüdü, mülkədar əmlakı zəbt olunmağa başladı. Çar, inqilab şöləsini söndürmək məqsədi ilə məclisi-məbusan layihəsini nəşr etdi. Layihədə məclis üzvlərinə yalnız iştirak hüququ verilir, fəhlələr seçki hüququndan məhrum edilirdi. Bolşeviklərin Mərkəzi Komitəsi seçkini və məclisi-məbusanı boykot etdi.

***

Fəhlələr fəhlə qışlası həyətinin qapısı ağzında topa-topa durub bu haqda danışırdılar. Ucaboy, skelet kimi quru olan Vanya yumruğunu havada oynadaraq:

– Bəsdir, biz bu aclığa, qıtlığa son verməliyik, – deyirdi, – bizə heç bir faydası olmayan müharibələr açan, ölkələrin həyat damarını soran çar hökumətini kökündən devirmək lazımdır!

Onun kimi arıq, ortaboylu sarışın bir fəhlə:

– Ey, Vanya, sən həmişə tərs danışırsan, – deyirdi, – vəziyyətin belə ağır zamanında sən bizi hara çəkirsən?

– Acından it kimi gəbərməkdənsə, namusla düşmənlə çarpışıb ölməyə!

– Vətənin bu vaxtında bizi də üsyanamı çağırırsan?

– Bunu ancaq vətənin xain və namussuz oğulları edər!

– Ey Petka, mən sizi yaxşı tanıyıram. Namusdan hər kim danışsa, siz danışmayın! Mən sizi üsyana yox, inqilaba çağırıram. Bu müharibədən biz nə qazandıq? Torpağımızmı azdır? Bu biabırçı məğlubiyyət çar üsuli-idarəsinin nə qədər çürük və yaramaz olduğunu isbat etməyirmi? Bu qanlı müharibə üzündən pullar dağıldı, çalışqan, işlək əllər səfərbərliyə alınıb müharibədə məhv oldu; təsərrüfat tamamilə pozuldu; ərzaq birə iki bahalandı; xalq içinə aclıq və xəstəlik yayıldı. Məmləkət aclıq və ehtiyac içində çırpınır. Bunu hökumət görə-görə bu fəlakətin qarşısını almaq əvəzinə gündən-günə xəfiyyələrini artırır, xalqı süngü və qorxu altında saxlamağa çalışır. Bax, budur müdafiə et-

diyin vətən və onu əlində oyuncaq edən hökumət! Bax, budur xainlik və namussuzluq! Çarın və burjuaziyanın quyruğunda sürünən monarxistlərin nə qədər namuslu olduğu meydandadır. Siz namusdan heç bir zaman danışmayın! Namuslu oğullar vətənimizi və xalqımızı bu azğın canavarın qanlı pəncəsindən qurtarmağa çalışar!

Fəhlələr Vanyanın sözünü təsdiq etdilər. Araz özünü saxlaya bilməyib gurlayan səslə söhbətə qarışdı:

– Vanya doğru deyir, çox doğru deyir. Mən bu petkalara təəccüb edirəm. Bunlar çarın nəyinə aşiqdir? Proletariat bu azğın çarın, o xain kadetlərin gözünə ox kimi batdığı və onu bütün vətəndaşlıq hüququndan məhrum edib heyvan kimi yaşatdığı halda, bunlar yenə burjuaziyanı, onun hamisi olan çarı dördəlli tutmaq istəyir. Bu riyakarlıq deyilmi? Sizcə namus bu isə, bizə lazım deyil! Qoy o riyakar namus sizin olsun!

Petka dodaqaltı mırıldandı:

– Əlbəttə, Vanya kimi vətən xainlərinin sözü siz müsəlmanlar üçün əlverişlidir. Siz nə itirirsiniz?!

Bunu eşidincə Araz barıt kimi partladı:

– Ey Petka, sən dodaqaltı çox mırıldanma, sözün var, kişi kimi açıq söylə. Bilirəm, sən demək istəyirsən ki, bu azğın çarın yırtıcı pəncəsi altında inləyən bədbəxt ölkələr müstəmləkəmizdir. Ona görə də əhalisini gecə-gündüz heyvan kimi işlətmək, özünü inək kimi sağıb bütün məhsulat və istehsalatını daşımaq bizim haqqımızdır. Hanı? Bəs neçin sən və sənin kimi kəndini, torpağını atıb başqa ölkələrə dağılan ruslar da mənim kimi acdır?! Sən bunu heç düşünürsənmi? Xalqlar düşməni olan siz monarxistlərin kəlləsini sıldırım qayalara çırpa-çırpa bu murdar fikirləri başlardan çıxarmalıyıq.

Qriqor gülə-gülə əlini onun çiyninə vurdu:

– Haqqın var Araz, bunların dar beyninə bizim geniş mənada düşündüyümüz vətən kəlməsi sığa bilməz! Xalq düşmənləri olan bu millətçi ruslar başqa xalqlara təhkimçilik dövründə yaşayan kölə kimi baxır. Onlar bizim sıralarımızda olan şüursuzları da öz təsirləri altına almışlar. Görmürsən ac Petka özünün də kölə olduğunu düşünüb anlamır.

– Bir buna bax, acından sapsarı saralıb, bizim ac bəylər kimi fikrindən ağalıq keçir, – deyə Araz fikirlərini davam etdirdi. – Quru xülyadan insanın qarnı doymaz!

Qriqor:

– Bu sözlərin heç biri onun başına girmədi. Qoy bir az düşünsün.

– Hələ bizim içimizdə öz gücünə inanmayan, simasını itirmiş belə fəhlələr az deyil, – deyə Vanya üzünü Araza tutub təzədən söhbətə qarışdı. – Bunlara öz sinfini, dost-düşmənini tanıtmaq bizdən nə qədər iradə, səbir və mətanət istəyir. Bax, təşkilatın qarşısında belə mühüm məsələlər durur.

Sərkis əlində qəzet fəhlələrə yanaşdı:

– Yoldaşlar, yeni xəbəri eşitmisinizmi? Çar canını dişinə tutub məclisi-müəsisan layihəsini nəşr edib. Layihədə biz fəhlələrə seçki hüququ verilmir.

Vanya qəzeti acıqla dartıb Petkanın üstünə atdı:

– Buyur, Petka, buyur, bu da sənin sevimli və mərhəmətli çarın! O səni insan yerinə qoymayıb hər bir hüquqdan məhrum edir, sən onu dördəlli tutursan.

– O bizi suyu kəsilmiş dəyirmana döndərdi, yenə əl çəkmir.

– Mərkəzi Komitə bu seçkini və məclisi, şübhəsiz, baykot edəcək. Firqəmizin götürdüyü əsas xətt çox doğrudur: inqilabı dərinləşdirmək, sinfi mübarizəni kəskinləşdirmək, fəhlə və kəndli birliyi ilə çarlığı kökündən yıxıb dağıtmaq.

– Yaşasın inqilab!..

Yığıncağa toplanan fəhlələr get-gedə çoxalırdı. Bundan xəbər tutan menşeviklər də öz nümayəndələrini və tərəfdarlarını yığıncağa göndərmişdilər. Menşevik nümayəndələri iqtisadi tələblərlə kifayətlənməyi, burjuaziya ilə əlbir hərəkət etməyi tələb edirdilər. Çıxış edən fəhlələrin çoxu onların bu fikirlərini tənqid edir, bolşeviklərin xətt-hərəkətini müdafiə edirdilər.

Vanya ondan qabaq çıxış edən və fəhlələr arasında həmişə menşevik fikirləri yayan İmranı tənqid etdikdən sonra dedi:

– Biz acından ölsək də inqilabı axıra qədər davam etdirməliyik. mütləqiyyəti yıxmayınca proletariata, xalqlara azadlıq, həyat və səadət yoxdur. Çar bizi müharibə zamanı qurşun qabağına göndərir, dinclik vaxtı acından öldürür.

Araz onun sözünü kəsərək:

– Menşeviklərin ikiüzlü siyasəti bizi aldada bilməz! – dedi. – Onlar çarın ikibaşlı qartalına bənzəyir. Ancaq bir fərqi var: onun hər iki başı bir-birinə bənzədiyi halda, bunların bir-birlərinə bənzəməyən iki başı, iki qəlbi var. Həm proletariatı əldə tutmaq, həm də çar və çar quyruqları ilə yollaşmaq istəyir. Bu ikiüzlü siyasət proletariatın davam etdirdiyi inqilaba böyük zərbə deyilmi?

Arazın sözləri İmranı bərk əsəbiləşdirdi:

– Ey, bura bax, özündən çox çıxırsan, – deyə o tərs-tərs Araza baxdı. – Biz hələ qatıq kimi uyuşmaqda olan proletariatı çarın qurşunlarına qurban verə bilmərik. Bizim üçün hər bir proletariat qiymətlidir.

Vanya əli ilə İmranı sakit edərək, sözünə davam etdi:

– İmran, bilirəm, səni menşeviklərə sarı çəkən onların yağlı dili, yalan vədləridir. Onlar dənizdə qopan fırtınadan qorxub sahillərə sığınan, kiçik dalğacıqlarla oynayan qorxaq şamayı balıqları kimidir. İnqilab dənizinin dərinliklərinə cummaq üçün nəhəng gərəkdir, nəhəng!

Yığıncaqdakı menşeviklərdən biri kinayə ilə:

– Çox öyünməyin, sizin də necə nəhəng olduğunuzu bilirik! – deyə qışqırdı.

Bir başqası isə Vanyaya belə cavab verdi:

– Biz inqilabın tədriclə inkişaf etməsi tərəfdarıyıq. Sizin kimi kal meyvəni ağacdan silkələyib yerə tökmürük.

– Sizin üçün meyvələr həmişə kaldır. Bunlar bəhanədir. Qorxaqsınız, qorxaq. Siz proletar inqilabına əngəl olursunuz. İnqilab hər tərəfə qol-budaq atıb canlandığı bir vaxtda siz zalım bir cəllad kimi onun sağlam qollarını kəsib, çılpaq buraxmaq istəyirsiniz. Siz proletariatın üzdə dostu, ürəkdə düşmənisiniz.

Araz Vanyanın sözlərinə qüvvət verib:

– Bizi heç bir şey qorxuda bilməz! – deyə ucadan qışqırdı. – Bu aslan meydanıdır, kim qorxur, gəlməsin, biz başladığımız inqilabı sonuna qədər davam etdirəcəyik! Yaşasın inqilab!

* * *

İnqilab bütün şəhərlərə, kəndlərə, ordu və donanma içərisinə qədər yayıldı. Poçt-teleqraf və dəmiryolçular tətili də başlandı. Başını tamamilə itirmiş hökumət manifest elan etdi, siyasi azadlıq, ümumi seçki hüququ və başqa hüquqlar vəd olundu. Hökumətin bu manifesti varlı sinif və zümrələri bir qədər təmin etdi.

Ölkədə böyük bir canlanma vardı. Hər yerdə nümayişlər, mitinqlər keçirilir, siyasi dustaqlar azad edilirdi; yeni qəzetlər, məcmuələr və kitabçalar nəşr edilir, vərəqələr paylanır, hər firqə öz məfkurəsini yaymağa, öz proqramını qəbul etdirməyə çalışırdı.

Azərbaycanda yerli fəhlələrin əksəriyyətlə inqilabi hərəkatda iştirak etməsi və yerli ziyalıların müəyyən hissəsinin inqilaba rəğbəti hö-

kuməti acıqlandırdığı kimi, yerli burjuaziyanı da yaman qorxutdu. Onlar özlərini hökumətə sadiq göstərmək üçün küçə alverçilərini başlarına toplayıb rus monarxistlərinin Böyük kilsə həyətində etdikləri mitinqlərə soxulur, onlarla birlikdə küçələrdə nümayiş edir, hər yerdə inqilabçı ziyalıları hədələyib təhqir edirdilər. Bu gedişlə xeyir gözlədikləri inqilabın nəhayət onlara məzar olacağından qorxub burjuaziya və liberal ziyalılar çar tərəfinə keçdilər. Çar İkinci dumanı açılmamış buraxdı. İnqilabçılar tutulub həbsə atıldı. Müvəqqəti olsa da inqilabı yatırmaq və istisində qızınmaq üçün xain çar quyruqları erməni-müsəlman arasında yenidən yanğın törətdilər.

Əksinqilabın hücuma keçməsinə baxmayaraq inqilabi hərəkat genişlənirdi. Bolşeviklər liberal burjua görüşləri ilə, eləcə də barışdırıcılıq siyasəti yürüdən menşeviklərlə qəti mübarizə aparır, bütün mitinq və yığıncaqlarda onları ifşa edirdilər. Fəhlələr arasında sinfi görüş və firqə mübarizəsi o qədər bərkimişdi ki, bəzən mübahisələr, deyişmə və sözləşmələr vuruşmaya çevrilirdi.

II

Nümayiş, dənizin göbəyindən qopub gələn və sahilə yaxınlaşdıqca genişlənən dalğalar kimi şəhərin baş küçəsinə doğru ağır-ağır irəliləyirdi. Ətraf dilsiz bir şübhə və qorxu içində sakit-sakit inləyir, bomboş küçələrdə polis və kazak izi görünmürdü. Arabir səkilərlə keçənlər mühüm bir işi olan adamlar kimi küçələrdən tez sovuşub gedir, keçidlərdə baş-başa verən adamlar isə əlləri ilə aşağıları göstərərək, bir-birlərinə nə isə deyirdilər. Qorxunc bir hadisə eşitmiş kimi hamının gözündə həyəcan və kədər qığılcımları uçuşurdu. Bir dükançı qapı ağzında durub qorxa-qorxa qonşusuna:

– Bu tərəflər sakitlikdir – deyirdi.

– Tələsmə, bir dənə salamat dükan qalmayacaq. Bu talan dalğası şəhərin hər tərəfini bürüyəcək.

Qonşu sözünü bitirməmişdi ki, o biri küçənin tinində başıpozuq bir dəstə göründü. Onlar qoltuqlarında top-top bazar malı yuxarıya doğru yeyin addımlarla gedirdilər. Hamının nəzəri onlarda idi. Kimsə əli ilə onları göstərib:

– Talançılar, talançılar! – deyə bağırdı. Dükançılar bir-birinə dəydi, dükanlar bir anın içində bağlandı. Hamı küçə keçidlərinə yığı-

şıb, bu hadisənin nə ilə qurtaracağını gözləməyə başladı. Müxtəlif peşəli adamlardan təşkil edilmiş bu başıpozuq dəstələr şəhərdə qarışıqlıq törətmək və bu yolla inqilaba zərbə vurmaq məqsədi ilə hökumət tərəfindən düzəldilən bir fırıldaq idi. Bu zaman əllərində ling və çəkic olan ikinci bir başıpozuq dəstə göründü. Onları acıqlı bir baxışla süzən bir dükançı qonşusuna:

– Bura bax, mənim dükanıma əl vursalar dayana bilməyəcəyəm – dedi.

– Neyləyəcəksən? Əlindən nə gələr?

– Nə qədər gücüm var vuruşacağam, ölüb öldürəcəyəm.

Başıpozuq dəstə fəhlə nümayişini görüncə başqa bir küçəyə buruldu. Fəhlələr əllərində qırmızı bayraqlar və üzərində "Rədd olsun mütləqiyyət!" sözləri yazılmış plakatlarla geniş küçənin ortası ilə Marselyoza oxuya-oxuya irəliləyirdi. Silahlı qoruyucular bir-birindən aralı, nümayiş dəstəsinin ətrafında divar dibi ilə gedirdilər. Bu zaman qarşı tərəfdən başqa bir nümayişçi dəstəsi göründü. Nümayişçilərin əllərində iri xaç və çarın şəkli vardı. Onlar "Boje, sarya xrani!" himnini oxuya-oxuya gəlirdilər. Bu dəstədəkilərin çoxu padşahpərəst və çar məmurları olan kadetlər idi. Onları arxadan, sağdan və soldan atlı kazaklar və polislər araya almışdı.

Fəhlə nümayişi fırtınalı dəniz kimi dalğalandı. Açılan ilk güllə çarın şəklini dəlib keçdi. padşahpərəst nümayişçilər qara bulud kimi ətrafa səpələndilər. Kazaklar və polislər də atəş açdı. Hər iki tərəfdən qızğın atışma başlandı.

İki saat çəkən bu qanlı vuruşmadan sonra yenə hər yerə bir sükut çökmüşdü.

Bu iki saat atışma içərisində çox şey olmuşdu. Hər iki tərəf böyük tələfat vermiş, nümayiş rəhbərlərindən bir neçəsi tutulub həbsə atılmış, Araz sağ qabırğasından bərk yaralanmışdı. O, aldığı yaradan büdrədi, tez özünü doğruldub divar dibinə çəkildi. Güllə sağ böyrünü bərk yaralamışdı.

Kazaklar atışa-atışa onları Qaraşəhərə doğru çəkilməyə məcbur etmiş, küçələr boşalmış, həyat elə bil dayanmışdı; fəqət Arazın aldığı yaradan axan qan dayanmırdı. Özünü xəstəxanaya çatdırıncaya qədər qanı saxlamaq üçün iki əlini yarasının ağzına qoyub yavaş-yavaş gedirdi. İki-üç kvartal getdikdən sonra küçədə iki nəfərə rast gəldi. Onlar Arazın üst-başında qan görüb ondan soruşdular:

– Sənə nə olub?

Araz əhvalatı qısaca danışdı. Onlar Arazı xəstəxanaya apardılar. Xəstəxana müdiri onları şübhəli nəzərlə süzdükdən sonra bir müstəntiq kimi: "Bu güllə sənə harda dəydi? Siz orda nə edirdiniz?" kimi suallarla uzun-uzadı sorğu-suala başladı. Yoldaşları məsələni bildiklərinə görə müdiri aldadaraq:

– Biz yol ilə vağzala gedirdik. Qarşımıza bir fəhlə dəstəsi çıxdı. Bir tərəfə çəkilib onlara baxırdıq. Birdən atışma qopdu. Kazaklar fəhlələrə, fəhlələr kazaklara atmağa başladı. Bu zaman biz qaçıb qurtarmaq istərkən yoldaşımız yaralandı, – deyə cavab verdilər.

Müdir istər-istəməz Arazı qəbul etdi. Tez doktor çağırdılar. Doktor Arazın yarasını açıb müayinə etdikdən sonra əməliyyata başladı. Sonra heyrətlə yanındakı şəfqət bacısına:

– Çox ürəkli və sağlam adamdır, əməliyyat zamanı heç gözünü də qırpmadı, – deyə şəfqət bacısına baxaraq təəccüblə çiyinlərini çəkdi. Sonra o, xəstəni ikinci palataya keçirmək haqqında göstəriş verdi. Arazı doktorun müşayiəti ilə xərək üstündə ikinci palataya gətirib, boş bir çarpayı üzərinə uzatdılar. Doktor onun nəbzini yoxlayıb:

– Tərpənmə, o tərəf-bu tərəfə çevrilmə, yaran dərin və ağırdır. Ehtiyatlı ol! – dedi və üzünü şəfqət bacısına tutub, xəstəyə qayğı ilə yanaşmasını, tez-tez termometr qoyub hərarətini ölçməsini, qızdırması artdıqda mütləq ona xəbər verməsini tapşırdı.

Xəstəxanaya gəldiyinin ikinci günü Arazın qızdırmalı gözlərinə bir adam dəydi. Bu adam bir top mavi rəngli ipək parçanı şəfqət bacısı Dusyaya uzadaraq:

– Bundan sənə gözəl bir don çıxar, – deyə gülümsədi. Dusya ipək parçanı alıb məmnun baxışlarla onu süzdükdən sonra:

– Neçə arşındır? – deyə soruşdu.

– Doqquz arşındır, sənə gen-bol paltar çıxar, hələ artıq da qalar.

Bu zaman o biri şəfqət bacısı Marusya əlində termometr keçərkən Dusyanın əlindəki parçanı görüb dayandı, qadınlara məxsus bir maraqla əli ilə parçanı sığallayıb baxdı. Sonra şübhəli nəzərlə bir Dusyanı, bir də yaxındakı adamı süzüb:

– Bilirəm, talan malıdır, – dedi. – Vicdanı olan adam bunu geyməz, qaytar özünə!

Parçanı verən adam Marusyanın bu sözündən bərk pozuldu, qaşlarını acıqla çataraq:

– Burnunu niyə bizim işimizə soxursan? Get öz işinə, – deyə bağırdı.

Marusya dayana bilməyib, ondan da acıqlı bir səslə:

– Sənin kimi talançı və oğrular namuslu adamların da adını batırır, – deyə cavab verdi. – Heç bilmirəm oğru köpəklər birdən-birə bu qədər hardan çıxdı.

Marusya onlardan ayrılaraq, əlində termometr Araza yanaşdı. Araz talançı adamı yaxşı tanımışdı. Bu Mişa idi. Mişa onu görməsin deyə, Araz yorğanı başına çəkmişdi. Marusya termometr qoymaq üçün yorğanı qaldırmaq istərkən, Araz əli ilə yorğanın yanlarından bərk-bərk tutdu. Onun bu hərəkəti Marusyanı qorxutdu. O, Arazın nəbzini yoxlamaq istədi. Araz bu vaxt yorğanın altından başını azca qaldırıb baxdı. Mişa arxası ona tərəf durub, Dusya ilə danışırdı. Araz termometri Marusyanın əlindən alıb qoltuğuna qoydu, Mişanı göstərib səs çıxarmamasını işarə ilə ona anlatdı. Lakin Marusya bundan bir şey anlamadı. Ağzını açıb nə isə demək istədikdə doktor içəri girdi. Araz doktorun səsini eşidən kimi işin daha da xarablaşacağını görüb, üzünü divara sarı çevirdi. İndi həm Mişa onu görüb tanıyacaq, həm də doktor onun inqilabçı-fəhlə olduğunu biləcəkdi. Doktor içəri girərkən Mişa ilə Dusyanın otaqdan çıxdığını Araz bilmirdi. Doktor Araza yanaşıb:

– Xəstə, necəsən? – deyə soruşdu.

Araz cavab vermədi. Marusya gülə-gülə:

– Dmitri Zaxaroviç, bizim xəstə Dusyanın yanına gələn talançını görüncə yorğanı başına çəkib ondan gizləndi, mənə də işarə ilə: "Sus, səs çıxarma" – dedi. Bilmirəm burada nə sirr var? – deyə bildirdi.

Dmitri Zaxaroviç bir qapı tərəfə, bir də Araza baxdı, sonra üzünü Marusyaya tutub:

– O adam kim idi? – deyə soruşdu.

Marusya gülümsəyərək:

– Dusyaya talan malı gətirmişdi. Kim olduğunu mən də bilmirəm. Deyəsən Dusyanı almaq istəyir, – dedi.

– O bilmir ki, xəstə olan otaqlara başqa adamları buraxmaq olmaz?! – deyə doktor acıqlandı. – Mən onunla yaxşıca danışaram. talançılarla əlbir olan şəfqət bacısı mənim palatamda işləyə bilməz.

Bu söhbətdən Mişanın artıq çıxıb getdiyini bilən Araz yenə arxası üstə çevrildi. Doktor termometri Arazın qoltuğundan aldı. Marusyanı başqa bir iş üçün göndərdikdən sonra termometrə baxıb:

– 38,5 – dedi. Sonra üzünü Araza tutub: – Sənə hərəkət etmək olmaz, – dedi, – o tərəf-bu tərəfə çevrilmə, yaran ağırdır, ehtiyatlı olmalısan.

Araz cavab vermədi. Doktor diqqətlə ona baxıb gülə-gülə:

– Sən o adamdan nə üçün gizləndin? – deyə soruşdu. Araz bir an susdu, sonra:

– Bunu siz bilməsəniz də olar, – deyə, cavab verdi.

– Sən qorxma, de, məndən sənə ziyan toxunmaz.

Araz ona Mişanın jandarm xəfiyyəsi olduğunu söylədi.

– Bəs sən özün kimsən?

– Mən adi bir fəhlə.

– Çox yaxşı, sənin ondan gizlənməyinin nə mənası var?

– O məni görsə müdirə xəbər verib xəstəxanadan çıxardar, sonra jandarm idarəsi vasitəsi ilə məni tutdura bilər.

– Qorxma, mən onun ayağını burdan kəsərəm! – deyərək çıxıb getdi.

Arazın yarası qorxulu idi. Gecələr qızdırması 39, bəzən 40 dərəcəyə qalxırdı. Şəfqət bacısına tapşırdığına baxmayaraq, doktor özü də tez-tez Arazı yoluxur, yarasını açır, bağlayır, qızdırması artdığı vaxt başına, ürəyinə kompres, lastik torbada buz qoyurdu.

Bir həftə sonra Araz özünü bir qədər yaxşı hiss edirdi. Qızdırması kəsilmiş, yarası yavaş-yavaş bitişməyə başlamışdı.

Doktor xəstə olan otaqlara başqa adam gətirdiyi və talançı adamlarla əlaqə saxladığı üçün Dusyaya bərk acıqlanmışdı. O gündən Mişa xəstəxanada görünmürdü. İndi Arazı düşündürən, narahat edən ancaq son nümayişin müqəddəratı idi. O günkü atışmada daha kimlərin yaralandığını, həbs edildiyini düşünür, bunları bilmək üçün xəstəxanadan tez çıxmağa can atırdı. Buna görə də lap yaxşı olduğunu doktora bildirib, xəstəxanadan buraxılmasını xahiş etdi. Doktor qəti surətdə etiraz edərək:

– Sən hələ bir həftə də yatmalısan, – dedi. – Hələ yaran tamam sağalmamışdır. Bir balaca ehtiyatsızlıq səni daha yaman hala sala bilər. Hələ səni buraxa bilmərəm.

Bu söhbətdən iki gün sonra axşam Dusya Araza çay gətirərkən dedi:

– Xəstə, daha yaxşılaşmısan, durub çay içmək üçün özün gələ bilərsən.

Araz:

– Doktor icazə vermir, – deyə cavab verdi.

Bu vaxt kimsə qapını aralayıb:

– Dusya, bura gəl! – deyə səsləndi. Araz boylanıb qapıya baxdıqda hər ikisinin gözü bir-birinə sataşdı; hər ikisi bir-birini tanıdı. Qapı ağzında dayanan Mişa idi.

Dusya:

– Sənə demişəm ki, içəri girmə, koridorda dayan! – deyə ona acıqlandı. Sonra gülə-gülə koridora çıxıb, onunla birlikdə getdi.

Bir qədər sonra xəstəxananın müdiri içəri girdi. O, Araza acıqlı-acıqlı baxıb:

– Ey xəstə, sən həm fəhlə, həm də inqilabçı fəhlə olduğun üçün xəstəxananı tərk etməlisən! – dedi.

Araz:

– Sizə doğru xəbər veriblər. Mən fəhləyəm, həm də inqilabçı, xəstəxananı tərk etməyə gəlincə buna lap ürəkdən razıyam, – deyərək, uzandığı çarpayıdan qalxdı.

Müdir deyinə-deyinə çıxıb getdi. Araz paltarlarını almaq üçün Dusyanı gözlədi. Dusya isə gəlib çıxmırdı. İndi xəstəxana Araza bir zindan kimi, hər dəqiqə isə bir saat qədər uzun görünürdü. Başında min bir düşüncə və xəyal pəncərəyə yanaşıb, küçədən keçənləri seyr etməyə başladı. Lakin bu da onun ürəyini sıxmaqda olan dərdlərini unutdura bilmədi. "Ah, bu ölkənin hər tərəfi, hər yeri zindandır!" – deyə dərindən ah çəkdi. Bu zaman doktor içəri girdi. Arazı ayaq üstə görüncə, gülə-gülə:

– Araz, necəsən, gəzəndə yaran ağrımır ki? – deyə soruşdu.

Araz gülümsəyərək:

– Yox, ağrımır, məni xəstəxanadan çıxarırlar, – dedi.

Doktor heyrətlə:

– Nə üçün?

– Dusyanın yanına gələn adam bu gün qapının ağzından məni görüb müdirə xəbər vermişdir. Müdir isə mənə xəstəxananı tərk etməyi əmr etmişdir.

Doktor bir an düşündükdən sonra başını qaldırıb, dodaqlarını çeynəyə-çeynəyə:

– Mən o alçaq Dusyanı buradan qovaram... Madam ki, belədir, get, ancaq bir həftə gəzib-dolanma!.. Bu dərmanı da alıb hər gün iki dəfə, bir səhər, bir də axşam yarana sürtərək təmiz sarğı ilə bağlarsan, – deyə Araza bir resept uzatdı. Elə bu vaxt otağa adi geyimdə iki adam daxil oldu. Onlardan biri:

– Araz kimdir? – deyə soruşdu.

– Mənəm! – deyə Araz cavab verdi.

– Siz bizimlə getməlisiniz!

– Hara?

– Dövlətimizin düşmənləri gedən yerə!

– Sizin düşmənləriniz fabrik və zavodlara gedir, işləmək üçün mədən və şaxtalara gedir, hətta məktəblərə, idarələrə də gedir. Siz məni bunların hansına aparırsınız?

– Sən əsaslarını unutdun. Zindanlarda, sürgünlərdə çürüməyə də gedir. Səni ora aparırıq.

Araz qürurunu pozmayaraq:

– Azadlıq yolunda bizi heç bir şey qorxuda bilməz, gedək! – deyə bağırdı. – Dusya, tez ol mənim paltarımı ver!

Arazın belə mərdliyi doktoru mütəəssir etmişdi. O, həyəcan və heyrət dolu gözlərini Araza dikib qalmışdı. Araz cəld paltarını dəyişdirdi. Doktor ona:

– Yavaş geyin, yaraların ağzı açılar! – dedi.

Araz:

– Dmitri Zaxaroviç, məndə elə yaralar var ki, bu yara onların yanında heçdir! – deyə cavab verdi. Sonra ona təşəkkür edib xudahafizləşdi, üzünü o iki adama tutub, kinli bir səslə:

– Gedək! – dedi.

Arazı xəstəxanadan birbaş həbsxanaya apardılar.

Qapıdan içəri girdikdə həbsxana rəisi Kok onları qarşılayıb, istehza ilə Araza:

– Oho, yenə gəlib çıxdın? Sənin üçün çox darıxmışdım – dedi.

Araz onu acıqlı baxışlarla süzərək, kinayə ilə:

– Sizin o mərhəmətiniz məni bura gətirmişdir, – deyə cavab verdi.

Kok Arazı başdan-ayağa süzərək, üzünü nifrətlə ondan kənara çevirib növbətçiyə:

– Götür bunu, lazım olan yerinə təslim et! – deyə əmr etdi.

Növbətçi Arazı apardı. Onlar koridordan keçərkən qoca Andrey divara söykənib xidmətçi Tanya ilə söhbət edirdi. O, Arazı gördükdə tanıdı, dərindən bir ah çəkdi, pıçıltı ilə Tanyaya:

– Bax bu da onlardandır, yazığı yenə kameraya salmağa apardılar, – dedi.

Tanya bir az da ona yaxınlaşaraq lap yavaşca:

– Mənim rəhmətlik atam kənddə müəllim idi; bu sosialistləri çox sevərdi. Onlar ürəkli olur, heç nədən qorxmurlar, – dedi.

Bu zaman rəisin otağının qapısı açıldı. Mişa sürətlə çıxıb getdi. Andrey onu görüncə tez divar dibinə çəkildi və öz-özünə: “Ah, xain, görünür, bu yazığın ipini yenə sən eşmisən” – deyə söyləndi.

Andrey başını aşağı salıb, bir az fikirləşdikdən sonra:

– Heç bilmirəm sən nə üçün öz ixtiyarınla bu qan və zülm ocağına girdin? – deyə Tanyadan soruşdu. – Səni nə məcbur etdi?

Tanya bir an yerindəcə donub qaldı, sonra kədərli gözlərini Andreyə çevirib, titrək bir səslə:

– Aclıq və ehtiyac! – deyə köksünü ötürdü. – Kənddə bizim özümüzə görə az-çox dolanacağımız vardı. Ərimi yapon cəbhəsinə göndərdilər. Gedərkən qayıtmayacağını elə bil özü də bilirdi. Vidalaşıb ayrılarkən ürəyi köyrəlib ağladı, sonra mənim əlimi sıxaraq: "Tanya, uşaqlarımdan muğayat ol!" – dedi.

Tanyanın gözləri yaşardı. Əlinin tərsi ilə göz yaşlarını silərək, sözünə davam etdi:

– Yazıq bir daha qayıtmadı. Kənddə bir köməyim olmadığından ac qaldıq. Uşaqlarımı götürüb Bakıya gəldim. Bakıda da ac və işsiz qaldım. Aclıq insanı hər şeyə vadar edər. Küçə başında oturub dilənməyə başladım.

Tanya qəmli-qəmli Andreyə baxdı. Onun bu yanıqlı sözləri və kədərli baxışı qocanın qəlbinə neştər kimi sancıldı.

Qoca Andrey:

– Tanya, sən mənim yaralarımı təzələmə, mən səndən nə soruşuram, sən mənə nə danışırsan.

Tanya:

– Sənə dərdlərimi söyləməklə bir az təsəlli tapıram, – deyə cavab verdi. – Sən mənim bu qanlı zindana nə vasitə ilə girdiyimi soruşursan. Bir gün mən küçə tinində oturmuşdum. Kiçik qızım küçədən keçən bir azərbaycanlıya doğru əlini uzadıb, pul istədi. O adam dayandı. Diqqətlə bir mənə baxdı, bir də ona tərəf uzanan kiçik əllərə. Üzünü mənə tutub: "İşləmək istəyirsənmi?" – deyə soruşdu. Mən: "İşlərəm, ancaq bu yetimlər necə olsun?" – deyə cavab verdim. O bir də diqqətlə bizə baxıb: "Sənə elə iş verrəm ki, uşaqlarının da qarnı doyar" – dedi.

Mən razı oldum. O məni oradan götürüb, kiçik bir restorana apardı. Bufetçi ilə danışdıqdan sonra üzünü mənə tutub dedi: "Sənin işin qabqacağı yumaq, restoranı süpürüb təmizləmək olacaq. Özün də, uşaqların da burada yeyib-içəcəksiniz". O bu yolla məni dilənçilikdən qurtardı. Mən onun əlini sıxıb razılıq etdim. Həmin gündən restoranda işləməyə başladım. Mənə bu yaxşılığı edən adamın kim olduğu, bu yaxşılığı nə üçün etdiyi mənə qaranlıq idi. Yalnız bir aydan sonra onu

bir nəfərlə stol dalında oturub yemək yeyən gördüm. Məni yanına çağırdı. Özümün, uşaqlarımın necə keçindiyini soruşub öyrəndikdən sonra kim olduğumu soruşdu. Atamın kənd müəllimi olduğunu bilincə əlini acıqla stola çırparaq: "Müəllim qızı dilənçi" – deyə yoldaşının üzünə baxdı. Bufetçini çağırıb, mənə təmiz bir iş verməsini tapşırdı. Uşaqlara xərclik üçün 10 manat da pul bağışladı. Sabahdan mənim işim yüngülləşdi. Stol başında oturan müştərilərə yemək verirdim... O adam yenə günəş kimi batdı. Onu bir daha restoranda görmədim.

Andrey:

– Dünyada yaxşı adamlar da çoxdur. Sən onun kim olduğunu bilmədinmi?

– Yox, bilmədim. Ancaq yoldaşı iki dəfə onu "Azad" – deyə çağırarkən adını öyrəndim.

– Aha! – Tanıyıram. O da burada dustaq idi. Yaxşı, bəs sonra?

Tanya yenə sözünə davam etdi:

– Bir gün restorana Semyon adlı bir adam gəldi. Ona yemək gətirdiyim zaman, mənim haralı və kim olduğumu soruşdu. Kəndimizin adını və atamın müəllim olduğunu eşidincə gülə-gülə: "Səni yaxşı tanıyıram. Bizim kənddən İvan Fyodoroviçin qızı, Seryojanın arvadısan, – dedi. – Rəhmətlik Seryoja mənim yaxın dostum idi. Sənin burda işləməyinə razı olmaram, sabahdan sənə başqa, yaxşı vəzifə verdirəcəyəm. Mən bu görüşdən çox razı qaldım. O məni oradan çıxarıb, bura gətirdi.

Tanya danışarkən Andrey başını aşağı salıb, dərin-dərin düşünürdü. Birdən başını qaldırıb:

– O hansı Semyondur? Arıq, üzü çilli adam olmasın? – deyə soruşdu.

Tanya:

– Odur, odur, sən onu hardan tanıyırsan?

Andrey Tanyanın sualına cavab verməyib soruşdu:

– Sən o restorandan nə üçün çıxdın?

– Son zamanlar bufetçi uşaqlarımın yeməyini azaltmışdı. Azad dediyim adamı da görmürdüm. Mən elə bildim ki, bura ordan yaxşı olar. Bir həftə sonra mən o restorana gedib, orada xidmət etmək istədiyimi bufetçiyə söylədim. Bufetçi daha qəbul etmədi.

Andrey əli ilə onun çiyninə vuraraq:

– Öz əlinlə öz evini yıxmısan, – deyib ondan uzaqlaşdı.

Bundan bir həftə keçdi. Mişa həbsxana müdiri Kokun yanına gəldi. Yarım saat danışdıqdan sonra çıxıb getmək istərkən, Tanya qapının ağzında Mişanı yaxalayıb:

– Kəndlim, mən öz qulluğumdan razı deyiləm, burdan çıxmaq istəyirəm, – dedi.

Mişa əlini onun çiyninə qoyub, yumşaq bir səslə:

– Bir az səbr elə, sən savadlı qadınsan, bu yaxın zamanda sənə yaxşı maaşı olan bir vəzifə verdirəcəyəm, – deyərək getdi.

O gecə Kokun əmri ilə qoca Andrey tutuldu. Onu həbsəmi aldılar, sürgünmü etdilər, ya öz vəzifəsindənmi çıxarıb qovdular, bunu kimsə bilmədi. Artıq qoca Andrey həbsxana koridorunda görünmürdü. Bu hadisə hər kəsdən çox Tanyaya təsir etmişdi. Onu həbsxananın qalın divarları, ala-qaranlıq koridorları sıxır, azad nəfəs almağa qoymurdu. Buradan qaçıb qurtulmağa çarələr düşünürdü. Bir gün Mişa yenə Kokun yanına gəldi. Bir az keçməmiş Tanyanı da ora çağırdılar. Kokla Mişa onu hörmətlə qəbul etdilər. Mişa Tanya haqqında tanışlıq verdikdən sonra:

– O vəzifə məncə Tanyaya layiqdir, – deyərək Kokun üzünə baxdı.

Kok Tanyaya baxaraq gülümsündü. Tanya pul kimi qızarmışdı, ürəyi şiddətlə vururdu. Mişa Tanyaya yaxınlaşaraq:

– Tanya, – dedi, – sənin bir qadın və müəllim qızı olduğunu nəzərə alaraq, hökumətimiz sənə şərəfli bir vəzifə verir.

Kok isə əlavə etdi:

– Sən hökumətimizin əleyhinə işləyən düşmən təşkilatları və təktək adamları axtarıb tapmaqla məşğul olacaqsan.

Tanyanın gözləri dumanlandı:

– Yox, mən bunu bacarmaram, – deyə o, etiraz etdi.

– Bu iş hər halda restoranda səhərdən axşama qədər qab yumaq və həbsxana otaqları, koridorları süpürüb təmizləməkdən çox-çox asandır. Savadlı qadınsan, bu işi sən bacarmayanda kim bacarar? – deyə Mişa Tanyanı razı salmağa çalışdı.

Tanya başını bulayaraq:

– Yox, kəndlim, bu mənim işim deyil, mən özümə başqa iş taparam, – dedi.

– Özün bilərsən, ancaq mən bu işi sənə çox məsləhət görürdüm. Ayda yetmiş beş manat alacaqsan.

Tanya onların təklifini qəbul etmədi.

Ertəsi gün Tanyanı həbs edib, kiçik bir kameraya saldılar. Tanya on beş gün orada qaldı. Müstəntiq arabir çağırıb qoca Andreylə olan əlaqəsi haqqında ona suallar verir, müxtəlif yollarla onu ittiham etməyə çalışırdı. O bilirdi ki, xəfiyyəliyi qəbul etməsə ona nicat yoxdur.

Kiçik, kimsəsiz balalarının küçələrdə ac, susuz qalması onun ana qəlbini dəlir, gecələr səhərə qədər yatmağa qoymurdu.

On altıncı gün Kok onu yenə öz yanına çağırdı. Tanya içəri girdiyi zaman Mişanı da orada gördü. Mişa gözlərini otağın bir küncünə dikib durmuşdu. Tanyanı ilk dəfə Kok danışdırmağa başladı:

– Düşmən təşkilatı tərəfindən sənin həbsxanaya soxulmağın haqqında bir çox materiallar vardır, – dedi. – Söylə görüm, sən hansı təşkilatda çalışırsan?

Bu sözdən Tanyanın bütün vücudu titrədi. O özünü saxlaya bilməyib, hönkür-hönkür ağlayaraq:

– Mən üç yetim anası, yoxsul bir qadınam, – dedi. – Bakıya gəldiyim də üç aydır, heç bir təşkilatla əlaqəm olmadığı halda məni bədbəxt etmək istəyirlər. Heç olmasa o kiçik yetimlərə yazığınız gəlsin.

Mişa başını qaldırıb:

– Tanya, bizim də o yetimlərə yazığımız gəlir, – dedi. – Verilən bu materiallara görə səni çox ağır cəzalara məhkum edə bilərlər. Bu fəlakətdən qurtarmaq üçün yalnız bir çarən var.

– Nədir?

– Hökumətimizin sənə verdiyi vəzifəni canla-başla qəbul etmək. Yalnız bu vəzifə ilə özünü və yetim balalarını fəlakətdən qurtara bilərsən, başqa heç bir şey səni qurtara bilməz!

Tanya bir an donub qaldı. Bu bir an içində keçmişin bütün fəlakətləri onun xəyalından bir-bir keçdi; sonra yetim, ac və çılpaq balaları gözünün qarşısında canlandı. Onlar sanki onun ətəyindən tutub: "Ana, bizi ölümün, aclığın pəncəsindən qurtar!" – deyə yalvarırdılar. Tanya birdən hönkür-hönkür ağlayaraq boğuq bir səslə:

– Razıyam! – dedi.

Kok:

– Daha nə üçün ağlayırsan? – deyə güldü. – Biz səni məcbur etmirik. Başqaları bu vəzifəni ələ keçirmək üçün yalvarır, yaxarır, onun-bunun minnətini çəkir.

Tanya göz yaşlarını silərək:

– Yetimlərim yadıma düşdü, – dedi, – onlar üçün ağlayıram.

Mişa yerindən qalxıb, yeni vəzifəsi münasibəti ilə onu təbrik etdi.

İki gün sonra Tanyanın jandarm idarəsində xəfiyyəliyə qəbul olunması haqqında əmr verildi.

* * *

Araz dörd ay həbsxanada qaldı. Fəqət bu dörd ay dörd il qədər ona uzun göründü. Çünki onu əvvəlki dəfədə olduğu kimi siyasi məhbuslar korpusuna deyil, dar, məzar kimi kiçik və qaranlıq kameraya salmışdılar. O, işıq və insan üzünə həsrət idi. Hər şeydən çox onu rahatsız edən təşkilat işlərindən, yoldaşlarından xəbər tuta bilməməsi idi. O ancaq birinci gün həbsxana koridoruna girdiyi zaman qoca Andreyi görmüşdü. Andrey onu görüncə donub qalmış, onunla danışmağa ürək edə bilməmişdi.

Araz Andreyi çox gözlədi. Andrey onunla görüşməyə gəlmədi. Bu hadisə də Arazı bir tərəfdən rahatsız edirdi. Bir gün hava almaq üçün onu həyətə çıxaran növbətçidən soruşdu:

– Burada qoca Andrey var idi, o necə oldu?

Növbətçi ehtiyatla:

– Onu burdan uzaqlaşdırdılar, – dedi.

Hava almaq üçün onu hər gün on beş dəqiqə həyətə çıxarırdılar. Arazın gözü hava almağa çıxmış dustaqlar içində öz yoldaşlarını çox aradı. Siyasi dustaqlar bir-birlərini görməsinlər deyə onları başqa-başqa zamanlarda çıxarırdılar.

Bir gün yenə hava almaq üçün Arazı həyətə çıxarmışdılar. Həyətə girincə dustaq əlbisəsində, ayaqlarında dəmir qandal, şeyləri ilə bərabər bir çox dustaq gördü. Onların ya yeni gəlmiş, ya da azad edilmək üçün oraya toplanmış olduqlarını zənn etdi. O, gözlərini dustaqlardan ayırmayıb bir dost və tanış görmək ümidi ilə diqqətlə onlara baxırdı. O qədər dustaq içində gözünə bir tanış belə dəymədi. Araz yanındakı növbətçidən soruşdu:

– Bunları azadmı edəcəklər?

Növbətçi istehza ilə:

– Hə, azad edəcəklər... Onları Sibir çöllərinə sürgün edirlər, – dedi.

Arazın qəlbi yerindən oynadı. Dərin bir iztirab içində onun həyəcanlı gözləri bir tanış axtarırdı. Bu zaman: "Araz" – deyə bir səs eşitdi. Çevrilib diqqətlə baxınca bir az aralı ayaqları qandallı iki dustaq gördü. Saç, saqqal basmış olduğundan hər ikisi tanınmaz simaya girmişdi. Araz onları ancaq səslərindən tanıdı:

– O, Akop, Murad! – deyə onlara tərəf getmək istərkən yanındakı növbətçi qolundan şiddətlə çəkib onu saxladı:

– Ey, dustaq, burda görüşmək, danışmaq olmaz!

Araz ona əhəmiyyət verməyib irəlilədi. Növbətçi bu dəfə iki əli ilə tutub onu geriyə doğru çəkdi və acıqlı səslə:

– Sənə deyirəm çəkil, haydı kameraya, tez, tez! – deyə bağırdı.

Araz çırpınır, deyinir, söyür, xahiş edir, ancaq bunların heç biri fayda vermirdi.

Akop:

– Araz, inad etmə, yaxşı olmaz, bizim qoca əhvalatı sənə anladacaq, – dedi. Sonra üzünü növbətçiyə tutub:

– Ay axmaq, adamı danışmağa nə üçün qoymursan? – deyə soruşdu.

Murad əlavə etdi:

– Bu həbsxana köpəkləri sallaqxana köpəklərindən daha quduzdur. Onlar insanların ayaqlarından qapır, bunlar ürəyindən.

O bu sözləri deyib Akopun qolundan tutdu və Arazdan uzaqlaşdılar.

Bu hadisədən sonra Arazın sıxıntı və kədəri daha da artdı. Yoldaşları ilə görüşə və söyləşə bilməməsi ona çox təsir etmişdi.

Arazı bir ay sonra istintaq etdilər. Səhəri həbsxana rəisi onu yanına çağırtdırıb möhürlü bir kağız uzadaraq:

– Gedə bilərsən! – dedi.

Araz eşitdiklərinə inanmadı, təəccüblə soruşdu.

– Hara?

Rəis gülə-gülə:

– Evə, arvadının yanına!

Arazla bir gündə həbsxanadan 80-ə yaxın inqilabçı fəhlə azad edilmişdi. Azad olunanlar içərisində bir çox görkəmli inqilabçılar, o cümlədən Azad da vardı. Bütün bunlar Arazı çox təəccübləndirdi. O, buraxıldıqdan sonra bunun səbəbini tezliklə öyrəndi.

Son nümayişdə iştirak edən fəhlələrin həbs edilməsinə qarşı etiraz əlaməti olaraq Bakı partiya təşkilatı mədənlərdə siyasi tətillər və əzəmətli fəhlə nümayişləri təşkil etmiş, bu tətil və nümayişlərdə fəhlələr həbsə alınmış yoldaşlarının tezliklə azad edilməsini ciddi surətdə tələb etmişdilər. Bütün Rusiyanı bürüyən tətil və vuruşmalar hökuməti qorxuya saldığından o, güzəştə getməyə, siyasi dustaqların bir qismini azad etməyə məcbur olmuşdu.

Həbsxanadan çıxdığının üçüncü günü gecə Arazın qapısı döyüldü. Araz qapını açmaq üçün cəld yatağından qalxdı. Günəş onu buraxmayaraq, özü getdi və qapının arxasından:

– Kimsən? – deyə soruşdu.

– Mənəm, Günəş bacı, Qriqordur, Arazı görəcəyəm, – deyə bayırdan pıçıltı ilə cavab verdi.

Araz artırmada durub gözləyirdi. Qriqoru səsindən tanıyan kimi Günəşə macal vermədən irəli atılıb qapını açdı.

Qriqorla çox səmimi görüşdülər. Son hadisələr haqqında xeyli söhbət etdikdən sonra birlikdə mədən partiya təşkilatının keçiriləcək iclasına getdilər.

ALTINCI FƏSİL

II

Aslan bəy böyük oğlu Varisi realnıməktəbə vermişdi. Varis aşağı siniflərdə ciddi və istedadlı bir şagird kimi görünürdü. Böyüyüb yuxarı siniflərə keçdikcə ildən-ilə dəyişirdi. Yalnız təbiətində deyil, vücud və simasında belə bir dəyişiklik əmələ gəlmişdi. O çox ərköyün böyüdüyündən tərbiyəsi və əxlaqı gündən-günə pozulurdu. Öz sinif yoldaşı Şamilin və onun kimi yoxsul tələbələrin başına bir bəla kəsilmişdi. Onları hər gün, hər saat təhqir edir və bundan böyük zövq alırdı.

Varis hər gün müəllimlər tərəfindən məzəmmət və danlaq almağa başlamışdı. Nəhayət, nə müəllimlər və sinif rəhbəri, nə də müdiriyyət onun başıpozuqluğunun qarşısını ala bilmədiklərindən məktəbdən qovuldu. Aslan bəy evdə dərs oxuması üçün ona müəllim tutdu. Müəllim tamam bir il onunla məşğul oldu. Lakin Varis yenə imtahan verə bilmədi.

Bir başda iki sevda olmaz! Varis indi atasının yolu ilə getdiyindən verilən dərslər, deyilən sözlər zehnindən uçub gedirdi. Atası Aslan bəy böyük pullar sərf etdiyi halda oğlunun yenə imtahan verə bilmədiyindən çox narazı qalmışdı. "Haram olsun sənə çəkdiyim zəhmətlər. Kasıb balaları acqarına oxuyub bir yana çıxır, sən mənim ətək-ətək tökdüyüm pulu, çəkdiyim zəhməti kor qoydun!" – deyirdi.

Varis iki il avara-avara gəzib dolandı. Nəhayət, atası ona kontorda iş verdi. Atasının tapşırığına görə Varis hesabdarların əli altında işləyərək, kontor işlərini öyrənməyə başladı.

Həm köhnə, həm yeni mədəniyyətdən binəsib olan Aslan bəy, həyatı yalnız əyyaşlıqdan ibarət bilirdi. Belə bir tərbiyənin nəticəsi olaraq atasının sərvətinə güvənən Varis içki və qumar düşgünü olan bir gənc kimi yetişirdi. O bütün gecələrini qapalı klublarda qumar oyna-

maqla, yaxud şantan qızları ilə məşhur mehmanxanalarda əylənməklə keçirirdi. Son zamanlar kontorun bütün ixtiyarını öz əlinə almış, qüruru, qudurğanlığı bir qat daha artmışdı. O indi şantan qızlarını hovuzda şampan şərabı ilə çimizdirirdi.

Aslan bəy Varisin azğınlığına daha dözə bilmədi. Onu kontordan qovdu. Lakin bir il sonra anasının və dayısının xahişi ilə böyük bir bəzzaz mağazası açmaq üçün ona istədiyi qədər pul verdi. Varis şəhərin ən gurultulu bir küçəsində dörd-beş böyük dükan kirayə edərək, mal almaq üçün Həştərxan yolu ilə Bakıdan Nijni-Novqoroda – Məkərəyə yola düşdü. İlk dəfə gördüyü Həştərxanda üç-dörd gün qalmağa qərar verdi.

Bir çox araşdırmalar nəticəsində Varisi tanımış olan fırıldaqçılardan birisi bir gün ona yanaşaraq, ən səmimi bir dost kimi əlini sıxdıqdan sonra:

– Xoş gördük, Varis bəy, sən də bizim şəhərimizə gələrmişsən, – dedi. – Ən yaxın dostumun oğlunu görmək mənim üçün böyük səadətdir!

O, sonra Varisin atasının, anasının kefini soruşdu, onların xəstə olduqlarını eşitdikdə təəssüf etdi.

Üzərinə atılmış olduğu rolu böyük bir məharətlə oynamış olan bu adam özünü Aslan bəyin ən yaxın dostu kimi qələmə verdiyindən, Varisdə heç bir şübhə oyatmamış və o gündən Varisi öz təsiri altına almağa müvəffəq olmuşdu. Onun Həştərxanda üç-dörd gün qalacağını öyrəndikdən sonra:

– Varis bəy, mən Aslan bəyin çox yaxşılığını görmüşəm, – dedi. – Sizə qulluq etmək üçün belə bir günü çoxdan arzu edirdim. Şəhərimizdən çıxıncaya qədər mənim qonağımsan. Burada sənə göstərmədiyim bir guşə, tanıtmadığım bir adam qoymayacağam. İnsan həyatda hər şeyi görməli, hər şeyi bilməlidir.

Varis nə qədər çalışdısa, atasının ən yaxın dostu deyə özünü təqdim edən Qənbərdən yaxasını qurtara bilmədi. Teatr və kinodan başlayaraq şəhərdə görmədiyi bir yer qoymadı. Bir gün Qənbər Varisi qapalı kluba apardı. Qənbər əvvəlcədən görüşüb sözləşmiş olduğu fırıldaqçı dostları ilə xəlvət bir guşəyə çəkilib qumar oynamağa başladı. Bir az sonra Varisi də oyuna qarışdırdılar. Qənbər Varisə kömək edirmiş kimi onun başı üstündə durub, əvvəlcədən sözləşdikləri müxtəlif işarələrlə əlini öz dostlarına bildirdi. Get-gedə oyun ciddi şəkil aldı. Əvvəlcə Varis bir-iki oyun uddu, sonra isə hər dəfə uduzmağa və pulları əritməyə başladı. Ortaya yemək gəldiyi zaman Varisin artıq ci-

bində bir qəpik pulu yox idi. Qumarbazlardan biri pulları iki əli ilə Varisə doğru uzadaraq:

– Varis bəy! Hər kəsdən çox mən qazandım. Uduzduğunuz pulu sizə qaytara bilərəm, – dedi.

Varis dili dolaşa-dolaşa:

– Yox, yox, o sizin haqqınızdır! – deyə cavab verdi.

– Hey, hey, elə pullar sizin gözünüzə çox görünür, – deyə Qənbər istehza ilə güldü, – Varis bəy üçün isə heç bir şeydir. Ancaq mənim qonağım olduğundan uduzmasını istəmirdim.

Ertəsi gün o, Varisə:

– Bu gün ən adi bir restoranda nahar edəcəyik, – dedi. Orada sənə qəribə bir qız göstərəcəyəm.

Onlar restorana getdilər. Bir stolun başında oturub, yemək sifariş etdilər. Qənbər xəlvət bir guşədə yeməklə məşğul bir qızı göstərib:

– Bax, diqqətlə bax! Sənə dediyim qız budur, – dedi. – General qızıdır. Atasından acıq edib evlərindən çıxıb, kiçik bir otaqda tək yaşayır. Bax gör nə gözəldir! Şəhərimizin bütün cavanları onun dəlisidir, ancaq zalım qızı vəhşi ceyran kimi heç kimə ram olmur.

Xörək paylayan onlara xörək və çörək gətirdi.

Varis qarşısındakı soyuq şorbanı yeyə-yeyə qızı gözucu süzdü. Qız kimsəyə baxmırdı. İlk görüşdə qız onu maraqlandırmadığından heç bir cavab vermədi. Qənbər iri gövdəsini stolun üstünə yıxaraq, tülkü gözlərini yandan Varisə dikib dedi:

– Deyirlər, bu qızın böyük bir arzusu var. Kim onu istəyinə qovuşdursa onun malı olacaqdır.

Varis maraqla soruşdu:

– Arzusu nədir?

– Onu bu vaxta qədər heç kəsə açmayıb. Deyilənə görə onu öz arzusuna çatdıran adam Həştərxanda yoxmuş. O bir bəladır, onun dərdindən bu günlərdə varlı bir cavan dəli oldu. O, kişilərdən qaçır. Nə qədər çalışırlar, onunla tanış olmaq mümkün olmur.

Qənbərin bu sözləri Varisdə böyük maraq oyatdı. Qızı gözaltı bir də süzdü. Bu dəfə qız da ona baxdı. Qızın cəlbedici gözləri Varisdə bir ümid doğurdu. Həştərxanda kimsənin ələ keçirə bilmədiyi bu ürkək ovu özünə ram etmək və bununla böyük bir şöhrət qazanmaq fikri onu yolundan çıxartdı. Varis məğrur bir halda:

– Mən onu ələ gətirərəm! – dedi.

Qənbər başını dikəldib, istehza ilə ona baxaraq:

– Yox, bacarmazsan! – dedi.

– Bacararam, deyirəm!

– Heç inana bilmirəm. Sənin kimi özünə güvənib aylarla onun dalınca kölgə kimi sürünənlər çox olmuşdur.

Varis gözlərini qızdan ayırmırdı. Qız isə ona mənalı-mənalı gülümsəyərək, sanki: "Qorxma, müvəffəq olacaqsan" – demək istəyirdi.

Varis əlindəki qaşığı yerə qoyduqdan sonra qəti bir səslə:

– Tanış olsam nə verərsən? – deyə soruşdu.

Qənbər əlini stola çırparaq:

– Sənə bu şəhərdə bir qonaqlıq verərəm ki, bütün Bakı, Həştərxan tamaşaya gələr, – deyə cavab verdi.

Hər ikisi sözündə möhkəm durmaq üçün bir-birinin əlini sıxdı. Hamı getdi. Restoranda onlardan başqa adam qalmadı. Qız əlinə bir kitab alıb oxuyur və hərdənbir gözlərini kitabdan çəkib, Varisə baxaraq gülümsəyirdi. Varisin səbir-qərarı kəsilmişdi, qalxıb qıza tərəf getmək istərkən Qənbər onun əlindən tutub:

– Aləmi bizə güldürmə! – deyə onu dayandırmaq istədi. Varis əlini çəkərək qızın oturduğu stola yanaşdı, kitab mütaliəsi ilə məşğul kimi görünən qıza:

– Madmazel, mən rəsmiyyəti qəlbimin əmrinə qurban edənlərdənəm. Müsaidənizlə tanış olaq.

Qız Varisə heç bir cavab vermədi, hətta başını qaldırıb onun üzünə belə baxmadı. Varis "müsaidənizlə tanış olaq"! sözlərini ikinci, üçüncü dəfə təkrar etdi. Heç bir cavab ala bilmədiyindən bütün ümidlərinin qırıldığını görüb:

– Hər arzu və istəyinizi yerinə yetirəcəyimə namusla söz verirəm, – dedi.

Bu sözlərdən sonra qız başını qaldırdı. Heyrətli baxışlarla Varisi süzərək:

– Siz kimsiniz? Məndən nə istəyirsiniz? – deyə soruşdu.

Varis:

– Mən Bakı varlılarından Varis bəy Aslanbəyoviçəm, – dedi, – istəyim ancaq sizinlə tanış olmaqdır.

Qız mütaliəsinə davam edərək, ona daha heç bir cavab vermədi. Varis ertəsi gün yenə həmin restoranda o qızdan bir kəlmə belə cavab ala bilmədi. Yalnız onun yaşadığı evi öyrənə bildi. Varis məğrur və inadcıl bir uşaq kimi acığından az qala partlayırdı. Qənbərin istehzalı

gülüşləri ona iynə kimi batırdı. Üçüncü gün qız yenə yeməkdən sonra evinə dönərkən Varis:

– Madmazel, rica edirəm lütfən tanış olaq. Hər arzunuzu canla-başla qəbul edirəm, – deyə qızın dalınca düşdü. Qız çevrilərək:

– Əl çək məndən, sən mənim arzularımı heç bir zaman yerinə yetirə bilməzsən! – dedi.

Varis yerə qədər əyilərək:

– Yetirərəm, madmazel, canla-başla yetirərəm, – deyə cavab verdi.

Qız durdu, ciddi bir vəziyyət aldıqdan sonra iki barmağını onun çiyninə qoydu. Çox mühüm və gizli bir sirr söyləyirmiş kimi:

– Bu vaxta qədər açmadığım sirri açıram, – dedi, – kimsəyə açmamaq şərtilə. Mən general qızıyam. Kiçik ikən anam vəfat etmiş, atam isə bir başqası ilə evlənmişdir. Mən onlarla yola gedə bilmədim. Bir gün analığımla vuruşub evdən çıxarkən atam: "Çıx get, acından öl!" – deyə üstümə bağırdı. Mən də cavabında: "Acından ölməyəcəyəm, astarı, üzü beşyüzlükdən olan yorğan altında yatacağam!" – deyə cavab verdim. Bu söz o zaman necə olmuşsa ağzımdan çıxmışdı. Mənim arzum budur!

Bu sözləri dedikdən sonra qız cavab gözləyirmiş kimi gözlərini Varisin üzünə dikdi. Varis məğrur bir tövrlə gülərək:

– Elə bu? Baş üstə, göz üstə, sabah yorğan hazırdır! – deyərək qızdan ayrıldı. Mal almaq üçün Nijni-Novqoroda barat etdiyi pulun teleqramla Həştərxan bankına göndərilməsinə dair bir teleqram vurdu. O gün Qənbərlə görüşüb əhvalatı ona danışdı. Başını oynada-oynada:

– Hər şey pulun başındadır, – dedi. – Mənim əlimdən qız qurtarar? Sən qonaqlığının tədarükündə ol!

Qənbər:

– Hay, hay, hələ duza gedirsən, sən o qızı ələ keçirsən, dediyim kimi sənə bir qonaqlıq verəcəyəm ki, bütün Bakı, Həştərxan tamaşasına gəlsin, – deyə cavab verdi.

O gecə Varis ilan vurmuş adam kimi səhərə qədər yatmadı. Kimsənin ələ keçirə bilmədiyi bu qızı özünə ram edərsə Həştərxanda böyük şöhrət qazanacaq, bütün varlılar, gözəl qızlar onu hər yerdə barmaqla göstərəcək, hətta bu səs Bakıya qədər yayılacaqdır, – deyə düşünür, sevincindən yerə-göyə sığmırdı. Səhər erkən qalxıb, birbaş banka getdi. Qapıdan içəri girən kimi xidmətçi:

– Hara vətəndaş? Hələ bank açılmamışdır, – deyə onun qabağını kəsdi, bir saat sonra təşrif gətirin.

Varis geri qayıdıb, bir saatdan sonra yenə banka gəldi. Lakin pul hələ gəlib çıxmamışdı. O, acığından dil-dodağını çeynəyirdi. Üç-dörd dəfə gəlib-getdikdən sonra, nəhayət, pulun gəldiyini öyrənib, çox sevindi. Bankın müdirinə yanaşaraq:

– Sizdən bir ricam var, – dedi, – əmr edin pullar qatı açılmamış beşyüzlüklərdən verilsin.

Axşam idi. Qız lampasını yandırmış, başını aşağı salaraq kiçik bir stolun üstündə açdığı kitabın mütaliəsi ilə məşğul kimi görünürdü. Kiçik lampanın solğun sarı işığı onun sifətini işıqlandırdığından gizlətməyə çalışdığı həyəcan və sevincini büruzə verirdi. Onun intizar çəkən gözləri gah kitaba, gah da küçəyə açılan pəncərəyə dikilib qalırdı. Vaxt ona çox uzun göründüyündən əsəbiləşir, tez-tez saata baxırdı. Artıq dayana bilmədi. Yerindən qalxıb, yatağın üstünə sərdiyi örtüyün qırışlarını əlləri ilə düzəltməyə başladı. Sonra kiçik qoltuq güzgüsünü çıxarıb yenidən pudralandı, dodaqlarına, yanaqlarına qırmızı sürtdü. Gözləri otağın kirli divarlarına, qapı və pəncərəsinə sataşdıqda nəşəsi qaçdı; çünki onlar bu fövqəladə gecəyə yaraşmırdı. Dərindən içini çəkərək düşünməyə başladı. Otağın bir bucağında hörümçək toruna düşmüş milçəyin vızıltısı onu bu düşüncədən ayırdı. O, tələyə düşmüş milçəyin özünü qurtarmaq üçün çalışıb çapalamasını və onun başı üstə duran hörümçəyin incə tellərlə tez-tez onun əl-ayağını möhkəm bağladığını seyr edirkən, küçədə bir fayton səsi eşitdi. Tez gəlib öz əvvəlki yerində oturdu. Bir saatdan bəri stolun üstündə tərsinə açılmış olan kitabın sətirlərini yenə gözdən keçirməyə başladı. Qapı ağzında ayaq səsi eşidildiyi zaman yerindən qalxdı. Pəncərəyə yaxınlaşaraq, onu manikürlü barmaqları ilə yavaş-yavaş qapadı, pərdəni aşağı saldı. sonra gəlib döyülən qapını açdı. Varis əlində ağ qətfəyə sarılı bir şey içəri girdi. Şən və məğrur bir səslə:

– Al, gözüm, bu sənin beşyüzlüklərdən tikilmiş yorğanın – deyərək, bağlı bir şeyi nəzakətlə qızın açılmış qolları üzərinə qoydu. Qız sevinclə parıldayan gözlərini ona dikərək, titrək bir səslə:

– Sağ ol, ruhum, qəlbim, sən məni arzuma çatdırdın! – dedi.

Bu söz Varislə bu şıltaq qız arasında olan pərdəni tamamilə yırtıb parçaladı. Qız yorğanı açıb sevə-sevə yatağın üzərinə çəkdi, sonra dodaqlarını Varisin dodaqlarına yaxınlaşdırdı. Onlar beşyüzlüklərin xışıltısı altında məhəbbətlə öpüşdülər. Varis ehtirasla parlayan gözləri ilə qıza baxaraq:

– Gözəlim, daha nə istəyirsən? – dedi.

Qız cavab əvəzinə lampanın işığını azaltdı... Sönük sarımtraq lampa işığında inləyən otağın sükutunu yalnız beşyüzlüklərin xışıltısı və bucaqda ölümlə pəncələşən milçəyin vızıltısı pozurdu...

Varis ertəsi gün mehmanxanada Qənbəri çox gözlədi, lakin o gəlib çıxmadı. Əhvalatı ona təfsilatı ilə danışmaq və əldə etdiyi qələbəni bildirmək üçün qalxıb getdi. Qənbərin vaxtı ilə "mən burada yaşayıram" – deyə ona göstərmiş olduğu möhtəşəm bir binanın qapısını döydü. Qapıya xidmətçi bir qadın çıxdı.

Varis nəzakətlə:

– Qənbər evdədirmi? – deyə soruşdu.

Xidmətçi heyrətlə ona baxdıqdan sonra:

– Qənbər kimdir? – dedi. – Burada Ali məhkəmənin sədri Lukyanov yaşayır.

Varis o gün axşama qədər Qənbəri axtardı, ondan bir xəbər tuta bilmədi. Axşam qızın evinə getdi. Qapıya yaxınlaşdıqda yerindəcə donub qaldı. Qapı açıq, otaq bomboş idi. Oba köçmüş, yurdu qalmışdı. Varis bu sirli əhvalatdan çaşıb qaldı. Heyrət və iztirab içində oradan geri dönərkən, dalandara rast gəldi, ondan:

– Xanım hara köçmüşdür? – deyə soruşdu.

Dalandar onu şübhəli baxışla süzdükdən sonra dəmir bir qab içinə toplamış olduğu zibili darvaza ağzında qoyulmuş böyük qutuya boşalda-boşalda:

– Kim bilir hara köçmüşdür. Hər halda buradan qazanclı bir yerə! – deyə cavab verdi.

Varisin bütün vücudu titrədi. Əsəbi bir səslə:

– Necə qazanclı yerə? Sən nə deyirsən? – deyə ona bağırdı.

Dalandar acıqla:

– Canım, çıx get, bir fahişənin hara köçdüyünü mən haradan bilim? – deyə cavab verdi.

Varis qızıb özündən çıxaraq:

– Sus! – deyə çığırdı, – doğrudanmı o fahişədir?

Dalandar dönərək, gedə-gedə:

– Ən adisi, – deyə cavab verdi.

Varis oradan başı odlu çıxdı. Lakin dalandarın sözlərinə hələ inanmaq istəmirdi. Hər necə olsa Qənbəri tapmalı, əhvalatı ona danışmalı idi.

Oradan restorana gəldi. Restoran sahibinə yanaşıb:

– Hər gün mənimlə yemək yeyən adamın evi haradadır? – deyə soruşdu.

Restoran sahibi, bir şey duymuş kimi, mənalı-mənalı gülümsəyərək:

– O cibkəsənimi deyirsən? Onun harada yaşadığını mən bilmirəm.

– Sən nə danışırsan? O cibkəsəndir?

Restoran sahibi yenə gülərək:

– Həm də ən məşhurudur, – deyə cavab verdi.

Həştərxanda var-yoxu əlindən çıxdıqdan sonra Varis kor-peşman Bakıya qayıtmışdı. Bir dəfə Nikolayevski küçəsindən keçərkən sinif yoldaşı Şamilə rast gəldi. Şamil Peterburq Tibb İnstitutuna imtahan vermək üçün latıncadan hazırlaşırdı. Köhnə yamaqlı geyiminə baxmayaraq, başındakı tələbə furajkası ona çox gözəl yaraşırdı.

Varis Şamili istehzalı bir baxışla süzdü. Onun Peterburq Tibb İnstitutuna girmək istədiyini öyrəndikdən sonra dərindən içini çəkdi:

– Gərək adamda bəxt olsun... – dedi. – Mən varlı olduğum halda orta məktəbi bitirib bu şapkanı qoya bilmədim. Sən Peterburqa oxumağa hansı pulla gedirsən? – Varis sonra acı-acı gülərək yenidən təkrar etdi: – Doğrudan, adamın gərək bəxti olsun.

Şamilin orta məktəb diplomunu nə qədər zəhmət və əziyyətlə əldə etdiyini Varis çox gözəl bilirdi. Onun belə qaba hərəkəti və ona düşmən kimi yanaşması Şamili çox qəzəbləndirdi. O özünü toplayaraq ciddi bir tövrlə:

– Taleyi hər kəs özü yaradır. Sən öz taleyini kor qoydun, ona mən neyləyim? Hansı pulla Peterburqa oxumağa getdiyimə gəlincə, o mənə aid bir məsələdir, – deyə cavab verdi.

Şamilin ciddi söylədiyi bu sözdən Varis çox pozuldu. Əli ilə onun çiyninə vurub:

– Oho! Diplom və doktorluq xülyası səni yaman qudurdubdur. Bir yerdə oxuduğumuzu, dərs kitablarını almaq üçün dilənçi kimi atalar şurasına əl uzatdığın günləri yadına sal! – deyə üzünü ondan çevirib, cavab almadan sürətli addımlarla uzaqlaşıb getdi.

Şamil yerindəcə donub qaldı. Onun dalınca bağırmaq, onu dayandırmaq və cavab olaraq bir neçə kəsərli söz demək istədi. Lakin deyə bilmədi. Boğazına sanki ağır bir şey tıxanmış, gözləri dumanlanmışdı. Heç bir pislik etmədiyi halda bu adamın yersiz təhqirindən daxilində müdhiş bir fırtına baş qaldırmışdı. O fırtına Şamilin gözləri qabağında ictimai quruluşun o vaxta qədər görə və duya bilmədiyi bir çox yarpağını açdı. Dodaqlarını gəmirərək biixtiyar:

– Ah, alçaq, – deyə bağırdı.

Varislə Şamilin görüşündən tam beş il keçdi. Şamil Peterburqda ali təhsilini bitirib Bakıya qayıtmış, özünə yoxsul bir kabinə düzəldərək, xəstə qəbul etməyə başlamışdı. Bir gün növbəti xəstə qəbulu zamanı skeletə bənzər uzun bir adam içəri girdi. O, qapının ağzında durub:

– Məni qəbul edərmisiniz? – deyə soruşdu. Şamil tanımadığı bu adama diqqətlə baxdıqdan sonra:

– Buyurun! – dedi.

Həmin adam içəri gəlib:

– Məni ya tanımırsınız, ya da tanımaq istəmirsiniz, – dedi. – Sizi bu gün həm təbrik etməyə, həm də sizdən üzr istəməyə gəlmişəm.

Şamil ancaq diqqətlə baxdıqdan sonra incə, sarı göz qapaqları içində sönük şüşə kimi parıldayan gözlərindən onun Varis olduğunu bildi. Az zaman içində onun bu qədər dəyişildiyinə heyrət etdi. İyirmi beş bahar görmüş bu adam altmış xəzan keçirmiş qoca kimi yorğun, xəstəhal və ölgün görünürdü. Şamil Varisin vaxtı ilə söylədiyi acı sözləri unutmamışdı. Lakin özünə doğru uzanan əlləri tutub, onu yanındakı skamyaya oturtdu. Varis Şamili nəzərdən keçirdikdən sonra:

– Şamil, uşaqkən sən məndən zəifdin, indi yaxşısan, – dedi.

Şamil onu bir də diqqətlə süzərək:

– Ancaq, Varis, sən çox dəyişmisən, – dedi.

Varis stolun üstündəki qələmi əli ilə oynada-oynada:

– Dəyişilmək təbiətin qanunudur, neyləyim ki, bu qanunu durduracaq, dəyişdirəcək qüvvətim yoxdur.

– Lakin sən çox tez dəyişilmisən.

– Doğrudur, mənim həyatımın təkərləri çox sürətlə hərlənir!

Şamil gülərək:

– O halda yağını az sürt!

– Onun təkərləri yağ sürtmədən hərlənir. "Alışmış qudurmuşdan yaman olur" – deyirlər.

Hər ikisi susdu. Varis bir an sonra dilləndi:

– Şamil, mən xəstəyəm, xəstələr xəstəsiyəm, – dedi, – anam xəstə, atam xəstə, demək olar ki, həyatımı bütünlüklə xəstəxanada keçirirəm. Bu gün ancaq səni görmək üçün gəldim. Sabah səni evimizə aparacağam, hamımızı müayinə et!

Varis bu sözləri deyərkən Şamil papirosunu tüstülədə-tüstülədə məktəbdə keçirdikləri uşaqlıq çağlarını, məktəbi bitirdiyi il küçədə görüşərkən Varisin ona söylədiyi zəhərli sözləri xatırlayır, bununla

belə Varisə qarşı olan kin və nifrətini unutmağa çalışırdı. Çünki Varis artıq yaşamır, sürünürdü.

– Doktor, sən bilirsənmi ki, mənim adımı nə üçün Varis qoymuşlar? – deyə soruşdu və cavab almadan sözünə davam etdi: – Atam yaşı xeyli ötmüş ikən anamla evlənmişdi. Dörd-beş il uşaqları olmamışdı. "Bu dövlət, sərvət kimə qalacaq" – deyə atam dərdlənirmiş. Mən dünyaya gəldiyim zaman atam torpağa yıxılıb: "Çox şükür, mənim də bu gün artıq varisim var!" – demişdir. Ona görə də adımı Varis qoymuşdular.

Ertəsi gün Varis Şamili evlərinə apardı. Onlar geniş bir küçədə, yeni üslubda tikilmiş dördmərtəbəli uca bir binada yaşayırdılar. Onlar pəncərələri yarımqapalı böyük bir otağa keçdilər. Varis cəld pəncərələri açıb, xəstələri gətirmək üçün getdi. Şamil otağı diqqətlə nəzərdən keçirtdi. Otaqda hər cür zəngin ev müxəlləfatı vardı. Divarda mahir bir rəssam fırçasından çıxmış, qışı, xəzanı və dəniz fırtınasını göstərən üç tablo asılmışdı. Şamil hər üç tablonu böyük bir maraq və diqqətlə seyrə başladı. Ən çox diqqətini cəlb edən dəniz fırtınasının təsviri idi. Buludlu göydən yağış tökülür, ildırım çaxır, coşub qaynayan köpüklü dalğalar fırtınaya tutulmuş gəmini bir top kimi atıb-tuturdu. Dəli dalğalar üstündə dağ təpəsi kimi görünən gəmi digər bir dalğa arasındakı uçurumlu dərələri andıran boşluqlar arasında yuvarlanacaq bir vəziyyət almışdı. O, tablonun təsvir etdiyi dəhşəti təhlil edərkən qapı açıldı. Qısaboylu, biçimsiz bir adam sol ayağını çəkə-çəkə içəri girdi. Varis Şamili göstərərək:

– Sinif yoldaşım doktor Şamildir, tanış ol! – dedi.

Aslan bəy Şamilin əlindən tutub:

– Xoş gəlmisən – dedi.

Oturdular. Aslan bəy Şamili diqqətlə süzdükdən sonra Varisə:

– O zaman oxusaydın, indi sən də bir adam olmuşdun, – dedi.

Varis yerindən sıçrayıb əsəbi bir səslə:

– Kişi mən oxuya bilməzdim, xəstə idim. Bu sözü sən həmişə elə yerli-yersiz deyirsən, doktorun vaxtını alma! – deyərək qapını çırparaq getdi. Aslan bəyin boz və ətli üzündə, yanları qırışlarla bürünmüş qoyun gözlərində hiddət qığılcımı parladı. Ağ təsək qoyduğu başına hərəkət verərək:

– Görürsən, doktor? – dedi. Bu da oğul! zəhmət çək, böyüt, boya-başa çatdır, bir söz deyəndə it kimi qapsın.

Bir qədər sükutdan sonra təsəki başından götürdü, arxalığının düymələrini qısa, qalın barmaqları ilə açа-açа:

– Eh... bu arxalığı da səhər-axşam geyib çıxarınca adam hövsələdən düşür, – deyə şikayətləndi. – Bu həyatın hər şeyi zəhmətlədir, hər şeyi çarpaşıqdır.

Arxalığını çıxarıb, stolun üstünə atdı. Ancaq bir köynəkdə qaldıqdan sonra soruşdu?

– Doktor, o Peterburq necə yerdir?

– Gözəl yerdir!

– Adamları da gözəldirmi?

– Gözəldir!

– Demək, lotu, orda yaxşı kef çəkmisən?

Şamil yuxarıdan-aşağı onu nifrətli baxışlarla süzdükdən sonra müayinə etməyə başladı. Aslan bəyin siması dərhal dəyişildi, onda ağır və ümidsiz xəstələrdə görünən bir hal doğdu. Zəif bir səslə:

– Bədənimdə ağrımayan yer yoxdur, – dedi. – Bu əl, bu ayaq, bu baş, bu gövdə, elə bil mənim deyil.

Şamil onu diqqətlə müayinə etdi. Təcrübəsinin az olmasına baxmayaraq onda köhnəlmiş və sümüklərinə qədər işləmiş beş-altı xəstəlik tapdı. Sonra Varisin anası Qəmər xanım gəldi. O da qarnından və ayaqlarının ağrısından şikayət edirdi. Varisə növbə çatanda anası Qəmər:

– Doktor, biz heç, ona çarə elə, – dedi.

Hər üçünün əsas xəstəliyi eyni idi: əsəb xəstəliyi!

Yalnız vücud və təbiətlərindəki fərqdən asılı olaraq, hər birində bu xəstəlik ayrı-ayrı şəkillərdə özünü göstərirdi. Dərman yazırkən Varis soruşdu:

– Şamil, biz xəstələnirkən doktora gedirik, bəs doktorlar xəstələnərkən hara gedirlər?

Şamil gülümsəyərək:

– Təbiətin geniş qucağına! – deyə cavab verdi.

Varis gülə-gülə:

– Anladım, bu yay hara getsən səndən əl çəkən deyiləm, – dedi.

II

Dondurucu və sərt bir qış idi. Səhər erkən paltosuz və qaloşsuz buzları ayaqları altında xışırdada-xışırdada mədənə gələn Araz soyuğun iliyinə qədər işlədiyinə baxmayaraq, səylə işləyirdi. Nahar fasiləsini bildirən fit çalındığı zaman Araz qızğın işdən bərk tərlədiyi halda

yoldaşları ilə birlikdə öz yoxsul süfrəsini açıb yeməyə başladı. Fəhlələr deyir, danışır, Araz isə kefsiz adam kimi dinib-danışmırdı. Buruğun qırıq taxtaları arasından vıyıltı ilə içəri soxulan külək onun tərini soyutmuş, vücudunu dondurmuşdu. Axşam evə döndüyü zaman o bədənində bir ağrı hiss etdi. Sanki hər tərəfdən qabırğalarını iynələyirdilər. Araz bunlara əhəmiyyət vermirdi. Günəş Arazın simasından, hərəkətindən onun xəstələndiyini bildi:

– Səni deyəsən soyuq alıb, gəl bir belinə küpə qoyum, – dedi.

Araz razı olmadı, xörəyini yeyib yatdı. Səhər yenə adəti üzrə qalxıb işə getdi. Külək yenə şiddətlə davam edirdi. O gün Araz axşama qədər qızdırma içində od tutub yana-yana işlədi. Axşam özünü zorgüclə evə sala bildi. Ayaq üstə durmağa taqəti qalmamışdı. Evə yetişər-yetişməz yatağa sərildi. Günəş Arazı bu vəziyyətdə heç görməmişdi. Araz soyuqdəyməni həmişə ayaq üstə keçirərdi. Heç bir xəstəlik bu vaxta qədər onu yatağa sərməmişdi. Günəş o gecə onu küpələdi. Keçi piyi ilə bədənini ovuşdurdu. Sarıçiçək çayı dəmləyib içirtdi. Bütün bu tədbirlərə baxmayaraq, Arazın qızdırması get-gedə artırdı. Günəş bunu duyduqca dərin bir iztirab və həyəcan içində çırpınır, nə edəcəyini bilmirdi. Səhər tezdən öz balaca qardaşı Nuruşun yanına qaçdı. Nuruş çox düşündüsə də bir şey edə bilmədi. Kənddə nə doktor var idi, nə aptek, nə də xəstəxana. Arazı şəhərə aparmaq da mümkün deyildi. Şəhərdən doktor gətirmək, aptekdən dərman almaq çətin bir məsələ idi. Bacısı Günəşin "qardaş" – deyə onun üstünə gəlməsi, onun isə bacısına heç bir kömək edə bilməməsi Nuruşun qəlbini neştər kimi dəlirdi. Nuruş çox düşündükdən sonra gedib, kənddə çoxdan həkimlik edən Mirzə Rzanı çağırdı. Mirzə Rza Araza həcəmət qoymağı tövsiyə etdi. Tərləmək üçün ona aspirin də verdi. Arazı bərk tərlətdilər, lakin halı yenə də yaxşılaşmadı, qızdırması da aşağı düşmədi. Mirzə Rza daha sonralar onun qolundan qan aldı, bir sıra başqa tədbirlər gördü, ancaq bunların da bir faydası olmadı. Arazın xəstəliyi uzanıb daha da ağırlaşdı. O bərk öskürürdü. Günəşin gecə-gündüz rahatlığı kəsilmişdi.

Bir bazar günü qardaşı Nuruşla birlikdə Arazı arabaya qoyub şəhərə, təcrübəli bir doktorun yanına apardılar. Doktor xəstəni diqqətlə müayinə etdikdən sonra üzünü Nuruşla Günəşə tutub:

– Bu neçə gündür xəstələnmişdir? – deyə soruşdu.

Günəş:

– Bu gün iki həftədir ki yatır, – deyə tez cavab verdi, – iki dəfə qan alıblar, iki dəfə də küpə qoymuşam.

Doktor başını buladı. Sonra xəstəyə baxıb:

– Bunun canı polad imiş, nə imiş ki, o qədər qan itirməyə tab gətirib, – deyə təəccüblə qaşlarını çatdı. – Başqası buna tab gətirməzdi. İkitərəfli bərk sətəlcəm imiş. Düzgün müalicə olunmadığından xəstəliyi daha da ağırlaşmışdır, ciyərlərinin qorxusu var, ciddi müalicə lazımdır.

Doktorun verdiyi dərmanlar Araza yaxşı təsir edirdi. Xəstə yatarkən yoldaşlarının, xüsusən Vanya ilə Qriqorun tez-tez onun yanına gəlmələrinə, təşkilatın işlərindən onu xəbərdar etmələrinə baxmayaraq, Arazın bütün canı yenə mədəndə, yoldaşlarının yanında idi. Odur ki, on gün sonra özünü bir qədər yaxşı hiss etcək ayağa qalxdı və Günəşin bütün təkid və etirazlarına baxmayaraq, bərk darıxdığını bəhanə edib, birbaş mədənə getdi.

Araz xeyli arıqlamış və zəifləmişdi. Şəhər doktorunun verdiyi dərmanları yenə hər gün qəbul edirdi. Bir ay sonra həmin doktor onu sonuncu dəfə müayinə edərkən dedi:

– Xəstəlik bir qədər getmişdir. Ancaq bu yay ciyərlərini tamamilə sağlamlaşdırmaq üçün ab-havalı bir yerə getməlisən. Yoxsa gələn qış ciyərlərini bir də soyuq alsa, çətin sağalar.

Araz gülümsəyərək doktorun bu sözünə əhəmiyyət vermədi. Günəş tez:

– Hara aparsaq yaxşıdır? – deyə soruşdu.

– Havası təmiz, saf olan bir yerə.

Günəş atası evindən gətirdiyi qızıl üzüyü, sırğasını satdı. Qardaşı Nuruş da bir qədər pul əldə etdi. Onlar Arazı mütləq Qarabağ kəndlərindən birinə aparmağa qərar verdilər.

Araz getməyə razı olmurdu. O bilirdi ki, elə yerlərdə istirahət etmək Araz kimi fəhlələrin işi deyil, Günəş onun bu fikrini anlayıb:

– Qorxma, pulumuz var, – deyə əldə etdiyi pulları çıxarıb ona göstərdi. Sonra bu pulları necə əldə etdiyini Araza danışdı.

İsti iyun günlərindən birində Araz Günəşlə birlikdə Qarabağ tərəfə hərəkət etdi. Onları yola salanlar arasında Vanya ilə Qriqor da vardı. Araz onlarla görüşüb ayrılarkən əllərini bərk-bərk sıxıb, tezliklə qayıdacağını bildirdi. Sonra oğlu Poladı qucaqlayıb öpdü. Onu dayısı Nuruşun yanında qoydular.

Gəldikləri yerin təbiətindəki gözəllik Arazla Günəşi məftun etmişdi. Uca, yaşıl dağlara, gur suların axdığı dərələrə, meşələrə baxdıqca heyran olub: "Dünyada nə gözəl yerlər varmış" – deyirdilər.

Onlar Qarabağın kəndlərindən birində gözəl mənzərəli bir yerdə kiçik bir otaq tutdular. Pəncərələrinin qarşısında başını göylərə dayamış qollu-budaqlı iki qocaman çinar vardı. Arazla Günəş bütün günlərini bu iki çinarın sərin kölgəsi altında keçirirdilər.

III

Həmişə ehtiyac içində yaşamaq, xüsusən son dövlət imtahanı Şamilin əsəblərini pozmuş olduğundan istirahətə böyük ehtiyac hiss edirdi. Təbiətcə zəngin, ab-havalı və sakit bir yerə getmək qərarına gələn Şamil də Arazla Günəşin olduğu həmin kəndə gəlib çıxdı və orada qalmağı qərara aldı. Təsadüf elə gətirdi ki, o, Arazla Günəşin yaşadığı evin qonşuluğuna düşdü və gəldiyi gündən onlarla tanış oldu. Arazla Günəşin sadə və səmimi həyatı gənc doktoru maraqlandırmağa başladı. Əvvəlləri onlar Şamilə o qədər də isnişə bilmirdilər, ancaq uzaqdan-uzağa dostluq edirdilər. Lakin çox çəkmədi ki, onların dostluğu möhkəmləndi, səmimi bir şəkil aldı. Şamil hər gün onların yanında olur, evlərinin qarşısındakı iki çinar ağacının sərin, məftun edən mənzərəsinə baxıb zövq alır və gözlərini kiçik bir küləkdən yarpaqları daimi hərəkətdə olan bu iki çinardan ayırmırdı. Pəncərələrin qarşısında yan-yana ucalmış bu iki qollu, budaqlı qocaman çinarın yaşıl başları boşluqlarda geniş-geniş nəfəs alırdı. Təbiət bu iki uca və nəhəng çinarda heç bir nöqsan yaratmamışdı. Onların arasından qaynayan sərin bir çeşmə yol açdığı kiçik çınqıl daşları üzərindən axıb gedirdi. Bu iki ağacdakı sağlamlığı nəzərə çarpdıra bilmək üçün təbiət sanki qəsdən bir az uzaqda xəstə və cılız iki söyüd ağacı yaratmışdı. Hər səhər şəfəq sökülüncə bu mənzərə tamamilə başqa bir şəkil alırdı: ilk şəfəq selləri hücuma başlayınca bu iki çinar başdan-başa titrək, çəhrayı sədəflər içində parıl-parıl yanırdı.

Sizə təqdim etdiyim iki bəxtiyar, pəncərələri bu gözəl mənzərəyə açılan doktorun otağı ilə yan-yana olan o biri otaqda yaşayırdı. İri gövdəli, vücudca sağlam və xoşsima olan bu iki nəfərin qıpqırmızı yanaqları gəncliklərindən bir şey itirməmiş kimi saf və parlaq idi; geyimləri, həyat və rəftarları da çox sadə və səmimi idi. Həyatın acılarını ifadə edən simalarında həm də həyata ayaq basdıqları ilk gündən onlarla bərabər doğmuş nəşəli bir təbəssüm oynayırdı.

Şamil hər səhər oyandığı zaman onları həmin iki çinar arasındakı çeşmə başında görürdü. Ağır və məşəqqətli həyat onların ailə həyatı-

nın tökmə qayalardan daha möhkəm olan sağlam təməlinə zərrə qədər rəxnə vura bilməmişdi. Onlar bir-birini elə mehriban və səmimi bir səslə çağırırdılar ki, insan qibtə etməyə bilməzdi. Şamili hər şeydən çox maraqlandıran onların həyatlarındakı sadəlik və səmimiyyət idi.

Günəş Arazın ciyərlərindəki zəifliyi tamamilə sağaltmaq fikri ilə var-yoxdan çıxaraq onu bu ab-havalı yerlərə gətirmişdi. Havada bir az duman göründümü, dərhal yerindən sıçrayaraq:

– Araz, səni soyuq alar, – deyə onu yamaqlı yun şalı ilə bürüyür, Araz da məmnun halda itaət edib dururdu. Toyuq öz balasını hər növ fəlakətdən qoruduğu kimi, onlar da zaman və təbiətin hər bir qorxunc və zərərli hadisələrindən bir-birini qoruyurdular.

Günəş hər səhər günəşlə bərabər doğar, günəşlə birlikdə yenə öz otağına çəkilərdi. Sular qaralınca Günəş Arazın əlindən tutub iri, ala gözləri ilə gülə-gülə:

– Havada rütubət var, qalx gedək! – deyirdi.

Bir gün Şamil onlarla birlikdə çinar ağaclarının sərin kölgəsində oturub söhbət edirdi. Bu zaman qapı ağzında "Doktor Şamil" – deyə bir səs eşidildi. Şamil dönüb baxdıqda üç adam gördü. Üçünü də tanıdı. Bunlar Aslan bəy, Qəmər və Varis idi. Şamil ayağa qalxıb:

– Siz də bu yoxsul yerlərə gəlib çıxarmışsınız? – dedi. – Xoş gördük, necəsiniz?

Varis:

– Mən özümə söz vermişdim ki, bu il harda olsan, yayı sənlə keçirim. Burda olduğunu isə məktəb yoldaşımız Həsəndən öyrəndim. Qonşuluqda boş otaq varmı?

Şamil əli ilə qonşuluqda olan otaqları göstərərək:

– Var, ancaq bəyənməzsiniz, – dedi.

Varis əlini havada oynadaraq:

– Yaxanı əlimdən qurtara bilməzsən, – dedi. – Daxma da olsa bizə qəbuldur. Gəl, düş qabağıma, göstər görək neçə otaqdır?

– İki otaq, bir də mətbəxdir. Otaqlar mənim otağımdan həm iri, həm də avadanlıq cəhətindən zəngindir. pəncərələri isə həyətə açılır.

Şamil qonaqları qonşu evə apardı. Onlar müştəri gözü ilə otaqlara baxdılar. Varis ata-anasının üzünə baxdı. Qəmər dodaqlarını büzərək:

– Xoşuma gəlmədi, – dedi. – Bizə yaraşan otaqlar deyil, yenə pəncərələri ağaclığa olsaydı, bəlkə...

Varis onun sözünü kəsərək:

– Biz bura kef üçün gəlməmişik. Pəncərələri meşəyə oldu, olmadı, doktora qonşu olmaq üçün hələlik bu otaqlarda yerləşərik, – deyə cavab verdi. Aslan bəylə Qəmər çiyinlərini çəkərək, istər-istəməz razı oldular.

Ertəsi gün səhər Arazı çeşmə başında görüncə Aslan bəy yerindəcə donub qaldı:

– Sən də burdasan? – deyə heyrətlə soruşdu. – Bu yerlərə necə, hansı pulla gəlmisən?

Araz ona məhəl qoymayaraq:

– Alın təri ilə qazandığım pulla, – deyə cavab verdi. – Soruşmaq ayıb olmasın, bəs sən hansı pulla gəlmisən?

Aslan bəy bu cavabdan bərk tutuldu. O, Arazın nə demək istədiyini çox gözəl bilirdi. Ona ciddi cavab vermək üçün bir qədər düşündükdən sonra uca səslə:

– Arazları işlədib qazandığım pulla gəlmişəm, – dedi.

– Bunu anlayırsansa, insaflı adamsan. Ancaq ataların bir sözü var: "Özgə atına minən tez düşər".

– Arxayın ol, biz elə minməmişik ki, bir də düşək.

– Ölünü öz başına qoymazlar, səbr elə, sizi ata mindirən oğullar bir gün də düşürər.

Varis hər ikisini acıqlı-acıqlı süzdükdən sonra:

– A kişi, burda da qoymazsan qulağımız dinc olsun? – deyə atasının qolundan tutub çəkdi. – Bəri gəl!

Aslan bəy əlini hiddətlə kənara çəkib:

– Taxsır səndədir ki, bizi gətirib bu gədə-güdəyə tay edirsən, – deyə əsəbi bir halda evə qayıtdı.

Bir gün Günəş yoxsul süfrəsini yerə sərib Arazla qatıq-çörək yeyirdi. Qəmər çeşmə başına keçərkən onları uzaqdan istehza ilə süzərək:

– Ay qız, yenə kişiyə nə yedirirsən? – deyə soruşdu.

Günəş:

– Nə yedirəcəyəm, kasıbın qazandığından, – deyə etinasız şəkildə cavab verdi.

– Kişivin fil boyda cəmdəyi var, yenə çox qazana bilmir?

Günəşin enli qaşları çatıldı, acıqlı gözləri ona dikildi:

– Ey, sən ağzının sözünü bil, mən bu kasıb Arazın kəsilən dırnağını min Aslan bəy kimi kişiyə dəyişmərəm!

Günəş Arazın ciyərlərini tamamilə sağaltmaq üçün onun başına pərvanə kimi dolanır, soyuqdan, istidən qoruyur, gündüzün isti çağını

çeşmə başında keçirir, sərin zamanlarda meşədən moruq, böyürtkən, göbələk yığmağa aparır, yağışlı, rütubətli zamanlarda yamaqlı şalına sarıyıb onu artırmadan çıxmağa qoymurdu. Bu sadə, səmimi həyata vurulmuş doktor onların söhbətindən doymurdu.

Birinci gündən üçlər ikilərə düşmən kəsildi. Sözlərinə, hərəkətlərinə dodaq büzdülər, qaş-göz oynatdılar. İkilər də üçlərdən xoşlanmayaraq mümkün qədər onlardan uzaqlaşmağa çalışdılar. Üçlər bunlara "Lüt bəxtəvərlər" adını verdikləri kimi, ikilər də onlara "taun, vəba" adını vermişdi.

Varis arabir istehza ilə gülərək:

– Mən sənə lap çaşıram doktor, bu lüt həriflərin mənasız sözlərinə, gülünc hərəkətlərinə necə səbr edə bilirsən? – deyirdi.

İsti bir yay səhəri idi. Şamil Arazı çağırıb onunla qayıq seyrinə getmələrini xahiş etdi. Araz məmnuniyyətlə razılıq verdi.

Onlar gənc bir şamlığı ikiyə ayıran yaşıl bir təpənin lətif otları və çiçəkləri üzərində iki qocaman dağ arasına sıxışmış gölə doğru irəliləyirdilər. Günəş də onlarla idi. Araz birdən-birə durdu, əli ilə uzaqları göstərərək:

– Bax, dağların dalında yağış yağır, ildırım çaxır! – dedi.

Bu mənzərə onları dayandırdı. Şimşəklər alovlu ilan kimi, birbirinin üzərinə qat-qat yığılmış buludlar arasından şütüyür, arxasınca göy gurultusu qopurdu.

Günəş tərəddüdlə:

– Araz, bu yağış bizi islatmasın? – dedi.

Araz qəti bir səslə:

– Yaz yağışı uzun sürməz. O bizi yaxalayınca qayıdarıq, – deyə cavab verdi.

Gölə yaxınlaşdıqca ildırımın gurultusu da yaxınlaşır, güclənirdi.

Onlar artıq qayığa minmişdilər. Araz avarları Şamildən almağa çalışdısa da o, razılıq vermədi. Günəşi baş tərəfdə yerləşdirən Araz gülə-gülə:

– Qayıqçı, bizi hara aparacaqsan? – deyə soruşdu.

Şamil barmağı ilə qabaqdakı dağları göstərdi:

– Təpəsində ildırım çaxdığı o daima yaşıl dağların təpəsinə!

– Buludlarla döyüşəmi? Aman, doktor, o dəhşətli ildırımlardan qorxmuram, ancaq buludların rütubəti Arazı xəstələndirə bilər.

– O rütubəti atəşli şimşəklərinlə quruda bilməzsənmi?

Araz gurlayan səsi ilə:

– Onun atəşi kifayət etməsə mən qurudaram, – dedi.

Şamil bütün qüvvəti ilə avar çəkərək, qayığı gölün o biri sahilinə doğru sürürdü.

Günəş Arazın açılmış sinəsini şalı ilə örtərək:

– Günün istisi azalır, – dedi, – havanın rütubəti isə artır.

O, sözlərini bitirməmişdi ki, qarşıdakı dağın təpəsində şiddətli bir ildırım çaxdı. Başlarının üstünə doğru gəlməkdə olan seyrək buludlar get-gedə sıxlaşır, yağış yavaş-yavaş səpələyirdi. Sahil gözəl bir mənzərə almışdı. Onun yarısından çox hissəsi günəş işığında parıl-parıl yanır, yarısı isə üzərindən keçən buludlardan kölgəli görünürdü. Təbiətin bu ecazkar gözəlliyindən məst olmuş Araz nəşəli bir səslə:

– Qayıqçı, gücünü artır, sahildə bizi al yanaqlı çiyələklər gözləyir, – deyə bağırdı.

Qayıq sahilə doğru irəliləyir, günəş də parça-parça dağılmaqda olan buludların arasından isti şüalarını gölün lacivərd səthinə yayırdı.

Artıq sahildə idilər. Seyrək dumanlar onlara yol vermək üçün qarşılarından çəkilirdi. Sevinc və məmnuniyyətin nəhayəti yox idi. Onlar şən qəhqəhələrlə islaq otların arasından çiyələk dərib yeyirdilər. Araz Günəşlə yan-yana dağa dırmanmağa başladı. Bir az sonra onlar yaxın bir qaya başında iki canlı heykəl kimi durub üfüqdə göylərə doğru uzanmış qövs-qüzehin bu mənzərəyə verdiyi gözəlliyi məmnun baxışlarla seyr edirdilər.

Uzaqdan onlara tamaşa edən doktor bir anlığa üçləri xatırladı, ikilərlə üçlər arasındakı dərin təzad onun ailə, həyat haqqındakı fikirlərini bir daha təsdiq etdi. O, yavaşca: "Həqiqətən bəxtiyarlıq sərvətdə deyil, həyatı qura bilmək və onu dərindən anlamaqdadır!" – deyə pıçıldadı.

Güclü yağışın yağmasından ehtiyat edərək onlar geri qayıtmalı oldular. Qayığa minən kimi Araz avarlara sarılıb:

– Bu dəfə mən avar çəkəcəyəm! – dedi.

Qayıq onun qüvvətli qolları arasında quş kimi qanadlanıb uçurdu. Günəş çox narahat idi. Tez-tez:

– Araz, özünü tərlətmə, – deyə söylənirdi. Araz üzünü Şamilə çevirib:

– Doktor, istini soyuğa, soyuğu istiyə qatıb dürmək kimi yeyən bir fəhləyəm. Bu özü mənim xasiyyətimi yaxşı bilir. Bu bir ayda ixtiyarımı onun əlinə vermişəm. O da məni uşaq kimi nazlayır. Yoxsa şəhərdə bu işlər yoxdur, – dedi.

Şamil o gecəni Araz və Günəşlə bir yerdə keçirtdi. O xoşbəxt ailə içərisində keçirdiyi iki-üç saat ona heç duyulmadan keçdi. Yatmaq zamanı gəldiyindən doktor istər-istəməz qalxdı. Hər ikisi onunla bərabər bayıra çıxdı. Hava durğun idi. Ağaclarda yarpaq belə qımıldanmırdı. Təmiz hava almaq üçün çeşmə başına qədər gəldilər. Günəş birdən-birə əllərini xaç kimi havada açaraq heyrətlə:

– Bura baxın, bu iki əlim arasındakı hava bir-birindən nə qədər fərqlidir! Sağ tərəfimdən keçən isti yel əlimi qarsalayır – dedi. Araz əlini o tərəfə uzadaraq:

– Hava axıntısı var. Qiblə tərəfdən yel əsir. Böyük bir fırtına qopacaq, – dedi. Sözlərini hələ bitirməmişdi ki, onların üz-gözünü qarsılayıb keçən küləkdən yarpaqlar sarsıldı. Doktor evə döndü. Varisin otağında çıraq yanmırdı. Yatmışlar zənn etdi, gözlərinə yuxu girmək üçün özünü bir kitab mütaliəsi ilə məşğul etmək istədi. Heç mümkünmü? Zehni, fikri o ailə ilə məşğuldu; o gülüşlər, o dadlı söhbətlər qulaqlarının ucunda saz telləri kimi səslənirdi. Bayırda şiddətli külək ağaclara çarpdıqca bağırır, vəhşi heyvan kimi ulayırdı. Bu mənzərəni yaxından seyr etmək üçün artırmaya çıxdı. Arazın lampası yanır, arabir şən, şaqraq səsləri eşidilirdi. Külək get-gedə şiddətlənir, bir-birindən aralı düşməkdə olan damlalar o qədər sıxlaşırdı ki, başlarına minlərcə taziyanə dəyirmiş kimi ağaclar kötüklərinə qədər əyilir, doğrulurdu. Birdən-birə başı üstündə şiddətlə çaxan sürətli ildırımdan bütün bina titrədi. Yer ayaqlarının altından qaçdı zənn etdi. Tez otağa girdi. Qonşu otaqda Qəmər deyirdi:

– Görəsən doktor lütlərin qonaqlığından gəldimi?

Aslan bəy:

– Yox, hələ gəlməmişdir. Özü də elə onların tayıdır.

– Yedikləri quru çörəkdir, amma di gəl ki, bəxtəvərlərin yanaqlarından qan damır, – deyə Qəmər gileyləndi.

– Elə ki, onlar gün keçirir... – deyə Varis köksünü ötürdü.

Aslan bəyin qaşları çatıldı:

– Onların yediyi-içdiyi nədir? Geydiyi nədir? Mən sənə xərclədiyimin mində birini onlar xərcləmir, o əzizliklə ki, mən səni saxlamışam, gərək indi öküzə dönəydin.

– Elə o cür saxlamaq məni bu günə qoydu, siz nəsiz ki, mən nə olum.

Qəmər dərindən içini çəkərək:

– Elə onu de, oğlum, kiçiklikdən qovruldun.

Aslan bəy daha da qızdı. Hiddətlə yerindən sıçrayaraq:

– Sən nə mırıldanırsan? – deyə qışqırdı. – Nə oldu qovruldu? Bunların hamısı Allahın işidir. Adamın alnına yazılan qəzavü-qədərdir; biri kök olur, biri arıq. Allah hamını bir şəkildə yaratmaz ki!

– Nə oldu, elə bizi belə yaratdı?..

Aslan bəy Qəmərin ağzını yamsıladı:

– Nə oldu, bizi belə yaratdı?.. Zalım qızı elə naşükürlükdən bu günə qalıbsan.

– Kişi bəsdir, mən dava demədim ki... Ölü canımdan nə istəyirsən?

Aslan bəy:

– Canına çor istəyirəm, – deyə ayağını yerə çırpdı. – Mən bilmirəm sən nə demək istəyirsən. Bir söz deyəndə keçmişi başıma çırpırsan.

Varis:

– Hə, qoçaqlar, boğuşsaydınız pis olmazdı.

– Keçmişi... Yalan demirəm ha, otuz ildə sənin xarabanda nə gün gördüm? Qapıdan girəli üzüm gülmədi, top kimi canım da şam kimi əridi.

Get-gedə söz uzanıb ciddi bir şəkil aldı. Hər ikisi otuz il keçirdikləri həyatın ulduzsuz gecələrini xatırladıqca başları dumanlandı, gözləri qaraldı, o sıxıntılı həyat dəftərinin qarma-qarışıq yarpaqlarını bir-bir çevirdikcə qarşılarında bir-birindən qaranlıq və qorxunc lövhələr açıldı.

Bu vaxt böyük bir ağacın kötüyündən qopub yıxılmasını andıran bir səs gurladı. Sonra bərk qadın çığırtısı eşidildi. Arazgildən yenicə qayıtmış və öz otağında çarpayısında uzanaraq bu ailə haqqında şirin düşüncələrə dalan doktor tez ayağa qalxdı. Bayırda fırtına bütün qüvvəti ilə davam edirdi. Başqalarının ailə işinə qarışmağı sevməməsinə baxmayaraq, biixtiyar Varisgilin qapısını açıb içəri girdi. Qarşısında nə görsə bəyənərsiniz? Varis atasının qarşısında durub acıqlı bir səslə: "Sənə yüz kərə deyirəm, anamı vurma!" – deyə kişinin üzərinə xoruzlanır, qadın yerdə oturub saçları əlində ağlayırdı. Aslan bəy isə özündən çıxmış halda otaqda var-gəl edirdi.

Şamil güc-bəla onları sakit edə bildi.

O gecə Şamil çox narahat yatdı. Səhər oyanan kimi həyətə çıxdı. Dünən həyətin bir tərəfinə tökülmüş peyinin içində toyuq-cücə eşələnirdi. Yaşlı, ala-bəzək bir xoruz qanadlarını ayaqları altında sürüyərək boğazının tüklərini qabardır, toyuqları qabağına qatıb qaçırır, uzun mahmızı ilə peyini eşələyib həyətə dağıdırdı. Dan yeri sökülmək üzrə idi. Göy ləkəsiz, hava saf, təbiət canlı idi. Gözləri hər şeydən çox sevdiyi o iki çinara ilişdi. Gecə qopan fırtına tökmə qayalar kimi başlarını dik tutan o iki ağaca bir zərər verməmişdi. Təbiətin bütün yaradıcılıq

qüvvətini işlədərək yaratmış olduğu bu iki çinar bu gün gözünə daha gözəl, daha mətin göründü. Yarpaqlar, uclarından sallanan damcıların büllur kimi ətrafa saçdıqları nur içində parıl-parıl yanırdı. Yaşıl başlarını oxşayan nəsimin ətrafa yaydığı gözəl ətri udduqca gecədən bəri otağın ağır və pozuq havası ilə ağırlaşmış vücudunda bir başqalıq hiss edirdi. Bu zaman Araz Günəşlə bərabər çeşmə başına keçərkən onlarla salamlaşdı. Araz Şamilin salamını aldıqdan sonra:

– Doğrusu, dünənki fırtına çox dəhşətli idi, – dedi. – Ancaq...

Şamil onun sözünü yarımçıq kəsərək:

– Qonşularımızın başladığı fırtına isə ondan heç geri qalmırdı, – dedi.

Zatən gecədən bəri doktorun fikrini yoran da bu məsələ idi. Onların gəlişi hamının nəşəsini pozmuş, sərbəstliyini almış və həyatın təbii axınına bir əngəl olmuşdu. Bu düşüncələr içində üzülərkən qapı ağzında bir fayton durdu. Varis doktoru görüncə uzaqda gülə-gülə bağırdı:

– Doktor, biz köçürük.

– Haraya?

– Elə buraya, kəndin ortasında varlı bir adamın otağına. Ora bizim üçün daha əlverişlidir, içində hər şeyi var.

Ertəsi gün Şamil oyandığı vaxt yenə Arazla Günəşi hər səhər oturduqları yerdə, qocaman çinarların arasındakı çeşmə başında gördü. Günəş yenicə doğmuşdu. Yaşıl ağacların yarpaqları arasında yuxulu gözlərini təzəcə açmış quşlar şən-şən ötüşürdülər. Xəfif yel çinarların uca başlarını tərpədir, havaya xoş bir ətir yayırdı.

Bu zaman həvəskar bir rəssam da molbertdə yerləşdirmiş olduğu bir kətan üzərinə bu iki çinar ağacının şəfəq sökərkən almış olduğu rəngi və şəkli çəkməyə hazırlaşırdı. Boyaları sıra-sıra ayırmış, gözlərini yavaş-yavaş qızarmağa başlayan üfüqlərə dikib dururdu. Birdənbirə hər tərəfdən nur çağlayanları axmağa başladı; mənzərə tamamilə başqa bir şəkil aldı. İlk şəfəqlər hücuma başlayınca bu iki çinar ağacı titrək, çəhrayı sədəflər içində parıl-parıl yanmağa başladı. Rəssam böyük bir diqqət və maraqla fırçasına almış olduğu kəskin boyalarla o rəngləri təbii olaraq verməyə çalışırdı. O, gözlərini yaratmaq istədiyi tablodan ayırmayaraq, böyük bir diqqət və maraqla mənzərə ilə tablo arasındakı ahəng və tənasübün bir-birinə nə qədər uyğun olduğunu təyin etmək istəyirdi. Mənzərənin rəngləri get-gedə bir-birinə qarışaraq başqa bir şəkil aldığı zaman rəssam fırçasını yerə qoydu. Boyaları topladı, molbertini qatlayaraq, çiyninə alıb getdi.

Şamil başı üstündə göylərə qədər ucalan iki çinara bir də baxdı. Əvvəlki titrək, çəhrayı şəfəqlər bir-birinə qarışmış olduğundan çinarlar indi alov rəngli incə bir tül içində qəndil kimi yanırdı. Yavaş-yavaş ucalmaqda olan günəş də bütün qüvvəti ilə ətrafa işıq və hərarət yayırdı. Şamil başı üstündə ucalan o iki çinara, onun geniş və sərin kölgəsində oturan o iki canlı heykələ bir də diqqətlə baxdı. Hər ikisinin simasında həyatın acılarını əks etdirən və tez nəzərə çarpan qırışlarla yanaşı, qalın dodaqlarında aşıb-daşan sevinc və bəxtiyarlıq şəfəqləri titrəyir, iri, ala gözlərində mətanət qığılcımları uçurdu. O, biixtiyar əyildi, ovuclarını çeşmənin sərin və saf suyu ilə doldurub doyunca içdi, içdi...

Bir ay içində Araz tamam sağalmışdı. Bakıya hərəkət edərkən Şamil onun əlini öz əlləri içində sıxaraq:

– Mən sizə qəlbən bağlandım, – dedi. – Sizdən ayrılmaq, bilsəniz mənə nə qədər çətin olacaq. Uğurlar olsun, ancaq Bakıda məni unutmayın.

Arazla Günəş:

– Siz bizi unutmasanız, biz də unutmarıq, sağ olun, – deyə onunla çox səmimi görüşüb ayrıldılar.

YEDDİNCİ FƏSİL

I

Araz oğlu Poladı çox sevirdi. Polad ağıllı-kamallı bir oğlan olmuşdu. Araz hərdənbir Günəşə:

– Buna yaxşı bax, başqa oğuldur, – deyirdi.

Polad vaxtını hər gün qonşusu Əlisəfanın qızı Almasla keçirir, onu saf, səmimi bir uşaq qəlbi ilə sevirdi. Polad Almasdan beş yaş böyük idi. Onlar hər gün bir yerdə, qayğısız və şən uşaqlıq həyatı sürürdülər.

Araz yoxsul olduğuna baxmayaraq Poladı yeni açılmış altı sinifli məktəbə verdi. O, arabir başını qucaqlayaraq:

– Oğlum, çalış, yoxsul olsam da yeməyib, içməyib səni oxudacağam, – deyirdi.

Polad məktəbdən döndüyü zaman hər şeydən artıq Almasla əylənərdi.

Almas uzaqdan Poladın gəldiyini görüncə kiçik qollarını kəpənək qanadları kimi açaraq nəfəsi darıxmış halda qaçır, ayaqlarını yerə çırpa-çırpa "Polad! Polad!" – deyə qollarını onun boynuna dolayırdı. Polad onu çiyninə alır, oynadır, güldürür və sevdiyi oyunlarla əyləndirirdi. Arabir anası Pakizə etdiyi yaramazlığa görə qıza cəza verdiyi vaxt buna hər kəsdən çox Polad qüssələnirdi. O, qızın məsum gözlərindən tökülən yaşları qurutmağa, onun könlünü almağa çalışardı. Almasın uzun, qara kirpiklərinin ucundan süzülüb, qırmızı yanaqlarında şeh kimi parıldayan göz yaşı damlaları qurumamış, Poladın boynunu qucaqlayır, sonra:

– Polad, Polad, mənə gəlin qayır, – deyirdi.

Zaman axdıqca hər iki uşaqda səmimi yoldaşlıq hissi və sevgisi də o nisbətdə artır, qüvvətlənirdi.

Əlisəfanın bacısı oğlu Teymur kəndin yeni yetişmiş ziyalılarından sayılırdı. O, kənddə bir qız məktəbi açmağa müvəffəq olmuşdu. Teymur bacısı qızı Alması zor-güc Əlisəfanın cəngindən qoparıb məktəbə vermişdi. Ara-sıra yolda bir-birinə rast gəlirkən Polad onun kiçik tumbul əllərini əlləri içində oynadaraq oxuduğu dərsləri soruşur, əzbərlədiyi mənzumələri oxudur, sonra əli ilə onun başını oxşayaraq:

– Afərin, sən ağıllı bir qız olacaqsan, – deyirdi.

Polad altı sinifli məktəbi bitirdi. Ailə həyatındakı dəyişiklik, maddi vəziyyətin ağırlığı təhsilini davam etdirməyə mane oldu.

Araz ehtiyacın ağır yüklərini yalqız çəkirdi. Bu ağırlığı Polad da yaxından hiss edirdi. Onu hər şeydən artıq atasının üzərində yük olması sıxırdı. O həm özünü idarə edə bilmək, həm də atasına maddi kömək etmək fikri ilə bir iş başlamaq istədi. Buruq işlərində atasından çox məharət göstərmiş, təcrübəsi ilə bir mühəndis qədər bilik qazanmış olan dayısı usta Nuruşun əli altında işləməyə qərar verdi. Bu fikrini atasına açıb söylədiyi zaman Araz acı-acı gülümsədi:

– Onun yanında nə üçün? "Bağa çanağından çıxdı, çanağını bəyənmədi", buna deyərlər. Mədəndə mən işlədiyim zaman dayın Nuruş qanqal otlayırdı! – dedi. Sonra bir az düşünüb, əlini oğlunun arxasına vuraraq:

– Bir cəhətdən haqqın var oğlum, get işlə! – dedi.

Polad adi bir fəhlə deyil, mahir bir usta olmaq istəyirdi. Dayısı Nuruşun yanında muzdsuz, maaşsız qulluq edib buruq işlərində təcrübə sahibi olmağa can atdı. Mədən işləri ona yabançı deyildi: yüksək ehramlı buruqların küləkli kölgəsində doğmuş və neft havasını uda-uda böyüməmişdimi? Sevimli Almasa quyu qazaraq taxtalardan buruq qayırıb onu

əyləndirmədiyi günmü vardı? Onun ciyərləri, neft qoxusuna o qədər alışmışdı ki, şəhərə, yaxud bağlara getdiyi zaman sıxılır, darıxırdı. Uşaqlıqdan bir çox sirrini bildiyi və ürəkdən sevdiyi bu işi az zaman içərisində öyrəndi. Nəhayət, dayısı Nuruşun köməkliyi ilə mədənə qəbul edilərək bir usta kimi çalışırdı. Artıq kimsəyə yük deyildi. Tökdüyü alın təri ilə artıq özünü idarə edə bilirdi. İşdən döndüyü zaman sağlam vücudunda əsla yorğunluq hiss etmir, üzü gülür, gözü gülür, dodaqlarından axan zümzümələr belə gülürdü. Onu sıxan, onu rahatsız edən yalnız son zamanlar Almasın ondan qaçıb gizlənməsi idi. Əlisəfanın göstərişi ilə Almas ona görünməməyə başladığı zaman Polad buna çox darılmışdı. O, Almasa o qədər alışmış və isnişmişdi ki, onu görmədiyi gün ən qiymətli bir şey itirmiş olan adamlara məxsus gözləri onu axtarır, fikri onunla məşğul olurdu. Fəqət Alması sevdiyini bu vaxta qədər açıqdan-açığa nə sözlə anlatmışdı, nə də hərəkətlə. İndi bir qurd onun qəlbini gizli-gizli gəmirir, şən simasına, sürəkli qəhqəhələrinə donuq rəng, sönük bir ahəng qatırdı. Bunu anası Günəş hiss etmişdisə də, onun əsil səbəbini anlamamışdı.

Bir gün Almas anası ilə bərabər həyətdə paltar yuyarkən anasının ona dediyi bir sözdən sürəkli qəhqəhələr qopardı. Bu zaman Polad bağçada əncir ağacı altında uzanmışdı. Ona məhrəm olan bu səsi eşidincə iki əlini qulağına tutdu, nəfəs almamaq, qəlbinin çırpıntısını belə eşitməmək üçün köksünü irəli doğru qabardaraq mahir bir tarçının mizrabından qopan canlı bir musiqi dinləməyə başladı. O lətif səs qulaqlarının ucunda canlandıqca ruhunun damla-damla əriyib qəlbinin ən isti guşələrinə töküldüyünü hiss edirdi.

Günəş onu uzaqdan bir müddət seyr etdikdən sonra mühüm bir məsələni həll etmiş adamlara məxsus bir səslə:

– Demək qızı sevir, – dedi.

* * *

Aslan bəy istirahətdən qayıtdıqdan sonra Arazın onunla etdiyi rəftarı, dediyi ağır sözləri heç yadından çıxara bilmir, bunları yadına saldıqca əsəbiləşir, qəzəbindən ürəyi şiddətlə döyünürdü. Öz-özünə: "Yox, bu həyasız oğluna mən kim olduğumu göstərməsəm, onun sinəsində sağalmaz bir yara açmasam, Rəhim bəyin oğlu deyiləm!" – deyirdi. Odur ki, Aslan bəy Araza ağır zərbə endirmək, onu fəhlələr arasında etibardan salmaq üçün gecə-gündüz yollar axtarır, tədbirlər düşünürdü. O, nəhayət bu işi Arazın işlədiyi mədənin sahibi Qasım bəylə birlikdə görməyə qə-

rar verdi. Qasım bəyin istirahətdən yenicə gəldiyini və orada əməlli-başlı kef etdiyini öyrəndikdən sonra Vəliyə faytonu qoşmağı əmr etdi. Bir neçə dəqiqədən sonra fayton qapıda Aslan bəyi gözləyirdi. O, cəld qapıdan çıxıb, faytona oturdu, birbaş Qasım bəyin evinə sürməyi əmr etdi.

Heç o qədər də arzulamadığı və rəqibi olan qonağın – Aslan bəyin gəlişi Qasım bəyi açmadı. Lakin Aslan bəy qapıdan içəri girərkən onu xoş üzlə qarşıladı. Onun gəlişindən məmnun olduğunu bildirdi. Onlar zalda, məxmər örtüklü girdə stolun dövrəsində oturub bir qədər yay səyahətlərindən söhbət etdilər. Aslan bəy öz yay səyahətinin o qədər də yaxşı keçmədiyini bildirdikdən sonra söhbəti Arazın üstünə gətirdi:

– Qasım bəy, bizim ən böyük düşmənimiz mədənlərimizdə işləyib, çörəyimizi yeyən bu azğın fəhlələrdir. Bu ac qurdlar var-yoxumuza sahib olub, bizi də öz günlərinə salmaq istəyirlər. Elə biri sənin mədənində işləyən Araz. Məni boğaza yığıb, sənin fəhlən olduğu üçün bir şey elətdirə bilmirəm. Bu vaxta qədər fəhlələri yolundan azdırır, üstümüzə qaldırırdı, indi də başlayıb özümüzə sataşmağa. Heyvan oğlu heyvan, nə böyük-kiçik tanıyır, nə hörmət saxlayır. Peşmansan ki, bir söz deyəsən, həyasız oğlu, bir deyirsən, beş cavab qaytarır. Sənin yanına bir iş üçün gəlmişəm. Gərək bu şeytan oğlunu mədəndən iti qovan kimi qovasan. Ondan sonrası mənim boynuma.

Aslan bəyi diqqətlə dinləyən Qasım bəy gülümsəyərək:

– Aslan bəy, ilanın ağına da lənət, qarasına da, – dedi. – Fəhlələrin hansı bizə dostdur? Çarə yoxdur. Mədəni dayandırmaq ki olmaz! Canları çıxsın, qoy gündə 12 saat toz-torpaq, his-pas içində işləyib biz xozeyinlərə pul qazansınlar. Bir də indi pis vaxtdır. Bilirsən ki, bütün Rusiyada fəhlələr dünyanı dağıdır. Nikolay onların qorxusundan tir-tir əsir, birinə əl vuran kimi yüzü onu müdafiə edir. Bizimkilər də onların yolu ilə gedir. Bunu görə-görə fəhlələr içində böyük hörmət qazanan Arazı işdən necə qova bilərəm? Fəhlələr mədəni alt-üst edər. Biz indi onlarla pişim-pişimlə dolanmalıyıq. Elə mən özüm də onunla qorxa-qorxa rəftar edirəm. Odur ki, Aslan bəy, gərək məni bağışlayasan, sənin xahişini yerinə yetirə bilməyəcəyəm.

Bu sözlərdən sonra Aslan bəyin bütün ümidləri qırıldı. O, anladı ki, Qasım bəy öz fəhlələrindən, xüsusilə Arazdan it kimi qorxur. Qasım bəyin dedikləri elə Aslan bəyin özünü də az qorxuya salmamışdı. Bu məsələ ətrafında danışmağı artıq bildiyindən Aslan bəy söhbətin mövzusunu dəyişdi, bir qədər neft ticarətindən danışdıqdan sonra çox pərt halda xudahafizləşib getdi.

II

Varis atasının tapşırığı ilə ayrı-ayrı buruqları yoxlamaq, neft istehsalı işlərini qaydaya salmaq məqsədi ilə kəndə, mədənlərə gəlmişdi. Vəziyyəti öyrəndikdən sonra şəhərə dönmək istədi. Yolda gedərkən bibisi Humayın bir ay əvvəl ona: "Daha bizi yaddan çıxarmısınız" – deyə etdiyi şikayəti xatırlayaraq, onu görmək üçün yolunu dəyişdi. Bu vaxt qonşu qapıdan çarşaba bürünmüş bir qız çıxdı. Qız Varisi görən kimi üzünü gizlədib, iti addımlarla yeyin-yeyin getdi. Varis qızın təmiz al yanağını, iri qara gözlərini, qara, sıx kirpiklərini görə bilmiş və o saat ona məftun olmuşdu. Heyrətlə: "Bu kimdir? Kənddə belə gözəl qız!" – deyə ayağını saxladı. Qız gözdən itincəyə qədər onun arxasınca baxdıqdan sonra bibisinin yanına gəldi. Humayla görüşdülər. Bibisinin uzun-uzadı şikayətindən Varis qızı tamam unutmuşdu. Birdən onu xatırlayaraq, əhvalatı bibisinə danışdı. Humay gülüb:

– Bilirəm, – dedi, – o, Əlisəfanın qızı Almasdır. Gözəl qızdır. Kiçiklikdən Arazın oğlu Polada deyiklidir. Polad onun dərdindən dəli-divanədir.

Varis Polad adı eşidincə hiddət və qəzəblə bağırdı:

– Kim? Polad? Arazın oğlu Polad? Bu lap yerində oldu. Elə onda mən bu qızı özüm alacağam.

Humay bir az düşündükdən sonra:

– Sənə o qızı yalvarıb verərlər, – dedi, – ancaq atan bu işə razı olmaz.

– Atamlıq nə var? Mən bu ceyran kimi qızı lüt Arazın oğluna verməyəcəyəm.

– Yaxşı, sabah şəhərə gedib atanla danışaram.

– Mən atama, anama baxmayacağam. Bilirəm onlar pullu qız istəyir. Qalx, qalx, bərabər gedək, – deyə Varis bibisinin qolundan tutub çəkdi.

Humay Varislə bərabər şəhərə getdi. Aslan bəy evdə yox idi. Humay söz açıb əhvalatı Qəmərə danışdı. Qəmər əli ilə ağzını tutub:

– Ağzını yum, bir daş altdan, bir daş üstdən. Onlar hara, biz hara? – dedi.

Varis ayağını yerə çırparaq:

– Dediyimdən dönən deyiləm, – deyə qışqırdı. – Mən o qızı Poladın əlindən çıxarmalıyam.

– Demək sən acığa düşüb alırsan?

– Həm acığa düşüb alıram, həm də o qızı gözüm tutub. O Arazla oğlunun ürəyinə elə dağ çəkəcəm ki, ölüncə sağalmasın.

Axşam əhvalatı Aslan bəyə xəbər verdilər. Aslan bəy özündən çıxdı:

– Bu heç ola bilməz! Mən it-qurd tayıyam, nəyəm? Ona özümüzə yaraşan qız alacağam.

Lakin Varis atasını çox asanlıqla razı saldı. Qəmərin ah-vayına qarşı Aslan bəy dedi:

– Mən bu işə o lüt Arazdan, oğlu Poladdan intiqam almaq üçün hələlik razı oluram. Yoxsa atam Rəhim bəyin ocağında qotur Əlisəfanın qızını gəlin olmağa qoymazdım. İndi ki, qızı Varisin gözü tutub, qoy beş gün kefini çəksin. Gözü doyandan sonra kəbin pulunu qabağına sayıb yola salarıq, gedər. Vəssalam.

Qəmər yumşalıb:

– Varis də elə deyir, – dedi. – Mən bu qızı üç aydan artıq saxlamaram.

Bu şərtə hər üçü razı oldu.

Bir neçə gün sonra Qəmər baldızı Humayla qonşusu Püstəni Almasa elçi göndərdi.

Əlisəfa evdə idi. Pakizə onları hörmətlə qəbul etdi. Bir-biri ilə umu-küsüdən sonra əhvalatı açıb dedilər.

Pakizə nəzakətlə Humaya:

– Əlisəfa ilə məsləhətləşib, sabah sənə cavab göndərərəm, – dedi.

Elçilər getdikdən sonra Pakizə əhvalatı Əlisəfaya danışdı. Əlisəfa bu işdən çox razı qaldı. Başını oynadaraq:

– Pakizə, mən razıyam, kişilər bizimlə ata-baba qonşu olub, həm də adlı-sanlı adamlardır, – dedi.

Pakizə:

– Bəs Polad? Günəş bizi buradan köçürər! Kiçiklikdən qız ona ad olub, – deyə narazılığını bildirəndə Əlisəfanın qaşları çatıldı, kirpiklərini tez-tez qırparaq:

– Nə? Mən lüt Arazın, dəli Günəşin oğluna qız verim? Bu sözü bir də ağzına almazsan, eşitdinmi? – deyə bağırdı.

Sabahı gün Pakizə Humaya belə bir xəbər göndərdi: “Qudalarıma de ki, kişi razıdır”.

III

Son zamanlar Günəş qonşusu Pakizə ilə çox az-az görüşürdü. Bir gün Pakizə onu həyətə çağırdı. Günəş getdi, görüşdülər. Pakizə bir qədər nəşəsiz görünürdü. Günəş əhəmiyyət vermədi, çünki Əlisəfa ilə sözü düşdüyü gündən o həmişə belə görünürdü. Günəş ətrafa göz gəzdirərək:

– Almas hanı? Heç görünmür? – deyə soruşdu.

Pakizənin siması daha da dumanlandı. O, həzin bir səslə:

– Evdədir! – dedi. Sonra başını aşağı salıb, gözlərini qapaqları içində gizləyərək: – Xəbərin var? Dünən Almasa elçi gəlmişdi, – dedi.

– Kimdən?

– Aslan bəyin oğlu Varisdən.

Günəş soyuqqanlılıqla:

– Nə cavab verdiniz?

– Əlisəfa razıdır.

Bu sözdən Günəşin bütün vücudu titrədi. O, iri pəhləvan əlləri ilə Pakizənin yaxasından tutub:

– Varisə mən qız verərəm? Əvvəlindən Almas Poladındır demişəm! – deyə acıqla qışqırdı.

Günəşin qüvvətli qolları arasında Pakizə yarpaq kimi titrədi. Cavab verəcək bir söz tapmadı. Bu uzun müddət qonşuluğu zamanında Pakizə ondan bu hal və hərəkəti əsla görməmişdi. Qızlıq zamanlarında gördüyü, eşitdiyi hərəkətlər isə indi bir dastan kimi yalnız dillərdə söylənirdi. Odur ki, Pakizə onu heyrətlə süzərək:

– Ay qız, məndən nə istəyirsən? – dedi. – Sən istədiyin vaxt quzuya, istədiyin zaman qızmış aslana dönürsən. Bir də axı, məndə günah yoxdur.

– Bunlar kiçiklikdən bir-birini istəyirlər. Bəs sizin insafınız nə deyir? O şorgöz ata ilə oğlu da ki, yaxşı tanıyırsan: "Yava itin yava da küçüyü olar!" – deyərlər. Bilirəm, ərin onun puluna bənd olub. Donuzun da yağı çoxdur, neyləyim?.. Yüz il əlində çıraq axtarsa, Polad kimi oğul tapmaz. Almas ondan qaçıb gizləndiyi gündən uşağım bilsən nə qədər dəyişmişdir. Ürəklə oynamaq olmaz! Bunun axırı pis olar.

Arazın ailəsi Pakizənin çox xoşuna gəlirdi. Polad kimi kürəkəni olması onun ən böyük arzusu idi; yoxsul olsalar da sürdükləri dinc həyata hamı qibtə edirdi. Almasın da Poladı sevdiyini çoxdan bilirdi. Po-

laddan qaçmağa əmr aldığı gündən, xüsusən elçi gəldikdən sonra Almasın daxilində get-gedə şiddətlənməkdə olan müdhiş bir fırtınanın gizli izlərini onun üzündə, gözündə sezirdi. Almas büsbütün dəyişilmişdi. O yemir, içmir, gecə-gündüz düşünürdü. İri qara gözlərinə bir duman, gülər, saf çöhrəsinə bir dalğınlıq çökmüşdü. Bunu Pakizə görür, duyur, ürəyini sıxmaqda olan bu hissin ağırlığı altında əzilirdi. Onu rahatsız edən bu sirri nə ərinə, nə də Günəşə açmağa cəsarət edirdi. O indi Günəşdən daha pis vəziyyətdə idi. Günəşin iri-iri açılan qığılcımlı gözləri ondan qəti bir cavab istəyirdi. O, çıxılmaz bir vəziyyətdə idi. Nə edəcəyini, nə söyləyəcəyini bilməyərək, dərindən içini çəkdikdən sonra Günəşin ağzından aldığı sözü biixtiyar təkrar etdi:

– Doğru deyirsən, bu işin axırı pis olacaq.

Hər ikisi susub, bir-birlərinin dik gözləri içinə baxa-baxa qaldılar.

Bu zaman əhvalatdan xəbəri olmayan Almasın otaqdan həzin bir səslə oxuduğu bayatı bu sükutu bir az da uzatdı:

Qərənfilsən putasan,
Saldın yanar oda sən.
Mən o güldən deyiləm,
İyləyəsən, atasan...

Sükutu yenə Günəş pozdu:

– Pakizə, Polada bir çarə elə, yoxsa uşaq bu dərdə dözə bilməz, – dedi. Pakizə də:

– Durma, Almasa bir çarə! – deyə bağırmaq istədi. Lakin boğazı elə qəhərləndi ki, bir kəlmə söz deməyə belə iqtidarı olmadı. Nəfəs borusu qapanmış adamlar kimi çırpınmağa, hıçqıra-hıçqıra ağlamağa başladı. Günəş əvvəlcə bərk qorxdu. Onu qolları arasına alıb, yerə oturtdu, köynəyinin yaxasını açdı. Üzünə çiləmək üçün "su, su!" – deyə çığırdı. Bu səsə hər iki qonşu ailənin üzvləri həyətə atıldılar. Bir az sonra Almas boynunu bükərək əlində bir kasa su anasının başı üstündə durub ağlayır, Günəş isə xəstənin üstünə su çiləyərək:

– Pakizə, Pakizə! – deyə səsləyirdi.

Səsə Polad gəlib çıxdı. O, kasanı Almasın əlindən alıb, Pakizənin dodaqlarına gətirdi. İki-üç qurtum su içirtdikdən sonra:

– Qorxmayın, qorxmayın, indi ayılar, – dedi.

Poladın qətiyyətlə dediyi bu söz Almasın qəlbinə böyük bir qüvvət verdi. Polad əlindəki kasanı Almasa uzadarkən hər ikisi həsrətli

baxışlarla bir-birlərini süzdülər. Bu baxışlar üç aydan bəri gündən-günə böyüyərək, gündən-günə artaraq ürəklərində bərkimiş olan sıxıntı və kədərin əzici ağırlığını, təcrübəli bir doktorun verdiyi əlac kimi, bir anda hər ikisinin üzərindən götürdü. Hər ikisi özlərini yüngül hiss etdilər. Lakin Almas yenə çox qəmli və pərişan idi. Düşüncəli gözlərini yerə dikərək durmuş, sanki bununla: "Almasını səndən ayırmaq istəyirlər, tez bir çarə elə!" – demək istəyirdi. Təəssüf ki, bu xoş görüş uzun sürmədi. Əlisəfa qapıdan içəri girər-girməz Poladı görüb, sərt və qəti bir səslə:

– Sənin daha oğul-uşaq içinə girən vaxtın deyil, böyümüsən, bir də buralara gəlmə! – dedi.

Polad acığından tir-tir əsdi. Ancaq bir söz demədi, yeyin addımlarla çıxıb getdi. Əlisəfanın bu hərəkəti Günəşin qəlbini bir neştər kimi dəldi.

Pakizə artıq ayılmış, gözlərini açmışdı. Əlisəfa onun qolundan tutub qaldırdı. Günəş acıqlı və əsəbi halda evə döndü.

IV

Polad əncir ağacı altında oturub, həzin səslə oxuyurdu. Günəş bilə-bilə onu tək buraxmışdı. Yalnız Araz gəldiyi zaman:

– Oğlum, gəl çay iç, – deyə onu çağırdı. Polad gəlmədi, qalxıb hara isə getdi.

Günəş əhvalatı açıb Araza danışdı. Araz onu çox soyuqqanlı dinlədi. Sadəcə gülümsəyərək:

– Allah xeyir versin! – dedi.

Arazın bu işə əhəmiyyət verməməsinə Günəş heyrət etdi, çünki onun Poladı həddindən çox sevdiyini bilirdi. Gözlərini geniş-geniş açaraq ciddi bir səslə:

– Gülmə, – dedi, – bunun axırı bilirsənmi nə olar?

– Nə olar? Özünü öldürər? Mənim oğlum elə iş görməz!

– Birdən gördü, sonra?

Araz gülümsəyərək:

– Mən də cavan ikən məhəbbətin hər bir macərasını görmüşəm, hər acısını dadmışam, – dedi. – O mənim qədər istəməmiş və istəyə də bilməz!

Arazın bu sözləri Günəşi çox maraqlandırdı.

Günəş:

– Səndə təzə xəbərlər varmış! – dedi və heyrətlə soruşdu:

– İstədiyin kim imiş?

– Sən!..

– Yalan!

– Ömrümdə yalan danışdığım yadıma gəlmir.

Günəş doğrudan da iyirmi beş il ərzində Arazın bir dəfə də yalan danışdığını eşitməmişdi. Odur ki, mənalı-mənalı gülümsəyərək soruşdu:

– Bu nə zaman olmuşdu?

– Sən hələ qız ikən!

– Nə qız ikən, nə də sonra səndə bunu görməmişəm.

– Arvad gözü mənim məhəbbətimi görə bilməz!

Günəş şirin düşüncələr içində susdu. Arazın son sözü onun qadınlıq qüruruna toxunduğu halda məmnun idi. Arazın etirafı onun iyirmi beş illik həyatının bütün sirlərini açmış, dumanlarını silmiş, təmizləmişdi. Bu xoş xəbər Günəşin qəlbindəki şöləni daşqın bir surətdə parlatdı. O şölənin nüfuzedici şəfəqləri ilə iyirmi beş illik həyatı zehnində canlandı. Onu incədən-incəyə zehnindən keçirərkən hər yarpağında, hər sətrində Arazın anlatmaqda olduğu sevdanın büllur izlərini yavaş-yavaş duymağa başladı. O, artıq Araza haqq verdi. Ancaq ona dadlı xatirələr, qızğın duyğular bəxş edən eşqini bu vaxta qədər ondan gizlətməsini əsla bağışlaya bilmirdi.

Uzun bir müddət birlikdə həyat keçirmiş olduğu bu adamın gizlətdiyi hissləri indiyə qədər duya bilmədiyinə yanıb-yaxılırdı. Dəmir təbiətli, polad iradəli Arazda gördüyü, bildiyi bu kimi fövqəladə hallara heyrət edirdi. Bu düşüncələr içində Günəş birdən-birə başını qaldırıb heyrətlə parıldayan gözlərini Araza dikərək qaldı. Araz: "Nə baxırsan?" – deyə soruşduğu zaman Günəş gülümsəyərək: "Heç!" – deyə məhcub və məmnun bir tövrlə başını aşağı dikdi.

Artıq hər ikisi dadlı düşüncələrin büllur qanadlarında uzaq aləmləri dolaşır, ulduzlu, günəşli həyatın zehinlərindən bir-bir sürətlə keçməkdə olan canlı xatirələri ilə məşğul görünürdü. Günəşi bu dadlı xəyallardan Arazın gur səslə:

– Yatmaq vaxtı gəlib, – deməsi oyatdı. Düyməsinə barmaqla azca toxunan kimi sönən elektrik lampası tək Günəşin ruhunu oxşayan xoş

xatirələrin şəfəqləri bir anda zehnindən silindi. Poladı yenidən xatırlayınca nəşəsi qaçdı, üzü dumanlandı. O, titrək və həzin bir səslə:

– Mənə hər nə deyirsən de, bu iş məni yaman qorxudur, – dedi.

Araz qəti və gur səslə:

– Qorxma, hər şey öz qaydası ilə gedəcək! – deyə cavab verdi.

Günəş susmağa məcbur oldu. Düşüncəli gözləri ilə onun pəhləvan gövdəsini nəzərdən keçirərək Araza haqq verdi. Oğlu Poladın atasına bənzədiyini düşünərək ürəkdən sevindi. Lakin bu sevinc uzun sürmədi. Günəşin üzünü yenə duman aldı. O, Almasın Varisə verilməsinə Poladın dözə bilməyəcəyindən qorxurdu. Araz onun qəlbindəki fırtınanı üz-gözündə seyr edirdi. O birdən-birə əlini yerə çırparaq:

– Qalx, sən də yaşa dolduqca köyrəlirsən, əvvəlki Günəş deyilsən. dedi.

– Polad kimi oğul anasıyam, yenə də dəyişilməyim?

– Mən nə üçün dəyişilmədim?

– Mən də ona heyrət edirəm.

– Dünyada sevmədiyim, ən çox qorxduğum şey zəiflikdir. Bu kövrəkliyi, zəifliyi Polada keçirməkdən qorxuram. Mən bilmirəm, səhərə qədər ürəyindən bu sıxıntını silib təmizləyəcəksən, anladınmı?

Günəş dinməz-söyləməz yerindən qalxdı, lakin yenə oğlunu xatırlayıb: "Polad gəlib çıxmadı" demək üçün üzünü Araza çevirdi. Ancaq cəsarət etməyib, geri döndü. Araz onun nə demək istədiyini dərhal başa düşüb:

– Sən onu düşünmə, o indi burdan daha yaxşı yerdədir, – dedi.

Günəş heyrət edərək: "Necə də insanın qəlbini oxuyur" – deyə düşündü. O indi yatağında yuxuya gedə bilməyərək, Arazın dediklərini bir-bir yadına salır. Poladın bu gecə evə dönməyəcəyini düşünüb, yenə narahat olmağa başlayırdı. Araz isə çoxdan xoruldayırdı. Birdən qapı şiddətlə vuruldu. Günəş cəld yerindən sıçrayıb, ayağa durdu. Yeyin addımlarla qapıya qaçdı. Şüşə arxasından Poladın fəhlə yoldaşı Qanbayı görüncə qorxu ilə:

– Nə var, Qanbay? – deyə soruşdu.

Qanbay onun qorxduğunu hiss edərək:

– Heç bir şey. Polad sazını istəyir, onu aparmağa gəldim, – deyə cavab verdi.

V

Polad gecəni yoldaşı Qanbayla birlikdə çox xoş keçirmişdi. Səhər qalxıb işə getdikləri zaman hər ikisi nəşəli görünürdü. Poladın qara və sıx kirpikləri arasında qaynayan alıcı laçın gözlərində, al-qırmızı yanaqlarında oynaşan parlaq şəfəqlər simasına bir başqalıq vermişdi. O, elə sürətlə işləyirdi ki, Qanbay heyrətlə parıldayan gözlərini ondan ayıra bilmirdi. Fyodr əli ilə Qanbayı vurub, yaxındakı buruğun yanında duran adamları göstərərək:

– Bu qurdlar yenə burada nə gəzir? – deyə soruşdu.

Hamı onlara doğru çevrildi.

Mədən sahibi Aslan bəy yaxındakı mədəni əli ilə məhkəmə pristavına göstərib:

– Onun mədəni budur, – deyirdi, – yuxarı tərəfdən on beş sajen mənim yerimə giribdir. Bax, bu mənim yerimin planı, hələ nöyütümün yarısı da oğurlanır.

Məhkəmə pristavı heyrətlə Aslan bəyə baxaraq:

– Necə oğurlanır ki, heç kəs görmür? – deyə soruşdu.

Aslan bəy başını oynadaraq:

– Çox gözəl, öz qaydasilə. Bu gün ən böyük firmalar bu oğurluqla məşğuldur. Mənim trubamdan öz trubasına yol açdırıb gecə-gündüz inək kimi sağır. Üç-dörd dəfə oğurluğunu tutmuşam, yenə də fürsət tapdıqca sağmaqda davam edirlər.

Polad astaca:

– Siz bizi sağdığınız kimi – deyə yoldaşlarının üzünə baxdı.

Bu sözləri Aslan bəy eşitmədi. Məhkəmə pristavı Aslan bəyin dediklərini təsdiq edib dedi:

– O, sizə çox haqsızlıq etmişdir. Qəsb etmiş olduğu yer sizə qaytarılacaq. Bu gün yazacağam, bunların hamısını göstərəcəyəm. Neft oğurluğuna gəlincə onu da açaram. Arxayın ol... Bu xüsusda yəqin ki, məhkəmə sədri ilə də görüşmüsünüz.

– Onu çoxdan görmüşəm.

Məhkəmə pristavı mənalı-mənalı gülərək, əlini Aslan bəyin çiyninə qoydu:

– Demək, işi qazanmısan, – dedi və hər ikisi söhbət edə-edə yanlarındakı iki polislə birlikdə mədəndən uzaqlaşdılar. Polad onları nifrətli baxışlarla yola salaraq:

– Fyodor, bu oğru-quldur dünyasından qurtardığımız günü görsəydik, – deyə köksünü ötürdü.

Qanbay:

– Bunlar bizim həyatımızı zəhərləyən mikroblardır, – deyərək qaşlarını çatdı.

Arşak:

– Burjuaziya dünyası mikrobsuz yaşaya bilmir, görünür, bunda da bir hikmət var.

Polad kəskin bir səslə:

– Bu hikmət deyil, zillət və möhnətdir. Onu kökündən qoparıb atmaq lazımdır – deyib sürətlə işləməyə başladı.

Polad bu sözü o qədər kəskin bir tərzdə dedi ki, hamısı dərin bir düşüncə içində susdu. Qanbay əlində bir parça çörək Polada yanaşıb:

– Sən yaman çalışırsan! – dedi.

– Demək, yaşayıram.

– Çalışmayanlar yaşamırmı?

– Yox, sürünürlər, bir az sonra da öləcəklər!

– Bu mədənlərə sahib olan ağalar gecə-gündüz kefdən ayılmırlar. Bir vur-çatlasın, çal-oynasındır ki!.. Səncə onlar yaşamırmı?

Polad onun sözünü kəsərək:

– Məqsədsiz həyat keçirən, alın təri tökməyən, əmək çəkməyən insanlar həyatın həqiqi zövqünü dadmayanlar və duymayanlardır. Onların bütün zövq və nəşəsini toplayasınız (alnından tərini silərək) mənim bu alın tərindən aldığım zövq və nəşə yanında çox kiçik qalır.

– İş nəşə deyil, yorğunluq verir.

– Doğru deyirsən, aslanbəylər üçün işləmək heç vaxt nəşə doğura bilməz. Lakin işsizlik, səfalət və əyyaşlıq isə insanı daha çox yorur və sağlam düşüncədən uzaqlaşdırır. İnsan ikən hətta onu heyvan dərəcəsinə qədər alçaldır. Bu səfalət və əyyaşlığın onlar bir gün cəzasını çəkəcək.

Polad daha danışmayıb ciddi surətdə işinə davam etdi. Mühəndisin dediyinə görə daha beş metr qazıldıqdan sonra üst neft təbəqəsinə çatmalı idi. O qazdıqca quyudan çıxan torpağı gözdən keçirir, iyləyir, ancaq neftdən bir əlamət tapmırdı. Bu təcrübə onu çox maraqlandırmış olduğundan böyük bir həvəslə çalışırdı.

Fyodor Poladın belə bir maraq və həvəslə çalışdığını görüb:

– Nə olub, Polad? Bu gün səndə başqa bir hal var? – deyə soruşdu.

Polad işinə davam edərək:

– Onu mən də hiss edirəm. Demək, həyatımda doğacaq bir fırtınanın müjdəçisi...

– Bu fırtına xeyirdənmi doğacaq, şərdənmi?

– Onu yəqin bilmirəm. hər halda ikisindən birisi...

– O fırtınanın nə üçün səndə bu qədər həvəs doğurduğuna çaşıram.

– Çaşmaq, çaşqınlıq iradəsizlikdən doğar və döyüşdə insanı həmişə məğlub edər.

Fyodor:

– Oho, dostum, sənin filosofluğun da varmış, – deyə qəhqəhə ilə güldü.

Polad bir şey hiss etmiş kimi durdu; ştanqlar qalxıb-endikcə baltanın səsini diqqətlə dinlədi, sonra qəti bir səslə:

– Balta qırılmışdır, – dedi.

Qanbay, Fyodor və Arşak heyrətlə ona baxdılar. Fyodor ona yaxınlaşdı, ştanqın quyuya enib-qalxmasına diqqətlə baxdıqdan sonra gülümsəyərək:

– İnjiner olduğunu bilmirdim! Heç bir şey qırılmamışdır, – dedi.

Polad qəti səslə:

– Balta qırılmışdır, – deyə təkrar etdi.

Qanbay ona yaxınlaşaraq:

– Hələ sən qırılanın balta olduğunu nədən bildin? – deyə soruşdu. – Qırılan bəlkə ştanqdır, ya başqa şeydir?

– Balta olduğunu indi sübut edərəm, – deyə Polad quyunun içindən baltanı çıxarmağa çalışarkən, mühəndis gəlib çıxdı və onları bir yerdə görüncə:

– Tənbəllər, nə üçün işləmirsiniz? – deyə çığırdı.

– Mixayil Andreyeviç, balta qırılmışdır. Onu quyudan çıxarmaq istəyirik.

Mixail Andreyeviç acıqlı-acıqlı Poladı süzdükdən sonra:

– Ey, nə üçün qazmırsan?

– Balta qazmayır, onun üçün.

– Qazmadığını nədən bildin?

– Qulağımın alışmış olduğu səsdən qazdığı zaman başqa cür səslənir.

– Nə həssas qulağın varmış! Quyunun iki-üç yüz metr dərinliyində baltanın qırıldığını səsindən bilir!

Mühəndis sonra Poladı əli ilə bir kənara itələyib, şlanqları özü quyuya buraxdı. Şlanqlar quyuya enib-qalxdıqca baltanın səsinə qulaq asmağa başladı. Sonra Polada tərəf dönüb:

– Ay uşaq, qırılan balta da belə səslənər? Yoxsa sənin qulağın mənim başımdan çox bilir? – deyə hirslə soruşdu.

Polad gülümsəyərək:

– Onu ölçməmişəm, – deyə cavab verdi.

Mühəndis öz bilik və təcrübəsini göstərmək, Poladı susdurmaq üçün baltanı quyudan çıxarmağa başladı. Fəhlələr işin nə ilə bitəcəyini böyük bir maraqla gözləyirdilər. Ştanqlar quyudan çıxdıqdan sonra Polad qırılmış baltanı reşteldən çıxarıb, əli ilə yuxarı qaldıraraq:

– Baxın! – deyə hamıya göstərdi.

Balta doğrudan qırılmışdı. Fəhlələr onu məmnun baxışlarla süzərək:

– Sağ ol, Polad! – dedilər.

Fyodor ona yanaşıb əli ilə çiyninə vuraraq:

– Sağ ol, sağ ol, Polad! – dedi və dönüb Mixail Andreyeviçə baxaraq güldü. Mixail Andreyeviç qızardı, bozardı, bir söz deməyib tələsik çıxıb getdi.

Poladın bu qələbəsi fəhlələrdə öz istedad və bacarıqlarına böyük bir inam doğurmuş, ruh yüksəkliyinə səbəb olmuşdu.

İki gün sonra Poladı kontora çağırdılar. Polad işi yarımçıq qoyub kontora getdi. Hesabdar onu görcək bir parça kağız uzadıb:

– Bura qol çək! – dedi və 3 manat 21 qəpik pulu onun qabağına qoydu. Polad məsələnin nə yerdə olduğunu dərhal anladı.

Kontorda kiçik adamlarla işdən nə üçün çıxarıldığı haqda söhbət açmağı qüruruna sığışdırmadı. Aldığı pulu cibinə qoydu, üz-gözündə oynaşan qəzəb və intiqam qığılcımlarını gizlətməyə çalışaraq, kontorda oturmuş adamlara tərs bir nəzər saldı və heç bir söz demədən çıxıb getdi.

Fəhləlik həyatında olan bu ilk zərbəni Polad çox soyuqqanlı və mətanətlə qarşıladı. Öz iş bacarığına güvəndiyi üçün iki-üç gün içində daha əlverişli bir iş tapacağına inanırdı. Çünki, nə qədər gənc olsa da, o indi özünü adi bir fəhlə deyil, mahir bir usta və təcrübəli bir mexanik sayırdı. Quyunun üç yüz metr dərinliyində baltanın qırıldığını duyan qulaqlarına, təcrübəsinə inanırdı. Maşınlar və müxtəlif mədən alətləri onun əlində bir oyuncaq kimi idi. Lazım gəldiyi zaman açar,

ən kiçik hissələrini bir-birindən ayırar, yenidən qurardı. Hətta ehtiyac olursa kiçik təmiratı belə özü edirdi. Ondan biliksiz usta və mexaniklər ayda qırx beş, əlli manat aldığı halda, o nədən qorxacaqdı. Bu xülyalarla evə döndüyü zaman Araz öz iri döşəkçəsi üzərində əli ilə sağ dizinə dirsəklənərək oturmuş, Günəş də dəlləyə getmədiyindən şikayət edir, əli ilə onun qolundan çəkərək: "Qalx, get, başını qırxdır, gəl!" – deyirdi. Polad aldığı pulu atasının qabağına ataraq :

– Vuruşmayın, dəllək pulumuz var! – dedi.

Araz heyrətlə:

– Bu nə puldur? – deyə soruşdu.

– Əmək haqqımdır.

Arazın heyrəti bir qat daha artdı:

– Hələ donluq almağına çox qalır. Yoxsa işdən qovdular?

Polad atasının yanında oturdu. Əhvalatı bütün təfsilatı ilə ona danışdı. Hər üçü bu hadisənin təsiri ilə bir an susub qaldılar. Oğlunun söhbətini böyük bir maraqla dinləyən Günəş birinci olaraq sözə başladı:

– Sən də kişinin biliyini heçə vurduqdan sonra heç olmasa üzr istəyəydin, – dedi.

Araz Polada cavab verməyə imkan vermədi, narazı vəziyyətdə Günəşə baxıb:

– Polad öz işini bizdən yaxşı bilir. Ac qalmaq, acından ölmək böyük fəlakət deyil, ən böyük fəlakət namussuz yaşamaqdır! – dedi və Poladın onun qabağına qoyduğu puldan iki şahı götürüb dəlləyə getdi.

O gün Azad Bakı Komitəsinin qərarı ilə Həştərxana yola düşməli idi. Azadı yola salmaq isə Arazla Vanyaya tapşırılmışdı. Araz dəllәkdən qayıtdığı zaman Vanya evdə oturub Poladla şirin söhbət edirdi. Araz öz vaxtından bir az da tez gəlib çıxmışdı. Odur ki, söhbət üçün bir qədər vaxt qalırdı. Vanya Poladın işdən çıxarılmasını Araza xatırladıb mədənlərdəki hərc-mərclikdən, haqsızlıqlardan qəzəblə danışdı. Araz və Polad onun dediklərini təsdiq etdilər. Saat 10-u vurduqda, Arazla Vanya qalxıb onlara tapşırılan vəzifəni yerinə yetirmək üçün getdilər.

Azad səfərə hazırlaşırdı. O bu münasibətlə təşkilatın sınanmış üzvləri ilə məsləhətləşirdi. Losman Əlimərdan da burada idi.

Əlimərdan məşhur Bakı taciri Hacı Hadinin gəmisində işləyirdi. Tez-tez Həştərxana neft aparırdı. Uşaqlıqdan gəmidə işlədiyindən,

Xəzər dənizini, xüsusən Həştərxan və Bakı limanlarını çox yaxşı tanıyırdı. Liman fəhlələri arasında böyük hörməti vardı. Üzü boğulmuş mis rəngində olduğundan hamı ona Qara losman deyirdi. Əlimərdan Bakı bolşevik təşkilatının fəal üzvlərindən biri sayılır, Bakıdan Həştərxana, eləcə də Həştərxandan Bakıya ədəbiyyat daşımaq işində təşkilata böyük kömək göstərirdi.

Azad gözünün üstünə tökülən saçlarını barmaqları ilə darayıb deyirdi:

– İrtica hər yandan hücuma başlamışdır. İndi bolşevik mətbuatını qüvvətləndirmək və onu geniş kütlələr arasında yaymaq əsas vəzifədir. Möhkəm, mütəşəkkil bir inqilab ordusu yaratmaq üçün bu ən gözəl vasitələrdən biridir. İndi düz söz qılıncdan da kəsərlidir.

Bayaqdan Vanya ilə yanaşı oturub Azadı dinləyən Araz da söhbətə qarışdı.

– Azad yoldaş doğru deyir ki, çox vaxt söz qılıncdan da kəsərli olur. Biz onu elə öz işimizdə də görürük. Məgər mitinqlərdəki odlu çıxışlar, fəhlələr arasında yaydığımız gizli intibahnamələr bunu sübut etmirmi?

Vanya onun sözünü təsdiq edərək:

– Düzdür, – dedi.

Qara losman Azad yoldaşı Həştərxana tacir Hacı Hadinin neft barjında aparacağını söylədi və Azadın təhlükəsiz gedib-gəlməsi üçün şərait yaradacağına hamını əmin etdi.

Yoldaşları Azada işində müvəffəqiyyətlər arzu etdilər. Araz əlini Qara losmanın kürəyinə vura-vura:

– Azad yoldaş, bu bakılı balası sizi elə aparıb gətirəcək ki, heç quş da xəbər tutmayacaq, – dedi.

Qara losman gülümsədi. Azad məmnun bir halda losmana baxaraq zarafatla:

– Həmişə qara neft daşıyıb, indi də qoy ədəbiyyat daşısın, nə fərqi var. İkisi də xalqa işıq verir, – dedi.

Azadın bu sözü hamının xoşuna gəldi.

Ertəsi gün sübh tezdən Azad tacir Hacı Hadinin neftdaşıyan barjında Həştərxana yola düşdü.

SƏKKİZİNCİ FƏSİL

I

Elçi və nişan məsələsi bir-birini o qədər sürətlə təqib etmişdi ki, Almas qaranlıqda yol azmış yolçu kimi nə edəcəyini bilmirdi. Daxilindəki müdhiş fırtınanın dalğaları onun lətif simasına, iri, qara gözlərinin saf parıltısına donuq bir rəng vermişdi, ləkəsiz qəlbi iztirablar içində çırpınırdı. Dərdlərini açacaq, kədərlərinə şərik olacaq bir nəfər tapmırdı. Hətta bütün dərdlərindən xəbərdar olan, hər zaman ona güvənərək arxalandığı anası belə bu gün ona qarşı tamamilə laqeyd görünərək, büsbütün dəyişilmişdi. Almas bu gün öz ailəsi içərisində yalqız və kimsəsizdi. Qəlbi kimi sevdiyi Poladdan ayrılmaq ona hər şeydən ağır görünürdü. Poladın onu sevdiyini, uşaqlıqda keçirdikləri o şən və qayğısız günləri, atasının Poladı təhqir edib həyətdən qovduğunu, Varisə getməklə sevgilisi Poladın qəlbində dərin və sağalmaz bir yara açacağını düşündükcə ürəyi yerindən oynayırdı. Bunları xatırlayınca ürəyində acı bir ağrı hiss etdi. Həmin ağrının üzücü yorğunluğu ilə yerindən qalxdı. Son bir ümid, son bir çarə düşünmüşdü. Bibisi Rəxşəndənin yanına gedəcək, qızı Dilguşa vasitəsi ilə əhvalatı ona başa salacaq, yalvarıb-yaxaracaqdı. Bibisi Rəxşəndə qardaşı Əlisəfanı qandıracaq, yanında ağlayıb-sıtqayaraq qardaşının daş ürəyini yumşaldacaq, beləliklə Almas istəyinə çatacaqdı. Bu şirin düşüncələr sadədil Alması cığırından çıxardı. O, qapının ağzından anasına:

– Ana, mən Dilguşagilə gedirəm, – deyə pilləkənləri başaşağı düşürkən Pakizə pilləkən başına yüyürüb:

– Ay qız, bu gün gəzmək vaxtı deyil, tez gəl, yoxsa dalınca gələcəyəm! – deyə arxasınca çığırdı.

Almas cavab vermədi, arxasına baxmadan qapıdan çıxdı. Sürətlə gedərkən küçədə iri püstə ağacı altında bir qaraltı gördü. Addımlarını yavaşıdaraq, diqqətlə baxdı. Bir nəfər ağac altında oturub əli ilə torpağı qarışdırırdı. Qız onu tanıdı. O, Polad idi, "Ah, o da mənim kimi dəli-divanədir. Bu günkü nişan məsələsini yəqin ki bilir, ona görə də fikirlidir. Görəsən o nə düşünür? Nə tədbir, nə çarə axtarır?" – deyə irəlilədi.

Polad Alması incə təbəssümlərlə qarşılayaraq, salam verdi. Həsrətli nəzərlə qızı süzdükcə: "Bu qız getdikcə başqa bir bəla olur"

– deyə düşündü, onun gözəlliyini bu gün hər zamankından daha çox təqdir etdi. Çarşabı altından təzə, güllü ipək paltarını görüncə:

– Bu gün özünə yaman yar-yaraşıq vermisən, xeyir ola? – deyə soruşdu.

Qız məyus halda:

– Bu gün evimizdə yasxana qurulacaq, – deyə cavab verdi. Polad heyrətlə:

– Nə? Yasxana? Ölən kimdir? – deyə soruşdu.

Bu sadə və düz sual Almasın varlığını büsbütün sarsıtdı; çünki o, tamamilə başqa söz gözləyirdi. Artıq dayana bilmədi. Birdən-birə yaz buludu kimi göz yaşı töküb, hıçqıra-hıçqıra ağlamağa başladı. İşdən tamamilə bixəbər olan Polad Almasın axıtdığı göz yaşından mütəəssir oldu. Onu sakit etmək üçün:

– Ağlama, ağlama, – dedi, – səni heç bir zaman gözü yaşlı görməyim.

Təsəlli üçün deyilən sözlər Alması sakit edə bilmədi; çünki o, Poladdan: "Ağlama, o yasxananı mən toy büsatına çevirəcəyəm, şən və xöşbəxt yaşayacağıq" kimi bambaşqa sözlər gözləyirdi. Qızın yenə də ağladığını görən Polad:

– Bəsdir, bəsdir, – deyə acıqlandı, – özünü üzmə, onsuz da bu gün ağlayacaqsan! Ancaq mənə bir de görüm ölən kimdir?

Almas Poladın bu sözlərinə dözə bilməyib acıqlı, lakin qırıq bir səslə:

– Ölən mən...Mən bədbəxt! – deyə cavab verdi, yoluna davam etdi.

Polad yenə bir şey anlamadı. Gözləri yaşlı uzaqlaşmaqda olan Almasın dalınca həsrətlə baxa-baxa qaldı. O getdikdən sonra Poladın marağı daha da artdı: "Kim ölmüşdür? Yaxın qonşu olduğu halda nə üçün xəbər tutmamışam?" Bu acı düşüncələr onu getdikcə rahatsız edirdi. Almasa göz yaşı tökdürən kədərin səbəbini öyrənmək üçün evə qaçdı. Poladı ilk əvvəl Günəş qarşıladı. O, əlini anasının çiyninə qoyub:

– Bu gün Almasgildə nə var? – deyə soruşdu.

Günəş şübhəli baxışlarla onu süzərək, çatılmış qaşlarından, dalğın simasından nişan məsələsini eşitmiş olduğunu yəqin etdi. İşi birdəfəlik açıb söyləmək istədi, lakin cəsarəti çatmadı, dərhal sözü dəyişərək:

– Heç bir şey, oğlum, – deyə cavab verdi.

Polad Almasla görüşdüyünü, onun: "Bu gün evimizdə yasxana var..." dediyini anasına xəbər verdi. Günəş əlindəki iri bıçağı yerə qoyub, mənalı bir nəzərlə Polada baxdı. Gözlərini onun cavab gözləyən gözlərinə dikərək:

– Daha nə dedi? – deyə soruşdu.

– Başqa heç bir şey. Sən de görüm ölən kimdir?

Günəş özünü tamam itirdi. Sonra acı-acı gülümsəyərək:

– Ölən heç kim, oğlum, o gün olsun, sənin üçün olsun!

Bu gün Almasın nişan məclisidir, – deyə cavab verdi.

Bu qara xəbər Poladın beynində ildırım kimi partladı. Onun bütün vücudu yarpaq kimi titrədi. Lakin daxilində qopan fırtınanı gizlətməyə çalışaraq soruşdu:

– Nə? Nişan məclisi? Kimə verdilər?

Günəş Poladın üzünə baxmağa cəsarət etməyərək:

– Aslan bəyin oğlu Varisə, – dedi, – yazıq qız bədbəxt oldu!

Polad daxilində sanki bir şeyin qırılıb düşdüyünü hiss etdi. Bu ağrını o vücudunun hər guşəsində duydu.

İndi bütün məsələ ona aydın idi. Almasın onunla görüşməsinin, ağlamasının səbəbini və matəm məclisinin mənasını indi başa düşmüşdü. Onunla görüşərkən söylədiyi sözlər arasındakı uyğunsuzluğu düşünür və düşündükcə vücudunu soyuq tər basırdı. Xüsusən Almasa: "Onsuz da bu gün ağlayacaqsan, ölən kimdir?" – deyə verdiyi yersiz sualı əsla unuda bilmirdi.

Polad evdən çıxıb, yenə həmin püstə ağacının yanına gəldi. Almas qayıdarkən bir də onunla görüşmək, onun son fikrini öyrəndikdən sonra bir çarə və tədbir görmək fikri ilə ağacın altında oturub, onun yolunu gözlədi. Bu zaman Pakizə onu görmədən keçib getdi. Onun qızının dalınca getdiyini düşünən Polad: "Görəsən görüşə biləcəyikmi?" – deyə fikrə getdi. Hər halda ümidi tamamilə qırılmamışdı. O, pusquda duran ovçu kimi, dərin bir həyəcan içində Almasın yolunu gözləyirdi. Onunla görüşdüyü zaman bilməyib qəlbini qırdığı, ağlamasına səbəb olduğu üçün Almasdan üzr istəyəcək, sonra zehnində hazırladığı bir çox mühüm fikirləri ona söyləyəcəkdi. Bu zaman alıcı gözləri uzaqdan Almasın neçə qadınla birlikdə gəldiyini görüncə bütün ümidi qırıldı. Görünməmək üçün ağacın dal tərəfinə keçdi.

Onlar yaxınlaşırdılar. Polad gözlərini Almasdan götürmürdü. Qız da gözlərini ağacdan ayırmırdı. Bibisi Rəxşəndə deyirdi:

– Pakizə, mən saçlarımı qardaşımın ayağı altında süpürgə edib, Almasın göz yaşlarına razı olmayacağam.

Pakizə onun sözünü kəsərək:

– Boş yerə özünü hörmətdən salma, sən ki, qardaşını tanıyırsan. O, Alması dünya dağıla kasıb adama verməz! – deyə cavab verdi.

Bu sözlər Poladın qəlbinə neştər kimi saplanıb qaldı. Bu zaman Almasın ağlamaqdan qızarmış gözləri ağac altındakı Polada sataşınca addımlarını yavaşıtdı. Qızın hər bir hərəkətini gözdən qaçırmayan Pakizə şübhə ilə ətrafı nəzərdən keçirirkən, Poladı ağac altında gördü, tez qızın biləyindən tutub yaxınlaşmaqda olduqları qapıdan içəri saldı.

Polad bir müddət heç bir şey düşünməyərək, dalğın gözlərini qapıya dikib qaldı. Dərin düşüncələr içərisində zehnindən bir çox şeylər keçirtdi, lakin heç birinə qəti cavab tapa bilmədi. Birdən-birə gözləri bir saat əvvəl Almasla görüşdükləri zaman qumun üstündə barmağı ilə çəkdiyi mənasız şəkillərin pozuq və qismən silinmiş, qarışıq cizgilərinə ilişdi. O gözəl dəqiqələrdən son xatirə olaraq qalmış qarışıq cizgilərin ona bağışladığı təsiri qəlbinin içində gizləyərək: "Ah, yoxsulluq" – deyə pıçıldadı.

II

Hava sakit və isti idi. Günəşin hərarətindən ağaclar qol-budaqlarını sallamışdı. Yarpaqlar qımıldanmırdı. Almasla Dilguşa artırmada oturub dərdləşirdilər. Almas deyirdi:

– Məni Poladdan ancaq əcəl ayıra bilər.

Dilguşa onun sözünü kəsərək:

– Ancaq o indi səni heç saya da almır, – deyə gileyləndi. – Səni istəsəydi, min bir çarə tapardı. Hələ o gün sənin görüşərkən dediyi sözləri yadına salırsanmı? Sən boş yerə özünü üzmə!

Almas Poladı müdafiə edərək:

– O gün onun nişan məclisindən xəbəri yoxmuş, – dedi. Necə xəbəri yoxmuş, qulağınızın dibində qapı-qapıya yaşayan adam bundan xəbərsiz ola bilər? On gündür elçilər gəlir, gedir, nişan məclisi qurulur, necə olur ki, bunların heç birindən xəbər tutmur?

Almas cavab verməyib, başını aşağı saldı.

İçəridə cehiz hazırlığı gedirdi. Pakizə ayırmış olduğu yoxsul cehizi gözdən keçirərək:

– Heç olmasa şeylərini yığmaq üçün bir kamod alaydın, – dedi.

Əlisəfa acı-acı gülümsəyərək:

– Axmaqsan, axmaq! Onu elə adama verirəm ki, evində hər şeyi var, – dedi.

Bu zaman Dilguşa birdən-birə qopan burağandan qorxaraq çığırdı.

– Almas, Almas, ora bax!

Almas dalğın gözlərini Dilguşanın əli ilə göstərdiyi bostan tərəfə çevirdi. Dilguşa həyəcanla dedi:

– Bax, bax, burağandır, çəpəri qoparıb göyə necə sovurur, hələ havada uçan tikanlara bax!

Almas gözlərini getdikcə havalanıb uzaqlaşan tikanlara dikərək, onların hara düşəcəklərini böyük bir maraq içində gözləyirdi.

Birdən-birə qopan şiddətli külək bostanın ortasında qumları tünd bir tüstü kimi burum-burum havaya sovurub, ətrafı sıx sarımtraq dumana bürüdü.

Almasla Dilguşanın bərk qorxduqlarını görən Əlisəfa ilə Pakizə də artırmaya çıxdılar. Əlisəfanın gözləri küləyin axıntısına doğru yüksəklərdə uçmaqda olan tikanlara ilişincə:

– Pah, bunlar nədir belə? – deyə çığırdı.

Dilguşa:

– Burağanın bostandan qopardığı çəpər tikanlarıdır, – deyə cavab verdi.

İndi hamı toz-duman içində burum-burum ucalıb uçuşan qara kölgələrə baxırdı.

Tikanlar sürətlə fəzanın dərinliklərinə, boşluqlara doğru yüksələrək gözdən itirdi.

Dilguşa əlini Almasın əlinə vuraraq:

– Almas, sən də bu axşam belə uçub gedəcəksən! – dedi.

Almas kədərli bir səslə:

– Heçliklərə, boşluqlara! – deyə pıçıldadı.

* * *

Fəlakət, fəlakət üstündən gəlirdi. Polad mədəndən çıxdığı gündən bəri onu güldürəcək, sevindirəcək heç bir hadisəyə təsadüf etməmişdi. Yaxın-uzaq mədən məntəqələrini axtarmış, tanıdığı bir çox adamlarla görüşmüş olduğu halda işsiz qalmışdı. Bu yaşda ikən atasına yük olması, mədən işlərində əldə etdiyi ixtisas və məharətin ona heç bir şey verməməsi onu düşündürürdü. Kiçikliyindən qolları arasında sevə-sevə oynatdığı, qəlbi qədər sevdiyi Almasdan həmişəlik ayrılacağını düşündükdə isə həyat gözünə nuru sönmüş günəş kimi görünürdü.

Hələ Almasla görüşərkən danışdığı mənasız sözləri xatırladıqca sanki ixtisas və məharətin də heç bir şey verməməsi onu əzən, varlığını sarsıdan bu hal uzun sürə bilməzdi. Hər halda iki şeydən birinə qərar verməli idi. Ya Almasa qovuşmalı, ya da ondan əl çəkməli idi! Daxilində bir-birinə zidd olan iki qüvvə şiddətli surətdə çarpışmağa başladı. Birinci qüvvə ona: "Sən Alması götürüb qaçmalı, sevgilinə qovuşmalısan!" deyirdi. Bu hökmü verən səs Poladda böyük bir cinayətdə ittiham edilərək məhkəmə qarşısında edam qorxusu ilə titrədiyi zaman bəraət qazanmış adamlarda doğan bir hal oyatdı. Qəlbində şəfəqli bir günəş doğmuş kimi bütün kədəri uçub getdi. Eşqinin nurlu şəfəqləri gülümsəyən gözlərində, açıq, saf simasında şən kəpənəklər kimi uçuşmağa başladı. O indiyə qədər bütün ömründə bu bir anın ona vermiş olduğu xoşbəxtliyi heç zaman belə dərindən dadmamış və duymamışdı. İllərdən bəri sevə-sevə ümid bəslədiyi Almasına qovuşacaq, bütün ömrünü onunla birlikdə şən və bəxtiyar keçirəcəkdi. Polad bu fikri son və qəti bir qərar kimi qarşılamışdı, ancaq iradəsi fəaliyyətə başladığı zaman başqa bir qüvvə ona: "Dur!" əmrini verdi, görüləcək işin son nəticələrini təsvir edən bir çox müdhiş və qanlı lövhələri olduğu kimi canlandırmağa və onun törədə bildiyi fəlakətləri əsaslı dəlillərlə isbat etməyə başladı. Polad əvvəlcə bu acı lövhələri soyuqqanlı qarşılayıb, hər şeyi öz eşqinə fəda etmək istədi, lakin get-gedə o acı lövhələri bir-bir zehnindən keçirtdi. Bunlar onun bütün varlığını, bütün arzu və istəklərini alt-üst etdi. O indi məsələyə bir aşiq hissi ilə deyil, həyatın acı təcrübələrini dərindən tədqiq və təhlil etmiş bir münəqqid kimi yanaşaraq, hər şeyi incədən-incəyə düşündü. "İndi ki, bu qədər maneələr var, mən eşqimi qəlbimin ən dərin guşələrinə dəfn edib, onun parlaq xatirələri ilə yaşaya bilmərəmmi?" – deyə öz-özünə söyləndi. Özünə verdiyi bu acı sual kimi bu suala verdiyi cavab da onu məmnun etdi.

Başını aşağı salıb, acı düşüncələrin ağırlığı altında qısılaraq, məyus bir halda daşın üstünə oturduqda çiyninə qüvvətli bir əl toxundu və qulaqları dibində:

– Qalx! – əmrini verən kəskin və qəti bir səs gurladı. Başını qaldırıb baxdıqda atası Arazı gördü. O eyni səslə:

– Qalx, miskin qarılar kimi başını çiyninə sallayıb düşünmə! – dedi.

Polad dimdik qalxdı. Araz əlini onun çiyninə vuraraq:

– Arutyunovun mədənində mexanik yeri var, tez get, xəbər tut! – dedi.

Polad ayrılıb getdi.

Araz onun dalınca:

– Axşam evə tez gəl, Almasın toyudur, səni də çağırıblar, – deyə qışqırdı.

Polad cavab vermədən yoluna davam etdi. Arutyunovun mədənində ona: "Gecikmisən, başqa adam götürdülər" cavabı verdilər.

Polad oradan Qanbayın yanına getdi. O özünü şən göstərməyə çalışır, deyib-gülürdü. Lakin daxilindəki həyəcan üz-gözündən sezilirdi. Polad bir qədər susub düşüncəyə daldıqdan sonra başını qaldırıb:

– Qanbay, biz yoxsulların ən böyük düşməni kimdir? – deyə sual verdi. Qanbay bu qəfil suala nə cavab verəcəyini bilmədi. Sadəcə gülümsəyərək:

– Necə? – deyə soruşdu.

– Deyirəm ki, biz yoxsulların düşməni kimdir?

Qanbay susub cavab vermədi. Polad özündən çıxaraq qəzəblə:

– Sən deyə bilmirsənsə, mən deyərəm, qulaq as! – dedi. – Məni və mənim kimiləri işdən kim qovur? Sahibkarlar, varlılar. Almasımı əlimdən kim aldı? Varlılar. Bu varlılar bizi insan yerinə qoymurlar!

Qanbay onun sözlərini təsdiq etdi, sonra sazı götürüb:

– Bütün dünya bizə düşmən olub neyləyəcək? Tək bu saz bizə dost olsun, çal görək, çal! – deyə sazı ona uzatdı.

Polad sazı alıb çalmağa başladı. Dərd-qüssələri dağıldı. Nəhayət, Polad sazı divardakı mıxdan asıb:

– Qanbay, bu gecə sən mənə yoldaşlıq edə bilməyəcəksən, – dedi, – mən Əhmədliyə gedirəm!

– Nə üçün?

– Həm gəzməyə, həm də balıq ovuna...

– Polad bu nə sözdür? Gecə vaxtı balıq tutmaq olar?

– Fənər yandıracağam, balıq işığa gələr.

– Səni tək buraxmaram, mən də gedirəm, – deyə Qanbay yerindən qalxdı.

Axşam Araz Poladı çox gözlədisə də o, gəlib çıxmadığından toya tək getdi. Günəş o gecə çox dalğın idi. O, toya getməyib artırmada oturaraq oğlunun yolunu gözləyirdi. Onun ana qəlbinə min bir qara fikir gəlirdi.

Araz gecə toydan döndüyü zaman Günəşi evdə yalqız görüb:

– Sən nə üçün tez qayıtmısan? – deyə soruşdu.

Günəş toya getmədiyini bildirmək istəməyib ömründə ilk dəfə olaraq yalan danışmağa məcbur oldu:

– Hamı dağıldı, mən də gəldim, – deyə cavab verdi.

Araz Günəşin qəlbindəki sıxıntını üzündən, gözündən, səsindən anladı:

– Nə var? Yenə üz-gözündə buludlar oynaşır? – deyə soruşdu. –Tez ol yerimi sal!

Günəş:

– Bilmirəm, – dedi, – sən də məndən nə istəyirsən?

Əl-qol açıb oynamayacağam ki!

Araz cavab vermədən yatağına girib yatdı. Günəş də yatağına girdi, amma gözlərinə yuxu girmədi. Poladın Qanbaygildə olduğunu birinci dəfə gizlin gedib görmüşdü; ona görə də bir az rahat idi. Arazı yuxuya verdikdən sonra bir də Poladı yoluxmağa getdi. Qapı, pəncərələr bağlı idi. Onların hara, nə üçün getdiyini düşünməyə başladı. Başından min bir xəyal keçdi. Dalğın bir halda oradan evə döndü. Araz duymasın deyə yavaşca yatağına uzandı. Araz başını yastıqdan qaldırıb:

– O indi balıq ovuna gedib, sabaha yeməyimiz var! – dedi. Birdən-birə qulağının ucunda gurlayan bu səsdən Günəş dimdik oturdu. "Yoxsa kişi yuxuda sayıqlayır" – deyə, başını ona doğru uzadırkən Araz sözünü bir də təkrar etdi, əlavə olaraq dedi ki: – "Ertəsi günü nə edəcək? – deməyə qorxuram, qorxuram ki, deyəsən ki, kişimə pey-ğəmbərlik verilib".

– Yox, demərəm, de!

– Ertəsi gün dovşan ovuna gedəcək. Baxtımıza rast olsa o gün də dovşan kababı yeyəcəyik.

– Nədən bilirsən?

– Özümdən, atasının oğlu deyil? Səni almağa qərar verdiyim gün-lərdə dəli kimi olmuşdum. Fikri başımdan dağıtmaq üçün birinci gün balıq ovuna, ikinci gün də dovşan ovuna getdim. Üçüncü gündən elçi göndərməyə qərar verdim.

– Bəs nə üçün elə birinci gün elçi göndərmədin?

– Qorxdum.

– Nədən?

– Rədd cavabı almaqdan.

– Yaxşı, rədd cavabı alsaydın, neylərdin?

– Heç bir şey... Yoxsa elə bilirsən özümü öldürərdim? Dəli olmamışdım, ağlım başımda idi. Mən bütün bunları düşündükdən sonra elçi göndərdim.

Bu sözlər Günəşin zehnini başqa fikirlərə doğru çəkdi; o bütün bu sözləri öz qanacağı ilə dərindən təhlil edir, ruhundakı sıxıntı və kədər get-gedə silinməyə başlayırdı.

Araz o biri böyrü üzərinə dönərək:

– Üçüncü gündən ağlını başına yığıb işə gedəcək, sən rahatsız olma, yat! – dedi.

Bir az sonra Araz yenə xoruldayırdı. Günəş isə çox çalışdı, gözlərinə yuxu girmədi. Gecə yarıdan keçmişdi. Yavaşca yatağından qalxdı. Gecənin qaranlığını yara-yara Qanbayın otağına gəldi. İçəridə işıq yanırdı. Onların nə etdiyini bilmək üçün yavaşca pəncərəyə dırmandı. Artırmada balıq kababı bişirirlərdi, Polad da sazın tellərini dilləndirib yavaş-yavaş çalır, "Mənim könlüm açılmaz, qış, yaz ağlar" mahnısını pəsdən oxuyurdu.

Günəş gözləri yaşlı halda evə döndü. O həm şən, həm də kədərli idi. İçəri girdiyi zaman çırağın işığını bir az artırdı. Əyilib yoxsul yatağında nəhəng gövdəsi ilə yatan Arazın üzünə baxdı. Araz onun nəzərində bu dəfə bambaşqa, fövqəladə bir insan kimi göründü. Ona qarşı olan səmimi yoldaşlıq hissi o qədər coşdu ki, gənc bir qız eşqi ilə sarılaraq onun üzündən-gözündən öpmək istədi. Ancaq cəsarəti qırılaraq məhcub və tutqun bir halda yatağına çəkildi. O indi Arazla qonşusu Əlisəfanı, Aslan bəyi, özü ilə Pakizəni qarşılaşdırır, "Bu yatan yoxsul aslanın atılan dırnağını min elə şorgöz, acgöz varlı aslanbəylərə, tülkü əlisəfalara dəyişmərəm" – deyirdi.

İndi onun ruhundan sıxıntı, kədər dumanları uçmuş, yerində saf şənlik şəfəqləri oynaşırdı. Bir az sonra bu dadlı mühakimə və düşüncələr içində gözlərini yumdu.

Səhər Polad əlində beş balıqla gəldi. Onları anasına uzadaraq:

– Al, bişir yeyək! – dedi.

Sonra içindən ən yağlısını ayırıb:

– Bunu atam üçün ayrıca bişirərsən – dedi.

Ertəsi gün Polad evə dönərkən əlində bir dovşan gəldi. Günəş dovşanı Poladın əlində görüncə Arazın sözlərini xatırlayaraq yerində donub qaldı. Polad ona yaxınlaşıb:

– Al, bu da sabahımızın xörəyi. Sabahdan işə gedəcəyəm – dedi.

– Harada?

– Balaxanıda!

Günəş Poladın üzündə, gözlərində oynaşan saf şəfəqləri razı baxışlarla süzdükdən sonra ürəyində: “Sənin o böyük ürəyinə anan qurban, kişi oğlu kişisən!” – dedi.

III

Əlisəfanın evində toy hazırlığı gedirdi. Bir tərəfdən Almasın gizli göz yaşları, bir tərəfdən də qudasının saymamazlığı Pakizəni çox düşündürürdü. O, baldızı Rəxşəndəyə şikayətlənib deyirdi:

– Ay qız, adam qız verəndə öz tayına verər. Bu necə qudalıqdır? Bəy arvadı qızı hələ aparmamışdan bizi saymır. Qız getdikdən sonra bizi heç qapısından içəri də qoymaz. Elçiliyə gəlmədi, nişana gəlmədi, bilirəm bu gecə qızı aparmağa da gəlməyəcək. Bizi adam yerinə qoymur. Qızım yaxşıdır, biz yaman? Kim bilir kasıb qızı olduğu üçün bəlkə Alması da heç saymayacaq. Bu zülmlə ki, qızı verirəm, heç bilmirəm bunun axırı nə olacaq? Bu qızın günü qara olsa, acgöz qardaşının başında tərs dəyirman işlədəcəyəm. Bax, deyirəm sənə, vallah ona gün verməyəcəyəm. Yediyini, içdiyini burnundan tökəcəyəm!

Rəxşəndə ona ürək-dirək verirdi:

– Humay deyir ki, naxoşdur, ona görə gələ bilməyib.

– Ay qız, bunlar hamısı kələkdir. Mən başıma gələni bilirəm, qardaşın Almasa bir dağ çəkdi ki, ölüncə yadından çıxmayacaq.

– Nə dağ çəkdi? Ay qız, niyə belə danışırsan? O da istəyir ki, övladı xoşbəxt olsun.

– Xoşbəxt etdiyi görünür, özümü saymayan, qızımı heç saymayacaq. Kim bilir o əyriburun Qəmər yazıq qızın başına nə oyun açacaq? Qudurğanın biridir, heç kəsi bəyənmir.

– Sən indidən ağzını pisliyə açma. Qonaqlar gələn vaxtdır, qalx işinin dalınca ol!

Əlisəfa o gecə toya ən yaxın qohum-qardaşını, bir də qonşusu Arazın ailəsini çağırmışdı. Qonaqlar bir-bir yığıldı. Qarmon çalan Gülpəri məclisi qızışdırır, qadınlar, qızlar oynayır, hamı şən görünürdü. Yalnız Almas dəhlizdə yaralı quş kimi bir bucağa qısılıb çırpınırdı. Onu nə

qədər xına yaxmağa, duvağa çağırdılar getmədi. Anası gəldi, bibisi gəldi, yengə gəldi, yenə getmədi. Axırda anası onun qolundan tutub:

– Bizi xalq içində biabır etmək istəyirsən? Qalx deyirəm sənə! – deyə özü ilə götürüb, yengənin əlinə tapşırdı. Onun göz yaşlarına baxmayaraq, gəlin paltarını geyindirib, xınaya oturtdular. Yengə bir kasa xına islatdı. Gəlinin hər ovcuna bir qədər xına qoyub ovcunu yumdu. Gəlinə və qonaqlara:

– Allah mübarək eləsin, boya, başa çatsınlar, qoşa qarısınlar, oğul-qızınızdan görəsiniz! – deyə xeyir-dua verdi.

Oğlan adamları gələnə yaxın Almasın başına qırmızı tül salıb, duvağa oturtdular. Bir saat sonra başda Humay olmaqla oğlan adamları gəldi. Varisin anası Qəmər yenə gəlməmişdi. Pakizə acığından dil-dodağını çeynəyirdi. O özünü mətbəxə salıb, iki əli ilə dizlərinə vura-vura:

– Vay, öz əlimlə balamı bədbəxt elədim. Baisin evi yıxılsın, – deyə ağlayırdı.

Rəxşəndə onu zor-güc sakit edib, mətbəxdən çıxartdı. Pakizə göz yaşlarını silə-silə:

– Qızı özün aparacaqsan. Bu işin hamısını o qudurğan əyriburun Qəmərin bir-bir ovcuna qoyarsan. Günəş demişkən, donuzun da yağı çoxdur, nəyə gərək. Bəy olanda nə olar. De görüm, atası atamdan artıqdır, anası anamdan?

Qonaqlara şərbət paylandıqdan sonra oğlan adamları qalxdı. Almas meyit kimi idi. Əlisəfa qızına xeyir-dua verdikdən sonra Almasın iki qoluna girib, sürüyə-sürüyə apararaq, faytona oturtdular. Oğlan adamlarından biri gəlinin sağına, biri soluna keçdi. Yengə də əlində yanan bir şamla qızın qabaq tərəfində oturdu. Rəxşəndə oğlan adamları ilə o biri faytona mindi. Faytonlar hərəkət etdi.

Qızı çoxdan Aslan bəyin evinə gətirmişdilər. Varis gəlib çıxmamışdı. Onu çox gözlədilər. Yengə iki-üç dəfə dilə gəldikdən sonra Aslan bəylə kiçik qardaşı Rüstəm bəy iki-üç dəfə hara isə telefonla zəng etdilər. Varisin başı klubda qumara qızışmışdı. Onu bu gecə tanımadığı adamlar oyuna çəkmişdi. Oyunun üçüncü əlində qumarbazlardan Zeynal adlı bir nəfər Varisi yaman təhqir etdi. Varisi zor-güc sakit etdilər. Oyun davam etdikcə aralarında bir-birinə qarşı kin və intiqam hissi şiddətlənməyə başladı. Varis Zeynalın onunla dava edən və get-gedə şiddətlənən bu kininin səbəbini çox düşündü. Lakin bir

şey başa düşmədi. Növbəti oyunların birində Zeynal banka bir beşyüzlük atıb, kartı qarışdıra-qarışdıra:

– Eşşəyin arpası çox düşəndə şıllaq atan kimi, bəzən uşaq-muşağın da pulu çox olanda, o qədər qudurur ki, heç kəsi saymır, kişisinin yanında arvadına sataşır, hamını özü kimi sarıqulaq bilir! – deyə ona söz atdı.

Bu sözlərin ona aid olduğunu yəqin edən Varis düşünüb, məsələni dərhal xatırladı. Zeynalın üç gün əvvəl kazinoda bir qızla ona yaxın stolda oturan adam olduğunu bildi. Qıza bir neçə dəfə göz-qaş etdiyi və söz atırkən Zeynalla söz-sözə gəldiyi, stol başından qalxarkən Zeynalın: "Yaxşı, sənin görüşərəm!" – deyə onu təhdid etməsi birbir yadına düşdü. O indi tikan üstündə oturmuş kimi idi. Bir-iki dəfə oyundan qalxmaq istədisə də Zeynal etiraz edib:

– Oyunu başa vurmalısan! – deyə onu yerində oturtdu. Onu gecə saat üçdə buraxdılar. Varis qapıdan çıxıb, pilləkənləri düşürkən Zeynal:

– Ey, getmə, dur görüm nə deyirsən? – deyə onu çağırdı.

Varis saymayıb, pilləkənləri enməkdə davam etdi.

Zeynal yenə qışqırdı:

– Ey, sənə demirəm, dur! Yoxsa vuraram!

Zeynalın onunla hesablaşmaq istədiyini bildiyi üçün Varis dayanmadı, daha da sürətlə getməyə başladı. Yalnız lap aşağı çatdıqda Zamanın qapı ağzında olduğunu zənn edərək ürəkləndi. Geriyə dönüb:

– Ədə, sən məndən nə istəyirsən? Sən kim, mən kim?

Get, anqır, tayını tap! – deyə yuxarıya qışqırdı.

Varis Zeynalı yaxından tanımır, Qoçu Teymurun ən yaxın dostu olduğunu bilmirdi. Zeynal ona yanaşıb:

– Sənin kimi qoduqlar anqıranda damğalamaq lazımdır, – deyib, ona bərk bir şillə ilişdirdi. Varis onu söyə-söyə :

– Zaman, Zaman! – deyə qışqırmağa başladı. Zaman adını eşitcək Zeynalın canına qorxu düşdü, tez mauzerini çıxarıb, hazır durdu. Varis onun mauzerini çıxardığını görməyib, qapıdan çıxarkən:

– Eşşək oğlu eşşək, dayan, sənin başına gör nə gətirəcəm, – deyə söydü. Zeynalın gözləri kəlləsinə çıxdı, bütün bədəni titrədi, biixtiyar Varisi nişan aldı. Güllənin atılması ilə Varisin yerə yıxılması bir oldu.

Klub ağzında duran qapıçı qorxub divar dibinə çəkildi. Zeynal bir anda aradan çıxaraq, özünü yuxarıya gedən dar bir küçəyə vurdu. Bu zaman əvvəlcə qapıçı, sonra Zaman yetişdi. Varis yerdə uzanıb yavaş-yavaş:

– Məni evimizə aparın! – deyə ufuldayırdı. Zaman kim tərəfindən vurulduğunu soruşduqda, Varis yavaşca:

– Zeynal adlı biri vurdu, – deyə cavab verdi. Zaman çox çalışdısa da Varisdən ətraflı bir məlumat ala bilmədi, çünki danışmağa artıq halı qalmamışdı. Onu faytona qoyub apardıqları zaman Varis yolda öldü.

Faytonun yaxınlaşdığını görənlər bəyi qarşılamaq üçün sevinclə tələsik bayıra çıxdılar. Birinci olaraq anası Qəmər faytona yaxınlaşdı. Bir az sonra onun:

– Vay, yazıq balam, vay! – bağırtısından hamı özünü itirdi. İçəridə qalanlar da özlərini bayıra atdılar. Varisin meyitini faytondan düşürüb gətirənlər:

– Meyiti hara qoyacağıq? – deyirkən, Qəmər hıçqıra-hıçqıra:

– Aparın öz bəy otağına! – deyə qışqırdı. Meyiti birbaş bəy otağına gətirdilər. Saçlarını yola-yola oğlunu oxşayıb ağlayan Qəmər Alması görüncə:

– Bu gəlinin ayağı qurusun, mənim ocağımı söndürdü. Onu mənim evimdən tez çıxarın, gözüm görməsin! – deyə dəli kimi bağırdı.

Rəxşəndə səhər tezdən Alması götürüb, kəndə qayıtdı.

Son zamanlar düşmənlərdən qorumaq üçün Varisi gözdən qoymayan Zaman Zeynalı yaxşı tanıyırdı. Onun Teymur bəyin yaxın dostu olduğunu bildiyindən qorxaraq səs çıxarmayıb, Varisin Zeynal tərəfindən öldürüldüyünü gizlətdi. O, Aslan bəyə deyirdi:

– Nə qədər çalışıramsa, Varisin qatilini tapa bilmirəm. Bu mənə böyük dərd olubdur. Onu kim öldürə bilər?

Aslan bəy qaşlarını çataraq:

– Mən öz düşmənimi tanıyıram, – dedi. – Nişanlısını oğluma aldığım üçün Varisi Arazın oğlu Polad öldürmüşdür.

Zaman Aslan bəyin sözlərini təsdiq etdi:

– Elədir ki, var. Poladdan başqa onu kim öldürə bilər?!

Arazdan intiqam almaq üçün bu hadisə Aslan bəyin əlində ən münasib bir vasitə oldu. O, Poladı bir qatil kimi məsuliyyətə cəlb etməklə həm oğlunun qanını alacaq, həm də ona dağ çəkən Arazdan əvəz çıxacaqdı. O: "Yox, mən bu dərdə tab gətirmərəm" – deyə Poladı aradan qaldırmaq üçün tədbirlər görməyə başladı və sabahısı gün Varisin Polad tərəfindən öldürülməsi haqqında məhkəməyə ərizə verdi. Almas atasına evinə qayıtdıqdan sonra günü tamam qara olmuşdu. Onun üzü gülmür, ürəyi açılmır, utandığından heç bir yerə gedib-gəlmirdi. Polad

isə bir tərəfdən sevinir, öz sevgisinə, pak və təmiz Almasına qovuşmaq ümidi ilə yaşayır, o biri tərəfdən qarşıda Aslan bəy kimi böyük bir maneə olduğunu düşünürdü.

Hava qaralmaq üzrə idi. Günəş həyətdə eşələnən toyuqları "kişkiş" edərək hinlərinə salmağa çalışırdı. Bu zaman Polad yorğun-ərğın həyət qapısını açıb içəri girdi. Sağlam və qüvvətli olmasına baxmayaraq, 12 saatdan artıq davam edən ağır və məşəqqətli iş onu bərk yormuşdu. Bir müddət anasının toyuqları qovalamasına tamaşa etmək üçün qapı ağzında dayandı. Günəş toyuqları hinə salıb geri dönərkən qapı ağzında dayanan Poladı gördü. Nə isə demək istəyirdi ki, Poladın gur səsi ona sözlərini bildirməyə imkan vermədi.

– Anacan, biz fəhlələr də sənin elə bu toyuqların kimi bir şeyik, – dedi. – Səhər tezdən işə, qaş qaralanda təzədən hinə.

Yarı ciddi, yarı zarafatla, lakin ürək yanğısı ilə deyilmiş bu sözlər Günəşin ana qəlbini yarpaq kimi əsdirdi. Bir anda oğlunun təmiz, saf mənəviyyatı, mərdliyi, işə, əməyə olan məhəbbəti, qayğıkeşliyi, talesiz sevgisi gözünün önündən keçdi, hindən çox da seçilməyən daxmaya girməkdə olan oğluna yazıq-yazıq baxaraq:

– Neyləyək, bala çarəmiz nədir! – dedi. – Sizi bu günə qoyanları görüm yerin təkinə batsınlar.

Günəş tələsik Poladın yemək süfrəsini hazırladı. Bişirdiyi xörəkdən bir boşqab töküb, səliqə ilə süfrəyə qoydu. Polad əl-üzünü, boynunu yuduqdan sonra süfrə başına oturdu. Əlini yenicə yeməyə uzatmışdı ki, həyət qapısı şiddətlə döyülməyə başladı. Yad adamın vurmağına bənzədiyi üçün qapıya Polad özü getdi. Poladı üç polis nəfəri qarşıladı. Onlardan biri:

– Polad Araz oğlu burada olurmu? – deyə soruşdu.

Polad:

– Burda olur, mənəm, – deyə cavab verdi.

– Elə isə tez ol, sən bizimlə getməlisən!

Özünü yetirmiş Günəş Polada macal vermədən məğrurcasına və nifrət dolu bir səslə:

– O heç bir yerə getməyəcək, – deyə çığırdı, – günahı nədir?

– Mane olma, qoy geyinib, tez gəlsin, günahını isə sonra bilərsən, – deyə yenə həmin polis cavab verdi.

Günəş bu oxun haradan atıldığını çox gözəl bilirdi, oğlunun heç nədən şərə salınması onu yandırırdı. O indi bütün qüvvəti ilə qışqıraraq:

– Onu nə deyib aparırsınız, mən oğlumu sizə vermərəm, onun taqsırı nədir?! – deyə əllərini dizlərinə çırpır, ilan kimi qıvrılırdı. Lakin nə Günəşin çığır-bağırı, nə də hasarın o tərəfindəki bir deşikdən bu hadisəni seyr edən Almasın hıçqırıqları Poladı xilas edə bilmədi. Polad geyinib, polislərlə birlikdə getdi, Almasın o biri həyətdən eşidilən hıçqırıqları öz balasının talesiz həyatı uçun Günəşin ucalan fəryadlarına qarışdı. Günəşə ancaq Poladın gedərkən söylədiyi sözlər təsəlli verirdi.

– Ağlama, ana, səbr elə, gec-tez haqq öz yerini tapar. Aslan bəylərin pul gücünə düzəltdikləri cinayətlər isə əvəzsiz qalmaz. Bizim bu insan qatillərindən intiqam alacağımız gün uzaq deyil!

DOQQUZUNCU FƏSİL

I

Təbiət, yorğan kimi üstünə çəkmiş olduğu qaranlıq, tutqun buludlar altında həzin-həzin mürgüləyir, hər tərəf, hər şey səssiz, dilsiz bir sükut içində dincəlirdi. Uzaqda yanan mayakın projektor kimi dənizə doğru uzanan sarımtraq titrək işığı dalğaların geniş qolları arasında əriyib gedirdi. Yalnız Xəzər dənizinin yorğun qafilə kimi tənbəl addımlarla irəliləyib, qayalara sakitcə çarparaq, geri dönən dalğacıqları, qaya üstündə oturub, gözlərini dənizin uzaq ənginliklərinə dikən üç nəfərin danışığı bu mürgüləyən sükutu parçalayırdı. Onlardan bir qədər aralı yarıya qədər qumlu sahilə çəkilmiş kiçik bir qayıq, bir az uzaqda isə iki atlı araba dururdu. Yan-yana oturmuş kölgələrdən biri deyirdi:

– Nə üçün bu vaxta qədər gəlib çıxmadı? Gəminin qaranlıqda başqa sahilə çıxmasından qorxuram.

– Qorxma, mən o losmanı tanıyıram. O, dənizin köhnə qurdudur. Hər yerini qarış-qarış tanıyır.

– Hər necə olsa gəlib çıxacaq. Məni ancaq başqa şey düşündürür.

– Nə?

– Onu arabada buradan aparmaq. Qarovulçular içində xəfiyyələr vardır. Onlar işi duysalar...

– Qorxma, mən ona çoxdan tədbir düşünmüşəm. Onu, xəstədir, deyə arabanın içinə uzadarıq, üstünə bir yorğan da salarıq, soruşan ol-

sa, Şüvəlandan gəlirik, azarlıdır, xəstəxanaya aparırıq, deyib bir tövr inandırarıq. Bir də ki, yolda öz qarovulçularımız da bizə çox kömək edəcəklər.

Onlardan biri ayağa qalxıb, uzaqda onlara doğru gələn bir gəmini əli ilə göstərərək, sevinə-sevinə dedi:

– Odur, özüdür, gəlir, gəlir!

O biri iki nəfər də qalxdı. Onlar uzaqda görünən və get-gedə yaxınlaşmaqda olan gəmidən gözlərini ayırmırdılar.

– Sağ olsun Qara losman. Elə bil gəmiyə qanad veribdir, gəmi dəniz üzərində quş kimi uçur.

– Sən qayığı hazırla!

– Mən hazıram, sən arabanı sazla – deyə o birisi qayığın ipini qayadan açdı, onu suya tərəf itələyib, cəld içinə atıldı, gülə-gülə:

– Mən getdim, yoldaşlar, hələlik sağ olun! – deyə kürəkləri işə saldı.

Sahildə qalan iki nəfər gözlərini yaxınlaşan gəmidən, uzaqlaşan qayıqdan ayırmayıb, ikisinin bir-birinə çatmasını səbirsizliklə gözləyirdilər. Onlardan biri:

– Sən bu pəhləvan Arazın bir qayıq sürməsinə bax, elə bil uçur, uçur!

– Yaxınlaşırlar, yaxınlaşırlar... Gəmi dayandı. Heyif ki, çox qaranlıqdır, aydın görünmürlər.

– Mən də aydın görürəm. Ancaq deyəsən hələ yan almamışdır.

– Necə yan almamışdır. Bəs onda nə üçün gəmi tərpənmir?

Hər ikisi əllərini qaşları üstünə qoyub, diqqət və maraqla baxırdı. Qayıq gəmidən ayrıldı.

– Gəlirlər, gəlirlər... sən arabanı sazla!

Bir az sonra qayıq sahilə yan aldı. Sahildəkilər:

– Xoş gəldin, Azad, – deyə qayıqdan sahilə sıçrayan adamla görüşdülər.

– Danış görək nə var, nə yox? İşləriniz nə haldadır?

– Yavaş, yavaş ayaq səsi gəlir.

Hamısının nəzəri səs gələn tərəfə dikildi. Bir az uzaqda bir kölgə sahil boyu ilə onlara doğru irəliləyirdi.

– Hər halda bu dost adama oxşamır.

– Ehtiyatlı olmaq lazımdır, bu yəqin mayak qarovulçusudur. Görünür, qayığın sahilə çıxdığını görmüşdür. ... Azad sən qayanın arxasına keç!

– Bəs siz?

Biz öz işimizi bilirik.

Bu zaman kölgə uzaqdan çığırdı:

– Ey, kimsiniz?

Araz tanış bir adam kimi uca bir səslə:

– Qorxma, balıqçıyıq.

Kölgə, əlində tüfəng yaxınlaşa-yaxınlaşa:

– O qayıq kimindir?

– A kişi tüfəngini bir aşağı sal, gəl görüm sən kimsən?

– Siz gözümüzə ala-bula görünürsünüz. Bu qayıq bizim mayağındır. Düzünü deyin görüm gəmidən qayığa aldığınız adam kimdir?

– Kim olacaq, bizim kimi bir adam.

– Aldada bilməzsiniz. Əllərinizi yuxarı qaldırın!

– A kişi, biz yol kəsən, quldur deyilik. Yaxın gəl, nədən qorxursan?

– Məni anam qorxaq doğmamışdır, igidin igiddən bir ehtiyatı artıqdır, deyərlər. Siz yaxşı yuvanın quşuna oxşamırsınız, deyin görüm, kimsiniz? Hardan gəlib, hara gedirsiniz?

– Biz yaxın bağlardanıq. Axşamdan buraya balıq ovuna gəlmişik. Gecəni də burada qalmaq istəyirik.

– Yalan deyirsən. Lap yalan deyirsən. Silahınızı atın yerə, əllərinizi qaldırın. Yoxsa vurdum.

Araz gur səslə:

– Silahımız yoxdur, əllərimizi qaldırırıq, gəl görüm bizdə nə tapacaqsan?

Arazın işarəsi ilə hamı əlini yuxarı qaldırdı. Kölgə şübhəli addımlarla yaxınlaşdı, onları qaranlıqda bir-bir gözdən keçirtdi:

– Kimin yarağı var, desin, yoxsa...

Araz iki əlini havaya qaldırıb, kölgəyə tərəf gedərək:

– A kişi, bu mən, bu sən, istəyirsən axtar, bizdə silah nə qayırır...

Kölgə bir addım çəkildi. Qaranlıqda Arazın dağ gövdəsinə diqqətlə baxdıqdan sonra:

– Yaxın gəlmə, vuraram, – dedi. Sonra başını geri döndərib ucadan:

Müslüm, Müslüm! – deyə bağırdı.

Araz fürsətdən istifadə edib, alıcı quş kimi onun üstünə atıldı. Tüfəngin lüləsindən tutub bütün qüvvəti ilə özünə tərəf dartdı. Kölgə üzüquylu yerə yıxılıb:

Müslüm, Müslüm! – deyə bağırmağa başladı.

Araz tüfəngi bir tərəfə tullayıb, iki əli ilə onun boğazından yapışaraq:

– Çığırma, səsini çıxartsan, əlimdə öləcəksən. İndi de görüm sən kimsən? – Deyə soruşdu. O birdən-birə bütün qüvvəsi ilə dartınıb, Arazın əlindən çıxdı, acıqlı səslə:

– Ədə, donuz oğlu, məni boğursan? Zöhrabı boğan hələ anasından olmamışdır, – deyərək arxa cibindən mauzerini çıxartdı. O, tapança ilə nişan almaq istərkən Arazın nişan aldığı tapançadan açılan güllənin zərbindən səndələyib iki-üç addım geri çəkilərək, ayaq üstə dura bilməyib yerə yıxıldı. Güllə onun lap ürəyinin başından dəymişdi. Araz üzünü yoldaşlarına çevirib:

– Bilirsinizmi bu hansı Zöhrabdır? – dedi. – Şüvəlanda bizim özək katibini öldürən və bolşevik yoldaşlarımızı hədələyən Zöhrab!

Onlar qayıqdakı içi kitabla dolu yeşikləri daşıyıb, səliqə ilə arabaya yığdılar. Sonra Araz yoldaşlarının köməyi ilə meyiti götürüb qayığa atdı. Qayığı dənizə doğru itələyib:

– Al, bu sən, bu da sənin qayığın! İndi hara istəyirsən get, – dedi.

Arabanı dəyişib Azadı xəstə kimi oraya uzatdılar. Arazın işarəsindən sonra araba hərəkət etdi.

Araba gecənin qaranlığında Bakı kəndlərinin dizə qədər çıxan qumlarını yara-yara irəliləyir, hərlənən çarxların ahəngdar səsi dərin sükut içində yatan təbiətə layla çalırdı.

Azad Həştərxan səfərindən xeyli danışdı. Azadın Həştərxan fəhlələri arasında, dərnəklərdə apardığı söhbətlərin, Bakı fəhlələrinin inqilabi mübarizəsindən danışdığı səhnələrin böyük ruh yüksəkliyi ilə qarşılanması Araza xüsusilə xoş təsir etdi. Sonra Azad orada Peterburqla əlaqə saxlayan inqilabçılarla görüşdüyünü, təbliğat işini gücləndirmək üçün inqilabi ədəbiyyat gətirdiyini söylədi. Araz da ona son hadisələrdən, təşkilatın işlərindən danışdı. Aralarında gedən söhbət, sual-cavab o qədər maraqlı idi ki, yolun uzaqlığını duymadan Binə kəndinə yetişmişdilər. Arabaçı atları dayandırıb:

– Araz, aşağı yoldan sürüm, yoxsa yuxarı yoldan? – deyə soruşdu. Arabadakılar:

– Yuxarı yoldan, yuxarı yoldan. Vanya bizi orada gözləyir, – deyə yerlərindən səsləndilər.

Araba yenidən hərəkət etdi. Bir qədər getdikdən sonra şərtləşmiş olduqları yerdə Vanya onları qarşıladı. Azadla görüşdükdən sonra o, Araza araba ilə getməsini tapşırdı. Azadı isə evlərinə qədər özü ötürəcəyini bildirdi. Arabadan düşürkən Azad tapşırdı ki, yeşikləri möhkəm yerdə gizlətsinlər.

Araz gülə-gülə:

– Xatircəm ol, o xüsusda tədbir görülmüş, ehtiyatlı yerlər hazırlanmışdır, – deyə cavab verdi. Xudahafizləşib ayrıldılar.

Araba mədənlərin içindən keçirdi. Arabir buruqların arasından iki-üç silahlı adam çıxıb onları qarşılayır, yolların qorxusuz olduğunu söyləyib, arabanı o biri qarovul məntəqəsinə qədər ötürürdü.

Bir az sonra araba birmərtəbəli kiçik bir evin qarşısında dayandı. Bu fəhlə İvanovun evi idi. İlk xoruz banı başlamış, hava yavaş-yavaş ağarırdı...

Azad Həştərxan səfərindən qayıtdıqdan sonra təşkilatın fəaliyyəti daha da canlandı. Təbliğatı genişləndirmək, təşkilat üzvlərini qabaqcıl fəhlələr hesabına artırmaq üçün bir sıra tədbirlər görüldü. Bu məqsədlə Azad uzaq, yaxın qəzalara gedir, kəndlərdə özəklər təşkil edirdi.

Gizli təşkilat işlərində fəal çalışmaq, nümayiş və tətillərdə iştirak etmək, inqilab rəhbərlərinin odlu nitqlərini eşitmək nəticəsində Araz mətin bir bolşevik olmuşdu. O indi partiya təşkilatının göstərişi ilə təhkim olunduğu fəhlə dərnəklərində çalışır, yeri gəldikdə natiqlərin çıxışlarında eşitdiklərindən şirin-şirin danışırdı.

Bu illər Bakı Komitəsi partiyanın möhkəm və etibarlı bir qalasına çevrilmişdi. Bolşeviklərin getdikcə artan nüfuzu, fəhlə təşkilatlarının möhkəmlənməsi və genişlənməsi Bakıda hökumət məmurlarını, yerli neft sahibkarlarını qorxu və həyəcan içində buraxmışdı. Odur ki, onlar irtica qüvvələrinə arxalanaraq, inqilabçılara divan tutur, nümayiş və tətilləri amansızcasına yatırır, fəhlə hərəkatının əzəməti qarşısında sarsılan çarizmi bir az da yaşatmaq üçün hər bir cinayətə əl atırdılar. Cəza tədbirləri, təqib və həbslər fəhlələrin qəzəbini daha da artırırdı. Bakı fəhlələrinin məhəbbətini qazanmış Xanlar Səfərəliyevin öldürülməsi xəbəri isə əsarət və zülm altında əzilən kütlələrin mütləqiyyətə nifrətini daha da artırdı. Bakının bütün rayonlarında bu qanlı cinayətə cavab olaraq, tətillər keçirilməyə başladı. Xanların dəfni isə qüdrətli xalq nümayişinə çevrildi.

Xanların öldürülməsi xəbərini eşidən kimi Azad təşkilat üzvlərinin təcili iclasını çağırdı. İclasda Xanların dəfnində iştirak etmək üçün Azad və Vanyanın rəhbərlik edəcəyi 30 nəfərdən ibarət bir nümayəndə heyəti ayrıldı. Hökumətin bu qanlı tədbirinə cavab olaraq Suraxanıda da geniş tətil keçirilməsi qərara alındı. Partiya təşkilatı bu tətilə Arazın başçılıq etməsini məsləhət gördü. Təşkilat tətilə hazırlıqlı gəlmək, əldə olan silahları inanılmış fəhlələr arasında paylamaq haqqında da göstəriş verdi.

Suraxanı mədənlərində çalışan fəhlələr səhər tezdən işi atıb bir gün əvvəl təyin edilmiş yerə yığışmışdılar. Bəzilərinin əlində silah parlayırdı. Hamıdan əvvəl gəlmiş Araz cəld oraya-buraya yüyürərək göstərişlər verir, tətilin mütəşəkkil keçməsi üçün tədbirlər görürdü. Əllərdə səhər nəsiminin asta-asta əsdirdiyi şüarlarda: "Xanların qatillərinə ölüm!", "Rədd olsun mütləqiyyət!" sözləri yazılmışdı.

Bir az sonra Arazın xüsusi işarəsi ilə dəniz kimi dalğalanan insan kütləsi hərəkətə gəldi. Tətilçilər "İnternasional" oxuya-oxuya yarı palçıq, yarı daşlı şose ilə irəliləyib, neft buruqları arasında yerləşən böyük bir meydançaya toplandılar. Bura sarı gillə örtülmüş, qara neft çuxurları ilə dolu bir sahə idi. Neft sahibkarlarının kontorları da əsasən bu arada idi.

Çox çəkmədi ki, Araz fəhlələrin özləri ilə gətirdiyi kürsünün üstündə göründü. Fəhlələr onu böyük sevinclə qarşılayırdılar. Arazın gur səsi eşidildikdə hər yerə dərin bir sükut çökdü. Araz Xanlar Səfərəliyevin vəhşicəsinə öldürülməsinə etiraz əlaməti olaraq Suraxanı fəhlələrinin keçirdikləri mitinqi açıq elan etdi. İlk söz fəhlə İvanova verildi. İvanovun kürsüdə görünməsini fəhlələr alqışla qarşıladılar. İvanov üzünə tökülmüş sarı saçlarını əli ilə yuxarı qaldıraraq, qəzəb və nifrətlə dolu bir səslə danışmağa başladı. O, fəhlələrin yaxın dostu Xanları öldürənlərə, bu cinayəti təşkil edənlərə nifrətlər yağdıraraq, nitqinin sonunda bütün fəhlələri birləşməyə, zülm və əsarət dünyasını yıxmağa çağırıb dedi:

– Yoldaşlar, biz Bakı proletarları, istismarçılarla mübarizədə həlak olan dostlarımızın xatirəsini həmişə əziz tutmalı, yadda saxlamalıyıq. Sevimli Xanların xatirəsi həmişə ürəyimizdə yaşayacaqdır. Xanların qatillərinə ölüm!

Natiqin son sözləri tətilçilər arasında bomba kimi partladı. Alqış səsləri göylərə ucaldı. İvanovdan sonra daha bir neçə fəhlə çıxış etdi. Mitinq adi qayda üzrə davam edirdi. Gördüyü tədbirlərin yaxşı bəhrələr verdiyi Arazı çox sevindirdi. İndi son söz deyib mitinqi bağlamaq, tətili davam etdirmək lazım idi. Son natiq nitqini bitirdikdən sonra Araz kürsüyə qalxaraq, danışmaq istəyirkən fəhlələrdən biri onun bozarmış şalvarından tutub darta-darta:

– Araz, Araz burda bir qadın səni axtarır, – deyə Arazı saxladı. Araz qan-tər içində ona doğru gələn qadını gördü. Dərhal kürsüdən düşdü. Qadın tələsik Araza yaxınlaşaraq:

– Bu tətilçilərə sizmi rəhbərlik edirsiniz? – deyə soruşdu.

Araz:

– Yox, bu tətili fəhlələrin özləri təşkil edib, – deyə cavab verdi.

– Elə isə tez dağılmağı məsləhət görürəm. Tətili dağıtmaq üçün silahlı dəstələr gəlir.

Xəbərdarlıq üçün gələn qadın Tanya idi. O, zor-güclə boynuna qoyulan casusluq vəzifəsinə dərin bir nifrət bəsləyirdi. Onun bütün fəlakətlərinə səbəb olan bir dövlətin xeyrinə çalışmaq, yüksək əməllər uğrunda mübarizə edən fəhlələrə qarşı mübarizə aparmaq, onlara tələ qurmaq Tanyaya mənəvi bir əzab verirdi. Odur ki, o bu vəzifəyə qəbul edilən gündən fəhlələrə yaxınlaşmağı, onlara kömək etməyi qərara almışdı. Lakin bunu həyata keçirmək çox çətin idi. Ona heç kim inanmazdı. Buna görə Tanya öz işi ilə inqilabçılara kömək etməyə çalışır, onlara sadiq və dost olduğunu sübut etmək üçün fürsət axtarırdı. Jandarm idarəsinin rəisi onu çağırıb Suraxanıda hazırlanan tətili boğmaq üçün göndərilən polis dəstələri ilə getməyi tapşıranda Tanya öz fədakarlığını ancaq indi yerinə yetirə biləcəyini düşünüb, özünü şəhərdən tez bura yetirmişdi.

O, tətili boğmaq üçün göndərilən polislərin sayını və döyüş planlarını Araza ətraflı danışdı. Onun dediyi sözlər o qədər səmimi və ürək çırpıntısı ilə söyləmişdi ki, ona inanmamaq mümkün deyildi. Araz bu sadə, lakin cəsarətli qadına təşəkkür edib, onun əlini bərk-bərk sıxaraq, yenidən kürsüyə qalxdı. Onun kürsüdə görünməsi ilə ətrafa dərin bir sükut çökdü. Çox çəkmədi ki, Arazın əzəmətlə gurlayan səsi eşidildi:

– Yoldaşlar! Çar quldurları tərəfindən əziz dostumuz Xanların öldürülməsi biz fəhlələri həddindən artıq kədərləndirməklə bərabər mütləqiyyətə qarşı qəzəbimizi bir qat da artırdı. Biz indi öz mübarizəmizi mərdliklə davam etdirməliyik. Heç bir hədə, təhlükə bizi qorxutmamalıdır. Çarizm Xanlar kimi oğulları aradan çıxarmaqla sıralarımızı zəiflətmək istəyir. Lakin o bu arzusuna çata bilməyəcəkdir!

Araz qəzəb və həyəcanını heç cürə söndürə bilmirdi. Tanyanın verdiyi xəbər isə onu qorxmaz bir Aslana döndərmişdi. Belə bir ruhda da o hərarətli nitqinə davam edirdi.

– Əziz dostlar! Elə bu saat aldığım məlumata görə yerli hökümət tətili yatırmaq üçün bura silahlı dəstələr göndərmişdir. Onlar tətilçilərə divan tutmağa çalışacaqlar. Biz hökumətin bu qanlı tədbirinə öz gücümüzlə, qüvvəmizlə cavab verməliyik.

Tətilçilər:

– Doğrudur! Doğrudur! – deyə qışqırdılar.

– Biz öz gücümüzü göstərməliyik. Biz, bu insan düşmənlərinə bildirməliyik ki, Xanlar kimi dostlarımızı öldürmək onlara ucuz başa gəlməyəcəkdir.

Araz son sözlərini deyib yenicə qurtarmışdı ki, şosse yolu ilə irəliləyən polis dəstələri göründü. Onların arasında silahlı soldatlar da nəzərə çarpırdı. Onlar birbaş mitinqin toplandığı yerə doğru irəliləyirdilər. Belə bir vəziyyətdə tətilçilərə ürək-dirək vermək, tətili davam etdirmək lazım idi. Bütün tətilçilərin nəzərləri gələn polis dəstələrinə dikildiyi bir vaxtda yenidən Arazın gur səsi eşidildi:

– Yoldaşlar, tətilimiz davam edir, atəşə atəşlə cavab verəcəyik!

Böyük iradə və inamla deyilmiş bu sözlər fəhlələri hərəkətə gətirdi.

Polis dəstəsinin yaxınlaşması ilə ətrafı atəş səslərinin bürüməsi bir oldu. Bu, fəhlələri qorxutmaq üçün edilən ilk təşəbbüs idi. Tətilçilər isə öz yerlərindən bir addım da geri çəkilmədilər. Əksinə, atəşə atəşlə cavab verdilər. Fəhlələrin silahlı olduğunu görən polislər dərhal dağılışıb ətrafa səpələndilər. Atışma qızışıb getdikcə daha da şiddətləndi. Araz əlində silah tətilçilərə göstərişlər verir, düşmənin sıx yerləşdiyi yerləri atəşə tutdururdu. Tətilçilər böyük cəsarət və mətanət göstərirdilər. Onları dağıtmaq məqsədi ilə gələn polislər indi özlərini müdafiə etməyə məcbur olmuşdular. Düşmənin zəiflədiyini görən Araz uca səslə hücuma keçmək haqqında əmr verdi. Lakin polislər üçün gələn kömək vəziyyəti dəyişdi. Tətilçilərin üstünə güllə yağış kimi yağmağa başladı. Vəziyyətdən çıxmaq, tələfata yol verməmək lazım idi. Araz dərhal atəşi dayandırmaq haqqında əmr verdi. Buna baxıb qarşı tərəf də atəşi kəsdi. Bir anda əli silahlı polis və soldatlar fəhlələrin arasına soxulub tətilçiləri dağıtmağa başladılar. Müqavimət göstərən fəhlələr həbs olundu...

II

Mişa xəfiyyə kimi ifşa edildikdən və jandarm idarəsindən töhmət aldıqdan sonra dəmiryol jandarm idarəsində çalışırdı. O, səhvlərini düzəltmək, əvvəlki etibarını qazanmaq məqsədi ilə əlverişli bir vəzifə seçmişdi. Vaqonlardan miniklərin şeylərini daşıyırdı.

Mişanın vağzalda işləməsi inqilabçı fəhlələrin şəhərdən mədənə, mədəndən şəhərə gəlib-getmələrinə böyük əngəl törədirdi; çünki o

hamını tanıyırdı. Mişa onların şəhərə nə üçün gəldiklərini bildiyindən fəhlələr təqib edilməkdən qorxurdular.

Mişa hamballıq vəzifəsində dəmiryol jandarm idarəsinə az kömək göstərmirdi. Jandarm idarəsinin müdiri Mişanın xəfiyyəliyə böyük istedadı olduğunu görüb ona yaxından hörmət edir, hətta onu bir neçə dəfə mühüm iş üçün öz evinə göndərmişdi. Şəfqət bacısı Dusya ilə orada tanış oldu. Dusyanın qoca anası Maşa jandarm müdirinin uşaqlarına dayəlik edirdi. Uşaqlara yaxşı can yandırdığından həyətdə, aşağı qatda ona bir otaq vermişdilər. Maşa öz dul qızı Dusya ilə orada yaşayırdı. Dusya az savadlı olduğuna baxmayaraq müdirin vasitəsi ilə xəstəxanada şəfqət bacısı vəzifəsində çalışırdı. Otuz beş yaşında dul bir qadın idi. Mişa 48 yaşında olduğu halda bu vaxta qədər evlənməmişdi. Maşanın bu ailədə böyük hörməti olduğunu bildiyindən Dusya ilə evlənməyə qərar verdi. Arabir Maşanın evinə gəlir, Dusya ilə görüşür, danışır, onu kinoya, gəzməyə aparır, özünü ona sevdirməyə və bu vasitə ilə yenə xəfiyyəlikdə əvvəlki etibarını qazanmağa çalışırdı.

Bir gün miniklər salonda oturub Tiflis qatarını gözləyirdi. Mişa salona girdi. Stol başında, uzun skamyalarda oturan minikləri bir-bir gözdən keçirdi. Küncdəki stolun ətrafında iki nəfər oturub qəlyanaltı edirdi. Stol üstündə bir şüşə şərab, bişmiş balıq və çörək vardı. Onlar yavaşyavaş danışır, qədəhləri bir-birinə vurub içirdilər. Bu simalar tanış gəldiyindən Mişa qapı ağzında durub onların bütün hərəkətini gözdən keçirirdi. Onlar məşğul olduqlarından Mişanı görmürdülər. Mişa onlardan ancaq birini tanıya bildi. Bu təşkilatın fəal üzvlərindən olan Qriqor idi. Mişa stolun altında iki böyük çamadanı gördüyü zaman onların Tiflisə, yaxud kəndlərə mühüm siyasi iş üçün getdiklərini yəqin etdi. Əhvalatı jandarm müdirinə xəbər verdi. Müdir onları yoxlamaq üçün iki nəfər agent göndərdi. Agentlər onlara yanaşıb hara getdiklərini soruşdu, biletlərini alıb baxdı. Hər iki bilet Yevlax stansiyasını alınmışdı. Agentlər çamadanların açılmasını tələb etdilər. Onlar açmaq istəmədiklərindən, hər ikisini jandarm idarəsinə gətirdilər. Çamadanlar açıldı, çap olmuş müxtəlif intibahnamələr çıxdı. Hər ikisi dərhal həbsxanaya göndərildi.

Bu hadisədən sonra Mişanın etibarı olduqca artdı. Bir gün müdir onu öz kabinetinə çağırıb fəhlə nümayişlərinin qarşısını almaq üçün hər polis dairəsində bir talan dəstəsi təşkil etmək lazım gəldiyini söylədi. Beşinci polis dairəsində talan dəstəsi təşkil etməyi ona tapşırdı. Mişa bu təklifi məmnuniyyətlə qəbul etdi. Talan dəstələri hazırlandıqdan sonra müəyyən edilmiş gündə dəstələr əllərində ling, balta və

kəlbətin kimi alətlər, şəhərə yayılıb dükan və mağazaları dağıtmağa başladılar. Silahsız dükançı və mağazaçılar talançıları görüncə qaçıb canını qurtarmağa çalışırdı. Talançılar əvvəlcə kassanı, sonra da gücü çatdığı, qoltuğu tutduğu qədər malları götürüb gedirdilər. Mişa bu talandan varlanmışdı.

Arazı xəstəxanadan apardıqdan sonra doktor Dusyaya qarşı dərin bir nifrət bəsləyir, onun bacarıqsızlığını və şəfqət bacılığına layiq olmadığını hər gün üzünə vururdu. Dusya onun fikrini anlamışdı. Bir gün doktor dörd yaşında sətəlcəm olan bir uşağı xardal suyuna salmağı tapşırmışdı. Dusya bir qutu xardal otunu suya töküb xəstə uşağı vannaya saldı. Doktor ona çox inanmadığından gəlib yoluxdu. Ovucu ilə Sudan götürüb diqqətlə baxdıqdan sonra:

– Buna nə qədər xardal otu tökdün? – deyə soruşdu.

Dusya başını qaldırmayıb etinasız bir tövrlə:

– İki qutu – deyə cavab verdi. Doktor təkrar soruşdu:

– Necə tökdün?

Dusya başını qaldırdı, qeyzlə gülümsəyərək:

– Bu nə sualdır? Xardal otunu necə tökürlər? Qutunun ağzını açıb vannaya boşaltdım və suyun içində əritdikdən sonra uşağı vannaya saldım.

Doktor acıqlı-acıqlı ona baxıb:

– Fikrin talançılarla məşğuldur. Səndən şəfqət bacısı olmaz, çıxar uşağı vannadan! Sadəcə xardal otu vannasını bacarmayan şəfqət bacısı mənə lazım deyil! – deyə çığırdı.

Dusyanın gözləri yaşardı, ağlaya-ağlaya:

– Bilmirəm, sən məndən nə istəyirsən? Son zamanlar hər gün məni nə üçün təhqir edirsən? – deyə, uşağı vannadan çıxartdı.

Doktor Marusyanı çağırdı:

– Al, bu uşağı, isti suda yaxala, geyindir, sonra xardal otu vannasında çimdir – deyə tapşırdı.

Üzünü Dusyaya tutub:

– Mən sənինlə işləyə bilmirəm. Get, özünə başqa iş tap! – dedi.

Dusya o gün gözləri yaşlar içində evə qayıtdı. Taxtın üstünə uzanıb uşaq kimi ağlayırdı. Anası Maşa əhvalatı zor-güc öyrəndikdən sonra:

– Axmağın qızı, mən də deyirəm, bu nə üçün ağlayır. O kimdir ki, səni qovsun. Ağadan rica edərəm, səni yenə öz yerinə təyin etdirər, yaxud ondan da yaxşı iş tapar – deyə nə qədər təsəlli verdi, qız sakit olmadı. Qızın bu halı onu çox düşündürürdü. Ana ürəyi davam etmə-

yib onu sakit etmək üçün tədbirlər düşündü. Nəhayət, Mişanı çağırmaqdan başqa çarə tapmadı. Son zamanlar Dusyanın Mişaya qarşı hörmət və məhəbbətinin artdığını bilirdi. O birbaş stansiyaya getdi. Mişanı axtarıb tapdıqdan sonra əhvalatı ona danışdı. İşdən sonra Dusyanı sakit etmək üçün onlara gəlməsini tapşırdı.

O gün müdir gülərüzlə ona bir-iki mühüm tapşırıq vermişdi. Bu tapşırıqlar gələcəkdə jandarm idarəsindən ala biləcəyi yeni vəzifə ilə bağlı olduğundan Mişa sevinir, əli, ayağı yerə dəymirdi. Maşanın dedikləri isə onu ürəkdən sevindirirdi. Dusya ilə evlənmək üçün bu, ən gözəl fürsət idi. İşini bitirər-bitirməz Maşanın evinə gəldi. Dusya taxtın üstündə uzanmışdı. Mişa qapı ağzından içəri girmək üçün icazə aldığı zaman Dusya taxtdan qalxdı. Kədərli bir səslə:

– Gəliniz! – deyə əzilmiş paltarının qırışlarını əli ilə açmağa başladı. Mişa içəri girincə onun əlini əlləri içində sıxaraq:

– Sənə nə olmuşdur Dusya? Nə üçün kədərlisən? – deyə soruşdu. Dusya qızarmış gözlərini qapaqları içində gizləyərək:

– Heç bir şey, – deyə cavab verdi. Ancaq onun solğun üzü, qızarmış gözləri daxilindəki kədərini açıq göstərirdi. Hər ikisi kiçik stol yanındakı skamyaya oturdu. Mişa hadisəni bildiyi halda onu qızın öz ağzından eşitmək istəyirdi. Qız əhvalatı qısaca ona danışarkən ürəyi kövrəlib gözləri yaşardı. Mişa fürsətdən istifadə edərək onun əlini dodaqlarına götürüb öpdükdən sonra:

– Kədərlənmə əzizim, o şeytan qılıqlı doktorun üzündən qurtardığın üçün sevinməlisən. Sənə işmi yoxdur? Mənə qalırsa bir müddət sənə rahatlanmaq lazımdır, – deyə mənalı gülərək onun əlini təkrar dodaqlarına apardı. Cibindən bir qutu şokolad, iki apelsin çıxarıb qızın qabağına qoydu. Bu zaman Maşa da gəlmişdi. Mişanın bu sözləri ürəyinə kərə yağı kimi yayılmışdı. Məmnun və şən bir səslə gülə-gülə:

– Dusyanın ürəyindən bu kədəri tamamilə silmək üçün xeyir işi başlamaq lazımdır! – dedi. Sonra hər ikisini məmnun baxışlarla süzərək qəhqəhə ilə güldü. Dusya qaşlarını çataraq:

– Yox, mən hələ hazır deyiləm, – dedi.

Mişa:

– Çox danışma, xeyir işi uzatmaq yaxşı deyil, – dedi. Sonra apelsini götürüb soya-soya əlavə etdi:

– Bu gecə ağadan, xanımdan izin alaram. Yaxın dostlara xəbər verərəm. Sabah axşam kilsəyə gedib nikah oxutdurarsınız. Nədənsə mə-

nim də ürəyim şənlik və toy istəyir. Əlimizi, qolumuzu bir az da atıb tutarıq.

Mişa soyduğu apelsini dilimləyib onlara payladı.

Bir saat sonra Dusya Mişa ilə dadlı-dadlı gülüb danışırdı. Axşam bərabər kinoya getdilər. Gecə evə dönərkən Maşa onları sevinclə qarşılayaraq:

– Ağaya xeyir işinizi dedim. Çox razı qaldı. "Mişa bizim adamdır, getsin" – dedi. Sabah axşam toyu başlayarıq.

Sevindiyindən o gecə Mişanın gözlərinə yuxu getmədi. Maşa vasitəsi ilə yüksək vəzifə ala biləcəyini düşünür və bu işə ürəkdən sevinirdi.

Səhəri Mişa Dusya ilə kilsəyə gedib nikah oxutdular. Toy bazar günü olduğundan o gecə səhərə qədər dost-aşnalarla yeyib-içməyə, çalıb-oynamağa məşğul oldular. Bazar ertəsindən Mişa yenidən fəaliyyətə başladı. İndi ona iki göz, iki qulaq kifayət etmirdi. İnsanların qəlbinə, vicdanlarına yol tapa bilmək üçün iki göz, iki qulaq da satın almaq istəyirdi. O yenə istədiyi kimi müxtəlif qiyafələrə girir, böyük bir iş açmaq üçün hər fədakarlığa qatlanırdı. Gözlərinin rəngini dəyişmək üçün qaşlarına, kirpiklərinə sürmə çəkir, stansiya salonlarını, şübhələndiyi meyxanaları, gecə-gündüz dolaşır, cin kimi insanların qulağına girir, "nəhəngləri dənizin dərinliklərində tutmaq olar" – deyə şəhərin tünlük yerlərində olan yeraltı qaranlıq meyxana və çayxanalara qədər soxulurdu. Bir gün yenə şəhərin ən məşhur passajının anbarında olan meyxana qarşısında durub ov axtarırdı. Ona şübhəli gələn bir adamın meyxanaya girdiyini gördü. Bir saniyə sonra Mişa da həmin meyxanaya girdi. Meyxana uzun, koridor kimi bir yer idi. Heç bir tərəfə pəncərəsi olmadığından gecə-gündüz elektrik lampaları yanırdı. Bir-birindən aralı dörd adamlıq stollar qoyulmuşdu. Stol başında oturan müştərilərin üzü, siması tavana bağlanmış kiçik lampaların sarımtıl işığında zor-güc seçilirdi. Ancaq bufetin ətrafı işıq idi. Mişa ağ döşlük tutmuş bufetçiyə, onun yanında duran xidmətçiyə yanaşıb sifariş verdikdən sonra, bütün müştəriləri aydın görə biləcək bir stol yanındakı skamyaya oturdu. Stol başında oturan müştəriləri lampaların sarımtıl işığında bir-bir gözdən keçirtdi. Təqib etdiyi adamı görmədi. Dərin bir heyrət içində düşünməyə başladı. O bu təəccüblü hadisədən həm maraqlanır, həm də şübhələnərək:

– Burada mühüm bir sirr var, bu işi açmaq lazımdır, – dedi. Bu hadisə onu o qədər məşğul etmişdi ki, sifariş verdiyini unutmuşdu. Bu işi açmaq, bu sirri tapmaq üçün tədbirlər düşünürdü. Xəyalından keçən

müxtəlif tədbirlər Mişanı rahatsız edirdi. İstər-istəməz əlini yeməyə uzatdı. Selyodka balığının qabığını iki əli ilə soyub atdıqdan sonra ac-gözcəsinə yeməyə məşğul oldu. O qədər sürətlə yeyirdi ki, onun yeyişinə butün müştərilər, bufetçi və xidmətçi göz altından baxıb gülürdülər. Yeməyi bitirincə meyxanadan çıxdı. Gecəyarısına qədər meyxanaya gedən adamların keşiyini çəkdi. Ancaq meyxana qapısından girib gözdən itən adamı görə bilmədi. O gecə oxu daşa dəymiş ovçu kimi kor-peşman evə qayıtdı.

Mişa bu sirri açmağa qərar vermişdi. Üç gün-üç gecə haman meyxananın ətrafında sərsəri kimi dolaşdısa, axtardığı adamı görə bilmədi. Acığından dil-dodağını gəmirir, xəfiyyəlik işlərindəki məharətsizliyinə lənətlər yağdırırdı. Bu üç gün içərisindəki yorğunluq və içindəki həyəcandan onda sir-sifət qalmamışdı. Rəngi uçmuş, nəşəsi qaçmışdı. Onun bu halını görən Dusya:

– Sənə nə olmuşdur, xəstəsən, nədir? – deyə ondan soruşdu.

Mişa Dusyanın fikrini azdırmaq məqsədi ilə xəstə olduğunu söylədi.

Səhər tezdən qalxıb Mişa yenə şübhəli adamı tapmaq məqsədi ilə haman meyxanaya getdi. Bu dəfə o, dilənçi paltarı geyinmişdi. Bütün günü gözlədi, haman adamı görə bilmədi. Gecə saat 12 radələri idi. Mişa evə qayıtmaq istəyirdi ki, birdən haman adamın sürətlə meyxanaya girdiyini gördü. Dərhal özünü meyxanaya saldı, sərxoşlara məxsus bir əda ilə:

– Mərhəmətli insanlar, mənim bir qədəh arağa ehtiyacım var. Kim mənim ehtiyacımı təmin edə bilər? – deyə ona yanaşdı. Adam şübhəli nəzərlə Mişanın sərxoş dilənçi qiyafəsinə, bulaşıq gözlərinə, üzünün spirtdən yanmış dərisinə diqqətlə baxdıqdan sonra onun adi bir səfil olduğunu görüb, ovcuna bir abbası qoyub: – get, bufetdən al" – dedi. Mişa razılıq edib dəli kimi koridordakı bufetə tərəf getdi. Fəqət o adamın içəri girmədiyini görüncə, qapı ağzında bir saniyə dayandıqdan sonra tez geri döndü. O adamı görmədi. O, küçə qapısı ilə bufet qapısı arasında yox oldu. "Onu burada axtarmaq lazımdır!"– dedi. Hər tərəfə diqqətlə baxdı, nə bir tərəfə gediləcək bir yer, nə də açılacaq bir qapı vardı. Odur ki, əli ilə divarları yavaş-yavaş vurmağa başladı. O bir də əlini divara yavaşca vurarkən, divar başqa cür səsləndi. Mişanın qəlbində ümid doğdu. Gözləri sevincdən parladı, əlini divara bir də vurdu. Divarın arxası boş olduğunu yəqin etdi. İki əli ilə divarı bütün qüvvəti ilə itələdi: birdən-birə kiçik bir qapı açıldı. Özünü zor-güc

saxlayıb tez içəri girdi. Bilməsinlər – deyə qapını yenə örtdü. Qarşısında qaranlıq uzun bir yol vardı. O qaranlıq yolla on beş addım getdi. Birdən-birə qəlbinə qorxu çökdü. "Bu uzun, qəbir kimi qaranlıq dar yol hara gedir? Burada məni tutub öldürsələr kimsənin xəbəri olmaz!" – deyə, artıq irəli getməyə cəsarət etmədi. Ancaq o burada mühüm işlər görüldüyünü yəqin etdi. Bir tərəfdən qorxu, bir tərəfdən sevinc və həyəcan onun qəlbini aldı. Artıq orada dura bilmədi. Çıxarkən qapını həyəcanla açdığından qapı səsləndi. Xidmətçi bu səsdən özünü dışarı atdı. Qapı yanında Mişanı görüncə şübhəli baxışlarla onu süzərək:

– Sən burda nə edirsən? – deyə soruşdu. Mişa özünü itirdi. Əli-ayağı titrəyə-titrəyə özünü sərxoşluğa vurub:

– Ey mərhəmətli adam, mənə bircə rumka araq, – deyə yalvardı. Xidmətçi onu bir də şübhəli nəzərlə süzüb:

– İçəri gəl! – deyə onu bufetin qarşısına götürdü.

Gözü ilə bufetçiyə işarə edərək:

– Buna bir qədəh araq ver! – dedi.

Bufetçi dumanlı gözləri ilə onu süzdükdən sonra bir qədər araq verdi. Mişa arağı içib razılıq etdikdən sonra yarım sərxoş bir halda meyxanadan çıxdı. Mişa qapıdan çıxarkən xidmətçi onu gözləri ilə təqib edərək:

– Bu dilənçi mənə şübhəli görünür, – dedi. Bufetçi istehza ilə gülərək:

– Səfil, sərxoş bir dilənçidir, görmürsənmi üz-gözündən zəhrimar yağır – deyə cavab verdi.

Mişa meyxanadan çıxıb getmək istərkən yanından keçən bir nəfər birdən-birə dayandı. Qaranlıqda Mişanın qolundan çəkərək:

– Dostum, ələ heç ov keçirmisənmi? – deyə istehza ilə soruşdu. Mişa onu səsindən tanıdı. Bu Tanya idi. Bu qiyafədə Tanyanın onu tanımasına heyrət etdi və belə bir vaxtda ona təsadüf etməsindən bərk dilxor oldu. Ələ keçirə biləcəyi ovu onun ələ keçirməsindən qorxaraq azdırmaq üçün bir tədbir düşündü. Tanyanın sualına cavab verməyib:

– Xoş gördük, dostum, məqsədin nədir? – deyə soruşdu.

Tanya ona cavab verdi:

– Mənim bu gün heç bir məqsədim yoxdur. Həris ovçu kimi gözlərini meyxananın qapısına nə dikmisən? Kimi güdürsən?

Mişa ona azdırma vermək üçün:

– Hələ heç kimi! Ümid yaxşı şeydir, – deyə cavab verdi.

Tanya inandırıcı bir səslə:

– O xaraba meyxananı gecə-gündüz güdməkdən yoruldum. Heç bir şey ələ keçmədi. İnqilabçıların orada nə işi var?! Görmürsən bayquşlar ulaşır. Gəl, gəl, gedək, bu yaxın dükanda bir az pivə içək! – deyə onun qolundan çəkdi. Bu təklif Mişanın ürəyindən olduğundan məmnuniyyətlə qəbul etdi. Qaranlıq podyezlərdən birində üstdən geydiyi dilənçi paltarını və başındakı pariki çıxarıb Tanya ilə birlikdə yaxındakı pivəxanaya getdi.

* * *

İnqilabçılara kömək məqsədilə Tanya Mişanı gözdən qoymur, ona göz verib işıq vermirdi.

Bu gün də Tanya Mişanı bu məqsədlə yaxalamışdı.

Onlar kiçik bir pivəxanada oturub danışırdılar. Tanya bu gecə Mişadan şübhələndiyi üçün ondan söz almağa tədbirlər düşünürdü. Mişa öyünməyi sevən, özünü tərifləməyi bacaran bir xəfiyyə idi. İçdiyi zaman bu hal onda özünü daha çox göstərirdi. Tanya Mişanın bu zəif cəhətini bildiyindən onu çox içirməyə qərar verdi. Ayaq üstündə durmuş kelneri yanına çağıraraq:

Bizə iki şüşə araq və yavanlıq gətir! – dedi.

Mişa etiraz etdi:

– Pivə ilə araq? Sən neyləyirsən?

Tanya gülə-gülə:

Sən ömrə və vaxta qiymət qoymayan qəribə adamsan. Gecə-gündüz bu adamların dalınca düşüb,onu-bunu güdməkdən bir şey çıxmaz. Bir az da dincəlmək, əylənmək lazımdır! – dedi.

Onlar yeyib-içməyə başladılar. Qədəhlər içildikcə başlar qızdı. Mişa Tanyanı tez başdan edib kəşf etdiyi yeniliyi jandarm idarəsinə xəbər verməyə can atırdı. Lakin Tanya ondan daha tədbirli hərəkət etdi. O, Mişada yeni bir xəbər olduğunu hiss etdiyindən onu içirdir, müxtəlif söhbətlərlə onu qızışdırır və bildiklərini öyrənməyə çalışırdı. Mişanın artıq başı qızmış, ağlı dilinə hakim deyildi. O əvvəlcə xəfiyyəlikdə göstərdiyi məharətləri ilə öyünməyə başladı. Sonra əlindəki qədəhi başına çəkib:

– Təzə bir işə başlamışam, ona böyük ümidim var. Bunu açа bilsəm, göylərə nərdivan qoyacağam, – dedi.

Tanya gülümsəyərək:

– Heç inana bilmirəm. Sən həmişə kiçik məsələlərə böyük əhəmiyyət verir, həmişə də özün özünü biabır edirsən.

Mişa əlini stola çırparaq:

– Yox, doğru demirsən! – deyə etiraz etdi, sonra əhvalatı olduğu kimi ona danışdı.

Mişanın danışdıqları Tanyanı bərk təşvişə saldı. O, Azadın həmin bu meyxanaya iki dəfə girdiyini görmüş, orada inqilabçıların məşğul olduqlarını hiss etmişdi. İndi isə hər bir şey ona aydın idi. O hər necə olursa-olsun, həmin gizli qapını tapmalı, ora yığışanları xilas etməli idi. Həyəcanını gizlətmək üçün Tanya dərhal əlindəki qədəhi Mişanın müvəffəqiyyəti şərəfinə qaldırdı. Bu zaman xəfiyyəlikdə böyük şöhrət qazanmış Səlman içəri girdi. Onları görüncə yaxınlaşıb: "Dostlar yaman kef edirsiniz"– dedi. Tanya yanındakı stulu göstərib: "Otur Səlman, otur!" – dedi. Qədəhləri tez doldurub: "Bu qədəhləri də işlərimizin müvəffəqiyyəti şərəfinə içək" – deyə başına çəkdi. Qədəhi yerə qoyduqdan sonra paltosunu soyunub stuldan asdı, redikülünü stol üzərinə qoyub:

– Ürəyim bulanır, görünür çox içmişəm. Mən bu saat gəlirəm, – deyə, pivəxanadan çıxdı. Oradan bir baş meyxanaya gəldi. Mişanın verdiyi nişanələr üzrə qapının yerini tapdı. Lakin qapı daldan bağlı idi. Tanya nə edəcəyini bilmədi. Elə bu zaman Tanyanın hərəkətlərindən şübhələnən xidmətçi yanaşaraq:

– Nə istəyirsiniz? – deyə şübhəli nəzərlərlə ona baxdı. Tanya özünü itirmədi. Xidmətçi buradakı işlərdən xəbərdar olan adama oxşayırdı. Onun inqilabçılarla əlaqədə olması haqqında da Tanyanın az-çox məlumatı var idi. Odur ki, dərhal məsələni açıb xidmətçiyə söylədi. Xidmətçi heyrətlə:

– Qoca dilənçi qiyafəsində bir kişidir? – deyə soruşdu.

Tanya:

– Odur! – deyə cavab verdi, artıq dayanmayıb meyxanadan çıxdı.

Xidmətçi gizli qapını açıb əhvalatı xəbər verməyə getdi. Bir adam keçə biləcək qədər dar, fəqət uzun, qaranlıq dalanda otuz addım getdikdən sonra alçaq bir qapını açıb otağa girdi. İclasdakılar iki stolu birləşdirib oturmuş, nə isə mühüm bir məsələ həll edirdilər. Stol üzərində çörək, göyərti, balıq və boş qablar qoyulmuşdu. Xidmətçi içəri girincə:

– Sizi təqib edən var, tez dağılın! – deyib əhvalatı qısaca onlara anlatdı.

Təşkilat üzvləri bir-bir qapıdan çıxarkən Vanya yavaşca:

– Yoldaşlar, Araz gələcəkdi, bu işdən xəbəri olmayıb yaxalanmasından qorxuram, – dedi.

Azad bir az düşündükdən sonra:

– O bu gecə Hövsan kəndindədir, – dedi. – Görünür iclası uzun çəkib, şəhərə gec gələcək. Bu birinci tində onu tanıyan bir yoldaş qoymalıyıq ki, Araz gəlsə, xəbər versin.

Elə də etdilər, tində, Arazın gələcəyi yerdə onu tanıyan bir yoldaş qoyub iclası qurtarmaq üçün başqa yerə getdilər.

Mişa çox içmişdisə də, huşunu itirməmişdi. Tanyanın pivəxanadan tələsik çıxması isə onu bir qədər də özünə gətirdi. Ürəyi açıqlıq edib kəşf etdiklərini danışdığına bərk peşman oldu. İndi onun ürəyindən min bir fikir keçirdi. Bəlkə Tanya onu qabaqlamaq üçün getmişdi? Bəlkə bu gizli qapı ilə çox böyük hadisələr bağlıdır, belə bir fürsəti əldən çıxarsa, onda ona nə deyərlər? Bütün bunları fikrinə gətirincə dəli kimi yerindən qalxdı. Onun bu hərəkətinin səbəbini çox yaxşı başa düşən Səlman:

– Sənə nə oldu, Mişa, deyəsən araq sənə bərk təsir edib? – deyə istehza ilə soruşdu.

Mişa öz tələşının səbəbini büruzə verməməyə çalışırdı:

– Yox, başım ağrıyır, həm də işim var, mən getməliyəm, – deyə cavab verdi, Səlmanla sağollaşıb getməyə tələsirdi ki, qapıda Tanya göründü. Gözləri ona sataşan kimi ürəyi buz kimi soyudu, tələşı azaldı. Tanya onlara yaxınlaşan kimi Mişa:

– Xeyir ola, hara belə getmişdin? – deyə ondan soruşdu. Tanya çox sakit və təmkinlə:

– Ürəyim bulanırdı, içdiklərimdən xilas olmaq üçün getmişdim, – deyə cavab verdi və öz yerində oturdu.

Bu cavab Mişanı qane etmədisə də, bir qədər sakit oldu. İşi olduğunu Tanyaya da bildirdi və hər ikisi ilə görüşüb tələsik qapıdan çıxdı. Tanya onun hara və nə üçün getdiyini çox gözəl bilirdi. Dalınca baxaraq gülə-gülə:

– Yəqin, yerini kəşf etdiyi ovları ələ keçirmək üçün tələsir, – dedi.

Mişa qapıdan çıxan kimi küçədə vəzifə başında duran bir polisə yanaşdı. Vəsiqəsini göstərib ondan 5 polis nəfəri tələb etdi. Polis, fışqırığı ilə bir neçə polis daha çağırdı. Mişanın göstərişi ilə onlar meyxanaya getdilər. Mişa qapıdan dəhlizə girincə gizli qapını əli ilə çəkib açdı. Dar dalanla səssiz, otuz addım getdikdən sonra artıq gediləcək yer olmadığından hamı dayandı. Mişa əli ilə ikinci qarını açdı. Ətraf

qaranlıq idi. Kibrit yandırıb içəri girdilər. Hər tərəfə diqqətlə baxdılar, hər yeri axtardılar, heç kəs və heç bir şey görmədilər. Bu koridor kimi uzun boş yerdə heç bir adam əsəri görünmürdü.

Mişanın üzü heyrət içində qar kimi ağardı, qəlbi buz kimi dondu, heyrət içində başını yerə dikib qaldı.

* * *

O gecə həmin meyxanada Bakı kəndlərindəki yerli təşkilatların birgə iclası çağırılmışdı. İclas Bakı Komitəsinin rəhbərliyi ilə keçirilirdi. Azad gördüyü işlər haqqında məruzə edirdi. İclasa Araz da çağırılmışdı. Lakin həmin gecə o Hövsan kəndində partiya özəyinin iclasını çağırmış, iclas uzun sürdüyündən şəhərə çox gec gəlib çıxmışdı.

Araz həmişə tanıdığı bu meyxanaya onun sağ tərəfindəki küçədən gəlirdi. Bu gecə isə gecikmiş olduğundan yolu qısaltmaq məqsədi ilə meyxananın sol tərəfindəki küçədən gəlmiş, xəbərdarlıq üçün o biri tində onu gözləyən adamı görə bilməmişdi. Odur ki, Araz heç nədən şübhələnməyərək birbaş gizli meyxanaya daxil oldu, meyxananın birinci qapısından keçib ikinci qapısından girmək istədi. Bu zaman Mişa:

– Şübhəsiz, bura inqilabçılar yuvasıdır, hayıf ki, biz onlar iclas etdiyi zaman gəlməmişik, – deyə qaranlıq koridora çıxırdı ki, qarşısında böyük bir kölgə gördü. Araz onu görüncə tez dönüb getmək istədi, lakin gec idi. Mişa onu görən kimi tanıdı.

– Oho, köhnə dostum, xoş gördük səni – deyə polislərə onu tutmağa işarə etdi, sonra məğrur bir tövrlə dedi:

– Bu yerdə toplananlar haqqında bundan məlumat alacayıq!

1936–1937

İKİ MÜZTƏRİB YAXUD ƏZAB VƏ VİCDAN

Sevgili Rəmziyyəm!

Həştərxana vüsulunuzda yazdığınız məktuba ancaq cavab yaza bildim. Əfv ediniz, həmşirəciyim, sizin müfariqətiniz[1] bilsəniz məni ruhən nə qədər mütəəssir etmiş. Yeganə həmdərdim idin. İndi isə yalqızam. Bir tərəfdən sizin atəşi-müfariqətiniz, o biri tərəfdən daha bu günlərdə zühur edən bir hadisə, məni bir əzabi-əlim içində buraxmış.

Gözəl Rəmziyyəm! Zatən mənim həzin bir ahəngdən, dolğun bir çöhrədən[2] mütəəssir olduğumu bilirsiniz. İndi bir ay olar ki, gənc bir dəliqanlı hər gün saat üç radələrində çox məhzun və dolğun olduğu halda pəncərəmizin önündən keçir. Bilməm bir dərdimi var, nədir? Bu gəncin elə solğun və dolğunluğu bütün-bütünə fikrimi, zehnimi məşğul etmiş. Hər bir şeyi arayıb bilmək istədiyim kimi, bu zavallı gəncin də dərdini bilmək istərəm. Fəqət necə bilim? Ah, həmşirəciyim! Bilsəniz, bu zavallı gəncə nə qədər acıyıram? "Dərdini, ələmini söyləyəcək validəsi, həmşirəsimi yoxdur?" – deyə bu qaranlıq fikirlər üzərində saatlarca başımı əllərim içinə alaraq düşünürəm. Nəhayət, çox səbirsizliklə: "Nəyimə lazım! Hər kəsin kədərini, qayğısını mənmi çəkəcəyəm?" – deyə düşüncəmə xitam[3] vermək məramı ilə qalxaraq, bir qəzet, bir kitab mütaliəsi ilə özümü məşğul etmək istərəm. Fəqət heyhat! Yenə də onu düşünürəm. Mənim kədərim bu... Siz də öz əhvalatınızı yazınız! Yazınız baxım necə keçinirsiniz? Bu haladək bir rəfiqə bulmuşsunuzmu? ... Bunları həp bilmək istərəm. Yazınız, rica edirəm, yazınız... Xudahafiz!..

Həmşirəniz Sitarə

Həmdərdim, həmsirrim, həmşirəcəyim!

İndi mütləq yanımda olmalıydınız. Bilsəniz, sizə söyləyəcək nə qədər dərdlərim var. Mənim həmdərdim, həmsirrim idin. Ah, o məktəbə davam etdiyimiz günlər... Nə qədər məsum, nə qədər sadə hallarımız var idi. Heybəmiz qoltuğumuzda məktəbə gedərkən bir-iki

[1] Müfariqət – ayrılıq

[2] Dolğun çöhrə – kədərli, məhzun üz

[3] Xitam – son, axır

dəliqanlı güzərgahımızda[1] mini-mini[2] bığlarını bizə doğru buraraq, boynunu əymiş, gözlərini həzin-həzin üzümüzə dikərək baxarkən, usanclıqdan[3] qıpqırmızı qızarardıq. Addımlarımızı iri-iri ataraq, özümüzü çabuq[4] məktəbə yetirməyə çalışırdıq. Qəlbimiz dağ çeşmələri qədər saf, fikrimiz, zehnimiz dərd, küdurətdən uzaq idi. Ah! O məsud və bəxtiyar günlər, bahar dumanları kimi bir anda uçub getdi. İndisə... Ah yazamıram... Sadəliyimə güləcəksən, sən istədiyin qədər gül, sənin kimi səmimi bir dosta hissiyyati-dərunumu ərz etməkdən çəkinməyəcəyəm.

O gəncin, hər gün pəncərəmizin önündən keçdiyini və onun elə solğun və dolğunluğu qəlbimdə böyük bir təsir və riqqət buraxdığını zatən sizə yazmışdım. Fəqət həmşirəciyəzim, o riqqət və mərhəmətin get-gedə artaraq, eşq və məhəbbətə tədil olacağını heç də zənn etməzdim. Bilirmisiniz, artıq bu gənci sevməyə başladım.

İçimdə get-gedə bir qığılcım böyüyür, atəşin şərarələrlə məni yaxır, soldurur. Artıq dayanammıram. Gecələrim gündüz, gündüzlərim gecə olmuşdur. Bilsəniz, o gördüyünüz saf çiçək kimi yanaqlarım nə qədər solmuş, nə qədər dəyişmiş, görsəniz mütləq tanımayacaqsınız. Sevda zəhərli bir ilan kimi boynuma sarılmış. Artıq qurtulamıyacağam, zatən bunu mən hiss edirəm. Sevdiyim Adam, fikrinizi, zehninizi işğal edərək, kim olduğunu bilmək istəyəcəksiniz, deyilmi? Kim olduğunu mən də bilməyirəm. Fəqət sarışın, ortaboylu, alagözlü, kəskin baxışlı, kiçik, qarışıq bığlı gənc bir dəliqanlı!

Bu qiyafəni zatən zehninizdə, fikrinizdə mücəssəm[5] etdiniz də bəyənmədiniz, deyilmi? Ah, mən isə onun əsiri, mütləq onun giriftarı! Bilsəniz onu nə qədər sevirəm. Günəşin ziyası qədər. Hər gün yolunu bəkləyirəm[6], pəncərəmizin önündən keçəcəyi zaman sevincimdən çocuq[7] kimi hoppanıram. Bu gəncə gəldikdə isə bilsəniz nə qədər usancaq, bir kərə üzümə belə baxmayır. Aramızda hənuz mükalimə yox. Bu gəncin belə soyuqluğu məni bütün-bütünə yaxır. Artıq dayanamıyacağam, necə olursa bir şeyə qərar verməliyəm. Günləri belə bi-

[1] Güzərgah – keçiləcək yer, yol
[2] Mini-mini – kiçik, balaca
[3] Usanclıq – sıxıntı
[4] Çabuq – tez
[5] Mücəssəm – konkret şəkil almış
[6] Bəkləyəlim – gözləmək
[7] Cocuq – uşaq

hudəliklə keçirməkdən nə çıxar? Onun hər dəqiqəsi mənim üçün həyatımdan belə əzizdir. Heç olmazsa beş-on kəlmə onunla qonuşalım, onun elə solğun və dalğınlığının səbəbini anlayalım. Ah, nərədən sözə başlayalım? Tanımadığım bir Adam, gülünc olmazmı, həmşirəciyəzim? Onun ürəyinin ən nazik və dərin tellərini arayıb bulmalı. Olur ki, qız tərəfindən birdən-birə belə hərəkət təbiətinə uymasın. Bu sualların üzərində başımı yordum. Nə yapım, həmşirəm? Siz söyləyiniz, nə yapım? Ah, səbir kasam da daşmış, artıq məndə yara[1] yox, sizdən cavab gəlincəyə qədər dayanamıyacağam, hər necə olursa sözə başlayacağam. Xudahafiz!.. Sizi sıxı-sıxı qucaqlayıb öpürəm.

Sitarə

Sevgili, gözəl Rəmziyyəm!

Məktubunuzu aldım, təkrar sevə-sevə oxudum. Yazdıqlarıma bir daha müəmma[2] ad verərək həmşirəlik vəzifəsincə bu yülda bir dürlü[3] tövsiyədə bulunursunuz: "Gözəl Sitarəm, zatən sənin nə qədər sadə və rəqiqül-qəlb[4] olduğunu bilirəm. Əksəriyyən riqqəti-qəlb çox da mənfəətli olmayır. İnsanı böyük-böyük təhlükələrə düçar edir. Onun üçün rəqiqül-qəlb olmaqla bərabər bir az da istiqamət və mətanət lazımdır.

Gözəl həmşirəm, bu halına acıyaraq, get-gedə sevməyə başlayaraq tanımadığınız bir zat kim bilir necə adamdır?.. İştə dediyim kimi bu sizin üçün birər timsali-ibrət ola bilər. Belə əmrlərdən çox ehtiyatlı olmalıdır. Həmşirəlik və yeganəlik vəzifəm olmaq üzrə bir dürlü tövsiyədə bulunmaq istərəm: Unut Sitarəm!.. Unut!.. Bu atəşi-sevda zəhərli bir ilan kimi gözəl gəncliyini boğacaq, ruhunu yaxacaq, parçalayacaq və bahar həyatını solduracaq və zəhərliyəcək olur" – deyirsiniz. Bəxtiyarlığınıza qibtə edirəm. Məgər mən bunları anlamıram? Nə yapmalı? Ürək anlaşılmaz bir şey, heç bir şeyə bənzəməz.

O, sərbəst və azad bir qüvvət olduğundan onu sükutə məcbur etmək olurmu? Ah, nə olurdu mən də öz halımı əvvəlki məsud hala qaytara bileydim. Məncə, bu çox güc[5], bir daha qayıtmayacaq. Bunu zatən

---

[1] Yara – qüvvət, qüdrət

[2] Müəmma – mənası anlaşılmayan söz; sirr

[3] Dürlü – cür, növ

[4] Rəqiqül-qəlb – incə qəlbli

[5] Güc – çətin

mən hiss edirəm. Xatırlayırmısan, həmşirəciyim, keçən yaz, ah o məsud və bəxtiyar günlər... Hər ikimiz Qusarda idik. İyunun gözəl bir səhəri idi. Təbiətin ormanlarda xəlq etdiyi gözəlliyi, lətafəti seyr etmək üçün səninlə bərabər ormana[1] doğru gedirdik. Yaşıl, lətif otlar üzərində almas paraları kimi parlayan şəbnəmlərdən ətəklərimiz, qundaralarımız[2] bütün-bütünə islanaraq yürüyürdük. Artıq ormanda idik. Yaşıl bir təpənin iri, yüksək ağacları altında yan-yana oturduq. Ətrafımızdakı fındıq, zoğal dallarına[3] sarılmış yabanı üzüm və böyürt-kən ağaclarının iri-iri yarpaqları orasını sərin bir kölgə altına burax-mışdı. Mayısın gözəl qoxusu, yaxındakı tarlalarda biçilmiş otların və ətrafımızdakı dağ çiçəklərinin rayihəsilə qarışaraq, nəfəs aldıqca insa-na yeni bir nəşə və heyrət və dərin bir istirahət hiss etdirirdi. Ara-sıra zümürridin dallar, çalılar[4] arasından quşların kəsik-kəsik fəryadları eşidilirdi. Birdən-birə əllərini bir-birinə çırparaq: "Ah, burası quşlar adasımı? Nə qədər də çox quş var! Birisi bitirir, birisi başlayır. Bax!.. Bax!.. Bu sıx yarpaqlar arasında sarı çiçəyə səmadan enmiş bir friştə-yi-hüsn yaxud bir alihəyi[5]-ləhndir[6] ki, fəryadi-dilfiruzi[7] yaşıllıqlar al-tında titrəyə-titrəyə bu qocaman ormanın köbəyinədək yayılır. Seyr edirmisən Sitarə? Bu canlı çiçəkdə bir qocaman şair qədər zövq və şətarət və bir ulu aşiq qədər eşq və məhəbbət, rəssamları çıldıracaq rəng və lətafət var! Ah, kaş biz də bu quşlar qədər bəxtiyar olaydıq! Qanadlanıb da, bax! Bu uzaqda görünən uca, qarlı dağların başlarında-kı buludlara qarışaydıq" – dediniz. Hənuz sözlərini bitirməmişdən, sənin natiqpərvaz dodaqlarından tökülən ahəngdar kəlmələrdən, töv-siflərdən bayılmış kimi gözlərimi üzünə dikərək dururdum. Birdən-birə gözləriniz aşağıya doğru bir nöqtəyə dikildiyini görüncə, mənim də gözlərim həman nöqtəyə dikildi. İki sevdazadə bir-birinə sarılaraq ormana doğru yürüyürlərdi.

Bizdən azacıq uzaq bir giraz[8] ağacı altında oturdular. Hər ikisi ma-raqlı, hər ikisi həvəskar. Bir az sonra yaşıl dallar arasından bir busə, bir

---

[1] Orman – meşə
[2] Qundara – ayaqqabı
[3] Dal – budaq
[4] Çalı – kol-kos
[5] Alihə – parlaq, qırmızı
[6] Ləhi – gözəl səs, nəğmə, ahəng
[7] Dilfiruz – ürəkaçan
[8] Giraz – gilas

daha... Arxasınca şən, gəvəzək[1] bir qəhqəhə zümürridin yarpaqlar altında titrəyə-titrəyə ormanın nəhayətinə qədər yayıldı, getdi. Biz isə onların çocuq hallarına, acı-acı istehzadan, gülməkdən içimiz ağrıdı, Ah, o məsud günlər bir daha qayıtmayacaq! Bilsəniz, həmşirəciyəzim, o zaman ürəyim dalğasız, sakit bir dəniz üzərindəki günəşin ziyasi qədər saf və parlaq idi; hənuz sevda fırtınaları ilə parçalanaraq bulanmamışdı. Urəyimdə fırtına get-gedə kəsbi-şiddət edir. Bir daha onu durultmaq, əvvəlki saf və təmiz hala qaytarmaq namümkün. Bu gənc könlümü bütün-bütünə cəlb etmiş, bir gün görmədikdə dəli oluram. Dünən yenə pəncərəmizin önündən keçəcək idi. İçimdən bir hiss: "Bax, odur gəlir, sən ki, onu sevirsən, nə dursan? Əvvəlcə o səninlə mükaliməyə başlamasınımı umursan? Əbəs... Bax. Bax, keçir, çabuq, çabuq! Onu sevdiyini söylə! Ah, bacarıqsız söyləsən a...". Hər nə olursa-olsun canımı dişimə tutaraq, qızarmış, bozarmış bir halda yavaşca:

Aya bax, ulduza bax!
Suya gedən qıza bax!
Ay qız, Allahı sevirsən,
Üzün döndər, bizə bax!

türküsünü ona qırıq-qırıq eşitdirdim. Bir kərrə üzümə baxaraq, yenə gözlərini aşağı endirdi. Bir söz söyləmədən addımlarını iri-iri ataraq sürətlə çıxıb getdi. Həmşirəciyəzim, bilsəniz onun baxışlarında mənim qızlığıma yaxışmayan nə qədər həqarət və istehza hiss etdim. Bilməm məni kimə həml[2] etdi də? Hərcayi[3] soqaq[4] qadınlarınamı? O getdikdən sonra çocuq kimi öz sadəliyimə, səfahətimə ağladım. Gecəni bütün-bütünə uyğusuz keçirdim. Ah, sən də yanımda deyilsən ki, dərdlərimə şərik olub, göz yaşlarımı qurudasan. Xudahafiz həmşirəciyəzim. İndi yenə də pəncərəmizin önündən keçəcək. Onu bəkləyirəm, onu! Artıq yazammıram, rica edirəm, məni yalqız buraxmayınız. Heç olmazsa məktubunuzla dərdlərimə təsəlli verib göz yaşlarımı qurudasınız... Xudahafiz!..

Bədbəxt həmşirəniz Sitarə

---

[1] Rəvəzək – mənasız, münasibətsiz
[2] Həml – ehtimal etmək
[3] Hərcayi – dərbədər, səfil
[4] Soqaq – küçə

Sevgili məsləkdaşım!

Asari-bədayeyi-nümunənizi qəzetlərdə oxuyuram. Müvəffəqiyyətinizi təbrik edirəm. Mən isəm artıq yazammıram. Zehnim, fikrim məşğul, ruhum, qəlbim isə başqasında, necə yazayım? "Başqasında"– bu kəlmə sizi çox düşündürəcək, deyilmi? Əvət başqasında! Ruhum uçmuş da bir qızın ruhu ilə birikmiş[1], könlümdə qulaqlarına guşvarə[2] olaraq asılmışdır.

Ciddi, sevgili bəradərim! Sözlərimi çocuqluğa həml etmiyəcəksiniz, həqiqi söyləyirəm. Bir kərrə bu mələkpərəni görsəniz, etiraf edərsiniz... Oh nə qədər gözəl, nə qədər şux, nə qədər dilbər. On səkkiz, on doqquz radələrində bir pəri yavrusu[3]. Ələlxüsus o da məni sevir, hər gün pəncərələrinin önündən keçərkən zavallı qız mənə doğru boynunu əymiş, sevdadan qızarmış qara, iri-iri gözlərini uzun kirpikləri arasından üzümə dikərək baxır, lətif-lətif gülümsəyir. Dəlicəsinə mənə aşiqdir. İndi güləcəksiniz ha!.. "Sənin sarı, solğun bənizinəmi? Əyri-üyrü bığlarınamı? Qısa, biçimsiz qamətinəmi?" – deyəcəksin. Onu mən də bilməm ki!.. Hətta dünən pəncərələrinin önündən keçərkən: "Aya bax, ulduza bax!" türküsünü mənə oxudu. Biixtiyar üzünə baxdım, ah nə qədər şairanə halları var: gözlərindən sevda damır, dodaqlarından güllər açır. Mən isəm, bəradər, öz halıma ağlayıb da onun sadəliyinə, çocuqluğuna gülürəm. Zavallı qız, mənim evli olduğumdan xəbəri yox. Gizli-gizli olaraq, bu atəşi-sevda məni də bihalət edir, əridir, soldurur. Mütəəhhil[4] olduğumu yazıb bildirmək istəyirdim, lakin nədənsə bir qüvvə məni mən[5] edir. Əgər mən də onun kimi apaçığına münaqişəyə girişsəm, vicdanca məsul deyilmiyəm? Zavallı zövcəmə xəyanət olmazmı? Ah, vicdan əzabı! Hər halda bu pəri yavrusundan hissimi, əfkarımı gizli saxlamalıyam. Hankımızın əzabı şiddətlidir: mənimki yaxud onunku? Məncə yenə yazıq o... Zira elə nazik əndama atəşi-sevda yakışır[6] şeymi? Zəfimdən barmaqlarım qələm tutmayır. Bu qədərə iktifa[7] olundu. Yenə yazacağam. Xudahafiz!

Bəradəriniz Cavad

---

[1] Birikmiş – birləşmiş

[2] Guşvarə – sırğa

[3] Yavru – bala, uşaq

[4] Mütəəhhil – evli, evlənmiş

[5] Mən etmək – uzaqlaşdırmaq

[6] Yakışmaq – yaraşmaq

[7] İktifa – kifayət etmə

Gözəl Rəmziyyəm!

Gün-gündən halım kəsbi-vəxamət[1] edir. Azadə və sərbəst könlüm atəşi-sevda ilə tutuşub yakılır[2], məni də yaxır. Belə keçərsə dayanamıyacağam, həmşirəsiz qalacaqsınız. Bu dəliqanlı gənc də bilmən necə bir adam? Onu sevdiyimi min dürlü ima işarətlərlə anlatdım. O isə çox soyuq, bilməm qəlbi buz parçasımı? Əsla əhəmiyyət verməyir. Ölürəm həmşirəm. Bu gün adını belə öyrəndim: Cavad, anladınızmı? Baxınız, adı belə nə qədər gözəl! Bu gün bir şey yapdım. Bu məzmunda ona bir məktub yazdım: "Bəy əfəndim! Sizlə əsla əlaqəsi olmayan bir qız tərəfindən yazılmış bu məktubdan əsla təəccüb etmiyəsiniz. Zira təbii bir hal. Bilsəniz nə qədər mütəəzziyəm[3]. Tam bir ay oldu, sevda denilən vərəmin pənceyi-qəhri altında əzilib, qəlbim, ruhum bütünə parçalanıb əriməkdədir. Bu nə hal? Bir kərrə belə üzümə baxmayırsan? Təqsirim nə? Sizi sevməkmi? Ona mən nə yapayım? O isə könülə rəbti olan bir şey. Sevda ixtiyarı olsaydı, minlərcə mənə doğru boynunu əymiş gənclərlə yapardım. Vicdanınıza əminəm ki, mənim kimi saf və sadə bir qızın ürəyinin həqiqi sərairini[4] qurnazlıqlara[5], bilməm nələrə həml etmiyəcəksiniz, deyilmi? Sevirəm sizi... hər an, hər dəqiqə sizi düşünürəm, sizinlə qonuşuram. Röyalarımı, xülyalarımı ancaq sizinlə keçirirəm. Ah, əyər siz də məni sevəcək, olsanız, bilsəniz bu zavallı qızı nə qədər sevindirəcək, məsud edəcək olursunuz. Cəsarətim əfv olunsun, eşq cünun deməkdir. Mən də bu dərdin ən qəvi[6] zəncirləri ilə sarılmış bir acizəyəm".

Bilmirsiniz, bu məktubu Cavad əfəndiyə necə təqdim etdim? Bakayım tədbirimi bəyənəcəkmisən, həmşirəciyəzim? Sevda elə bir şeydir ki, hər müşkül üçün yol bular, yalnız öz dərdinə çara bulamaz. Cavad əfəndi yenə adəti üzrə pəncərəmizin önündən keçirdi. Məktubu üsulluca yerə ataraq, arxasından: "Bəy əfəndi, bu məktub sizdən düşdü" dedim. Zavallı dəliqanlı geri döndü. Solğun baxışlarla, bir mənə baxdı, bir də yerdəki qapalı məktubu süzdü. Məktubu əyildi, götürdü,

---

[1] Kəsbi-vəxamət – təhlükə

[2] Yakılmaq – yanmaq

[3] Mütəəzziyəm – üzürlü

[4] Sərair – sirlər

[5] Qurnaz – hiyləgər

[6] Qəvi – qüvvətli

bir daha mənə baxmadan dönüb getdi. Fəqət çox dalğın idi. Zavallının bilməm bir dərdimi var, nədir? Mən onu düşündüyüm kimi, o kimi düşünür? Çıldıracağam həmşirəciyəzim. Ah, əyər elə olursa, yazıq mən...

Sitarə

Ciddi arqadaşım!

Siz romançısınız, fikriniz də çox əsaslı, çox mətin. Bu giriftarı olduğum mələkparə ilə aramızda olan vaqeatı götürünüz də bir roman yazınız. Bilsəniz, bu pəri yavrusundan saçılan sevda qığılcımları nə qədər qəlbimi rahətsiz edir. Bəradər, indi isə özümə daha yazığım gəlir. Zira o məndən daha məsud. O yalnız bir sevda vərəminin pəncəsində boğulursa, mən həm sevda, həm vicdan pəncəsində əzilməkdəyəm. İkincinin əzabı daha şiddətli deyilmi? Zavallı zövcəm yanıma oturaraq: "Cavad, neçə gündür çox düşüncəli, çox dalğınsan" – deyir. Bir üzri-məcul[1] ilə sirrimi, kədərimi gizləməyə çalışıram. Fəqət nə çarə, zahir batinin ayinəsi deyilmi? "Abe ruxsar xəbər midəhəd əz sirri-dərunəm"[2]. Bilsəniz, mənim bu əfsürdə və pərişanlığım bu zavallıya nə qədər təsir etmişdir. Onun da elə ölgün və dalğın haləti məni bir tərəfdən yakır, ruhumu, qəlbimi parçalayır. Bəradər, hər tərəfdən dərd, qəm dolu kimi üzərimə tökülür. Qorxuram altında əzilib qurtulamayım.

Alınız sizə Sitarəmdən bir maraq. Sitarə, anladınızmı?

Ah, nə qədər gözəl bir ad! İsmi ilə müsəmması[3] belə mütabiqdir: "Sitarəyi-sevda", "Sitareyi amal" deməkdir.

Dünən məşğələmdən evə qayıdırdım. Yenə pəncərələrinin önündən keçəcək idim. Ayaqlarım titrəyir, bədənim əsir, ruhum, qəlbim dar qəfəsdə məhbus bir quş kimi çırpınırdı. Sanki bu vərəmli, kədərli sinəm dar gəlmiş kimi onu qırıb, parçalamaq istəyirdi. Nə görürəm? O!.. Pəncərələrinin önündə yolumu gözləyir. Adətim üzərinə, ruhumla, vicdanımla çarpışaraq keçirdim. Birdən-birə arxamdan: "Bəy əfəndi, bu məktub sizdən düşdü", – deyən mütəəssir bir sədadan mıxlı kimi qaldım. Biixtiyar arxama döndüm. Gözlərim o sevdalı gözlərə dikildi. Gülürdü... Dodaqlarından çiçəklər saçılır kimi lətif-lətif gülüm-

---

[1] Üzri-məcul – saxta üzr

[2] Tərcüməsi: "Üzümün suyu daxili aləmimin sirrindən xəbər verir".

[1] Müsəmma – adlandırılmış

səyirdi. Başdan-dırnağa qədər bir atəşi-səyyal[1] bütün əsabımı titrətdi. Əyildim, məktubu alaraq odama çəkildim, Məktubu açdım. Təkrar sevə-sevə oxudum. Ah, başdan ayağa sevda və xülya! Doğrusu, bu zavallı və sadə qızın halına çox acıdım. Məktubumun cəvfində[2] göndərirəm, alınız da oxuyunuz. Bu qızdakı məhəbbət nə qədər sadə, nə qədər həqiqi olmaqla bərabər: "Qadınlarda sevgi olmaz, zira onlarda ürək yox. Onlar yalnız özlərini sevdirmək yolunu bilirlər" – deyə təriz[3] etdiyiniz fikrinizdən vaz keçək. Qadınların ürəklərində həqiqi məhəbbət bəslədiklərini etiraf ediniz! Fəqət bu gözəl məktubu yenə özümə qaytarmanızı rica edirəm.

Bəradəriniz Cavad

Fikrimin, qəlbimin süruru[4] həmşirəm Rəmziyyə!

Dərdim bir qat daha artmış. Göz yaşlarımı saxlaya bilmirəm. Get-gedə sirlərim faş olur. Validəm ağladığımı görmüş, zatən rəngi-ruyumun solğunluğundan dəxi əvvəlcə bir şey duymuşdu. Yanıma gələrək: "Nəyindir, qızım? Nə üçün kədərlənirsən?" dedi. Üzümü pəncərəyə çevirərək göz yaşlarımı qurutduqdan sonra, məcburi bir təbəssümlə sözünü kəsərək: "Nəyə kədərlənəcəyəm, nə var ki..." – deyə cavab verdim.

– Yox, yox, görürəm bu az vaxtda çox solmuş, çox dəyişmişsən. Hətta indi də ağlayırdın, – dedi.

– Ağlayırdım? Əsla!.. Zavallı qadın dolğun baxışlarla bir qədər məni süzdükdən sonra çıxıb getdi. Ah, yazıq dərd, kədərimdən bixəbər, bilməyir ki, bu canı qədər sevdiyi yavrusu, belə bir zəif əndam ilə, gecə-gündüz sevda deyilən bir qəhrəmanla pəncələşir, vuruşur... Qolaymı? Solmazmı? Dəyişməzmi?

Ah, həmşirəciyim, bu dərd məni öldürəcək. Bilmirsiniz, Cavada məktubu verdikdən bəri mənimlə necə bir muamilədə bulunur? Məni görməsin deyə indi soqaqın o biri tərəfindən, qaldırımdan[5] gedir. Baxınız bu hərif nə qədər soyuq, nə qədər məhəbbətsiz bir adam! Ruhum qədər sevdiyim bu dəliqanlını siz də biliniz, tanıyınız. Ah, belə adam-

[1] Atəşi-səyyal – axan atəş
[2] Cəvf – iç daxil
[3] Təriz – dolayısı ilə söz demək, işarə etmək
[4] Sürur – sevinc, şadlıq
[5] Qaldırım – səki

la sevda yapmaq nə qədər köç. Eşitdiyimə görə özü oxumuş, tərbiyəli, əxlaqlı bir zat. Bilməm onun mürəbbisi necə bir adam olmuş? Bu gözəl dəliqanlıya hər şeyi öyrətmiş, dünyadakı gözəl xəsalin[1] həpsini anlatmış da, yalnız məhəbbət nə olduğunu anlatmamış. O hərif nə qədər məhəbbətsiz, soyuq bir zat olmuş. Ürək yerinə içindəki bir parça daşmı imiş? Bilməm ki!.. Bu gəncin halı məni bütün-bütünə pərişan etmiş. Onun mənimlə belə müamiləsini siz nəyə həml edirsiniz? Yazınız! Allahı sevərsiniz, yazınız! Siz məndən daha təcrübəlisiniz.

Sitarə

Məsləkdaşım, adaşım!

Məktubunuzu aldım. O nə? Yenə fəlsəfəyə girişirsiniz. Canım, fəlsəfə ilə sevdanın nə münasibəti? Heç bir-birilərinə yaxın şeymi? Sizin qadınlar haqqındakı bəslədiyiniz bu hissi-ədüvvanə[2] bitmiyəcək, qurtarmıyacaqmı? Mənim Sitarəmin, o nazik və lətif ürəyindəki dağ çeşmələri qədər saf və həqiqi məhəbbətini alladıcı bir şöləyəmi təşbeh edirsiniz? Nə qədər soyuq təşbeh. Çox yanlışsınız bəradər! Məncə o göylərdəki yüksək ildızlar, sabit sitarələr qədər ülvi və parlaqdır. Onu heç bir şey söndürə bilməz! Mən isə əsla sizinlə şərik ola bilmərəm. Zira get-gedə qəlbimdə qadınlara nisbətən bir şəfqət, bir ülviyyət, bir mərhəmət doğur. Onların göylərdəki şəfəqlərə qədər yüksəlmiş, sərapa[3] bir ruhi-mücəssəm, bir pəri-vicdan olduqlarına etiqad etməyə başlayıram.

Alınız sizə Sitarədən bir şərarəyi-sevda... Sitarədən məktubu aldıqdan sonra bütün-bütünə heysiyyətimi qaib edərək mən də belə bir cavab yazmağa qalxışdım: "Sevdayi-amalım, Sitarəyi-iqbalım!" Tərcümani-dəruniniz olan dodaqlarınızdan tökülən məktubunuzu öpə-öpə təkrar oxudum. Məni sevirsiniz, demək! Ah, bilsəniz nə qədər bəxtiyaram! Sizin kimi bir firiştəyi-sevda tərəfindən sevilmək, dünyadakı amalımın ən gözəl bir şükufəsidir[4]. Ah, bilirmisiniz gözəlim, şux, şən dilbərim, nə istərdim? Bütün ömrümü sənin lə keçirmək, o uzun kirpiklərinizin arasından bayğın baxışlı, qara gözlərinə doyuncasına qədər baxmaq, ondan müdam ayrılmamaq istərdim".

---

[1] Xəsail – xasiyyətlərlər, təbiətlər

[2] Ədüvvanə – düşməncəsinə

[3] Sərapa – başdan ayğa, bütün

[4] Şükufə – çiçək

Bilirmisən bəradər, bu məktubu bir kərrə oxudum, təkrar bir daha, bir daha... Üçüncüdə əndamımı atəşin bir tər aldı. Ürəyim çırpınmağa, əllərim, ayaqlarım titrəməyə başladı. Tüklərim bədənimdə tikən-tikən kəsildi. Sanki səmadan üzərimə saiqələr[1] tökülür kimi oldum. Ah, yenə vicdan əzabı! Zavallı zövcəciyəzim dalğın baxışlar və solğun çöhrəsilə boynunu əyərək önümdə mücəssəm oldu. Rəngsiz dodaqlarını qımıldadaraq çox məyus və həzin bir səda ilə: "Cavad, Cavad, mən sənin olduğum kimi sən də mənimsən. Mən səni başqasına vermərəm" – deyə xülya kimi bir anda qeyb oldu. Qəlbimdəki riqqətdən bütün əsabım titrəməyə başladı. Məktubu büküb, masamın çəkməcəsinə soxdum. Böyük bir qəbahətdə bulunduğumu anladım. Mütəəhhil bir erkək tərəfindən sadə, məsum bir qıza elə-belə müamilədə bulunmaq nə qədər alçaqlıq, vicdansızlıq olduğunu anladım. Ah, əyər mütəəhhid olmasaydım, nə qədər bəxtiyar idim. İndisə, bəradər, çox fəna bir mövqedəyəm. Hər iki tərəfim dəhşətli. Əyər bu tərəfə mayil olursam, mühit, vicdan məni boğacaq və əyər bu tərəfi tutursam, atəşi-sevda məni yakacaq, ruhumu parçalayacaq olur. Nə edim, söyləyiniz, nə edim? Əlavə, zavallı zövcəciyim də mənimlə fəna müamilədə bulunmamış, çocuq kimi məni sevmiş, süsləmiş. Bir dəqiqə belə mükəddər olmama macal verməyərək dürlü-dürlü təltiflərlə, mərhəmətlərlə könlümü almış, canı, ruhu qədər sevmişdir. Bilsəniz indiki dalğınlığım zavallı qadına nə qədər təsir etmiş və soldurmuşdur. Onu indi necə atım? Vicdanımı, namusumu necə parçalayım? Bu üç-dörd sənə zərfində tikdiyi sıcaq[2] yuvasını necə dağıdım? Vicdana yakışır şeymi? Siz söyləyiniz, bəradər, mümkünmü? Ah, mən isə düşünməkdən saçlarım belə ağardı.

Cavad

Sevgili Rəmziyyəm!

Məktubunuzu aldım. Əhvalıma çox acımışsınız. Təşəkkür edirəm, həmşirəm! "Ağlamaqla, sızlamaqla bir şey çıxmaz, səbir və mətanət lazımdır", – deyirsiniz. Ah, ah, həmşirəm, o əski mahnının qulaqlarımın ucunda bir sinək[3] vızıltısı qədər belə təsiri yox. Səbir ilə sevdanın nə münasibəti? İki mütəzadd[4] şey bir ürəkdə birləşərmi?

---

[1] Saiqə – ildırım

[2] Sıcaq – isti

[3] Sinək – milçək

[4] Mütəzadd – bir-birinə zidd

İndi üç gündür görmürəm. Dəli oldum. Müdhiş fikirlər, düşüncələrlə başımı əllərim içinə alaraq taleyimə, bəxtimə lənətlər yağdırır, gizli-gizli gecələri, gündüzləri ağlayır, sızlayıram. Validəm dün qonşu xanımgildə idi. Yalqızlıqdan istifadə edərək hıçqırıqlarla çocuq kimi ağlayırdım. Xalam mənim ağladığımı görürmüş. Əvvəldən bir şey anladığından, məni təqib edirmiş: birdən-birə içəri girdi. Göz yaşlarımı qurutmağa macal verməyərək, məni iki qolları arasına aldı. Sıxı-sıxı qucaqladı: "Yavrum, quzum, bilirsən ki, mən səni nə qədər sevirəm? Canım qədər, ruhum qədər! Çoxdan bəri səni çox dalğın, solğun görürəm. Hətta bir neçə kərə ağladığını belə görmüşəm. İndi də ağlayırdın. Söylə, baxım nə üçün?" Sözünü bitirməyə macal verməyərək: "Heç, babamı xatırlamışdım" – dedim. "Yox, yox məni aldadammazsan. Məndən sirrini saxlamağı bir dürlü anlamıram. Səni nə qədər sevdiyimi, çocuqluqdan qollarım üzərində böyüdərək bir ana qədər əmək verdiyimi zatən bilirsən. Bizim aramızda gərək heç bir şey hail[1] olmasın gərək. Sənin belə solğun, dalğınlığını bir dürlü çəkəməm! Çabuq qızım, söylə!" Bu sözləri deyərkən məndən bir cavab ala bilməyəcəyini görüncə boynuma sarılaraq: "Quzum, mən işdən azacıq müxbirəm. O hər gün pəncərəmizin önündən keçən sarışın gənci sevmişəm, deyilmi? Yenə qızardın. Bunda qızaracaq nə var ki? Söyləsən a... Bu işdə mən sənə çox mənfəətli olaram. Gizli tutmaqdan nə çıxar?". İçimdən anlaşılmaz bir hiss: "Söyləsən a, nədən qorxursan? Səndə sevməyə ürək olduğunu, qoy dünya bilsin!". Boğunuq bir səslə: "Əvət sevirəm!" – dedim. Fəqət özümü mühafizə edə bilməyib hıçqırıqla ağladım. "A, daha nə üçün ağlayırsan? Bu çox gözəl, qızım!" Sevmək ayıbmı? İndi artıq bir az da sənli-mənli qonuşalım. De baxım, o da səni sevirmi? A, yenə qızardın ki... Utanma qızım. Mən hər halda sənin dərdinə çara aramaq fikrindəyəm. Səni belə ölgün, solğun gördükcə həyatım zəhərlənir, ölürəm. De, bakayım, aranızda mükalimə olmuşmu?". Məyusanə bir səslə: "O tərəfdən heç bir şey yox", – dedim. "Onu sevdiyini bilməyirmi?" – "Bilir!". Zavallı qadın sallandı, dərin bir fikrə daldıqdan sonra: "Qızım, sən özünü üzmə, hər necə olursa mən onunla görüşərək əhvalatı bilərəm", – dedi. Artıq çıldıracaq idim. Bilmirsən, həmşirəciyəzim, bunlar mənim üçün nə qədər böyük təsəlli idi. Bu sözlərdən atəşnak ürəyimə bir buz parçası qoyulan kimi idi.

[1] Hail – maneə, gizli

Xalamın aqilə bir qadın olduğunu zatən bilirsiniz. Bu işdə doğrudan-doğruya mənə çox mənfəəti olacağına əminəm.

Gecəni çox dadlı xülyalarla uyudum. Yalnız bir kədərim var isə o, daha Cavadı üç gündür görmədiyimdən ibarətdir. Sizdən başqa bir daha həmsirrim bulunduğuna çox şadam. İndilikdə bəxtiyaram. Baxım sonu nə olacaq? Xudahafiz. Əlinizi sıxıram.

Sitarə

Ciddi qardaşım!

Üç gündür xəstəyəm. Üzərimə dağ parçası kimi yuvarlanan atəşi-sevda, nəhayət məni yatağa sərdi. Çox zəif, çox dalğınam. Zəfimdən əllərim, ayaqlarım belə titrəyir. Dün axşam isitmişdim. Şiddəti-hümmadan[1] bir dürlü sayıqlamışam, onu xatırlamışam, saçma sözlər söyləmişəm. Bu gün zavallı zövcəm yatağıma yaklaşaraq quru, gəmik[2] əllərimi əlləri içində oxşayaraq: "Quzum, Cavad, indi maşallah yaxşı-san. Dünən gecə çox dalğın idin. Hətta bir para saçma sözlər söyləyir-din", – dedi. Sonra rəngsiz dodaqlarından məyusanə bir təbəssüm çıtlataraq əlavə etdi: "Sitarə, Sitarə deyirdin. Saçma sözlərindən yalnız bunu xatırlayıram". Dərhal gözlərim gözlərinə dikildi. Zavallı qadın bir şey anlamış kimi, gözlərini aşağı endirərək, qaşlarının ucları şid-dətlə əyildi. Mükəddər və dolğun bir əda ilə əllərimi oxşayırdı. İçin-dəki dərin bir fırtınadan, üzündə, alnında qaranlıq dalğacıqlar uçuşur-du. Bilməm nədənsə, hər zamankı kimi riqqət və məhəbbət əvəzinə qəlbimdə dərin bir qüvvət və mətanətdən başqa bir nifrət hissi edir-dim. Bu qadını artıq görməməyə başladım. Zira ki, o tərəf çox güclü, bir maqnit kimi bütün-bütünə ruhumu, qəlbimi özünə cəlb edir. Artıq dayanmıyacağam, hər necə olursa-olsun bir şeyə qərar verəcəyəm. Ola bilər ki. çox böyük, çox məcnunanə bir şeyə qərar verdim. İndilik bilmirəm. Bu qədər ki, bəradər, uçuruma doğru gedirəm. İrəlidə mə-ni böyük bir qəza qarşılayacağını hiss edirəm. Mazi isə çox bəxtiyar, hal isə çox fəna, istiqbal isə çox qorxulu, çox dəhşətli! Mövla[3] baxa-lım nə eylər!..

Bəradəriniz Cavad

---

[1] Hümma – üşütmə-qızdırma

[2] Gəmik – sümük

[3] Mövla – sahib, Allah

Sevgili həmşirəm!

İndi on beş gün oldu, məktubunuza cavab yazmadım. Zira çox dalğın idim. Zatən xəstə idim. Bilsəniz bu on beş gün mənim üçün necə keçdi? Bir cəhənnəm əzabı. Bundan daha o, dumanlı, qaranlıq günləri xatırlamıyacağam, siz də unudunuz. Zira artıq bəxtiyar oldum. Sitarəyi-iqbalım qaranlıq buludlar altından qurtulmağa, lətif-lətif üzümə gülməyə başladı. Dünəndən bəri həyatım bütün-bütünə dəyişmiş, Cavad bəy, artıq mənimlə qonuşmağa, sevişməyə başlamış. Bəxtiyar olmazmıyam? Sevincimdən çocuq kimi hoppanıram. Hüzn, ələmdən hər zaman qovrulmuş dodaqlarım, indi isə gülümsəməyə yeni alışır, bir çocuq kimi hər dəqiqə, hər zaman təbəssümlər, nuşanuş xəndələr saçır. Gecəni çox rahat keçirdim. Ağır bir xəstəlikdən yeni-yeni qurtarmış bir çocuq kimi uyudum. Artıq bir daha gözlərimi açdıqda, günəş doğmuş, pəncərədən sürmə telli saçlarını üzümə dağıtmışdı. Sanki məni təbrik edirdi. Hava o qədər gözəl, o qədər lətif idi ki, nəfəs aldıqca ruhum, qəlbim kəsrəti-zövq və şadidən dünyanı iki qolları arasında qucaqlayan bəxtiyar bir sərməst kimi içimdə uyuyurdu. Ara-sıra pəncərənin barmaqlığından adamın içini oxşayan sərin bir nəsim tellərimi üzümə, gözümə dağıda-dağıda məni oxşar kimi olurdu. Hər şeydə bir təzəlik, bir gözəllik hiss edirdim. O qədər şən, o qədər məsud idim ki, səadət gözlərimi qamaşdırır, məni boğur kimi olurdum. Yatağımdan sıçradım. Çocuq kimi qoşaraq özümü validəmin qolları arasına atdım. Sıxı-sıxı boynuna sarıldım. Çoxdan bəri bir şəfqət görməyən zavallı qadın özünü şaşarmış bir halda mətin təbəssümlə məni salamladı. Başımı köksünə sıxaraq: "Dəli qızım" – deyə öpdü, qucaqladı.

Ah, həmşirəciyəzim, mən sizə Cavad bəy ilə görüşməmiz barəsində yazmaq istərkən bax necə öz bəxtiyarlığımı uzun-uzadı şairanə lövhələrlə tərsim etməyə çalışıram. Darılmayınız həmşirəm, sevinc məni dəli etmiş. Bilirmisiniz necə oldu? Bu günkü kimi gözəl bir gün idi. Pəncərənin önündə başımı əllərim içinə alaraq onu düşünürdüm. Uzun-uzadı qəlbimdəki xələcan[1] və iztirabdan köksüm qabardı. Arxasınca: "Ah, yarəb! Yakıcı xuni-ələmdən[2] heçmi qurtulmayacağam?" ibarəli dolğun-dolğun, qırıq-qırıq dodaqlarımdan tökülməyə və iki qətrə yaş kirpiklərim arasından süzülə-süzülə bir kürə şəklində ya-

[1] Xələcan – titrəmə, döyünmə

[2] Xuni-ələm – ələmli göz yaşı mənasında işlənmişdir

naqlarıma doğru yuvarlanaraq bu atəşin kəlmələrlə birləşdiyi zamanda idi. Birdən-birə: "Xanım əfəndi!" Bu sədadan gözlərimi açdım. Nə görürəm? O... İnanmırdım... Göz yaşımı məndilimin[1] ucu ilə qurudaraq önümdəki ay kimi bətsiz-bənizsiz bir vücuda baxdım. Əvət, yanılmırdım, Cavad bəy idi!. Bir dəqiqə söz söyləmədən gözlərimiz bir-birinə dikildi. Bir az sonra sözə başlayaraq: "Xanım əfəndi, yazdığınız məktuba təşəkkür edirəm. Fəqət cavab yazmadığımdan çox darıldınız, deyilmi? Əfv edəcəyinizə əminəm, zira məzur idim. Başqa bir səbəb var idi. O səbəb qaldırılınca, sizinlə görüşməyə, mükaliməyə haqlı deyil idim. İndi isə, o səbəblər bütün-bütünə qaldırıldı. Artıq mən də sizin kimi sərbəst və azad oldum. İndi isə mən də deyə bilərəm: Gözəl mələkim! Şayani-pərəstiş dilbərim, mən də sizi sevirəm, canım qədər, ruhum qədər sevirəm". Bu sözlərdən, ələlxüsus son kəlmələri o qədər gözəl, o qədər dadlı bir ahəng ilə əda etdi ki, hər kəlməsi qulaqlarımın ucunda bir bülbül şaqırtısı kimi ruhumun ən incə tellərini titrədirdi. Mən isəm, usanclıqdanmı, kəsrəti-sevincdənmi, nədənsə cansız bir heykəl kimi mat-mat üzünə baxırdım. Söylədiyi laqqırtını məhkəməxanalarda əmalını dinləyən bir qatil kimi dinləyirdim. Bu sözləri bitirər-bitirməz: "Xanım əfəndi, nə üçün ağlayırdın?" – dedi. Həzin bir təbəssüm çıtlataraq: "Heç", – dedim. "Mənimi düşünürdün?" – dedi. Cavab verməmək bəhanəsilə əllərimlə üzümü qapadım. "Qapa, qapa, – dedi, – artıq mən də gedirəm, zira bundan ziyadə sənninlə qonuşmağa, o dəlicəsinə sevdiyim gözlərinə doyuncasına qədər baxmağa məndə taqət yox! Atəşi-şövqün məni yakır. Ruhunun şüası ruhumu parçalayır, əridir. Dizlərimi taqətsiz, dərmansız buraxıram. Bunca səadət və bəxtiyarlıq məni boğur kimi olur. Uf, Allahım, lütfən bu yenicə nail olmağa başladığım səadəti doyuncasına görməyə mənə bol-bol qüvvət ehsan et! Müsaidənizlə, bundan daha hər gün görüşəcəyik", – deyə ayrıldı. Arxasından dəlicəsinə bir aşiq kimi baxırdım. Soqaqı döndükdə bir baha baxışdıq. Artıq getmişdi. Fəqət ən sondakı: "Artıq hər gün görüşəcəyik" kəlmələri indi də bir musiqi telləri kimi ruhumun ən ümqünü[2] titrədir. Sevinirmisən həmşirəm? Artıq nə bəxtiyar oldum. Bundan daha bir məsud çocuq kimi yaşayacağam, deyilmi? Artıq yaza bilmirəm. Nail olmağa başladığım səadət məni də

[1] Məndil – yaylıq

[2] Ümq – dərinlik

boğur. Lütfən cavabınızı bəkləyirəm. Əlavə Cavad bəyin şəhri rəf olduğu səbəbi siz nəyə həml edirsiniz? Yazınız, rica edirəm yazınız. Xudahafiz həmşirəciyəzim. Xudahafiz...

Sənin xoşbəxt həmşirən Sitarə.

Sevgili qardaşım!

Məktubunuzu aldım. Fəqət sonundakı: "Baqi vicdanlarda mətanət, məsləklərdə davam və istiqamət" kəlmələri birər nəştər kimi bağrımı deşdi. Rica edirəm bəradər, bir daha o sevmədiyim kəlmələri yazmayasınız. Zira o kəlmələr qəlbimi ümqündə çox qərib, çox qorxunc düşüncələr oyadır. Artıq o vicdan dediyiniz şey üzərimə vulkan kimi fışqıran dağ parçası kimi yuvarlanan atəşi-sevda içində parçalandı, məhv oldu. Nə yapım? Məcbur idim, başqa cür yapa bilməzdim, onu sevirdim, onu! Onun uğrunda bütün sərbəstliyimi, həyatımı, vicdanımı fəda etməkdən belə çəkinməyirəm. Ah sevda, sevda, nə qədər anlaşılmaz bir şey?! Bir zaman tülküsifətli, dovşan ürəkli bir adamı, qızmış aslan kimi, dağları, daşları dolaşdırır, bir zaman daha aslan ürəkli bir adamı tülkü kimi qurnazlıqlara, alçaqlıqlara endirir...

Əlavə, indisə mən həyata başqa cür baxmağa başladım. İçində yaşadığımız aləm bir mübarizəyi-həyat deyilmi? Hər kəs öz məsudiyyəti üçün əlləşmək, vuruşmaq, özünü təhlükələrə ilqa[1] etmək bədəvi-xilqətdən bu anə qədər təbiətin xəlq etdiyi bir gücdən başqa deyil də nədir? Belə isə mən nə üçün yapmayayım? Bir dəfə belə olursa bəxtimi imtahan etməyəyim? Mənim bu fikrimə, siz mütləq inad edəcəksiniz və bir daha "eqoist" deyə nam verəcəksiniz. Hər nə deyirsiniz deyiniz, fəqət mən bu tutduğum yolu buraxmayacağam. Nəhayətinə qədər gedəcəyəm. Bu yol məni nereyə çıxarırsa çıxarsın. Bəsa[2] olur ki, noşükuftə[3] bir həyata yetirsin, bütün həyatımı səadətlə keçirməyə müvəffəq olum. İnanınız bəradər, bu yaşadığımız aləmdə zülm, rəhm yox kimidir. Yalnız bir güc var. Hər kəs güclü isə haqlı olur.

İndi beş gündür ki, sərbəst və azad bir quşam.

Zira artıq zövcəmlə qəti-əlaqə edərək, bilkülliyyə ayrıldıq. Əhvalatı sizə müfəssələn yazmaq, o qaranlıq və dəhşətli faciəni bir daha

[1] İlqa – atma

[2] Bəsa – çox

[3] Noşükuftə – yeni açılmış

xatırlamaqla, həyatımı qaraltmaq istəməm. Bu qədər ki, indi bəxtiyaram. Yalnız onu düşünürəm, andan başqa fikrim yox.

Tam bir saat dünən pəncərələrinin önündə qonuşduq. Dəlicəsinə aşiq olduğum uzun kirpikləri arasındakı bayğın gözlərinə doyuncaya qədər baxdım. Usanclıqdan qızarmış, bozarmış bir halda ara-sıra sərin bir nəsim, tellərini üzümə, gözümə dağıdarkan, mini-mini bəmbəyaz əlləri ilə tellərini toplayaraq üzümə bir nəzəri-dilfiribanə[1] fırladırkən ruhumu bir maqnit kimi çəkirdi. Ara-sıra onunla məhəbbətdən danışarkan, məhcub bir əda ilə qızarmış yanaqlarını tunbul-tunbul əllərilə qapayaraq, kiçik barmaqları arasından baxırdı. Ah, əlləri belə nə qədər gözəl, sevimli, oxşamlı, tumbul-tumbul, bəmbəyaz, bir atlas parçası kimi. Üzərindəki kiçik-kiçik çuxurcığazlar gözəlliyini bir qat daha artırmışdı...

Cavad

Rəmziyyə xanım!

Bəxtiyarlığın ilk şəfəqinə qarşı bir bənəfşə kimi, yenicə açılmağa başlayan şükufəyi-həyatım bu gün yenə də ürəyimin ümqündən qopan bir fəryadi-dilxiraşilə[2] qaralmağa və sərsəri-xunü ələmlə[3] solmaqla, məhv olmağa başladı. O günkü gözlərimi qamaşdıran şüa, bir möhtəzirin[4] son nəfəsində üzünü saran müvəqqəti, aldadıcı nurdan başqa bir şey deyilmiş!.. Ah, bu həyat nə qədər anlaşılmaz bir şey! Dünənki şadilər, xəndələr, qəhqəhələr, bu günkü fəryad, ələm, xələcan, həp nədən?

Həmşirə canım! Əyər dünən orada vüqu bulan şiddətli dramanı görsəydiniz, mütləq bir çocuq kimi bağırıb ağlardınız.

Axşam üzəri, saat beş radələrində idi. Hənuz bəxtiyar idim. Qaryolamda[5] uzanıb gözlərim bir nöqtəyə dikilmiş olduğu halda onu düşünür, onunla qonuşur, onunla sevişirdim. Gözlərimi qapadıqca, solğun bətbənizi ilə önümdə mücəssəm olaraq: "Xanım əfəndim, bilsəniz sizi nə qədər sevirəm? Ruhum qədər, canım qədər", – deyə yorğun gözlərini qırpmaqsızın üzümə dikərək dururdu. O rəngsiz dodaqlarından tökülən atəşin kəlmələr, qulaqlarımın ucunda bir musiqi telləri

[1] Dilfirib – könül aldadan, əyləndirici

[2] Dilxiraş – ürək incidən

[3] Sərsəri-xunü ələm – qan və ələm küləyi

[4] Möhtəzir – can çəkişən

[5] Qarayola – çarpayı

kimi ruhumu oxşamaqda idi. Çox şən, çox bəxtiyar idim. Birdən-birə bir hissi-məchuldən dimdik qalxdım. Ümumi otağa qoşdum, nə görürəm? Nazik, gənc bir qadın ağlamaqdan nəfəsi tıxanmış, hıçqıra-hıçqıra bir para anlaşılmaz şeylər söyləyirdi. Anlaya bilmədim. Bir sandaliya üzərinə oturdum. Üç, dörd radələrində bir qız çocuğu zavallı qadının umuzuna dirsəklənərək iri gözlərini anasının üzünə dikib dalğın-dalğın baxırdı. Gözlərimi o məsum qızcığazdan götürməz oldum. Zira bilsəniz Cavada nə qədər şəbahəti[1] var idi.

Fəqət, içəri girməmdən odanı ağır bir sükut qapladığından pozuldum. Anam da dalğın, çox darğın idi. Qaşlarının ucları aşağıya doğru şiddətlə əyilmiş, alnını, üzünü gözlərinin içinədək bir rəngi-zəfərani almış, ara-sıra gizli-gizli qəlbinin ümqündən fışqıran seylabi-hiddətdən[2] üzündə kölgə kimi qaranlıq dumanlar uçuşurdu. Onların belə vəzindən artıq mən də darılmış və dolmuşdum. Qapı ucundan xalanın etdiyi kəskin bir işarətdən, dərhal dışarı fırladım. Artıq gözlərimdən atəşin damlalar yuvarlanmağa başlamışdı. Özümü zəbt edə bilmədim. Biixtiyar xalanın boynuna sarıldım. Sıxı-sıxı qucaqlayaraq hönkür-hönkür ağladım. Zavallı qadın çox mütəəssir olaraq: "Gözəl qızım, Allah eşqinə toxta, toxta", – deyə yalvarmağa, təsəlliyə çalışırdı. Artıq bir az özümü toplayaraq sofanın[3] üzərinə oturdum. Xala da yanıma oturaraq, əllərimi əlləri içində oxşamağa başlamışdı. Birdən-birə: "Bax, qızım, görürsən, tanımadığı bir adamla sevda yapmaq, insanı nə fəna nəticələrə sövq edir? Mən zatən həman gün Cavadın mütəəhhil olduğunu bildim. Həqiqət, bu gün bu zavallının halına acıdım. Cavad bəy çox mürvətsiz bir şey yapmış, hələ bu mini-mini məsum yavrusu nə?" – sözlərini bitirər-bitirməz, bilməm necə bir can kimi hayqırmışam: "Ah, necə? Cavad evlimi?". Sadə qadın məni işdən müxbir sanırmış. İndi isə şaşalamış[4], özünü şaşırmış bir halda: "Qızım, mən zənn ilə söylərəm, zənn əksərən xəta bulur. Olur ki, onun zövcəsi olmasın. Mən, anan bilərəm də bu gün doğrusunu sənə söylərəm" dedi. Fəqət heyhat! Bu sözləri təqib, qəlbimin ümqündən qopan bir səyihədən[5] durduğum yerdə bayılmış, getmişəm. Bir daha başım üzərində zavallı

[1] Şəbahət – oxşarlıq
[2] Seylabi-hiddət – hiddət seli
[3] Sofa – divan
[4] Şaşalamaq – çaşıb qalmaq
[5] Səyihə – bağırma, qışqırıq

anacığım ağlaya-ağlaya: "Qızım, qızım Sitarə, məni öldürmə.." – deyən xələcanlı səsdasından gözlərimi açdım. Artıq axşam olmuş, mumlar[1] yanmış, bəxtim kimi hər yeri həzin bir qaranlıq istila etmişdi. Gecəni çox narahat keçirdim; zatən uyuya bilmədim. Mühkiməyi-vicdan hər an məni ağır-ağır zəncirlər altında boğur, ruhu xırpalayır, çox qorxunc, çox müdhiş uçurumlara doğru sürükləyir.

Ah, yarəb, bunca cəzalara müstəhəqqmiyəm[2]? Bu fənalıqlara səbəb mənmi oldum? O zavallı qadının yuvasını mənmi dağıtdım? O məsud ürəyi mənmi parçaladım? Məhəbbətlə bərkimiş iki qəlbi bir-birlərindən mənmi ayırdım? Hələ o, məsum yavrusunun, ah, ah, o nazik dalın[3] elə solğun-dolğunluğuna səbəb mənmi oldum? Bu acı suallar üzərində bütün-bütünə şaşırırdım. Özümü aldatmaq, vicdanımı ləkədar etmək kimi vəsilələrə qalxışaraq, mütərəddidanə başımı sallayarkən, dodaqlarımdan bir daha yavaşca "mənmi?" sualı çıxar-çıxmaz içimdən: "Əvət, sən! Sən!" – deyə müdhiş bir səda bütün əndamımı rəşədar edir. Qəlbimdə müdhiş uçurumlar, fəlakətlər doğurur. Ah, vicdan əzabı nə qədər acı, nə qədər müdhiş!

Nəhayət, bir şeyə qərar verməli idim. Bu gün Cavad bəyə bir məktub yazdım. Mənimlə bir daha görüşməmək şərtilə, Allah eşqinə, o zavallı qadını yenə sevmək, sevindirmək, parçalamış olduğumuz ürəyini yenidən təmir etmək kimi tövsiyələrdə bulundum. Ah, əgər sözümü tutacaq olursa, nə qədər sevinərdim. Artıq bu cəhənnəm əzabından qurtarıb da başımın çarəsini arardım. Hər halda həyat mənim üçün çox müdhiş görünür. Zira əgər öz məsudiyyətimi tutur, sevdiyim bir gəncin mənə doğru çəlipa kimi açılmış qolları arasına atılır olursam mühit və vicdan məni boğacaq olur. Əgər bu dörd divar arasında onu düşünərək sarala-sarala atəşi-sevda içində əbədiyyət üzərə yuvarlana-yuvarlana imrari-həyat edərsəm, bu daha güc, çəkəməm. Zira Cavadı çox sevirəm. İndi artıq onu görə bilmirəm, ondan nifrət edirəm, fəqət yenə də sevirəm, nə yapayım? Yox, yox, ondan ayrı yaşamaq, onu görməmək... Of, yenə çıldırıram... Bu qədər ki, həmşirəciyəzim, böyük bir şeyə qərar verəcəyəm.

Sitarə

---

[1] Mum – şam

[2] Müstəhəq – haqlı

[3] Dal – budaq

Bəradərim, nəhayət hiss etdiyim o müdhiş bir fəlakət məni qarşılamağa, önümdə dərin-dərin uçurumlar açmağa başladı. Dünən Sitarədən məktub aldım. Zövcəm onlarda imiş. Ağlamış, sıtqamış, əhvalatı tamam anlatmışdır. Zavallı qıza bu faciə çox təsir etmişdir. Baxınız nə yazır: "Bəy əfəndi, daha dünən, ah o bəxtiyar olduğum, dünyalara sığmadığım gün, pəncərəmizin önündə bir kanareya kimi şaqır-şaqır ötərək: "Gözəl Sitarəm, indiyədək, sizinlə mükaliməyə girişməyə vicdanca haqlı deyil idim, zira bir səbəb var idi", – söylədiyiniz cümlələr mənim üçün bilsəniz nə qədər mübhəm, nə qədər qaranlıq idi. Gecəni bu səbəbin nədən ibarət olduğu yolda düşündüm. Başımı yordum, anlaya bilmədim. Nəhayət, o söylədiyiniz səbəb bu gün meydana çıxdı, anladıq. Üç sənəlik bir rəfiqi-canı tərk etmək, bilməm nə böyük arzularla, ümidlərlə, sevə-sevə yenicə yapdığı yuvasını dağıtmamaq, başqasilə münaqişəyə girişməyə haqlıymısınız demək? Ey maşallah bəy əfəndi, bu bilicilik sizə neredən? Kaş ki, o erkəklərə məxsus bir istiqamət və vüqar ilə vicdanınızı hifz etməklə məni bu atəşin sevda içində o qədər yakaydınız, məhv oluncaya qədər. O mənim üçün çox güvara[1], çox qolay idi. İndi əzizim, mən eşqimi, bu zavallı qadına fəda etdim. Rica edirəm, siz də, siz də elə yapınız, rica edirəm. Yenə də zavallı zövcənizlə birləşərək, məni bu cəhənnəm əzabından qurtarınız! Uf! Bilsən məni nə dərəcədə sevindirəcək olursunuz. Artıq mühakiməyi-vicdaniyyədən qurtarıb başımın çarasını araram.

Sitarə"

Heyhat, bir daha mən bu əmrə qadir ola biləcəkmiyəm?

Sitarədən ayrı yaşamaq, o sevdayi gözləri görməmək, ah, nə qədər ağır bir əmr, nə qədər böyük təklif. Yox, yox, bunu mən çəkə bilmərəm, özümü boğaram, intihar edərəm. Yarın gedib ayaqlarına qapanacağam, ağlayacağam, yalvaracağam, qəbul etməz olursa, özümü o sevdayi gözləri önündə vəhşiyanə bir tövrlə qətl edəcəyəm. Baxalım sonu nə...

Cavad

Rəmziyyəm!

Zira mühakiməyi-vicdaniyyə bir an məni rahat buraxmayır. Artıq həyatımın hər dəqiqəsi, qəlbimin hər bir çırpıntısı mənim üçün ağır bir

[1] Güvara – asan

məsiyət[1] və böyük bir günahdır. Zira mükəddər çöhrədən, həzin bir quş sədasından, adi bir nəğmədən, ufaq bir ahəngdən göz yaşları axıdaraq mütəəssir olan ürək bir insan ürəyi parçalamaqdan mütəəssir olmazmı? Bundan fəna nə ola bilir? İndi həyat mənim üçün çox dəhşətli görünür. Hər zaman gözlərimi qapar-qapamaz o zavallı qadın solğun və küsgün bət-bənizi ilə önümdə mücəssəm olaraq, zəfindən yaşıl damarları çıxmış gəmik əllərini mənə doğru uzadaraq, hıçqıra-hıçqıra mühib[2] bir səda ilə: "Çapqın[3] qadın çabuq[4], çabuq! Rədd et mənə zövcimin cəlb etdiyi qəlbini, rədd et!" – deyə bağırır. Xələcanlı bir halda gözlərimi açarkən, dəhşətimdən gözlərim qaralır, başım fırlanır, gəmiklərimi acı və ağır bir qüvvət çatır-çatır sıxır. Bağırmaq, ağlamaq istərəm. Fəqət heyhat!.. Bir şey nəfəsimi tıqır, məni boğur kimi olur. Saatlarca əllərimlə üzümü qapayaraq, durduğum yerdə donmuş bir heykəl kimi dururam. Görürmüsən həmşirəm, qəza mənim üçün necə səfil tuzaqlar[5] qurmağa başladı.

Fəqət sevgili həmşirəm, məni unutmayacaqsınız, deyilmi? Bilirmisən nə zaman? Həzin bir qaranlıq gecənin müdhiş sükunəti içində sıxı-sıxı yarpaqlar arasına sığınmış zavallı bir quşcuğazın acı-acı fəryadi-dilxəraşı ara-sıra qulaqlarınıza çarpdıqca, məni xatırlayaraq, məni düşünün!

Yaxud günəşin şüaati-zərrini içində parıl-parıl parlayan şəbnəmlərə qərq olmuş bir bənəfşə, səhərlərə məxsus sərin bir ruzigara qarşı lətif-lətif şükuftələnməyə[6], gülümsəməyə başlarkən, axşamına nagahzühur[7] bir badi-sərsərdən pamali-türab[8] olduğunu görüncə, ruhum, rəvanım, həmşirəm, məni yad et!..

Yainki, göz işlədikcə, çiçəklərlə bəzənmiş zümürridin bir çəmənzar üzərində şatır münəqqəşpər[9] bir kələbək[10], canlı bir çiçək kimi se-

---

[1] Məsiyət – günah

[2] Mühib – heybətli, qorxunc

[3] Çapqın – sərsəri; işrət dəlisi

[4] Çabuq – tez, sürətli

[5] Tuzaq – tələ

[6] Şükuftələnmək – açılmaq

[7] Nagahzühur – birdən-birə meydana çıxan

[8] Pamali-türab – torpağa qarışmış, alt-üst olmuş

[9] Münəqqəşpər – naxışlı qanad

[10] Kələbək – kəpənək

vinə-sevinə, xəfif-xəfif, gurultularla, çiçək-çiçiək dolaşır. Sevincindən o müləvvən[1], parlaq qanadlarını oynadaraq, mini-mini xortumunu, sevdiyi, o dəlicəsinə aşiq olduğu çiçəyə, hərisanə bir surətdə uzadır. Birdən-birə havada bir təğəyyir, bir pozğunluq: bir anda səmanı kəsif səhabələr[2] qaplamağa başlayır. Birdən-birə şiddətli bir ildırım bu səhabı qamçılayaraq göyün bir səmti yarılır kimi olur. Şiddətli bir yağmur sel kimi yağmağa başlayır. Ah, artıq bu canlı çiçək, o zavallı kələbək neredə? Bir saatdan bəri bir çiçək yarpağı kimi yerlərə sərilmiş, pamali-türab olaraq, həyati-nazənini bitmiş, məhv olmuşdur. Gözəl Rəmziyyəm, hər zaman bu lövhəyi-qəmfəzanı görürkən, düşünürkən məni xatırla, mənim üçün ağla!.. Zira bunların həpsindən məzlum, həpsindən bədbəxt mən oldum!..

Artıq yaza bilmirəm, əllərim titrəyir, qəlbim çarpır, əsabım oynayır, beynim dumanlanır. Xudahafiz. Öpürəm sizi.

Didarınıza həsrət Sitarə

Sevgili qardaşım!

Tam on gündür Sitarədən bir xəbər bulmadım. O faciəyi-əlimədən sonra fikrən, cismən xəstələnmişdim. Səhhət bulduqdan sonra Sitarənin, o olmazsa validəsinin nəzdinə[3] gedərək, əllərinə, ayaqlarına qapanaraq həyati-dərunumu göz yaşlarımla ərz etmək, yalvarmaq kimi vəsilələrlə[4] məramıma yetişmək xülyası ilə oraya getdim. Neçə saat pəncərələrinin önündə dolaşdım. Bir kəs görmədim. Nəhayət bir neçə kərrə qapının çınqırığını basdım. İxtiyar bir qadın çıxdı. "Kimi istəyirsiniz?" dedi. Xələcanlı və şaşalamış bir səslə: "Xanım qızı görmək istərdim" dedim. Qadın hiddətli bir nəzərlə məni süzdükdən sonra: "Evdə kimsə yox!" deyə başını çəkdi və qapını yenidən anaxtarlamaq[5] istərkən: "Onlar çoxdan getdilər" sözlərini daha əlavə etdi. Bu son cümlələr bir şəhabi-saqib[6] kimi üzərimə endi. Deyəcəyimi şaşırdım. Boğazımı tıqıyan bir hıçqırığı udduqdan sonra, boğunuq bir səslə: "Nereyə getdiklərini lütfən mənə demiş olasınız, çox məmnun olur-

[1] Müləvvən – rəngarən

[2] Səhabə – tək bulud

[3] Nəzdinə – yanına

[4] Vəsilə – vasitə, bəhanə

[5] Anaxtar – açar

[6] Şəhabi-saqib – sürətli axan şölə, şimşək

dum” dedim. Qarı qapının arxasında hiddətli bir səslə: “Nereyə getdiklərini mən də bilməm. Lakin, canım, siz bu zavallı qızdan nə istəyirsiniz? Artıq bəs olmadımı? Çapqın!” deyə qapını hiddətlə çırparaq getdi.

Ah, bəradər, hər zaman bu qapıdan xirmən-xirmən lütf və mərhəmət düşürürkən, indisə belə hiddət və təhqir nədən? Bu sözlər yalın bir qılınc kimi qəlbimə təsir etdi, durduğum yerdə mıxlı kimi qaldım. Qapı bir kərrə daha açıldı. Arasından mənə bir məktub yazadan əl çıxdı: “Alınız, bu məktub sizə yetişəcək, unutdum” dedi. Məktubu alar-almaz yenə də hiddətlə qapı anaxtarlandı. İldırım sürətilə konverti cırdım. Gözlərim tanıdığım bir xəttə düşdü. Çabuq məktubun imzasına baxdım: “Sizin əbədi əsiriniz Sitarə”. Ah, bilsəniz qəlbimdə nə qədər qüvvətli bir hiss duydum. Nə demək? “Bu qız yenə də məni sevirmiş” deyə hayqırdım. Məktubun məzmunu çox mətin olmaqla bərabər, çox qısa idi. İştə bəyeynə[1] yazıram: “Bəy əfəndi! Artıq sizi həmişəlik tərk etməyə məcbur idim. Lakin o faciəyi-müdhişədən sonra qəti surətdə qərar verdiyim əmr sizinlə bir daha görüşməmək şərtilə uzaq, çox uzaq bir ölkəyə getməyə qərar verdim. Neredə sakin olacağımı indi mən də bilməyirəm. Zira ola bilir ki, təxmin və təyin etdiyim məhəldən daha uzaq bir ölkəyə köçməyə məcbur olum. Qaranlıq sıxı-sıxı buludları qovalayan bir ruzigar kimi, məchul bir qüvvət də buradan məni qovalayır. Nereyə? Bilməm! Zatən buradan qaçmamın lüzumunu, mən hiss edirəm, əvət gedirəm, eşqimi, məhəbbətimi bu zavallı qadına fəda edərək bir daha qayıtmamaq şərtilə gedirəm. Lakin bəy əfəndi, ilk məhəbbətimiz, ilk görüşməmiz, sevişməmiz naminə rica edirəm, mən eşqimi bu zavallı qadına fəda etdiyim kimi, siz də fəda ediniz... Artıq məni unudunuz! Bir daha xatırlamamaq şərtilə unudunuz! Onunla birləşiniz, onu seviniz, onun qırmış olduğunuz qəlbini daima seviniz. Sevə-sevə yapdığı yuvanı yenidən təmir ediniz! Ah, Cavad, əyər sözlərimi tutacaq olsanız, bilsəniz, nə qədər məni özünüzə minnətdar buraxacaqsınız. Rica edirəm belə yapınız... Sitarə”.

Cavad

Ruhum, rəvanım, həmşirəm!

İndi məni neredə zənn edirsiniz? Dar, qaranlıq məzarda, qara torpaqlar altında, deyilmi? Hətta bürünmüş olduğum kəfənimi belə saral-

[1] Bəyenə – eyni ilə, olduğu kimi

mış, parçalanmış və əndamımı çürümüş torpaqlara qarışmış sanırsınız... Zənnimcə bir neçə kərə belə mənə acıyaraq, ağ kəfənlərə bürünmüş olduğum halda önünüzdə mücəssəm edərək hayqıra-hayqıra ağlamışsınız.

Xayır həmşirəm! Yenə də məcburi olaraq yaşayıram. Əvət, bu faciəyi-əlimədən sonra qərar verdiyim əmr özümü intihar etməkdən ibarət idi. Lakin həmşirəm, iqtidarımdan mafövq bir qüvvət məni qərarımdan vaz keçməyə məcbur etdi. O daha Cavadın məhəbbətindən ibarət olsa gərəkdir. Ah, mən bu adamı artıq görməyirəm, ismindən belə tənəffur[1] edərkən yenə də sevirəm. Qəlbimdə ona qarşı böyük bir eşq və məhəbbət hiss edirəm. Mən ondan ruhən, cismən qaçıb qurtulmaq istərkən, o məni daima kölgə kimi təqib edir.

Sizə məktub yazdığım günün axşamı idi. Çox dalğın, çox müdhiş idim. Validəm bu işdən çox darılmış olduğundan, odadan çıxmayırdı. İldırım vurmuş bir quş kimi kədərlənir, çırpınırdı. Xalam isə bir an gözdən buraxmayaraq, məni təqib edirdi. Zavallı qadın şiddəti-dəhşətimi anlayaraq yanıma oturdu. Dürlü-dürlü nəvazişlər, təltiflərlə könlümü almağa başlamışdı. Birdən-birə məni qolları arasına alaraq: "Qızım, kədərlənmə, gənclikdə belə işlər çox olur" dedi. Bu sözləri deyərkən mən çocuq kimi əllərimlə üzümü qapayaraq ağlayırdım. Xalam əllərimi üzümdən rədd etməyə çalışaraq: "Ağlama, qızım, nə üçün ağlayırsan? Bilirsən ki, mən sənin belə ağlamanı çəkə bilmərəm. Ah, yenə də ağlayacaqmısan? Bu gənci yenə də sevirmisən? Söyləsən a, quzum, yavrum. Bu adamda vicdan olmadığını bir kərrə düşün! Öz zövcəsinə mərhəmət etməyən bir adam, yarın[2] səni məsud edəcəyinə əminsən? Təəhhül əmrini bu qədər səhl sanma ki, şaşıram. Ah, bu ağlamanın ardı-arası kəsilməyəcəkmi?".

Zavallı qadın sapsarı kəsilərək, başını əlləri içinə aldıqdan sonra, birdən-birə yerindən qalxdı. Ayaqlarımı sıxı-sıxı qucaqlayaraq: "Quzum! Yavrum. Bu ayaqlarına qapanan bir ana qədər əmək verən, canı, ruhu qədər sevən ixtiyar qadına heçmi acımayacaqsan?" deyə şiddətlə hönkürərək ağlamağa başladı. Artıq dayana bilmədim. Bu zavallı qadının belə ağlayışından müdhiş kəsilərək, nə yapacağımı şaşırdım. Əsəblərim oynadığı, beynim dumanlandığı halda ayağa qalxdım,

[1] Tənəffür – nifrət

[2] Yarın – sabah

onu qucaqlayaraq hıçqıra-hıçqıra: “Xalacan, ağlama, mən də ağlamıram. Sizi sevindirəcək bir şeyə qərar verdim”. Zavallı qadın özünü toplayaraq: “Nədir qızım, çabuq söylə” deyə hayqırdı. “Xalacan, rica edirəm, məni bu əzabdan qurtarınız, Allahı sevərsiniz, qurtarınız” deyə bir dürlü özümü hifz edə bilməyərək ağladım. Xalam gözləri yaşlı olduğu halda: “Qızım mən nə yapa bilərəm? Çabuq söylə də, hər nə dilərsən yapım!” dedi.

– Məni buradan götürünüz.

– Nereyə?

– Nereyə olursa, uzaq, çox uzaq, hicra[1] bir guşəyə, heç olmazsa köyumüzə[2]...

– Çox gözəl qızım, zatən indi köyümüzün gözəl vaxtıdır. Bir az gec olmuş olsa da, yenə bir-iki ay qala bilərik.

– Yox xala, bir daha qayıtmamaq şərtilə gedəlim.

– Qızım!

– Nə deyəcəyinizi bilirəm. Heç bir üzrünüzü qəbul edə bilməyəcəyəm. Zira burada qalmaq qüvvəmdən xaric bir şey olduğunu bir kərrə düşününüz. Burada qalarsam mütləq özümü intihar edəcəym. Əgər mənim həyatımı təmin etmək istərsəniz, belə yapmalısınız, yoxsa!..

Zavallı qadın sallandı. Bir qədər tərəddüddən sonra: “Çox gözəl qızım, sən kədərlənmə, ananla bu gün qonuşaram, mütləq riza verəcək” deyə bir az daha məni dadlı dillərlə oxşadıqdan sonra qalxıb getdi.

Macəranı validəmə söyləmiş, zavallı qadın rizadan başqa çara bula bilməmişdi. Artıq dediyim kimi oldu.

İndi bir aydır köyümüzdəyəm. Əvvəlləri çox fəna keçirdi. Bir tərəfdən yalqızlıq, o biri tərəfdən də xəzanın həzin və dumanlı havası ələm və kədərimi bir qat daha artırırdı. Özümü məşğul etmək fikrilə götürdüyüm kitabları bir neçə kərrə oxudum. Lakin heç bir şey məni məhzuz[3] və məşğul etməyəcəyini anladım. Nəhayət bilirmisən nə yapdım? Köy qızlarını bir odaya toplayaraq dərs verirəm. İndilik müəllimlik kimi böyük bir vəzifəni daşımaqla xoşnudam. Ah, bilsəniz bu köy əhlinin halı nə qədər mənə kədərlərimi unutdurmuş. Minlərcə bu qaranlıq və cəhalətin təhlükəli uçurumuna doğru yuvarlanan zavallıların istiqbalını düşünürəm.

---

[1] Hicra – ayrılmış, uzaq

[2] Köy – kənd

[3] Məhzuz – məmnun

İndilik bu fikirlərlə bütün-bütünə məşğul olduğuma çox şadam. Lakin onu da unutmayıram. Sevda bir qurd kimi qəlbimi yeyir, soldurur, saraldır. Hətta bu günlərdə quru bir öskürər məni yaxalamış. Arabir, axşamları isidirəm də... Xudahafiz!

Sitarə

Qardaşım Ağa, qaşqabaqlı Ağa, bilik yayan oğluna! Az gəldim, üz gəldim dağlar aşdım, dərələr keçdim. Məngilis dedikləri cənnətin ən gözəl parçası olan yerə yetişdim. Yox, mən Məngilis səfərimi müfəssəl yazmağı sizə söz vermişdim. Elə isə başdan başlayım. İyun ayının 9-da saat 2-də haman gün əşyaları toplayıb Bakı stansiyasına getdim. Zor-güc ikinci klasa Tiflisə bilet buldum. Əşyalarımı götürüb bir kupeyə oturdum. Yoldaşlarım bir nəfər cavan əfsər, bir ixtiyar rus sahibmənsəblərindən, bir də cavan bir yəhudi idi. Hacıqabul stansiyasına qədər çox sıxıntılı keçdi. Arabir ixtiyar rus ki, olduqca xoşsima və şux bir zat idi, əfsər ilə şirin söhbətlər edib dadlı lətifələr söyləməklə bir qədər ruhumuzu oxşayırdı. Fikrim Hacıqabul stansiyasında bir çaynik qaynar su alıb içdikdən sonra yatmaq idi. Qatar dayandı. Hacıqabula çatmışdıq. Çayniki götürüb stansiyaya çıxar-çıxmaz əziz dostlarımdan birilə görüşdüm. Elə şirin söhbətə girişdik ki, bir də üçüncü zəng çalındığını gördüm. Məcburən hər ikimiz ayrılıb vaqona atıldıq. Kupeyə girincə ixtiyar çaynikimi boş görüb: "Aha, qaynar su bulmadın? Elə isə gəl mən səni bir stəkan çaya qonaq edim" və cavaba macal verməyərək pəncərənin önündəki kiçik masa üzərinə qoyduğum stəkanımı götürüb doldurdu. Mən izhari-təşəkkür edərək stəkanı aldım. İxtiyar mənim nereyə getdiyimi və kim olduğumu sordu. Mən də bildiyimi söylədim. Sonra İran və Osmanlıda hürriyyət uğrunda olan fədakarlıqlardan sözə başladı və İranın halına təəssüflər yağdırdı. Mən: "Qanuni-təbiətə görə hürriyyət məsələsi İranda baş qaldırması zənnimcə hənuz tez idi. Zira ki, camaat hazır deyil idi. Hürriyyət nə olduğunu anlamamışlardı" deyincə, qoca bir qədər sallandı, düşündü. Sonra kiçik gözlərini yumaraq, yaşlı və ağappaq başını sürətlə titrədərək dedi ki: "Yox, bu xüsusda mən sizinlə əsla həmfikir ola bilmərəm. Zira ki, hürriyyət heç bir zaman heç millət üçün gec və tez ola bilməz!" Sonra iri, ağ qaşları altındakı sönük və kiçik gözlərində, qalın dodaqlarında bir təbəssüm zahir olaraq əlavə etdi ki: "Əzizim, insanın bəxti gətirəndə hər kəs: "Bax, flankəs nə qoçaq və ağıllı adamdır", bəxt döndükdə hər kəs ondan üz döndərib: "Axmaqdır, nadandır" deyə onu tənqidə,

təhqirə başlarlar. Bax, uzağa getməyəlim, mənim bir qaynım var. Bir zaman onun əli də gətirirdi, ayağı da. Gözəl və mədaxilli qulluğu var idi. Var-dövlət dolu kimi üstünə tökülürdü. Hər zaman bizə gəldikdə bilməzdim ki, nə tövr ona hörmət edim ki, narazı qalmasın və özünü də çox-çox sevərdim. Mən o zaman ondan ağıllı, ondan sevimli və gözəl yoxdur deyərdim. Vaxt oldu ki, xidmətdən çıxarıldı. Qazandıqlarını yeyib qurtardı, başqa bir qulluq da olmadı. Labüd bizə pənah gətirdi. İndi tamam iki ildir ki, həm özünü, həm əyalını bəsləyirəm. İnanız ki, indi mənim nəzərimdə ondan alçaq, ondan axmaq təsəvvürə gətirə bilmirəm. Hətta mənimlə arabir söz söyləyəndə sözünü kəsib durmaq istəyirəm. Onun hər rəftarı, hər hərəkəti mənə naxoş gəlir. Bir zaman mən də qulluqsuz qalmışam. Qulluqsuzluğun, əliboşluğun acılığını lazımınca dadmışam. Odur ki, məcbur olaraq ona bir tövr xoş üz göstərirəm. Yoxsa onu heç görməyə gözüm yoxdur. Halbuki, bu haman adamdır ki, bir zaman onu gördükdə başım ayaqlarım altında itirdi. İndi nə oldu? Bəxti döndü, ulduzu söndü. Artıq bir şey yox. Bax, əyər İran hürriyyət aldıqdan sonra gündən-günə işləri tərəqqiyə başlasaydı, hər kəs: "Bah nə qoçaq və istedadlı xalqdır" deyə təriflərini göylərə çıxarmışlardı.

Mən çayımı içib qurtardım, amma qoca sözünü tamam etməmişdi ki, bir cavan qız kupemizin yanından içəri baxaraq: "Boş yer yoxmu?" deyə sordu. Cavan əfsər ki, o biri pəncərənin önündə durmuşdu, dərhal: "Xayır xanım əfəndi, boş yer yoxdur, lakin əyər layiq görsəniz, mən öz yerimi sizə verə bilərəm" dedi. Həm də bu sözləri elə ciddi söylədi ki, biçarə qız önündə kiçilərək incə və lətif bir səslə: "Bəs siz?" deyə bildi. "Mən hər yerdə özümə yer taparam. Biz hər bir soyuq-istini dadmış, qışın ən şiddətli günlərində çadırsız, komasız boz qarların üstündə gecələmiş adamlarıq. Buyurun, xanım əfəndi... Bax, bu mənim yerimdir, sizə təqdim edirəm" dedi. Qız daha məhcub bir tövr alaraq gül yanağı qədər nazik, incə dodaqlarından: "Mersi, çox razıyam" kəlmələrini o qədər dadlı bir şivə ilə axıtdı ki, əfsər o nazşivənin altında əzilərək az qaldı ki, əriyib mənim günümə düşsün, hətta qonşum qoca rusda da bir hissi-aşiqanə oyandı, gözlərində bir parlaqlıq, üzündə bir aydınlıq doğdu. Özünü bir az doğruldaraq: "Xanım qız, sizə bir stəkan çay təklif etmək olarmı?" deyə soyuq və köhnə canı ilə Yusif bazarına çıxmaq istədi[1]. Qız qaşlarını əyərək, do-

[1] Yusif rəvayətinə işarədir.

daqlarını bükərək nazik bir şivə ilə: “Mersi, mən bu dəqiqə çay içdim” deyə cavab verdi.

Gecə yarıdan keçmişdi. Qoca əşyalarını cəm edib yuxarı çıxıb şirin-şirin yatdı. Mənim üstümdə də cavan yəhudi çoxdan xornasını başlamışdı. Mən də yerimi hazırlayıb yatmağa amadə oldum. Amma unutma ki, mənimlə bu qarşıda haman qız yatacaqdı ha! Qız hənuz yatmayır, dışarıda o biri pəncərə önündə əfsərlə şirin söhbətə girişmişdi. Hətta bir neçə kərrə əfsər gedib yatmağı qıza təklif etdi. Qız cavabında: “Mənim yuxum gəlməyir əfəndim, yoxsa sizi rahatsız edirəm?” deyə cavab verincə, əfsər: “Xayır, xanım, mənim üçün çox xoşdur”; kəlmələri bir ildırım kimi qulaqlarımın ucunda partlayır. Nə isə, hər ikisi ta səhərədək yatmadı. Mənim də yatmadığımı zatən anlayacaqsınız. İzharə hacət yox. Qəhqəhə, fısıltılar ilə məni də rahatsız etdilər, əsəblərimi həyəcana gətirdilər. Mən isə qardaşım, nə yatdığımı bilirəm, nə yatmadığımı. Aman o gecədən!..

Tiflisə gəldik. Gecə bir oteldə keçindim. Səhər saat 9-da bilet alıb dilcana oturdum. Aman, o nə? Bir də yanıma on dörd, on beş illik bahar görmüş bir qız oturmasını gördüm. Bir kərrə üzünə baxdım. Ah, yarəb! O mavi gözlərin içində nə qüvvətlər yaranmış?! Bir maqnitizm kürəsi kimi insanı biixtiyar özünə tərəf çəkir. Hələ o sol tərəfindəki şişman və boynu biçimsiz bu qadın nə? Bu, pərimizin validəsimi? Heç inana bilmədim. Sıxı-sıxı başını bu qadının çiyninə dayayıb: “Mama”, – deyə səsləndikdən sonra anası olduğunu bildim. Bu da qərayib. Divdən pəri, şeytandan mələk doğduğunu görməmişdim, onu da öyrəndim. Düdək çalındı, dilcan yola düşdü. Yavaş-yavaş Tiflisin bitməz-tükənməz dağlarını dırmanmağa başladıq. Uca dağları, qorxulu mənzərələri göstərir və qüdrətin yaratdığı o gözəlliklərin o fövqəladəliyinə heyran olur kimi üzündə, gözündə bir heyrət nuru parlayır. Mən isə böyür-böyürə oturan təbiətin bitirdiyi bu canlı çiçəyin seyr və tamaşasına məftun olaraq, ustadının nə qədər sənətkar olduğuna afərinlər, təhsinlər və heyrətlər yağdırırdım.

Hələ sərin bir nəsim tək-tük qızıl tellərini üzümə, gözümə dağıdarkən ətri məni bütün-bütünə bihüş edir və ruhum içimdə ərir kimi oluram. Anası olduğunu hər kəlmə başı gez-tez “Mama” deyə səsləndiyindən bilirəm. Şişman arvad da elə uzun-uzadı deyir, gülür, söyləyir. O sıxı-sıxı anasının qoltuğuna qısılmış, analıq ətrindən zövq və nəşə alır və anasının sıcaq qanadları altında zövqiyab olurkən, mən də sıxı-sıxı bu mələkparəyə sığınıb onun qızlıq ətrini qoxuladıqca bütün-

bütünə məsti-cəram[2] oluram. Hələ sol böyrüm gözəl qıza o qədər soxulmuş ki, ürəyimin şiddətlə çırpıntısını hiss etdiyinə də şübhəm yox idi. Bu minval dadlı bir sükut içində...

Cavad

Rəmziyyəm!

Mən olduğum ev üç böyük otaqdan və bir eyvandan ibarətdir. Mərhum atamın zamanından qalmış köhnə və əski müxəlləfatdır. Balkonumuz ağaclı və sulu bir dərəyə baxır və önündə gözəl bir çiçək bağçası var. Xatırlayıram, o zaman mərhum pədərim bərhəyat idi. Yayı nə qədər gözəl çiçəklər əkmiş idi. Bənəfşə, yasəmən, mixək, qızıl güllərinin ətri odaları bürüyürdü. Hər səhər yerimdən qalxarkən bir dəstə çiçəklər dərib, anama gətirərdim. Səhərdən axşamadək bağçada haman güllər yaxud kələbəklər qovlamaqla keçirirdim. İndisə babam min zəhmətlə becərdiyi ağaclar, çiçəklər tamam quruyub məhv olmuşdur. İnan bağçaya baxdıqca ağlamağı gəlir. Ah, solmazmı, qurumazmı? Zatən mən də babamın ən ziyadə sevdiyi çiçəyi deyilmiyəm? Daima məni dizləri üzərinə alar, "canlı çiçəyim" deyə öpər, qucaqlardı. Ah, zavallı babam, bircə gözlərini aç da, canlı çiçək dediyin qızına bax! Necə solmuş, saralmış, artıq ayaqları məzara doğru titrəyir...

Balkona doğru yasəmən ağacları dırmaşmış... Bütün günlərimi haman balkonda keçirirəm. Zavallı anam isə məni sevindirmək, məni məşğul etmək üçün çox çalışır. Qonşu qızlarını və qadınlarını başıma cəm edir.. Çalırlar, oxuyurlar, oynayırlar. Heyhat!.. Bunlar mənim dərd, kədərimi unutdurmayır. Ən rahat vaxtım yalqızca, hər səhər, axşam bu balkonda yalqız oturub düşündüyüm saatlardır...

Günlərim çox uzun görünür. Günəş yaxır. Kitabsız, qəzetəsiz, cəmiyyətsiz yaşayıram... Yəqin ki, məhbəsə və mənfalara sürülənlər ilə də bu qism rəftar edirlər. Ah, mənim təqsirim nədir? Qəbahətim nədir?..

İki həftədən artıqdır ki, qızdırma içində yanıram. Payızın son günləri məni çox darıxdırmış. Günlər keçir, sovuq düşür, uzun-uzadı arası kəsilməyən incə yağışlar yağmağa başlamış. Ah, nə üçün mən cavan ömrümü bu dörd divar arasında keçirməyə məhkumam?..

Bu gün qəlbim çox sıxılmışdı. Babamın qərbinin ziyarətinə getdim. Nədənsə o məzar daşından ayrılmaq istəmirdim. Üzümü məzar daşına sövkəyib, hıçqırıqlarla ağladım...

---

[1] Cəram – məhəbbət, eşq

Şiddətli külək və boran qalxmış, iri damlalı yağmur pəncərəmizi qamçılayır. Qaranlıq gecə pəncərəmizdən baxır. Baxdıqca mənə dəhşət verir. Qəlbimdə qara fikirlər və dəhşətli düşüncələr oyadır. Gecələri yatmayıram, qorxulu röyalardan bağıra-bağıra qalxıram.

Bütün günlərimi otağımda yalqız keçirirəm. Bütün qışım bu qərar keçəcəkmi, yaxud bütün ömrüm? Saatlarca gözlərimi ucu-bucağı görünməyən ormana dikib baxıram. Bir ay əqdəm bütün yaşıllığı və gözəlliyi ilə ruhlarımızı açan ağaclar çılpaq və qəmgin nəzərlərlə durur. Qara və iri buludlar göy üzünü bürümüş. Günəş görünməyir. Ara-sıra yağış da yağır. Yalqızlıq, soyuqdur və həzindir. Buradan çıxmaq olmayır. Bu qism ilə yaşamaq da mümkün deyil. Yalqız burada ölməkdən başqa bir çarə yoxdur. Mən öləcəyimi hiss etmişəm. Röyamda babamı gördüm.

Yata bilmirəm. Şamı söndürüb qaranlıq fikirlər başımın kasəsində qara qarğalar kimi uçuşur. Gözəl və şad xatiratım söndü, məhv oldu. Buradan nereyə qaçım? Nereyə qaçırsam o qaranlıq mazi məni təqib edir, bir an rahat buraxmayır. Alaca[1] səhər pəncərədən üzünü göstərir. Dururam... Ah, istəyirəm ki, bir kərrə yenə Cavadın üzün görəydim, sonra öləydim...

Sitarə

Ciddi qardaşım!

Hər səhər erkən durur, çayımı içər-içməz evdən çıxıram, gətirdiyim kitablardan ən çox sevdiyimi özümlə bərabər alır və xəlvət, sakit, həm də şairanə bir guşə araram. On dörd, on beş bahar görmüş bir şam ağacının yaşıl kölgəsi altına uzanıram. Üstümə yaydığı gözəl qol-qanadları ilə oynayır, lətif və ruh oxşayıcı qoxusundan nəşələnir və ətək-ətək zövq və ləzzət düşürürəm. İncə, yaşıl yarpaqları o qədər xoşuma gəlir ki, saatlarca o incə yarpaqlara gözlərimi dikər, duraram. Birdən-birə bütün dünyadakı gözəllərin kirpikləri bu ağacda canlanmış kimi, sürü ilə üstümə hücum edər kimi görünür. Bu hal qəlbimin ən incə tellərinə toxunduğundan könlümün dərin guşələrində (eyb olmasın) bir para aşiqanə hisslər oyatmağa səbəb olur. Ah, bu yaşıl kirpiklərin nə qədər can alıcı, ruh verici olduğunu bilsəniz? İndi siz "yaşıl da kirpik olurmu? Nə qədər münasibətsiz təşbih" deyə yenə irad edəcəksiniz. Siz nə qədər tənqid edəcəksinizsə ediniz, belədir, kefinə bax. Bizim Məngilisin abu-havası, yeri, göyü yaşıl olduğu kimi, gözəl-

[1] Alaca – rəngarəng

lərinin üzləri qıpqırmızı, gül kimi və kiprikləri yamyaşıl yarpaq kimidir. Əyər inanmırsan, o sən, bu Məngilis. Gəl gözünlə gör. Xülasə, hər yer yaşıl, hər şey yaşıl, hətta usancdan yanaqları tərlər içində qalmış gözəl bir qız kimi, ağacların yarpaqlarında sallanan o günəşin al şəfəqlərinə qarşı parıl-parıl parlayan şəbnəmlər də yaşıldır. İndi "Bu qədər də mübaliğə olurmu?" deyə mənə darılacaqsan. İnan qardaşım, mübaliğə deyil, həqiqətdir. Hələ sonrası var, diqqət et! Arabir yaxın ağacların yaşıl yarpaqları arasında titrəyə-titrəyə yayılan qəhqəhələr, busələr, hətta qulaqlara çarpan o incə səslər də yaşıldır. Nə isə, on dörd, on beş bahar görmüş bu şam ağacı mənə hər bir şeyi yaşıl göstərdiyi üçün hər şeyin yaşıl olduğuna hökm edəcəyim gəlir. Sizin ki, fəlsəfəyə dair məlumatınız çox-çoxdur. İndi bunu siz nəyə məna edəcəksiniz isə orası sizin işiniz...

Fikircə romantizm məsləkini təqib etdiyim kimi, ləfz və mənaca dəxi demokratlıq tərəfdarıyam. Onun üçün də mənim əsərlərim ləfz, vəzn və qafiyə etibarı ilə zəngin ola bilməz. Mən ləfzi mənaya və qulağın ləzzətini ruha fəda etmək tərəfdarıyam. Mən, qardaşım, daima qırıq ürəklərdə, yırtıq libaslarda, uçuq, sökük daxmalarda dolaşıram, onların bütün dərd-kədərlərinə şərik olur kimi onlar ilə bərabər gülür, bərabər ağlaram. Aristokratlığı sevmədiyim üçün onlardan bəhs etməyi sevməm. Olsa belə azdır. Bu qırıq ürəklərin ünsiyyəti təsirindən qəlbimdə təbii qırıqlıq, ruhumda acı bir sönüklük kök saldığı üçün mən ziynətə, kəlmələrin, vəzn və qafiyələrin zahiri gözəlliyinə diqqət edə bilmərəm. Qardaşım, qəlbim qırıq olduğu kimi, kəlmələrim, vəzn və qafiyələrim də, təbii ki, qırıq olacaq. Məşhur fars şüərasından Qaaninin tar, rübab şeri və ahəngi digərlə təhziz[1] etmiş həzin, mütəntən[2], mütərra[3], ahəngdar nəğmələr icad edər şeri musiqi ilə məzc[4] edir.

Sevgili qardaşım! Şirin məktubunu hənuz Məngilisdə ikən aldım. Vaqon olmayıb, əlli nəfər şagird ilə Dilcanda qaldığınızı yazmışdınız. Ziyadəsincə müntəzir və pərişan oldumsa da, sonra bir neçə gün keçmədi ki, vaqonların açıldığını qəzetədə oxuyub xatircəm oldum. Ümidvaram ki, sağ-səlamət bu vaxtadək İrəvana yetişmişsiniz...

Cavad
1905

---

[1] Təhziz – titrəmə
[2] Mütəntən – təntənəli, dəbdəbəli
[3] Mütərra – təzə, təravətli
[4] Məzc – qarışma

KİTABDAKILAR

Ön söz 4

HEKAYƏLƏR

Məktub yetişmədi 29
Köç 34
Daşqın 55
Göbələk 58
Pirin kəraməti 64
Ağlaşma 70
Dəyərli bir xatirə 73
İblisin hüzurunda 77
Anabacı 81
Vəzifə 86
Özü bilsin, mənə nə! 98
Solmaz və sönməz 111
Hitlerin yuxusu 114
Baş üstə 116
Masama 119

POVEST

Xasay 123

ROMANLAR

Əsrimizin qəhrəmanları 169
Dursun 268
Araz 289
İki müztərib yaxud əzab və vicdan 464

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Mübariz Piriyev*

Kompyuter səhifələyicisi: *Allahverdi Kərimov*

Korrektorları: *Şəbnəm Məmmədova*
Rəhilə Quliyeva

Yığılmağa verilmişdir 04.08.2004. Çapa imzalanmışdır 16.02.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 31. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 28.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.